VAQİF ARZUMANLI
XOŞQƏDƏM BAXŞƏLİYEVA

# TÜRK DÜNYASI və "BÖYÜK ERMƏNİSTAN" xülyası

Azərbaycan Milli Kitabxanası

T3(5)
A92

*Vaqif Arzumanlı*
*Xoşqədəm Baxşəliyeva*

254446

# TÜRK DÜNYASI
# və
# "BÖYÜK ERMƏNİSTAN"
# x ü l y a s ı

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

**Bakı 2008**

Azərbaycan Milli Kitabxanası

**Elmi redaktor: Musa Qasımlı,
tarix elmləri doktoru, professor**

*Arzumanlı Vaqif Minad oğlu,
Baxşəliyeva Xoşqədəm Hidayət qızı
Türk dünyası və "Böyük Ermənistan" xülyası*

**Bakı "CBS", mətbəəsi, 2008, 240 səh.**

Ermənilər əsrlər boyu türk torpaqlarının hesabına bəzən Türkiyədə, bəzən də Qafqazda "Böyük Ermənistan" dövləti yaratmaq iddiasına düşüblər. Bunun üçün onlar bütün imkan və vasitələrlə öz siyasətlərini həyata keçirməyə cəhd göstərib və göstərirlər.

Bu kitabda günümüzə qədər yazılmış bir çox əsərlərdən, tarixi faktlardan, arxiv sənədlərindən istifadə etməklə müəlliflər zaman-zaman ermənilərin türklərə qarşı yönəltdiyi məkrli planlarını, təcavüzlərini diqqətə çatdırırlar.

**A 4702080105 / 044-2008 2008. Qrifli nəşr**

© Vaqif Arzumanlı, Xoşqədəm Baxşəliyeva, Bakı 2008

Azərbaycan Milli Kitabxanası



## *ÖN SÖZ*

Ermenilerin son yıllarda artan biçimde Türkiye'yi hedef alan ve iyi komşuluk ile bağdaştırılması mümkün olmayan 1915 olayları hakkındaki iddialarına karşı yazılan bir kitap için önsöz yazmaktan memnun oldum. Öncelikle, kitabın yazarlarını büyük emek harcanmasını da gerektiren bu cesur girişimlerinden dolayı kutlamak istiyorum. Tarih, ancak bilimsel yöntemlerle ve tarihçilerin önyargısız araştırmaları sonucunda açıklığa kavuşabilir. Böyle bir yöntem izlenmediği takdirde,yanlış yönlendirme, gerçek dışı belgelere dayalı tahrifler ve tarihin çarpıtılması ile yeni nesillerin geçmiş hakkında yanıltıcı bilgilere sahip olmaları kaçınılmaz olacaktır. Buna izin verilmemesi gerekir. Türkiye bu konuda gerekli duyarlılığı göstermiş,tarih ile ilgili arşivlerini dünyaya açmış ve tarihi olaylar hakkında bir çalışma yapılabilmesi için Ermenistan'a Ortak Tarih Komisyonu kurulması önerisinde bulunmuştur.

Ancak, Ermenistan'ın bu olaylara yaklaşımının Türkiye'ninkinden farklı olduğu görülmektedir. Ermenistan yöneticileri, üçüncü ülkelerde Türkiye aleyhinde kararlar alınmasını destekleyen bir politika izlemeyi tercih etmektedirler. Bu tutum ve politika karşısında, tarihi gerçeklerin ortaya çıkması için daha çok çalışılması,daha ciddi inceleme ve araştırmaların yapılması ve bunların dünyaya sunulması gerekmektedir.

Ermenistan'ın bu tutum ve politikası, bölgeye kalıcı bir barışın gelmesini ve bölgenin gelişmesini de büyük ölçüde engellemektedir.

Hoshgedem Bahsheliyeva ve profesor Vaqif Arzumanlının çalışmasını bu açıdan değerlendirmek gerekir. Bu kitabı, Ermeni görüşlerine karşı görüşlerin de ortaya konulması için atılmış bir adım olarak görüyor ve takdir ediyorum. Bu tür girişim ve yayınlar devam etmelidir. Sivil toplum örgütleri, siyasiler, basın yayın kuruluşları, akademisyenler ve kamuoyu önderleri, gerçeklerin ortaya çıkması için daha çok çaba harcamak zorundadırlar. Bunun gibi daha çok kitap yazılmalı,filmler yapılmalı, konferanslar düzenlenmeli ve dünya kamuoyu aydınlatılmalıdır. Bu, bir sabır ve emek işidir. Bu çaba gösterilmeden, emek harcanmadan gerçekler ortaya konulamaz. Bu kitab'ın yazarları-

nın Azerbaycan'lı olması ise beni ayrıca duygulandırıyor. Yakın geçmişte Ermanistan ile bir savaş yaşamış olan,binlerce vatandaşını kaybetmiş,bir milyondan fazla vatandaşı kaçkın ve göçkün durumuna düşmüş, toprağının yüzde 20 si işgal altında olan kardeş Azerbaycan, Türkiye'nin suçlanmasından duyduğu rahatsızlığı da en iyi anlayan ülkedir. Bu kitabın genç nesillere tarihi olaylar hakkında ışık tutacağını düşünüyor, benzeri yeni çalışmalar için de esin kaynağı olacağına inanıyorum.

**Hikmet Çetin**
**Ankara, Şubat 2008**





## *Müəlliflərdən*

Əziz oxucu, əlinizə alacağınız bu kitab kimi millətimizin qarşılaşdığı faciələri əks etdirən onlarla kitab dərc edilib. Və bu əsərlərin demək olar ki, hamısında eyni məqsəd ortaya qoyulub. Yəni türklərə qarşı zaman-zaman ermənilər tərəfindən törədilən vəhşiliklər eyni zamanda bu millətin "Böyük Ermənistan" yaratmaq üçün hər cür biyləyə əl atmaları diqqətə çatdırılıb. Deyə bilmərik ki, biz nə dərəcədə bu yazılanlardan, deyilənlərdən nəticə çıxarmışıq. Çünki biz olduqca humanist, barışçı bir millətik. Pislikləri, xəyanətləri tez bağışlayırıq. Bəlkə də bunun nəticəsidir ki, hələ də torpaq itirə-itirə gəlirik. Görkəmli türk araşdırıcısı M.Sədi Koçaş çox doğru olaraq yazır ki, "ermənilər öz yaltaqlıq, xidmətçilik, riyakarlıq və bir sıra başqa mənfi, hiyləgər xüsusiyyətlərilə özlərini yaşadıqları ölkədə müsbət insanlar kimi göstərə bilmiş, müxtəlif yollarla dövlət idarələrində, orduda, siyasətdə və xüsusilə ticarətdə yüksək vəzifələrə yiyələnmişlər. Bu məqsəd üçün onlar heç bir vasitədən, hətta insanı alçaldan mənfur əməllərdən belə istifadə etməkdən çəkinməmişlər.

Ermənilər tarix boyu heç bir vaxt davamlı və müstəqil dövlətə malik olmamış, lakin özlərinə xas xüsusiyyətləri vasitəsilə bağlı olduqları dövlətin dəyərli bir hissəsi halında öz varlıqlarını saxlaya bilmişlər".[1]

Bu faktdır.

Oxuculara təqdim olunan hazırkı kitab ermənilərin son iki yüz il ərzində həyata keçirdikləri bəd əməllər, törətdikləri vəhşiliklər, düşündükləri xam xəyallar barədə tarixin, bütünlüklə erməni-türk münasibətlərinin ayrı-ayrı səhifələrini bir daha vərəqləmək, xatırlamaq məqsədilə yazılmışdır. Əsas məqsəd dünya ictimaiyyətinə, türklərə qarşı törədilmiş erməni vəhşiliyini bir daha xatırlatmaqdır. Çünki nəinki keçmiş zamanlarda, hətta indinin özündə də erməniləri, onların təcavüzkar siyasətini, bəd əməllərini müdafiə edənlər, hər şeyi görə-görə, həqiqəti etiraf etmək əvəzinə, ermənilərə və Ermənistan Respublikasına haqq qazandırmağa çalışan dövlət xadimləri, siyasətçilər, dövlətlər var. Bu faktları, olayları bir daha xatırlatmaqla biz yaşadığımız o qanlı olayları, faciələri dərk etməyən ermənipərəst qüv-



Azərbaycan Milli Kitabxanası

vələrin diqqətinə çatdırmaq istədik ki, əziyyət çəkən, soyqırıma məruz qalan, torpağını itirən ermənilər yox, türklərdir. Qoy onlar bilsinlər ki, tarix boyu ermənilər türk millətinə nə qədər böyük ziyanlar vurublar, onların məkrli siyasətlərindən Türkiyədə və Azərbaycanda nə qədər faciələr baş verib. Həm Türkiyədə, həm də Azərbaycanda öz torpaqlarında ermənilərə sığınacaq verən Osmanlı türkləri və Azərbaycan türkləri bunun əvəzində bütün dövrlərdə ermənilərdən yaxşılıq, minnətdarlıq əvəzinə onlardan yalnız pislik, xəyanət, vəhşilik görüblər. Yuxarıda qeyd etdiyimiz kimi, günümüzə qədər bu mövzuda müxtəlif dillərdə yazılmış və işıq üzü görmüş nəşrlərdən bəhrələnərək biz ilk növbədə, arxiv materiallarına, həmçinin memuar ədəbiyyatına dair mənbələrə istinad etməyə üstünlük vermişik.

Bizcə imkanı olan, gücü yetən hər kəs milli mücadilə üçün zərrə qədər də olsa öz töhfəsini verməlidir. Vətən, millət qarşısında vətəndaşlıq borcunu yerinə yetirməlidir. Biz bunu etmək istəmişik. Bu kitabla buna nə qədər nail olmuşuq, onu siz oxucular deyə bilərsiniz.





# I FƏSİL

# TÜRKİYƏ VƏ ERMƏNİLƏR

## *§ 1. XIX əsrdə Türkiyədə erməni məsələsi*

1912-ci ildə ABŞ-da çıxan "Hayrenek" məcmuəsində Şahan Natan adlı erməni terrorçusunun ("Daşnaksütyun" partiyasının üzvü) çap etdirdiyi "Türklər və biz" əsərində belə bir qeyd var: "Ermənінin türkdən başqa düşməni yoxdur. İntiqamçı olmağı, türkdən intiqam almağı Tanrı özü buyurub erməniyə".

Bu həmin Şahan Natan idi ki, onun təklifi ilə 23 yaşlı Sağamon Tehleqyan 1921-ci il martın 15-də Berlində küçədə görkəmli sərkərdə Tələt paşanı qətlə yetirmişdi.

Bu həmin Şahan Natan idi ki, ermənilər onu 1924-cü ildə "Daşnaksütyun"un Parisdə keçirilən qurultayında millətçi təşkilatın büro üzvü seçmişdilər.

Ermənilərin Türkiyədə və Azərbaycanda, eləcə də bəzi Avropa və Asiya ölkələrində qətlə yetirdikləri türk və Azərbaycan diplomatlarının siyahısına diqqət yetirdikdə bütün bu hadisələri dəhşətlə xatırlamalı olursan.

Tehranda erməni dilində çıxan "Araks" jurnalı yazırdı ki: "Misak Terlakyan 1921-ci il iyulun 18-də Azərbaycanın sabiq daxili işlər naziri Behbudxan Cavanşiri İstanbulda qətlə yetirdi. Aram Yerqanyan 1920-ci ildə Tiflisdə Xan Xoyskinin ömrünə son qoydu. Zareh Melik-Şahnezəryan (Arsaxlı) 1922-ci il aprelin 25-də Tiflisdə Camal paşanı qanına qəltan elədi. Həmin ildə Türküstanda Ənvər paşa bir erməni əsgəri tərəfindən öldürüldü... (sitat tarixçi alim İsrafil Məmmədovun "Tariximiz, torpağımız taleyimiz" kitabından götürülmüşdür).

Bu qəbildən olan faktlar yüzlərlədir, minlərlədir. Məsələn, Camal paşanı vaxtilə Rusiyanın agenti Serqo Lavadze öldürmüşdü. O zaman Sovet hökuməti bu qətli "Daşnaksütyun" partiyasının üstünə yazmışdı (Qasımlı M. Azərbaycan türkçəsinin milli mücadilə tarixi. 1920-1945. İstanbul, 2005, s. 181-188). Ermənilərin Türkiyənin və Azər-

Azərbaycan Milli Kitabxanası

baycanın dövlət xadimlərinə, diplomatlarına qarşı törətdikləri qətl və terrorların siyahısına diqqət yetirərkən istər-istəməz ermənilərin özlərini dünyaya "əzabkeş xalq" kimi təqdim etmələrinə təəccüblənirsən. Görəsən, ermənilər əsrlər boyu özlərinin törətdikləri cinayət və bəd əməllərinə görə vicdan əzabı çəkirlərmi???

Bütün dövrlərdə ermənilərin özlərini daha çox sərbəst hiss etdikləri ölkə Türkiyə olmuşdur. Dövlət və idarəçilik işlərində ermənilərin daha çox çalışdıqları ölkə də Türkiyə olmuşdur. Erməni dilinin, ədəbiyyatının və mədəniyyətinin inkişafı üçün də ən münbit şərait Türkiyədə yaradılmışdır. Bəlkə də elə buna görədir ki, tarixdə erməni üsyanları adı altında ermənilərin ən çox iğtişaş yaratdıqları ölkə də elə Türkiyədir. Bir vaxtlar çar Rusiyası Yaxın və Orta Şərqlə, xüsusən Türkiyə ilə bağlı "Şərq məsələsi" adlı problem yaratmışdı. Sonradan bu məsələ Türkiyədəki ermənilərin satqınlığı və vasitəçiliyi ilə bəzi dəyişikliklər aparılmaqla "erməni məsələsi" kimi təbliğ olunmağa başladı.

"Erməni məsələsi"nin müəllifləri və onların davamçıları xüsusilə 1960-cı ildən üzü bəri bir sıra böyük dövlətlərin təhriki və yardımı sayəsində hər yola, üsula, şantaja, terrora, qəsbkarlığa əl atıblar.

I Dünya müharibəsi sona çatarkən "erməni məsələsi" o qədər aktuallaşdı ki, bəzi böyük dövlətlər öz aralarında az qala böhran vəziyyəti yaratmış bu qalmaqaldan çox böyük çətinliklə yaxa qurtara bildilər. Tarixi faktlar göstərir ki, "erməni məsələsi"ni yaratmış bəzi xarici dövlətlər (ilk növbədə Rusiya) əslində, Türkiyəni daxildən parçalamaq, Türkiyə ərazisində Ermənistan dövləti yaratmaq məqsədi güdmüşlər. Din xadimlərinin təhriki ilə hələ 1892-ci ildə ermənilər Türkiyənin bəzi ərazilərinə qarşı iddia qaldıraraq Ermənistan dövlətinin yaradılmasını və bu torpaqların müstəqil Ermənistan dövləti kimi Rusiyaya birləşdirilməsi niyyəti ilə Rusiya çarına müraciət qəbul etdilər. Bu məsələdə erməni millətçilərinə ayrı-ayrı milli komitə və cəmiyyətlərin vədlərinin, maddi və mənəvi yardımlarının da rolu böyük idi.

"Araks" jurnalı son saylarının birində yazır: "Osmanlı imperiyasının şovinist varisi olan Türkiyənin darmadağın ediləcəyinə inanmaq, Qərbi Ermənistan torpaqları uğrunda davanı sonadək davam etdirmək xaricdə yaşayan hər bir erməninin müqəddəs vəzifəsi və həyatının





başlıca mənası olmalıdır".

"Erməni məsələsi" ilə bağlı tanınmış rus araşdırıcısı N.N.Şavrov bildirirdi ki, bu məsələ təkcə Türkiyəyə, türklərə və müsəlmanlara qarşı deyil, eyni zamanda Rusiya və Qafqaz üçün də təhlükəlidir. Ermənilərin terrorçuluq, təcavüzkarlıq planlarının mahiyyətini çox doğru hiss edən N.N.Şavrov öz kitabının adını təsadüfi deyil ki, "Zaqafqaziyada rus işinə yeni təhlükə" adlandırıb. Bu, erməni təhlükəsidir. Müəllif çar Rusiyasının Zaqafqaziyada apardığı müstəmləkəçilik siyasətini böyük təhlükə hesab etmişdir. O, bu kitabın müxtəlif səhifələrində ermənilərin əsl simasını açıb göstərir, öz müşahidələrini əsas tutaraq onların fəaliyyətlərini ifşa edir".[1]

N.N.Şavrov kitabında ermənilərin xislətinin, bəd əməllərinin iç üzünü aşkarlayır, onların məkrli niyyətlərinin mahiyyətini açıqlayır. Həm də bütün bunları pisləyən müəllif yazır: "Ermənilər türklərin hərəkətlərini hər cür vəhşilik adlandırsalar da, deməliyik ki, Türkiyənin müxtəlif şəhərlərində ermənilərin və müsəlmanların bizə məlum olan toqquşmaları belə bir fikir söyləməyə haqq verir ki, baş vermiş qanlı hadisələr hər yerdə məhz ermənilərin özlərinin təşəbbüsləri sayəsində həyata keçirilmişdir. Məhz, iki türk generalı - Bağrı paşa və Həmid paşa şəhərin küçələrində yaralandıqdan sonra Trapezund qırğınları başladı.

Ermənilər nə vaxt öz köhnə fəaliyyətlərini davam etdirərlərsə, yəni erməni məsələsi ilə bağlı öz səslərini çıxararlarsa, elə həmin gündən ermənilərin bədbəxtliyi başlayacaqdır.

...Mənim əlimdə sübutlar var ki, ermənilər çox soyuqqanlıqla silahsız, günahsız müsəlmanları necə öldürmüşlər. Halbuki müsəlmanlar onların yanına ehtiyatla yanaşmışdılar".[2]

1853-1856-cı illər Krım müharibəsində uduzan Rusiya xeyli hazırlıq işlərindən sonra itirdiyi torpaqları geri qaytarmaq məqsədilə 1877-ci ildə Türkiyəyə müharibə elan etdi. 10 ay sürən müharibədə Türkiyə uduzdu. Ermənilər bu məqamdan məharətlə istifadə etmək qərarına gəldilər. "Konstantinopolda təşkil olunmuş erməni Milli Məclisi ayrıca bir proqram layihəsini gizlincə imperator II Aleksandra, Kansler Qorçakova, Türkiyə ilə danışıqlar aparan nümayəndə heyətinə çatdırmışdı. Proqramın I maddəsi Medz Haykın bütövlükdə Türkiyədən ayrılaraq "Şərqi Ermənistan"a birləşdirilməsini tələb edirdi. II maddə



Azərbaycan Milli Kitabxanası

Balkan xalqlarına verilən imtiyazların "Birləşmiş Ermənistan"a şamil edilməsini nəzərdə tuturdu. Proqramın üçüncü maddəsində deyilirdi ki, işdi rus qoşunları zəbt etdikləri Osmanlı torpaqlarından geri çəkilib getməli olsalar, Qərbi Ermənistanda elə islahatlar keçirilməlidir ki, polisin əksəriyyəti ermənilərdən olsun, ermənilərə ağıllı-başlı hərbi təhsil versin, kürdlərlə çərkəzlər ermənilər yaşayan əraziləri ya tərk etsinlər və ya dağlardan enərək şəhər və kəndlərdə məskunlaşsınlar, valilər və qəza rəisləri ermənilərdən olsun. Yalnız bu islahatlar keçiriləndən sonra rus qoşunu Türkiyədən çəkilib getsin.

Erməni Milli Məclisinin, erməni patriarxlığının təqdim etdikləri təkliflər bunlar idi:

1. Qərbi Ermənistan Şərqi Ermənistanla birləşdirilsin.
2. Müstəqil Ermənistan daim Rusiyanın himayəsində qalsın.
3. "Qərbi Ermənistan" Türkiyənin tərkibində qalmalı olan təqdirdə rus qoşunları islahatlar keçirilənədək buradan getməsin.

Erməni Milli Məclisi və erməni patriarxlığı da şəhərin bütün erməni icmasını ayağa qaldıraraq erməni məsələsinin yeni başlanılacaq sülh müqaviləsinə daxil edilməsi uğrunda mübarizəyə girişmişdi. Patriarxlığın və Milli Məclisin məxfi sənədlərini Rusiya nümayəndələrinə çatdırmaq üçün yollar axtarıb tapdılar".[3]

Ermənilərin II Aleksandra göndərdikləri məxfi məktubda belə bir məsələ xüsusi olaraq vurğulanırdı: "Şərq xristianları olan biz ermənilər də Qərb xristianları kimi Rusiyanın köməyi sayəsində müstəqillik əldə etmək istəyirik. Xahişimiz, istəyimiz budur".

Tanınmış tarixçi alim İsrafil Məmmədov haqqında bəhs olunan məktubun mahiyyətindən danışarkən bildirir ki, "Məhz bu məktubda birinci dəfə erməni məsələsi erməni məhkəməsi (hoy dat) kimi təqdim və ifadə olunmuşdu".[4]

Rusiya tərəfi ermənilərin xahişini nəzərə alaraq, danışıqlar zamanı "erməni məsələsi"nə toxunur. Bununla da 1856-cı ildə Paris Sülh Konfransında ilk dəfə "erməni məsələsi" beynəlxalq müzakirə mövzusuna çevrilir.

Ermənilərin təhriki və rusların himayədarlığı ilə "erməni məsələsi" 1878-ci ildə keçirilən Berlin Konqresində də müzakirə edildi. Xeyli fəallaşan ermənilər 1878-1896-cı illərdə Türkiyə ərazisində bir neçə dəfə qiyamlar qaldırırlar.





"Erməni məsələsi"nin mahiyyətini daha dərindən açıqlayan tarixçi alim V.Quko-Kryajin 1926-cı ildə nəşr olunmuş Böyük Sovet Ensiklopediyasındakı məqaləsində yazır: "Erməni məsələsi" Şərq məsələsi adlandırılan məsələnin bir hissəsidir və ona iki nöqteyi-nəzərdən baxılmalıdır. Zahiri mahiyyət: böyük dövlətlər Türkiyəni daha asanlıqla istismar etməkdən ötrü onun mərkəzdənqaçma qüvvələrini gücləndirməyə, beləliklə, ölkəni zəiflətməyə çalışırdılar. Daxili mahiyyət: öz burjuaziyasının rəhbərliyi altında ermənilər milli müqəddəratın müstəqil təyin edilməsi uğrunda, elə siyasi-iqtisadi amillər əldə olunması uğrunda mübarizə apardılar ki, bu amillərin təsiri altında burjuaziya sərbəst inkişaf edə bilsin.

...Berlin Konqresinin qərarları erməni burjuaziyasının rəhbər dairələrində milli erməni dövlətinin yaradılması uğrunda mübarizədə kömək göstəriləcəyinə ümid doğurdu - həm də təkcə Rusiya tərəfindən deyil, bütün böyük dövlətlər tərəfindən. Bu xam xəyal ermənilərə "dənizdən dənizədək" (Qara dənizdən Aralıq dənizinədək) "Böyük Ermənistan" boyun olmuş İngiltərə diplomatiyası tərəfindən möhkəm qızışdırılırdı.

...İngiltərə çar Rusiyasının Türkiyə ermənilərinə bel bağlamaq niyyətini puça çıxarıb erməniləri Türkiyə hökumətinin ixtiyarına buraxdı. Türkiyə hökuməti isə böyük dövlətlərin mürəkkəb oyununda ermənilərin oynaya biləcəkləri rolu düzgün qiymətləndirdi. Sultan Əbdülhəmid bu təhlükəni aradan qaldırmağın ən sadə və ən dəqiq yolunu qısa kəlamla ifadə etdi: "Erməni məsələsini ermənilərin axırına çıxmaqla həll etmək olar".

Böyük dövlətlərdən kömək almaq ümidini itirən və arzuladığı kimi, "Böyük Ermənistan"ın bazisinə çevriləcək kəndli kütlələrin fiziki cəhətdən qırılması faktı qarşısında qalan erməni burjuaziyası hökumət terroruna qarşı silahlı mübarizəyə keçdi. Rusiya Zaqafqaziyasında məskən salan Hnçak və "Daşnaksütyun" partiyası yaradıldı və onlar Türkiyəyə təbliğatçılar və təşviqatçılar göndərdilər, üsyançı dəstələri təşkil etdilər. Bu dəstələrin çıxışlarında məqsəd real döyüş qələbələri deyildi (Türkiyə hökuməti ilə mübarizədə qalib gəlmək üçün ermənilərin qüvvəsi açıq-aydın çatışmırdı), daha çox böyük dövlətlərin diqqətini cəlb etməyə çalışırdılar ki, onlar mücadiləyə və Berlin traktatının 61-ci maddəsində göstərilən öhdəlikləri yerinə yetirməyə



Azərbaycan Milli Kitabxanası

cəlb olunsunlar - Türkiyə də, Qərbi Avropa dövlətləri də həmin maddəni eyni dərəcədə unutmuşdular".[5]

Ermənilərin havadarları içərisində rus generalı Nikolay Pavloviç İqnatyevin ermənipərəst mövqeyi xüsusilə seçilir. N.P.İqnatyev 1864-1876-cı illərdə Rusiyanın Türkiyədə səfiri olub. Həmişə də ermənipərəst hərəkətləri və təklifləri ilə Türkiyəyə arxadan zərbə vuranlara havadarlıq edib. Ən başlıcası isə N.P.İqnatyevin Türkiyə ərazisində ermənilərə muxtariyyət verilməsi uğrunda çalışması olub və rus generalı və səfiri qismən də olsa, ermənilərlə bağlı düşündüklərini kağız üzərinə köçürə bilib. Belə ki, "1877-ci ildə Rusiya Türkiyəyə hücum edəndə Türkiyə dünyada tək qalmışdı. Hərbin sonunda rus orduları İstanbulun kənar məhəlləsi Ayastefanosa (bugünkü Yeşilköy) qədər gəldilər. Hərbin memarı İqnatyev olduğu kimi imzalanan Ayastefanos Müqaviləsinin memarı yenə də özü oldu. O, müqavilə masasında rus hökumətini təmsil edirdi. Bu rus generalı Ayastefanos Müqaviləsinin 16-cı maddəsinə muxtar bir Ermənistan qurmaq məsələsini saldı. Bununla erməni məsələsi tarix səhnəsinə çıxmış oldu. Berlin konfransının 61-ci maddəsində "Muxtar Ermənistan" qurulmasının memarı da İqnatyev idi". (Elşən Mirişli. Qarabağ savaşı haradan başlayır? - "Türküstan", 9-15 sentyabp 2007-ci il).

Beləliklə, "XIX əsrin sonu, XX əsrin əvvəllərində "erməni məsələsi" yeni mənada səslənməyə başlamışdı. Türkiyəni parçalayıb bölüşdürmək istəyənlər də, Türkiyədə müstəqil erməni dövləti qurmağa can atanlar da "erməni məslesi"ndən "açıq qapı", "ehtiyatda saxlanılan xammal" kimi istifadə etməyə başlamışdılar. Erməni dövləti, erməni padşahlığı uğrunda durmadan genişlənməkdə olan millətçi, separatçı hərəkatı təkcə Türkiyə məkanı ilə məhdudlaşa bilməzdi".[6]

"Erməni məsələsi" I Dünya Müharibəsinə qədərki mərhələdə, eləcə də həmin müharibə illərində, daha sonra 1917-1918-ci illərdə daha intensiv şəkildə bir sıra beynəlxalq konfrans və görüşlərin müzakirə mövzusu oldu.





## § 2. XIX ƏSRİN AXIRLARINDA YARADILMIŞ ERMƏNİ TƏŞKİLATLARI VƏ ONLARIN TÜRKİYƏ VƏ AZƏRBAYCANLA BAĞLI TƏCAVÜZKAR PLANLARI

Hələ 1830-cu ildə Türkiyədə (o vaxtki Osmanlı dövlətində) ermənilərə müstəqil camaat hüququ verilmişdi. Sonralar uzun müddət Türkiyədə katolik ermənilərlə protestant ermənilər arasında həm dini, həm də idarəetmə hüququ məsələlərində çoxlu sayda narazılıqlar, toqquşmalar olmuşdur.

Tarixi mənbələr sübut edir ki, protestant ermənilərlə qriqoryan ermənilər arasında mübarizə və qarşıdurma təxminən 50 ilə qədər davam etmişdir. Hələ 1846-cı ildə protestant ermənilər kilsədən xaric olunsalar da, onlar ABŞ, Almaniya və İngiltərə dövlətlərinin vasitəçiliyi ilə bir il sonra Türkiyədə ayrıca bir cəmiyyət kimi tanınır.

XIX əsrin 60-70-ci illərindən başlayaraq Türkiyədə ermənilər bir-birinin dalınca iyirmiyə qədər milli təşkilat və cəmiyyət yaratmağa nail olmuşlar. Belə komitə və təşkilatlar sırasında "Qaraxaç cəmiyyəti", "Ararat" (Van), "Kilikiya" (Muş), "Silahlılar cəmiyyəti" (Ərzurum), "Erməni vətənpərvərlər cəmiyyəti, "SANT-İldırım" (İstanbul) xüsusilə həm mühafizəkar, həm də üsyankar ideya və planları ilə fərqlənirdilər.

XIX əsrin sonlarına doğru ermənilərin təşkilatlanma dalğası Qafqaza doğru istiqamət aldı. Xüsusən, Tiflisdə və Gürcüstanın digər ərazilərində yaşayan ermənilər zaman keçdikcə xeyli fəallaşmağa başladılar ki, nəticədə onların yaratdıqları bəzi dərnək və cəmiyyətlər həm Türkiyədə, həm də Qafqazda yaşayan ermənilərin çoxunu öz sıralarında birləşdirməyə nail oldular.

Türkiyədə, Qafqazda və bəzi Avropa ölkələrində yaradılmış erməni təşkilatları və cəmiyyətləri tədricən ermənilərin fəallaşmasına köməklik göstərir, türklərə qarşı mübarizədə mütəşəkkiliyi daha da artırırdı.

Ermənilərin milli təşkilat və komitələrinin yaranmasında erməni kilsəsinin, ayrı-ayrı din xadimlərinin xüsusi əməyi olmuşdur. Bir qayda olaraq ermənilər öz kilsə və ibadət yerlərində xristian-müsəl-



Azərbaycan Milli Kitabxanası

man düşmənçiliyi ideyalarının təbliğinə və yayılmasına xüsusi önəm vermişlər.

Ermənilərin antitürk mübarizəsi gücləndikcə bəzi Avropa dövlətləri ermənipərəst mövqe tutmaqla Türkiyənin daxildən parçalanmasına səbəb olacaq hər bir iğtişaşa, terrorçuluq əməllərinə göz yumurdular. Bəzi ölkələr öz ərazilərində ermənilərin əl-qol açmasına, Türkiyəyə qarşı mübarizəsini daha da gücləndirməyə şərait yaradırdılar. Rusiya və Fransa belə ölkələr sırasında olmuşdur. Məsələn, Fransa hökuməti 1885-ci ildən öz ərazisində "Armenikan" adlı təcavüzkar erməni partiyasının fəaliyyətinə şərait yaratmışdırsa, Rusiya dövləti Qafqazda, xüsusən Tiflisdə ermənilərin həm antitürk, həm antigürcü, həm də antimüsəlman planlarının hazırlanmasına göz yumur, bəzi hallarda isə, hətta ermənilərin bəd əməllərinə havadarlıq edirdi.

Ermənilərin yaratdıqları ilk təşkilat "Hnçak" komitəsi olmuşdur... "Hnçak" (Zəng səsi) Rusiya vətəndaşı olan qafqazlı erməni Avetis Nəzərbekyan və onun sonradan evləndiyi Maro adında qadın, həmçinin qafqazlı erməni tələbələri tərəfindən 1887-ci ildə İsveçrədə Karl Marksın prinsipləri əsasında qurulmuşdur.

Üzvləri arasında rusiyalı ermənilər var idi. Fəaliyyət sahəsi Şərqi Türkiyə, mərkəzi əvvəlcə İsveçrədə, sonra Londonda idi. Məqsədləri öncə Türkiyə Ermənistanını ayırmaq, daha sonra Rusiya və İran Ermənistanları ilə birləşərək müstəqil bir Ermənistan yaratmaq idi".[7]

Cenevrədə fəaliyyətə başlayan "Hnçak"ın əsas məqsədi, məramı erməni təbliğatını aparmaq, terror və təxribatlar yolu ilə milli maraqlara xidmət olmuşdur. Bu təşkilatın proqramında bütün ermənilər antitürk, antimüsəlman hərəkatına, mübarizəsinə səsləndirilirdi.

Fransız araşdırıcısı Jorj de Malevil məşhur "1915-ci il erməni faciəsi" əsərində göstərir ki, "Hnçak"ın proqramında belə bir fikir xüsusi olaraq vurğulanır: "Türkləri və kürdləri bütün şəraitdə öldürmək lazımdır, bizim məqsədlərimizi satan ermənilərə rəhm edilməməli, onlardan qisas alınmalıdır".[8]

Qısa müddət ərzində "Hnçak"ın İstanbulda, eləcə də Türkiyənin digər vilayətlərində şöbələri açılır. Hnçaklar özlərini inqilabçı sosialist adlandırırdılar (Leo. Türkiyə ermənilərı inqilabının ideologiyası).





"Türk araşdırıcısı M.Sədi Koçaş "Hnçak"ın fəaliyyəti ilə bağlı İngiltərənin Trabzondakı konsulunun ölkəsinin İstanbuldakı səfiri Filip Kuryerə göndərdiyi raportundan çox maraqlı bir sitat gətirir. Həmin raportdan məlum olur ki, "Hnçak" liderləri Türkiyənin xaricindən idarə edilirdilər. Belə ki, özləri tamamilə təhlükəsiz şəraitdə olduqları halda, Türkiyədəki ideya yoldaşlarının həyatını təsəvvüredilməz hala çatdırmışlar.

Məqsədləri müsəlmanları xristianlara qarşı təhrik etmək, qırğınlar törətməklə məmləkəti dəhşətli vəziyyətə çatdırmaq idi. Bütün dünya bilməlidir ki, bu təşkilat anarxiya xarakterlidir. Hər bir vasitə ilə hərc-mərclik yaratmaq və Ermənistanın yalnız islahatını deyil, istiqlalını da təmin etməyə çalışmaqdadırlar".

Həqiqətən, bu qeydlər ermənilərin və onların yaratdıqları bəd niyyətli təşkilatlarının iç üzünü, əsl mahiyyətini üzə çıxarır.

"Hnçak" təşkilatının üzvləri arasında güclənən fikir ayrılığı əvvəlcə bu qurumun parçalanmasına, bir müddət sonra isə fəaliyyətinin zəifləməsinə səbəb olmuşdur.

Ermənilərin bəd əməlləri təkcə Türkiyədə deyil, tədricən İranda və Qafqazda da həyata keçirilməyə başladı. Elə buna görə də, getdikcə fəaliyyət dairələrini genişləndirməyə çalışan, başqa xalqlara (ilk növbədə müsəlmanlara) nifrət bəsləyən qatı erməni millətçiləri yeni siyasi və terrorçu qurum yaratmaq məqsədilə bütün qüvvələrini bir yerə cəmləşdirməyə cəhd göstərirdilər.

1890-cı ildə bir neçə millətçi erməni qrupu razılığa gələrək yeni bir qurum - "Daşnaksütyun" (Erməni İnqilab Cəmiyyətləri İttifaqı) partiyasını yaratdılar. Əsas ilhamvericiləri qatı erməni millətçiləri Xristafor Mikailyan, Simon Zavaryan və Stefan Zoryan olan bu təşkilat o vaxtkı Zaqafqaziyanın siyasi və mədəni mərkəzi hesab olunan Tiflis şəhərində təsis edildi.

Yeni təşkilat ilk bəyannaməsini qəbul edərək, bütün erməniləri öz ətrafında birləşməyə çağırdı. Həmin bəyannamənin əsas məqsədi "Türkiyə Ermənistanının siyasi və iqtisadi hürriyyətini məqsəd qoymuş ittifaq yaratmaq idi. Elə buna görə də bəyannamədə belə bir müraciət öz əksini tapmışdı: "Qardaşlar, müqəddəs məqsədimiz uğrunda müştərək düşmənə qarşı birləşək".



Azərbaycan Milli Kitabxanası

Gənclər! Hər yerdə ali məfkurənin müdafiəçiləri olan sizlər də xalqla birləşin.

Varlılar! Siz də xalqın düşmənlərdən, kürd bəylərindən sinələrini müdafiə edə bilmələri üçün silah almalarını təmin edin.

Erməni qadını! Sən də bu müqəddəs işə yardım et.

Din başçıları! Hürriyyət əsgərlərini müqəddəsləşdirin.

Gözləməli zaman deyil. Toplanın, vətənin qurtulması işini qəhrəmancasına irəli aparaq".

"Daşnaksütyun" partiyası bir il sonra ikinci və üçüncü bəyannamə qəbul etdi. Bu qurum öz fəaliyyətini bir-iki il ərzində xeyli genişləndirə bildi. Bu müddət ərzində qurum İsveçrənin paytaxtı Cenevrə şəhərində "Droşak" ("Bayraq") adlı qəzet nəşr etdirdi. 1892-ci ildə isə "Daşnaksütyun" Cenevrədə özünün I qurultayını keçirdi və bu toplantıda qurum həm də özünün proqramını qəbul etdi.

Daşnaklar "Dənizdən-dənizə Böyük Ermənistan" dövlətini - Aralıq dənizi, Qara dəniz və Xəzər dənizi arasındakı bütün əraziləri çərçivəsində təsəvvür edirdilər. Bu millətçi partiyanın təbliğatçısı A.Lalayan onun mahiyyətini belə şərh edir: "Azərbaycandakı Qarabağ, Naxçıvan, Gürcüstandakı Borçalı, Axıska, Axalkələk torpaqlarını məhv etmək və Türkiyənin Şərqi Anadolu, lap Aralıq dənizinədək ərazini qopartmaqla nəhəng müstəqil Ermənistan yaratmaq".[9]

Yerigəlmişkən Ermənilərin "Böyük Ermənistan" xülyasına böyük qafqazşünas Vasili Lvoviç Veliçkonun münasibəti belə olub: "Biz hələ bədnam Böyük Ermənistan barədə və özünün bütün qonşularını mədəniləşdirmək (о мировом призвании армян цивилизавать всех своих соседей) kimi dünyamiqyaslı bir missiyanı öz boynuna götürən ermənilərdən söz açan cəfəng dərsliklərdən danışmırıq. Həmin kilsə məktəblərində paytaxtı Tiflis olmaqla az qala Voronejə qədər Böyük Ermənistanın xəritələri də intişar etdirilirdi".[10]

Görkəmli gürcü ədibi İlya Çavçavadze isə "Erməni alimləri və fəryad edən daşlar" əsərində ermənilərin məkrli niyyətlərini çox düzgün duyaraq, onlar haqqında yazmışdır: "Biz ermənilərin heç bir səxavətinə və fədakarlığına həsəd aparmırıq...

Biz ermənilərin şərəfini və böyüklüyünü, hətta onlar mübaliğəli, ya da başdan-ayağa uydurma olsa da, qiymətləndirməyəcəyik. Ermənilər nəiləsə öyünsələr də, qoy onları qadir Allah özü saxlasın,





əgər bundan məhrumdurlarsa, qoy Allah özü onlara kömək etsin. Ancaq ona məyus oluruq ki, özünü öyən bir erməni dəstəsi gürcülərin mənəvi və fiziki mövcudluğunu inkar edərək bizə yalnız qarşımızda geniş açılmış qəbri göstərir, guya ki, onların mövcud olması bizim mövcud olmamağımızdan irəli gəlir.

...Lakin iş ondadır ki, söz və qələmlə bütün dünyaya and içirlər ki, guya, Qafqaz sıra dağlarının o biri tərəfindən Dəclə və Fərat çaylarının başlanğıcına qədər, demək olar ki, Qara dənizdən Xəzər dənizinə qədər qədimdən Ermənistan deyilən yer olub (guya Somxetiya, yəni somexlərin-haykanların ölkəsi) və guya, bəzi yerlərdə hər hansı bir yarısı (ermənilər gürcüləri belə adlandırırlar) cücəribsə, o da ermənilərin təqsiri ucbatından onlarca pəyə sahəni tutub. Bu vrasilər xalq kimi adı çəkilməyə layiq deyillər, çünki onlar məhv olma və nəsli pozulma yolundadırlar, həm də bu, belə olsaydı, öz vəzifələrini başa düşmək üçün onlarda o qədər ağıl nə gəzirdi. Ticarət etmək üçün Allah onlara qabiliyyət verməyib...".[11]

İ.Çavçavadze ermənilərin Qafqaz xalqlarının tarixinə, mədəniyyətinə saxtakarlıqla yanaşdıqlarından, onların gürcülərə qarşı törətdikləri bəd əməllərindən söhbət açır. O bildirir ki, "Bizi yer üzündən tamamilə silib atmaq üçün onlar adımızı biabır edib, bizi milli heysiyyətdən məhrum etməklə kifayətlənməyərək, bütün tariximizi də, salnaməmizi də, tarixi qalıqlarımızı və abidələrimizi də, al-qana bulanmış bütün şeylərimizi də, xristianlıqdan əvvəlki xidmətlərimizi də məhv edirlər, tarixi var-dövlətimizi, bizə məxsus olan hər şeyi fırıldaqlar yolu ilə özlərinin adına çıxırlar. Düzdür, yalan ayaq tutar, amma yeriməz və başqasının mənliyini əlindən almaqla, yaxud alçaltmaqla özününkünü artıra bilməzsən, lakin bir gürcü zərbməsəlində deyildiyi kimi: "Öz tamahının qulunun qulağı ağır eşidir və dildən pərgardır"".

İ.Çavçavadzenin bu müşahidələri elə bil ermənilərin biz Azərbaycan türklərinə qarşı törətdikləri, etdikləri bəd əməllərinə həsr edilib. Ermənilərin Azərbaycan türklərinə qarşı saxtakarlıqları eynilə gürcülərə qarşı da törədilib. Başqa xalqların nəyi varsa onu, hətta torpaqlarını belə mənimsəmək ermənilərin ən səciyyəvi, ən sevimli peşələri kimi illərdir, əsirlərdir ki, davam edir...

Ermənilərin saxta mənbələrinə, boş xülyalarına rəğmən bir daha



Azərbaycan Milli Kitabxanası
254146
M.F.Axundov adına Azərbaycan Milli

qeyd etmək istərdik ki, onlar "Böyük Ermənistan" arzusuna heç vaxt çata bilməyəcəklər. Çünki, heçdən heç nə yarana bilməz. Əsrlər boyu başqa xalqların torpaqları hesabına özlərinə dövlət qurmaq arzusu ilə alışıb-yanan ermənilər unutmamalıdırlar ki, "ermənilərin hansı ərazidə ilkin məskun olduğu və nə vaxtdan Qafqaza köçürülmə axını barədə müəlliflərdən Herodot, Strabon, Anuçin, Şandr, Erker, Boret, Astotat, Jand Ter Alen, Jorj de Malevil, Adam Mets, Toynbi, Jan de Morqan, Masler, Lank, Nəvvab, Mirzə Yusif Nersesov, Mirzə Adıgözəl Qarabağlı, Kasparin, Kirakos, Orbeli, Veliçko, Pantuxov, Parsamyan, Qosadyan, Şostakoviç, Qarsamyan, İşxanyan, Pastermaçyan, Dyakonov, Petruşevski, Abeqyan, Şavrov, Çavçavadze, Svyataxovski, Tahiryan, Z.Bünyadov, F.Məmmədova, Q.Qeybullayev öz əsərlərində ətraflı, obyektiv məlumat vermişlər. Hətta erməni tarixçilərinin özləri belə... ermənilərin indiki Ermənistanla faktik olaraq heç bir əlaqəsi olmadığını göstərmişlər. O ermənilər indi də ölkələrinə "Hayastan" deyirlər. Bu barədə İşxanyan yazır: "Antik dövrdə ermənilərin əsl vətəni olan "Böyük Ermənistan" Kiçik Asiyada, yəni Rusiyadan kənarda yerləşmişdi.

...Ermənilərin əcdadlarının ana vətəni Zaqafqaziyadan kənarda, yəni Balkan yarımadasından köçərək Kiçik Asiya regionunda məskunlaşmışdır. Bu mülahizəni qədim tarixi mənbələr də sübut edir".[12]

Bu məsələ ilə bağlı elə Azərbaycan tarixşünaslığında da kifayət qədər araşdırmalar aparılmışdır.

Türkiyədə və Qafqazda yaradılmış erməni milli təşkilatlarının fəaliyyəti və məqsədləri, mahiyyəti barədə Rusiyanın Van və Ərzurumdakı Baş konsulu Mayevski öz xatirələrində belə yazır: "1890-cı ilin əvvəllərində Asiya Türkiyəsinin erməni əhalisinin az və çox dərəcədə cəmləşdiyi bütün məntəqələrinə inqilabi cəmiyyətlərin - Hnçak, Daşnak və Ermənistan cəmiyyətlərinin üzvləri peyda olmuşdu və canfəşanlıqla öz ideyalarını təbliğ etməyə, əhalini qarşıdakı qanlı hadisələrə hazırlamağa girişmişdilər...

Ali məktəbdən tutmuş lap adicə ibtidai məktəblərə qədər bütün erməni məktəbləri Avropa paytaxtlarında ifrat dərəcəyə çatdırılmış erməni təbliğatçılarının qızğın fəaliyyət meydanına çevrilmişdi. Vətənpərvərlik mədhiyyə və mahnıları, kəskin satira və təmsillər





müəllimlər mühitindən yeniyetmələrin odlu qəlbinə düşürdü, onlarda müsəlmanların mənfur hakimiyyətinə qarşı qəzəb, kin-küdurət hissini heç kimə məlum olmayan gələcəyin fantastik illüziyalarının bütöv bir silsiləsini alovlandırırdı. Beləliklə, ən qısa bir vaxt (üç-dörd il) ərzində onların yaratdığı illüziyanın müdafiəsi üçün qanlı fədakarlığa hazır olan qudurğan, inadkar gənclər yarandı...

Bu komitələrin proqramları yalnız üsyan və qan tökmək məsələlərində bir-birinə uyğun gəlirdi.

Onların hamısını təkcə bir fikir - Türkiyənin ərazisində mümkün qədər daha çox qan tökməklə hünər göstərmək cəhdi öz ağuşuna almışdı və bu, onları ruhlandırırdı".[13]

XIX əsrin sonlarından baş alan erməni saxtakarlığı müxtəlif dövrlərdə müxtəlif cildlərə girsə də, mahiyyətcə dəyişməyib, əksinə bəzi məqamlarda daha da dərinliklərə işləyib, yüzlərlə, minlərlə fəlakət, faciə ilə nəticələnib.

Təəssüf ki, erməni saxtakarlığının, erməni riyakarlığının yaşamasına, qol-qanad açmasına şərait yaradan, imkan verən ermənipərəst qüvvələr fikirləşmirlər ki, erməni xisləti, erməni məkri hələ insanlığa çox bəlalar, çox fəlakətlər gətirə bilər.



Azərbaycan Milli Kitabxanası

## § 3. ERMƏNİLƏRİN İRANDAN AZƏRBAYCANA KÖÇÜRÜLMƏSİ

Ermənilərin müxtəlif vaxtlarda Türkiyədən və İrandan Qafqaza köçürülməsi ayrı-ayrı dövlətlərin antimüsəlman siyasətinin tərkib hissəsi olmuşdur.

Rusların böyük strategiyasının 1725-1726-cı illərdə I Pyotrun öz əli ilə yazıb qoyduğu məşhur "Vəsiyyətnaməsi"ndəki bəzi ideyaları reallaşdırmaq üçün ruslar ermənilərdən vasitə kimi istifadə etməyi qarşılarına məqsəd qoymuşlar. Bunun üçün Rusiya dövləti erməniləri İrandan və Türkiyədən köçürərək Qafqazın ən səfalı guşələrində - Gürcüstanda və Azərbaycanda yerləşdirmək planını hazırladılar. Vətənsiz ermənilərə isə bu məsələ çox sərfəli idi. Adətən, "tarixin dönəmlərində - həm Türkiyə ərazisinə, həm də Qafqaza gəlib çıxmış ermənilər müxtəlif tarixi gedişat nəticəsində siyasi situasiyalara uyğun olaraq (xüsusən dövlətlərarası müharibələr vaxtı) həmişə əldə oyuncaq olmuş, onlardan bu və ya digər məqsədlərlə istifadə etmişlər. Siyasət qanunlarına onlar çox asanlıqla tabe edilmişlər. Çünki ermənilərin heç vaxt dövlətləri olmamışdır və onların "müstəqil olmaq arzularından" istifadə edən bəzi dövlətlər erməniləri öz tərəflərinə çəkməyə nail olmuşlar".[14]

İrandan və Türkiyədən köçürülən ermənilər Qafqazda azərbaycanlıların yaşadıqları ərazilərə daha çox köçürülürdü. Müvafiq olaraq yerli əhali - Azərbaycan türkləri isə bütün vasitələrlə öz dədə-baba torpaqlarından didərgin salınır və qovulurdular. Tarixi faktlar sübut edir ki, "İrəvan quberniyasının İrəvan, Eçmiədzin, Yeni Bəyazid, Aleksandropol qəzalarında, Tiflis quberniyasının Lori-Pəmbək (Borçalı mahalı) qəzasında 2310 yaşayış məntəqəsindən, kənddən 2000-i azərbaycanlılara mənsub olmuşdur (bax: Z.Korkodyan. Sovet Ermənistanının əhalisi. 1831-1931. İrəvan, 1932, s. 162). Bu kəndlərdən 1200-nün tarixi - coğrafiyası erməni mənbələrindən istifadə edilərək işlənib çapa hazırlanmışdır. Erməni əhalisi isə, əsasən, 1828-1830-cu illərdə və 1915-1918-ci illərdə Türkiyədən və İrandan köçürülüb gətirilmişdir. Bu həqiqəti 1986-cı ildə Yerevan Universitetinin nəşr etdiyi çox cildlik "Ermənistan və ətraf rayonların toponim lüğəti" bir daha təsdiq edir. Orada göstərilir ki, erməni kəndlərinin 70 faizindən





çoxunda "əvvəlki sakinlər 1828-1829-cu illərdə Türkiyə və İrandan gəlmiş mühacirlərdir".[15]

Elə N.İ.Şavrovun "Zaqafqaziyada rus işinə təhlükə" əsərində də bu məsələ obyektiv olaraq öz əksini tapmışdır. N.İ.Şavrov yazır ki, "1826-1828-ci illər müharibəsindən sonrakı iki ildə - 1828-ci ildən 1830-cu ilədək Zaqafqaziyaya 40 min İran ermənisi, 84.600 Türkiyə ermənisi köçürülmüşdür və onlar erməni millətinin cüzi olduğu Yelizavetpolun və İrəvan quberniyalarının ən yaxşı torpaqlarında yerləşdirilmişdir. Köçkünlərin ən çoxu ermənilərdir. İndi Zaqafqaziyada yaşayan 1 milyon 300 min nəfərdən 1 milyonu diyarın yerli əhalisi deyil, gəlmədir".[16]

1828-ci il fevralın 10-da bağlanan Türkmənçay müqaviləsinin 15-ci maddəsinə əsasən İranda yaşayan ermənilərə sərbəst surətdə Rusiyanın himayəsinə keçmək hüququ verilirdi. Hökumət və yerli hakimiyyətin heç bir maneçiliyi olmadan onların satlıq malına və ya əmlakına, əşyalarına hər hansı gömrük və vergi qoyulmadan daşınan mülkünü aparmaq və satmaq üçün bir il, daşınmaz mülkə gəldikdə isə, onun satılması və ya onun haqqında özxoşuna sərəncam (vəkalət) üçün 5 illik müddət müəyyən edilmişdi.

Lakin ermənilərin köçürülməsi üçün hazırlıq işlərinə hələ 1827-ci ilin may ayında Paskeviçin Peterburqdan xüsusi tələbnamə əsasında ermənilər arasında nüfuza malik olan polkovnik Lazarevi (Eqiazar Lazaryan) öz sərəncamına götürməsi vaxtından başlanmışdı. Oktyabrın əvvəlində artıq Lazarev Cənubi Azərbaycan erməniləri arasında iş aparmaq üçün ayrılan dəstənin tərkibində idi və sonralar Təbrizin komendantı təyin edilmişdi. Məhz Rusiyanın İrandakı səfiri A.S.Qriboyedovun təşəbbüsü ilə İran ermənilərinin işğal edilmiş yeni ərazilərə köçürülməsi məsələsi meydana çıxdıqdan sonra, Rusiya hökumətinin İranla sərhəd boyu ərazilərə 80 min kazakın köçürülməsi layihəsi qüvvədən düşmüşdü.[18]

Hələ 1827-ci ilin noyabrında Dehqarqanda keçirilən danışıqlar vaxtı Qriboyedovla Paskeçiv görüşərkən arxiyepiskop Nersesin Xoydan göndərdiyi nümayəndələri onlardan ermənilərin köçürülməsi qayğısına qalmağı xahiş etmişdilər. Dekabr ayında Paskeviç Tiflisin hərbi qubernatoru Sinyaginə göndərdiyi məktubda qeyd etmişdi ki, Urmiya ətrafında yaşayan 15 min yunan və erməni Rusiyanın əyalətlə-



Azərbaycan Milli Kitabxanası

rinə köçmək istəyirlər. Sinyagin isə onların İrəvan və Naxçıvan əyalətlərində yerləşdirilməsi fikrini irəli sürmüşdü.[19]

Türkmənçay müqaviləsi imzalandıqdan dərhal sonra, fevralın 14-də Lazarev elə oradaca Paskeviçə göndərdiyi raportunda xatırladırdı ki, ermənilər müharibə zamanı qələbəmiz üçün mümkün olanı etmişlər və indi evlərini qoyub Rusiya əyalətinə keçmək istəyirlər. Ermənilərin sürətlə və rahat köçürülməsi üçün Lazarev təklif edir:

1. Köçürmə işlərinə rəhbərlik etmək üçün ona Paskeviç kağız versin və həmin kağızda köçənlərə verilən güzəştlər göstərilsin;

2. Köçürmə işlərinə rəhbərlik etmək üçün erməni dilini bilən lazımi qədər qərargah və ober zabitlər təyin etmək onun ixtiyarına verilsin;

3. İqlim şəraitinə görə köçürmə işləri ləngiyə biləcək yerlərdə rus ordusu orada gözləsin və ordu köçənləri müşayiət etsin;

4. Kasıb köçkünlər üçün xəzinədən vəsait ayrılsın.[20]

Paskeviç bu təkliflərin yerinə yetirilməsi üçün fevralın 26-da Lazarevə və fevralın 29-da İrəvan müvəqqəti idarəsinə xüsusi təlimat göndərir. Lazarevə verilən 19 maddəlik təlimatda göstərilir:

- Köçürülən xristianlardan ticarətlə məşğul olanlar şəhərlərdə yerləşdiriləcəklər ki, yenə ticarətlə məşğul olsunlar;
- Kəndlilərə kifayət qədər münbit torpaq ayrılacaq və onlar 6 il müddətinə vergilərdən, üç il isə torpaq mükəlləfiyyətindən azad ediləcəklər;
- Köçməyə hazır olan ailələrə veriləcək güzəştlər haqqında xüsusi formada vərəqələr verilməlidir;
- Köçürülənlər kəndlər üzrə partiyalara ayrılmalı, hər partiyada 150-dən 300-ə qədər ailə olmalıdır;
- Köçürülənləri İrəvan və Naxçıvan əyalətlərinə istiqamətləndirmək lazımdır ki, həmin ərazilərdə xristian əhalisi mümkün qədər artırılsın;
- Hər partiyanı müşayiət etmək üçün erməni dilini bilən bir zabit və 2-5 kazak ayrılsın;
- Köçkün partiyaları yola çıxan kimi, dərhal İrəvan müvəqqəti idarəsinə ailələrin sayı, onların yaşadıqları ərazinin iqlim şəraiti, məşğuliyyətləri, malik olduqları sürülər və sərhədə yetişəcəkləri təxmini vaxt haqqında xəbər göndərmək lazımdır.





Rus qoşunlarının müqaviləyə əsasən geri çəkilmə prosesi martın 8-dən etibarən Marağadan başlandığı üçün, ilk növbədə orada yaşayan erməniləri köçürmək nəzərdə tutulmuşdu. Qarabağa yaxın ərazidə yerləşən Üzümçü kəndinin və ətraf kəndlərin ermənilərini Qarabağda yerləşdirmək qərara alınmışdı.

Kasıb ailələrə kömək üçün xəzinədən 25 min manat gümüş pul ayrılmışdı. Lazarevin və ona təhkim edilən erməni zabitlərinin vəzifəsi köçürülənlərin sərhədə çatdırılması ilə bitmiş hesab edilirdi. Bundan sonra işlərə rəhbərlik İrəvan müvəqqəti idarəsi yanında yaradılan Komitəyə həvalə edilirdi. Komitə köçkün partiyalarını sərhəddə qarşılamaq üçün heyət göndərməli idi. Həmin heyət onları yeni yaşayış məntəqəsinədək müşayiət edirdi. Qarabağ üzrə bu vəzifə gömrük hərbi-dairəsinin rəisi, knyaz Abxazova həvalə edilmişdi.[21]

Paskeviçin İrəvan müvəqqəti idarəsinə verdiyi 16 maddəlik təlimatında göstərilirdi ki, Komitə köçürülən ailələrin sayına uyğun torpaq sahəsi ayırmalı və onların nəzərdə tutulan yerlərdə məskunlaşmasına rəhbərlik etməlidir. Komitə çalışmalıdır ki, köçürülən kəndlər əvvəlki ərazilərdəki kimi ayrıca və qonşuluqda yerləşdirilsinlər. Dağlıq şəraitində yaşamışlar dağlıq yerdə, düzənlikdə yaşayanlar isə düzənlikdə yerləşdirilməlidir ki, onlar mümkün qədər xəstəlik və ölümdən xilas olsunlar, onların adət-ənənələrinin və təsərrüfat vərdişlərinin saxlanmasına şərait yaransın. Müsəlmanların yaşadıqları kəndlərdə xristianlardan ibarət ayrıca dairə və mahallar təşkil etmək lazımdır. Müsəlman (xristian) kəndlərinin əhatəsində yaşayan xristianları (müsəlmanları) öz dindaşlarının yanına köçürmək lazımdır. Köçürülənlər mülkədar torpaqlarında deyil, dövlət torpaqlarında yerləşdirilməlidirlər.[22] Yeni məhsul götürənədək ilkin taxıl səpini üçün köçürülənlərə bərabər miqdarda borc verməli, təsərrüfatın dirçəldilməsi üçün götürülən borc faizsiz olaraq, dörd ildən sonra altı il müddətinə ödənilməlidir. Məskunlaşdırmaq üçün yer seçərkən sağlamlıq üçün şərait və yaxşı suyun olması nəzərə alınmalıdır. Hər bir ailənin yerləşdirilməsi haqqında xüsusi formada hesabat və çəkilən ümumi xərclərin hesabatı müəyyən edilməlidir.[23]

Beləliklə, 1828-ci il martın 9-da Lazarev Xoydan Paskeviçə yazdığı raportunda göstərmişdi ki, artıq 4500 ailə köçürülərək Araz çayının o tərəfinə gətirilmişdir.[24]



Azərbaycan Milli Kitabxanası

Köçürülənlərin mülkədar torpaqlarında yerləşdirilməməsi haqqında Paskeviçin verdiyi təlimatın əksinə olaraq ermənilərin böyük hissəsi həmin torpaqlarda yerləşdirilmişdi. A.S.Qriboyedovun "Ermənilərin İrandan bizim vilayətlərə köçürülməsi haqqında qeydlər"ində göstərilir ki, ermənilərin mülkədar torpaqlarında yerləşdirilməsi bir yana, müsəlmanların yerini dar eləmələrinə baxmayaraq, üstəlik, onlara güzəştlər verilir. Halbuki, ziyan çəkən tərəf müsəlmanlardır. Əslində, buranın müsəlmanlarını köçkün hesab etmək lazımdır. Çünki müharibə zamanı sərdar onları döyüş meydanından köçürmüşdür və ən kasıb vəziyyətdə yaşayırdılar. Ermənilər köçürülən zaman müsəlman ailələrinin əksəriyyəti yaylaqda olmuşdular və gəlmələrin onların evlərində yerləşdiklərindən xəbərləri yox idi.

1828-ci il oktyabrın 1-də Qriboyedov Paskeviçə göndərdiyi məktubunda göstərir ki, Naxçıvan əyalətində ermənilərin köçürülməsi nəticəsində qarışıqlıq və sıxıntı yaranmışdır. Azərbaycanlıların narazılığının ən yüksək həddə çatdığı göstərilir. Yaranan narazılığın əsaslı olmasını göstərmək üçün köçürülən ermənilərin yerləşdirilməsi cədvəli verilmişdir.

| Kənd və qəsəbələrin adı | Yerli ermənilər | Yerli müsəlmanlar | Köçürülən ermənilər |
|---|---|---|---|
| NEHRƏM | - | 193 | 93 |
| QARAXANBƏYLİ | - | 81 | 26 |
| TUMBUL | 9 | 62 | 12 |
| YARINCA | 13 | 48 | 14 |
| KÜLTƏPƏ | - | 113 | 37 |
| QAZANÇI | 10 | 58 | - |
| BƏNƏNYAR | - | 72 | 12 |
| ƏRƏZİN | - | 61 | 7 |
| GÜZNÜT | - | 75 | 19 |
| NAXÇIVAN şəhəri | 114 | 392 | 285 |
| *Ümumiyyətlə, Naxçıvan əyalətində* | *290* | *1632* | *943* |

Cədvəldən görünür ki, köçürülən ermənilərin əksəriyyəti müsəlman kəndlərində yerləşdirilmişlər. Ermənilərin qarışıq yaşadıqları kəndlərdə isə köçkünləri demək olar ki, yerləşdirməmişlər. Qriboyedov vəziyyətdən çıxış yolu kimi Naxçıvan əyalətindən 500 erməni ailəsini Dərələyəzə köçürməyi təklif edir. Sonralar onun bu təklifi həyata keçmişdi.





Polkovnik Lazarev xristianların Rusiya ərazisinə köçürülməsinin nəticələri haqqında qraf Paskeviç - Erivanskiyə 24 dekabr 1829-cu ildə yazdığı yekun hesabatında göstərir ki, köçürmə işlərinə 26 fevral 1828-ci ildən başlanmış və iyunun 11-də sona çatmışdır. Bu müddət ərzində 8249 xristian ailəsi (onlardan cəmisi 100-ə qədəri aysor ailəsi, qalanları ermənilər olmuşdur) İrəvan, Naxçıvan və Qarabağ əyalətinə köçürülmüşdür. Köçürmə işlərinə xəzinədən 16000 çervon və 400 gümüş manat xərclənmişdir. Köçmək istəyən 1500 erməni ailəsi isə İranda qalmışdı. Çünki Lazarev onları köçürməyə imkan tapmamışdı.[25]

Ermənilərin köçürülməsi zamanı Lazarevin tabeçiliyinə göndərilən erməni zabitləri xüsusilə fərqlənmişdilər. Knyaz Melikov Üzümçü və onun ətrafındakı kəndlərin, knyaz Arqutinsk-Dolqorukov Təbriz və ətraf kəndlərin, sonra isə Salmas əyalətinin, kollej assesoru Qamazov Marağa xanlığının və Urmiya kəndlərinin, knyaz Şalikov Xoy əyalətində yaşayan ermənilərin köçürülməsinə rəhbərlik etmişdilər.

İ.Şopen 1829-1832-ci illərdə Erməni vilayətində kameral siyahıyaalma keçirmişdi. Onun verdiyi statistik məlumatlara görə, İrandan köçürülən ermənilər 366 ailə tərkibində 1715 nəfər İrəvanda, 265 ailə tərkibində 1110 nəfər Naxçıvan və 36 ailə tərkibində 182 nəfər Ordubadda yerləşdirilmişlər. Köçürülən ermənilər İrəvan əyalətinin 119 kəndində, Naxçıvan əyalətinin 61 kəndində, Ordubad dairəsinin 11 kəndində yerləşdirilmişlər. Ümumiyyətlə, İrəvan əyalətində 4599 ailə tərkibində 223568 nəfər, Naxçıvan əyalətində 2137 ailə tərkibində 10652 nəfər, Ordubad dairəsində 250 ailə tərkibində 1340 nəfər erməni yerləşdirilmişdir. Nəticədə Erməni vilayətində 6949 ailə, tərkibində 35560 nəfər köçürülmüşdü.[26]

Yeni təşkil edilmiş Erməni vilayətində müsəlmanların sayı 81749 nəfər (4428 ailə) olmuşdusa, İrandan erməniləri köçürdükdə onların sayı 60691 nəfərə (11377 ailə) çatmışdı. Bununla da ermənilərin sayı 24 faizdən 43 faizə qalxmışdı. Nəzərə alsaq ki, ümumiyyətlə, İrandan köçürülən 8249 ailədən 6949-u erməni vilayətində yerləşdirilmişdir, onda belə qənaətə gəlmək olar ki, yerdə qalan 1300 ailə Qarabağa və Zəngəzura köçürülmüşdür.

Azərbaycan Milli Kitabxanası

## § 4. ERMƏNİLƏRİN TÜRKİYƏDƏN AZƏRBAYCANA KÖÇÜRÜLMƏSİ

Rusiyanın Qafqaz, Yaxın və Orta Şərq siyasətində həyata keçiriləcək bütün işlərdə ermənilərə xüsusi önəm verilib. Daha doğrusu, bu istiqamətdə görülən işlərdə "baş icraçılar xəyanətkar və satqın ermənilər olub. Və bu satqınlıq da heç vaxt mükafatsız qalmayıb. Ermənilər öz murdar hərəkətlərinə görə yaşadıqları ölkələrdən qovulanda belə onların ilk himayəçiləri Dəli Petronun varisləri olub. İran və türk hökmdarlarının əmrilə həmin ölkələrdən qovulan yüz minlərlə erməni nəhayət ki, Rusiyanın himayədarlığı sayəsində onun yenicə işğal etdiyi Azərbaycan torpaqlarında və əsasən, İrəvan xanlığının ərazisində qərar tutdu. Həmin vaxtdan başlanır azərbaycanlı qan-qardaşlarımızın öz qədim ata-baba torpaqları olan Ermənistandan sıxışdırılıb çıxarılma prosesi..."[27]

Ermənilərin Qafqaza kütləvi şəkildə köçürülməsinin birinci mərhələsi Rusiya-İran müharibəsindən dərhal sonra başladısa, ikinci mərhələ 1828-1829-cu illər Rusiya-Türkiyə müharibəsindən sonra başlandı.

1826-1828-ci illər Rusiya-İran müharibəsində qələbədən ruhlanan rus ordusu 1828-ci il iyunun 14-də Paskeviçin komandanlığı altında Gümrü yaxınlığında Arpaçayı 12 minlik qoşunla keçərək Şərqi Anadoluya hücuma başlayır və iyunun 23-də Qars qalasını ələ keçirir. Hücumu genişləndirən ruslar iyulun 24-də Axılkələyi, avqustun 15-də Axıskanı, 22-də Ərdəhanı, 28-də Bayazidi tutdular. 1829-cu ilin yazında müharibənin yenidən qızışması nəticəsində rus ordusu Ərzurumu, daha sonra Muşu, Oltunu, Bayburdu işğal edir.

Rus ordusunun türk qoşunları üzərində qələbələrinin təmin edilməsində erməni silahlı dəstələrinin və Şərqi Anadoluda yaşayan ermənilərin böyük rolu olmuşdur. Müharibənin əvvəlində yeni təşkil edilmiş Erməni vilayətinin ərazisində 2800 nəfərdən ibarət piyada və kavaler dəstələri təşkil edilmişdir.[28]

Birinci və ikinci Rusiya-İran müharibələri nəticəsində İrəvan xanlığının ərazisindən qaçqın düşmüş Azərbaycan türkləri Şərqi Anadoluda türk paşalıqlarının ərazilərində sığınacaq tapmışdılar. Daha öncədən rusların "1801-ci ildə Gürcüstan işğalından sonra Borçalı və





Qazax boyları ilə Qarapapaq uruğundan (tayfasından) gələn tərəkəmə türkləri qaçıb köçərək Çıldır və Arpaçayı kəndlərində yerləşmişdilər".[29]

Rusların Şərqi Anadoluya hücumu zamanı qırğınlara və yenidən köçməyə məruz qalanların əksəriyyəti yenə də azərbaycanlılar idilər. Bu dəfə onlar Türkiyənin içərilərinə doğru köçməyə məcbur olmuşdular.

Türk tarixçisi Kemal Beydili "1828-1829-cu illərdə Osmanlı-rus savaşında Şərqi Anadoludan Rusiyaya köçürülən ermənilər" adlı araşdırmasında həmin dövrün qaçqınlıq faciəsini rəsmi qaynaqlar əsasında belə təsvir edir: "Ərzurumu ələ keçirən ermənilər düşmən önünü beləcə boş görüb Bayburda qədər getmiş və ətrafdakı qəzaları da dəhşətə salmışdılar. Ətraf əhali ya ruslara boyun əymək, ya da yollara düşüb sağa-sola dağılmaqdaydılar. Ərzurum və Ərzincanın ətraf kəndlərində sığınacaq yerləri alan Qars və Axıska mühacirləri bu halı görüncə, Şərqi Qarahisar tərəflərinə doğru yönəlməkdəydilər. Minlərlə insanın yollara düşərək təlaş içində köç etmələrinə şahid olanların gözlərinə isə bu durum, sanki bunların "arxalarından gavur sürüb götürürmüş kimi dəhşətverici" bir şəkildə təqib edilir və hər tərəfi vahimə içində tərk edirdilər. Kəlkit, Şirlan, Gümüşxana, Ərzincan, Tercan və Şərqi Qarahisar bölgələrindəki xalq da bu hal qarşısında vəsvəsə edərək hər biri bir tərəfə köçməyə və dağılmağa başlamışdır".[30]

1829-cu ilin avqustunda ruslar Balkan cəbhəsində İstanbula yaxınlaşan zaman II Sultan Mahmud barış istəmiş və sentyabrın 2-də Ədirnə müqaviləsi imzalanmışdı. Müqaviləyə görə Axılkələk və Axıska bölgələri Rusiyanın tərkibinə keçmiş, işğal edilmiş qalan ərazilərin Türkiyəyə qaytarılması qərara alınmışdı.

Ədirnə müqaviləsinin 13-cü maddəsinə əsasən, Türkiyənin işğal olunmuş ərazilərində qalan ermənilərə 18 ay müddətində daşınan əmlakları ilə Rusiyanın tabeliyinə keçmək hüququ verilmişdi. Rusların Qars, Ərdahan, Bayazid, Ərzurum və digər bölgələrdən geri çəkilməsi türklərə xəyanət edən erməniləri çıxılmaz vəziyyətə salmışdı. Erməniləri bu vəziyyətdən xilas etmək üçün rus qoşunlarının komandanlığı onları yeni işğal edilmiş ərazilərə köçürməyi və bununla da Türkiyə ilə sərhəd boyu ərazilərdə xristianların üstünlüyünü təmin et-



Azərbaycan Milli Kitabxanası

məyi qərara almışdı. Bu məqsədlə də 1829-cu il oktyabrın 10-da Paskeviç imperator I Nikolaya yazdığı raportunda göstərirdi: "Bayaziddə 2 min erməni bizim əsgərlərin cərgəsində vuruşmuşdular, Ərzurumda xristian əhalisinin böyük hissəsi bizim dini bayramı qeyd etmişlər; Qarsda ermənilərdən ibarət 800 nəfərlik könüllü batalyon təşkil edilmişdi, onların ailələrindən - 10 min nəfərinin başının üstünü labüd təhlükə almışdır. Bu bədbəxt qurbanlara diqqətinizi yönəldin, Rusiyaya göstərdikləri məhəbbətə görə Osmanlıların onlardan qisas almasına yol verməyin.

Ona görə də cəsarət edib Əlahəzrət imperatordan mənə bu ailələri Gürcüstan və Erməni vilayətlərində yerləşdirmək ixtiyarını verməsini xahiş edirəm.

Zənnimcə, köçürülən hər bir ailəyə orta hesabla 50 gümüş rubl kifayət edəcəkdir".[31]

Noyabrın 18-də hərbi nazir Çernışev Paskeviçə cavab göndərir ki, imperator onun təklifini bəyənmişdir. Bundan sonra Paskeviç dərhal əməli fəaliyyətə keçir. O, dekabrın 3-də Gürcüstan mülki qubernatoruna məktub yazaraq göstərir ki, artıq Türkiyə paşalıqlarında yaşayan xristianların Gürcüstana və Rusiyaya mənsub vilayətlərə köçmək istəyən və bunun üçün maddi yardım tələb etməyən ailələrinə yola düşmək üçün bilet (vəsiqə) verməyi yerli qoşun rəislərinə icazə vermişəm. Bundan istifadə edən bir çox ailələr dərhal yola düşürlər. Qars və onun ətrafından köçənlər onların yaşadıqları ərazilərin iqlim şəraitinə uyğun olan Ələyəz (Alagöz) ətrafındakı boşalmış kəndlərdə məskunlaşdırılmışlar. General Pankratyev Paskeviçə xəbər verir ki, Loru dərəsində yerləşmək üçün 95 ailəyə bilet (vəsiqə) vermişdir. General mayor Bereman həmçinin Qarsdan çıxıb Gümrüyə yola düşən 400 ailəyə bilet verdiyini bildirmişdi.[32] Paskeviç köçürmə işlərinə və köçürülən ailələrin məskunlaşdırılması işinə rəhbərlik etmək üçün xüsusi komitə təsis etmişdi. Komitənin fəaliyyəti üçün 12 maddəlik ümumi qaydalar müəyyən etmişdi. Bu qaydalar aşağıdakılardan ibarət idi:

**1.** Köçürülənlər Rusiyanın ərazisinə daxil olan kimi onların qayğısı üçün bütün sərəncamları köçkünlər komitəsi verəcəkdir.

**2.** Köçürülmə prosesi sona yetənədək, köçürülənlərin hamısı yaşayış yerlərində məskunlaşdırılanadək, kəndlərdə köçkünlərin təsərrüfat qayğıları həll edilənədək komitə öz fəaliyyətini davam etdirməlidir. Bundan sonra Baş komandanlıq hesabat verib fəaliyyətini dayandırmalıdır.

**3.** Komitə dərhal Gürcüstanda və digər əyalətlərdə boş dövlət torpaqları haqqında məlumat toplamalıdır.

**4.** Bütün köçkünlər üç zümrəyə ayrılmalıdırlar: 1) tacirlər və alverçilər; 2) sənətkarlar və istehsalın hər hansı növündən baş çıxaranlar; 3) əkinçilər və yaxud kəndlilər. Köçkünlərin məskunlaşdırılması zamanı tacirlər və sənətkarların şəhərlərə və bu işlə məşğul olmağa imkan olan yerlərdə, kəndliləri isə kəndlərdə yerləşdirmək, bu zaman iqlim şəraitini və əvvəlcə məskunlaşdıqları səviyyəni nəzərə almaq lazımdır. Yelizavetpolda (Gəncə), digər şəhər və əyalətlərdə boş dövlət evləri vardır, ona görə də sənətkarları və tacirləri həmin yerlərdə yerləşdirməyi komitə nəzərdə tutmalıdır.

**5.** Köçkünlər Komitəsi Türkiyə ərazisində köçürülənlərin siyahısını hərbçilərdən tələb edən zaman onların haradan köçürüldükləri, hansı işlə məşğul olmaları haqqında məlumat verməyi tələb etməlidir.

**6.** Komitə çalışmalıdır ki, köçürülən kəndlər bütövlükdə, bu mümkün olmazsa, qonşuluqda yerləşdirilsinlər.

**7.** Komitə köçürülənləri lazımi qədər torpaqla təmin etməlidir (hər kənddə ailələrin, hər ailədə nəfərlərin sayına mütənasib olaraq).

**8.** Köçürülənlər bütünlüklə dövlət torpaqlarında, əgər kifayət etməsə, kilsə və mülkədar torpaqlarında yerləşdirilməlidirlər.

**9.** Köçürülənlər 6 il müddətinə vergilərdən, 3 il müddətinə torpaq mükəlləfiyyətindən azad edilməlidirlər.

**10.** Yeni köçürülən xristian kəndlərini müsəlman kəndləri ilə qarışdırmamaq, onlardan ibarət ayrıca mahallar və dairələr təşkil etmək lazımdır.

**11.** Köçürülənləri məskunlaşdırmaq üçün yer seçərkən rahatlığı, gözəlliyi və yaxşı suyu olmasının qayğısına qalmaq lazımdır.

**12.** Köçürülən hər bir ailəyə orta hesabla 25 rubl gümüş pul həcmində köməklik göstərilməlidir.

Köçkünlərin məskunlaşdırılması zamanı bu təlimata ciddi əməl edilmişdi. İstər indiki Ermənistan və Gürcüstana, istərsə də Azərbaycanın Gəncəbasar və Qarabağ əyalətlərinə köçürülən ermənilər yığ-




Azərbaycan Milli Kitabxanası

cam halda, təbii gözəlliyi, yaxşı iqlimi, saf suyu olan dağətəyi rayonlarda və şəhərlərdə yerləşdirilmişdilər.

1830-cu il yanvarın 22-də Paskeviçin Çernışevə göndərdiyi məlumatında göstərilirdi ki, Qars və ətrafından köçən 2500 ailə onun sərəncamı ilə yaşadıqları yerin iqlim şəraitinə uyğun olaraq Ələyəz yaxınlığında (Pəmbək distansiyasında) boşalmış kəndlərdə yerləşdirilmişlər.[33]

Türkiyə hökuməti onun ərazisində pərakəndə halda yaşayan ermənilərin ruslar tərəfindən köçürülüb sərhəd boyu ərazilərdə yığcam halda yerləşdirilməsindən ehtiyat edirdi. Ona görə də bu köçürmənin qarşısını almaq məqsədilə rusların gəlişi zamanı ermənilərin türklərə etdiyi xəyanəti, törətdikləri vəhşilikləri bağışlamaq, onlardan haqq-hesab çəkməmək qərarını verərək, fevralın 17-də yerlərdəki ermənilərə "Əfvnamə"lər göndərirlər. Lakin Ərzurum ermənilərinin "qarabaşı" (katolikosu) bu "Əfvnamə"lərə rəğmən, etdikləri cinayətlərin ağırlığını dərk edərək köçmək niyyətində olduqlarını bildirmişdir.[34]

Ermənilərin köçürülməsinin qarşısını almaq məqsədilə Türkiyə tərəfi işğala məruz qalan, lakin Ədirnə müqaviləsinin şərtlərinə əsasən boşaldılmalı olan Ərzurum, Qars, Bayazid, Ələşgird və s. yerlərdə açıq və ya gizli şəkildə öz nümayəndələrini göndərmişdi. Ərzurum ermənilərinin köç işlərinə maneçilik göstərildiyi, onların əmlak və torpaqlarının satılmasına türklərin əngəl törətdikləri haqda işğal edilmiş ərazilərdə köçürülmə işlərinə rəhbərlik edən general Pankratyev Paskeviçə şikayət məktubu göndərmişdi.[35]

Köçürülən ermənilərin qoyub getdikləri əmlak və ərazilərin satılması məsələsini həll etmək üçün Paskeviç mayor Vannikovu Ərzuruma nümayəndə kimi göndərmişdi. Lakin ermənilərin sahib olduqları kəndlərin əksəriyyəti bir qədər əvvəl, yəni müharibə zamanı təhlükəsiz yerlərə köçməyə məcbur olan və ermənilərin satış yolu ilə aldıqları müsəlman kəndlərindən ibarət idi. Təkcə Qars bölgəsində bu yollarla ermənilər 80 kəndə bütünlüklə, 15 kəndin isə yarısına yiyələnmişdilər. Digər tərəfdən, Rusiyanın işğal etdiyi ərazilərdən (əsasən Axılkələk və Axıska bölgələrindən) Türkiyəyə qaçan türklərin qoyub getdikləri əmlak və torpaqların satışı müqabilində vəsaitin onlara çatmaması Rusiya tərəfini maraqlandırmırdı. Ona görə də onlar daşınmaz əmlaklarını, mülklərini və torpaqlarını qoyub gedirdilər.





Ədirnə müqaviləsində köçürülmə işləri üçün nəzərdə tutulan 18 aylıq müddətin başa çatmasının yaxınlaşmasını və bu işin ləngidiyini görən Paskeviç 1829-cu il fevralın 29-da Ərzurum və Qars valilərinə rus və türk dillərində məktub göndərərək bildirir ki, Türkiyədən köçürülən katolik ermənilərin təmsilçiləri arximandrit Tatosu, Müğdisi Karapeti və Ağacan Karapetyanı, frankların təmsilçiləri Ter-Hovanes Matevosovu, Ağacan Osipovu və Hakop Hanakovu Ərzuruma göndərmişdir ki, ermənilərin qoyub gəldikləri əmlakların, taxıl sahələrinin və s. satışını təşkil etsinlər.[36]

Müqavilədə göstərilən müddətin başa çatması ərəfəsində, yəni 1831-ci il aprelin 3-nə qədər tərtib edilən sənəddə Türkiyədən köçürülən erməni ailələrinin təxmini sayı və məskunlaşdıqları ərazilərin adları göstərilmişdir.[37] Həmin sənədi təqdim edirik:

| Haradan köçürülmüşdür | Köçürülən ailələrin sayı | Harada məskunlaşdırılmışdır |
|---|---|---|
| Ərzurumdan | 7288 | 1. 5000 ailə Axıskada (paşalığın ərazisində) |
| Ərdahandan | 67 | 2. 1050 ailə Borçalı distansiyasında və Çalqa ətrafında 3. 1305 ailə Pəmbək və Şörəyel distansiyalarında |
| Qarsdan | 2464 | 1. 2264 ailə Pəmbək və Şörəyel distansiyalarında 2. 200 ailə Talın mahalında |
| Bayaziddən | 4215 | Erməni vilayətində - Göyçə gölü ətrafında, Baş Abaranda |
| Cəmi: | 14044 ailə | |

Sənədin bu cədvələ əlavə qeydində göstərilir ki, heç də digər yerlərdəki nümayəndələrin hamısı tam və dəqiq hesabat təqdim etmədikləri üçün neçə nəfərin köçürüldüyü göstərilməmişdir. Əgər bir ailədə orta hesabla altı nəfər götürülsə, nəticədə 84 mindən artıq erməni və yunanların köçürüldüyü məlum olur. Erməni tarixçiləri isə köçürülənlərin 90 mindən artıq, bəziləri isə 100 minə yaxın olduğunu göstərirlər. Ermənilərin İrandan köçürülməsi zamanı fəallıq göstərən hərbçilər və din xadimləri mükafatlandırıldıqları kimi,



Azərbaycan Milli Kitabxanası

Türkiyədən köçürülmələr zamanı xidməti olanlar da mükafatlandırılmışdılar.

Ərzurumdan ermənilərin köçürülməsi işindəki xidmətlərinə görə 1830-cu il oktyabrın 20-də arxiyepiskop Karapet 1-ci dərəcəli Müqəddəs Anna ordeni ilə təltif edilmişdir.[38] Sonralar İmperator I Nikolay 1837-ci ildə Axıskaya gedərək Karapetlə görüşmüş, həmin xidmətinə görə ona öz minnətdarlığını bildirmişdi.[39] İmperatorun fərmanı ilə 1831-ci il aprelin 24-də Türkiyədən köçürülən ermənilərin təsərrüfat ehtiyaclarını ödəmək üçün verildiyi vaxtdan 4 il keçəndən sonra, 6 il müddətinə faizsiz olaraq qaytarmaq şərti ilə xəzinədən 380 min gümüş rubl ayrılmışdı.[40] Ümumiyyətlə, 1828-29-cu illər Rusiya-Türkiyə müharibəsindən sonra İ.Şopenin İrəvan və Naxçıvan xanlıqlarının ərazisində apardığı siyahıyaalınmanın nəticələrinə görə, vilayətin ərazisinə 21666 nəfər (3682 ailə) erməni, 324 nəfər (67 ailə) yezidi kürdlərinin köçürüldüyü göstərilir. Köçürülən ermənilər Qırxbulaq, Sürməli, Talın, Körpübasar, Abaran, Dərəçiçək və Göyçə mahallarının 129 kəndində yerləşdirilmişdilər.[41] İndiki Ermənistan ərazisinin Şörəyel və Loru-Pəmbək bölgələri 1801-1805-ci illərdə Gürcüstana birləşdirildiyindən Erməni vilayətinə daxil edilməmişdi. 1829-cu ilə qədər, yəni Rusiya-Türkiyə müharibəsindən sonra ermənilərin rəsmi köçürülməsinə qədər Şörəyel-Pəmbək distansiyasına 1536 ailə (5425 nəfər kişi cinsi) yerləşdirilmişdi. Sonra isə Türkiyədən 3148 ailə (10575 nəfər kişi cinsi), 1832-ci ilin sonu, 1833-cü ilin əvvəllərində Türkiyədən Zalqaya köçürülən ermənilərdən 182 ailə (674 nəfər kişi cinsi) yenidən Şörəyel-Pəmbək distansiyasına gətirilmişdi. Köçürülənlərin arasında 169 yunan və 963 nəfər erməni katolikləri (frankları) var idi.[42] Şörəyel-Pəmbək bölgəsində 100-ə yaxın kənddə Türkiyədən köçürülmüş ermənilər məskunlaşdırılmışdı.[43]

Bu, eləcə də digər faktlar göstərir ki, rus imperiyası belə bir siyasət yeridirdi. Türkiyə ilə sərhəddə özünə sərf edən dövlət qurumu yaratsın və bu dövlətdən Türkiyəyə, həm də bütün müsəlman ölkələrinə qarşı istifadə etsin. Daha doğrusu, Ermənistan dövləti yaratmaqla Rusiya özünə arxa dövlət-forpost qurmuş olurdu. İndiki Ermənistan ərazisinə ermənilərin kütləvi axını 19-cu əsrin əvvəllərində baş verən Rusiya-İran, Rusiya-Türkiyə müharibələrindən sonra da davam etmişdir.[44]





Türkiyədən köçürülən yunanlar isə, əsasən Şörəyel-Pəmbək distansiyasının Alakilsə, Bayandur, Sisimədən kəndlərində və Gümrüdə yerləşdirilmişdilər. Sonralar yunanlar Ermənistanda tamamilə assimilyasiyaya uğrayaraq tədricən erməniləşmişlər.[45]

❖❖❖

Ümumiyyətlə, 1826-1828-ci illər Rusiya-İran və 1828-1829-cu illər Rusiya-Türkiyə müharibələrindən sonra yeni yaradılmış Erməni vilayətinə (keçmiş İrəvan və Naxçıvan xanlıqlarının ərazisinə) İran və Türkiyədən 57266 nəfər erməni (10631 ailə) köçürülmüşdü. Köçürülmələrdən əvvəl həmin ərazidə cəmisi 25131 nəfər (4428 ailə) erməni yaşamışdır. Müharibələrin nəticəsində İrəvan və Naxçıvan xanlıqlarının ərazisindən türklərin xeyli hissəsi qaçqın düşmüş, orada yalnız 81749 nəfər (17078 ailə) müsəlman qalmışdı. Köçürmələrdən sonra isə ermənilər 82397 nəfər (15059 ailə) təşkil etmiş, nəticədə müsəlmanları sayca üstələmişdilər.[46] Lakin hələ XIX əsrin əvvəlində Rusiyanın müəyyən dairələri rus ordusunun Zaqafqaziyada işğal etdiyi ərazilərdə erməniləri deyil, məhz rus koloniyalarının kazakların, malakanların, duxoborların və s. yerləşdirilməsinə üstünlük verirdilər. Bu məqsədlə bir neçə layihə hazırlanmışdısa da, sonralar icrası təxirə salınmışdı. N.N.Şavrov Rusiyanın Zaqafqaziyadakı müstəmləkəçilik siyasəti haqqında yazır: "Biz müstəmləkəçilik fəaliyyətimizə Zaqafqaziyada rusların deyil, bizə yad olan xalqların yerləşdirilməsindən başladıq... 1826-28-ci illər müharibəsinin qurtarmasından sonrakı iki il ərzində 1828-ci ildən 1830-cu ilədək Zaqafqaziyaya 40 min İran və 84 min Türkiyə erməniləri köçürülmüş və onları Yelizavetpol (Gəncə) və İrəvan quberniyalarının ən yaxşı dövlət torpaqlarında yerləşdirmişdik ki, orada erməni əhalisi cüzi idi. Onları həmçinin Tiflis quberniyasının Borçalı, Axıska və Axılkələk qəzalarında yerləşdirdik, onların yerləşdirilməsi üçün 200 min desyatindən artıq dövlət torpağı ayrılmış, 2 milyon rubldan artıq məbləğdə müsəlmanlardan xüsusi mülkiyyət torpaqları satın alın-



Azərbaycan Milli Kitabxanası

mışdı. Yelizavetpol quberniyasının dağlıq hissəsi (Dağlıq Qarabağ, Xanlar və Şəmkir rayonları nəzərdə tutulur - müəlliflər) və Göyçə gölünün sahili həmin ermənilərlə məskunlaşdırılmışdı. Nəzərə almaq lazımdır ki, 124 min rəsmi köçürülən ermənilərlə yanaşı, qeyri-rəsmi şəkildə köçənlər də çox olmuşdur və ümumiyyətlə, köçənlərin sayı 200 min nəfərdən xeyli artıqdır.[47] Ermənilərin indiki Ermənistan ərazisinə axını 1877-1878-ci illər Rusiya-Türkiyə müharibəsindən sonra bir daha güclənmişdi. 90-cı illərdə Türkiyədə baş verən erməni üsyanları nəticəsində 400 minə yaxın erməni yenə də Qafqaza köçüb gəlmişdi.

N.Şavrov qeyd edir ki, 20-ci əsrin əvvəlində Zaqafqaziyada yaşayan 1300000 ermənidən bir milyonu yerli əhali deyil, rusların vasitəsilə məskunlaşdırılmışdı. Ermənistan KP MK-nın katibi K.Dəmirçiyan 1986-cı il 2 noyabr tarixdə Sov. İKP MK-ya göndərdiyi məktubda yazırdı ki, Sovet hakimiyyəti illərində xarici ölkələrdə yaşayan 230 min nəfərdən çox erməni Ermənistana köçüb gəlmişdir.[47a] Bütün qeyd edilənlərdən o nəticəyə gəlmək olar ki, indiki Ermənistanda yaşayan ermənilərin sələfləri demək olar ki, hamısı vaxtilə Cənubi Azərbaycandan və sonralar Türkiyədən, son dövrlərdə isə xarici ölkələrdən - əsasən, Suriya, Yunanıstan, Livan, Bolqarıstan və Rumıniyadan köçüb gələnlərdən ibarətdir.





# II FƏSİL

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANDA ERMƏNİLƏRİN TÖRƏTDİKLƏRİ VƏHŞİLİKLƏR

## *§ 1. AZƏRBAYCANLILARA QARŞI APARILAN SOYQIRIM TARİXİNDƏN*

XX əsrin əvvəllərində Rusiyanın rəsmi dairələrindən himayə görən ermənilər silahlanaraq indiki Ermənistanın hər yerində və Yuxarı Qarabağda dəfələrlə basqınlar etmiş, Azərbaycan türklərinə qarşı vəhşiliklər törədərək, onları doğma yurdlarından didərgin salmışlar. Bu cür qırğınlar 1905-1906 və 1915-1920-ci illərdə daha kütləvi şəkil almış, demək olar ki, Azərbaycanın həm qərbində, həm şimalında, həm də cənubunda həyata keçirilmişdir.

Azərbaycanlılara qarşı aparılan soyqırımı və deportasiya siyasəti XX əsrin axırlarında Dağlıq Qarabağ hadisələri ilə davam etdirilmişdir. Xalqımıza qarşı soyqırımı siyasətinin təzahürləri son yüzillikdə daha qabarıq şəkildə özünü büruzə versə də, bu əməllərin başlanğıcı çox-çox əvvəllərə gedib çıxır. Zaman-zaman azərbaycanlıların başına gətirilən faciələrin, bəlaların kökləri daha dərindədir. Üç yüz ildən artıq bir dövrdə bu siyasət müxtəlif formalarda həyata keçirilsə də, mahiyyətcə bir məqsədə xidmət edib. Qafqazda azərbaycanlılara qarşı aparılan soyqırım siyasəti, əsasən, aşağıdakı bir neçə amillə bağlı olmuşdur:

Rusların Azərbaycanın şimal torpaqlarını (Dərbənd, Quba, Bakı və s.) ələ keçirməsi;

Xəzər dənizində rusların nəzarətinin güclənməsi;

Rusiya imperiyasının Qafqazı işğal etməsi;

Rusiyadan və Ukraynadan müəyyən qisim əhalinin Azərbaycan ərazilərinə köçürülməsi;



Azərbaycan Milli Kitabxanası

İrandan və Türkiyədən ermənilərin Azərbaycan ərazilərinə köçürülməsi;

Rusiya imperiyasının ermənilərə himayədarlıq etməsi, rusların Qafqazda özlərinə dayaq nöqtələri axtarması;

Rusiyanın və digər fövqəldövlətlərin Qafqazın coğrafi-siyasi məkanında istənilən pilləni tuta bilməməsi;

Bölgədə nüfuz dairəsini genişləndirmək uğrunda iri dünya dövlətləri arasında mübarizənin gərginləşməsi.

Şimal istiqamətindən rus ordularının azərbaycanlılara qarşı hücum və basqınları həmişə böyük itkilər və dağıntılarla müşayiət olunmuşdur. Hələ 1668-ci ildə Don kazakı Stepan Razinin Azərbaycana hücumu zamanı ataman Sergey Krivoyun 2 min döyüşçüsü əvvəlcə Dərbəndə, sonra isə Bakıya basqınlar edərək yerli əhalidən xeyli adamı qırmış və əsir götürmüşlər. S.Razin bütövlükdə 6 minə qədər döyüşçüsü ilə Bakıda və digər yerlərdə törətdiyi faciələr ilə əlaqədar 1671-ci il iyunun 6-da ona elan olunan ölüm hökmündə belə bir fakt xüsusi vurğulanır:

"Sən canisən... Xəzər dənizi sahillərində əhalini talan etdin, xeyli adam öldürdün, bir neçə şəhəri dağıtdın, iki çarlıq arasında böyük qırğın toxumu səpdin".

"XVI əsrin ortalarından etibarən Volqa-Xəzər yolu, həmçinin Azərbaycandan keçən quru ticarət yolu beynəlxalq əhəmiyyət kəsb edirdi. Bəzi Avropa ölkələri bu yoldan istifadə etməyə çalışır və Rusiyadan kömək istəyirdilər. Çünki XVII əsrin sonunda bu yol rus tacirlərinin əlinə keçmişdi. Rus dövləti də Səfəvi hakimiyyəti ilə Qərbi Avropa arasında yeganə vasitəçi olmağa çalışırdı. Bu cəhd 1667-ci ildə uğurla başa çatdı. Rusiya Qızılbaş xam ipəyini Həştərxan vasitəsilə Moskvaya, daha sonra Mərkəzi və Qərbi Avropa ölkələrinə daşımaq inhisarına yiyələnmək üçün Yeni Culfada yerləşən erməni şirkəti ilə müqavilə imzaladı. Ruslara Səfəvilərin bütün hakimiyyəti dövründə gömrüksüz ticarət etmək hüququ verildi. Şahın fərmanında yerli hakimlərə, rus tacirlərinə xüsusi ehtiram göstərmək tapşırılırdı" (Azərbaycan tarixi. Bakı, 1994).

1707-1709-cu illərdə İranda Rusiyanın səfiri olmuş erməni mənşəli İsrail Ori və onu müşayiət edən arximandrit Minas Vardapet Quba xanlığı ərazisində, Niyazabadda körpü tikdirmiş və onun üzərinə





rus gerbi vurdurmuşdu.

Ermənilər öz mənafeləri naminə hər bir məqamdan istifadə etməyə cəhd göstərmişlər. Rusiya nümayəndə heyətinin tərkibində bu və ya başqa ölkəyə gedən hər bir erməni ən adi və kiçik fürsət tapan kimi həmin ölkədə ermənilərin xeyrinə müəyyən işlər görməyə nail olmuşdur. Bununla əlaqədar XVI əsrdən bu günə qədər yüzlərlə fakt və hadisə mövcuddur.

Bütün dövrlərdə ermənilər öz dövlətlərini yaratmaq üçün hər cür vasitələrdən istifadə etmişlər. Onlar bütün üsullara əl ataraq Türkiyənin, Rusiyanın, İranın, SSRİ-nin və hətta Azərbaycanın müxtəlif hökumət və dövlət strukturlarında, xüsusən hərbi sahədə öz nümayəndələrini yerləşdirməyə nail olmuşlar. Keçmişdə də, bizim dövrdə də.

1721-ci ildə I Pyotr İsveçlə müharibədə qalib gəldikdən sonra öz ordusu və 274 gəmisi ilə Dərbənd istiqamətində iki yolla - həm dəniz, həm də quru yürüşə başladı. 1722-ci il iyunun 15-də Həştərxanda ikən I Pyotr öz "Manifest"ini nəşr etdirdi. Azərbaycan dilində hazırlanan bu "Manifest" xüsusi məqsədlər güdürdü.

Təxminən 200 il bundan əvvəl Rusiya çarı I Pavel bir qisim erməni əhalisinin Dərbəndə və Quba xanlığının ərazisinə köçürülməsi barədə fərman vermişdir. Həmin fərman belə adlanır: "Dərbənd və Müşkür ermənilərinin imtiyazları və sərbəst hərəkət etmək hüququ haqqında".

Qəribə də olsa, İran və Rusiya dövlətləri bütün dövrlərdə ermənilərə xüsusi imtiyazlar vermişlər. Bəzi fərmanlara diqqət yetirək.

1605-ci ildə I Şah Abbas şahlığın ərazisində pərakəndə yaşayan ermənilərin yığcam halda yaşamaları üçün xüsusi ərazilər ayrılması barədə fərman vermişdir.

1707-ci ildə Rusiya Zaqafqaziyaya xüsusi yürüş etmək məqsədilə İsrail Orinin (ona Rusiya ordusunun polkovniki rütbəsi verilmişdi) rəhbərliyi altında 50 nəfərlik nümayəndə heyəti göndərmişdir.

1723-cü il 12 sentyabr tarixli müqavilə ilə Rusiya çarı I Pyotr Bakı, Quba, Dərbənd ərazilərinə ermənilərin köçürülüb gətirilməsi üçün yerlər ayrılması barədə fərman vermişdir.

1726-cı il fevralın 22-də II Yekaterina ermənilərə xüsusi mərhəmət və himayədarlıq etmək barədə fərman imzalamışdır.

1728-ci il aprelin 17-də Rusiya Nazirlər Kabineti erməni və gür-



Azərbaycan Milli Kitabxanası

cü zabitlərinin hazırlanması üçün erməni və gürcü zadəgan uşaqlarının xüsusi kadet korpusuna qəbul edilməsi haqqında qərar çıxarmışdır.

1797-ci il oktyabrın 1-də Rusiya çarının fərmanı ilə 2 min nəfər iranlı erməni məliki Rusiya təbəəliyinə qəbul edilmişdir.

1799-cu il iyunun 3-də imperator I Pavel ermənilərin Azərbaycanın Qazax ərazisində məskunlaşmasına köməklik edilməsi barədə Kartli-Kaxetiya çarlığına xüsusi göstəriş vermişdir.

Çox qəribə də olsa, belə bir cəhəti müşahidə etmək olur ki, istər Osmanlı-Səfəvi müharibələri zamanı, istərsə də Rusiya-İran, Rusiya-Türkiyə müharibələri zamanı nəticə etibarilə hər dəfə ermənilərin mənafeyinə uyğun hadisələr baş vermiş, qərar və sərəncamlar qəbul edilmişdir.

Bu müharibələr başa çatdıqdan sonra bağlanan bütün müqavilə və razılaşmalarda bu və ya başqa şəkildə ermənilərin xeyrinə ya bir bənd, ya da bir izahlı maddə olmuşdur. Bu da sonralar Qafqazda, Türkiyədə, İranda, Rusiyada ermənilərin daha geniş əl-qol açmasına, xüsusi imtiyazlar qazanmasına imkan vermişdir.

Ermənilərin Qafqaza, xüsusən Azərbaycan ərazilərinə köçürülməsi ilk gündən yerli əhali üçün böyük problemlər yaratmışdır. Azərbaycan torpağına ayaq basdıqları andan onlar azərbaycanlılara qarşı cinayət əməlləri törətməyə başlamışlar.

İlk dəfə İrandan ermənilərin İrəvan ərazisinə köçürülməsi ilə bağlı 1519-cu ildə Rəvan bəylərbəyi Təbrizə xüsusi məktub göndərərək bildirmişdir ki, bu köçürülmənin nəticələri yeni münaqişələrə aparıb çıxaracaq, toqquşmalar, yerli əhali üçün faciələrə səbəb olacaqdır. Sonrakı dövrlərdə baş verən hadisələr bu deyilənləri bir daha təsdiq etdi.

1828-ci il fevralın 10-da Təbriz-Tehran yolunun üstündə yerləşən Türkmənçay kəndində Rusiya-İran müqaviləsi bağlandı. Martın 20-də Rusiya hökmdarı I Nikolay bu müqaviləni təsdiq etdi və elə ertəsi gün İrəvan və Naxçıvan xanlıqlarının əraziləri əsasında yeni inzibati vahid - "erməni vilayəti" yaradıldı.

Türkmənçay müqaviləsinin 15-ci maddəsinə əsasən, İranda yaşayan ermənilərə sərbəst surətdə Rusiyanın himayəsinə keçmək hüququ verilirdi. Əslində, ermənilərin Qafqaza köçürülməsinə ondan bir il





əvvəl hazırlıq işləri aparılmışdı.

1828-1829-cu illərin Rusiya-Osmanlı müharibəsindən sonra da ermənilər Türkiyədən tarixi Azərbaycan torpaqlarına köçürüldülər. Hətta bu iş üçün 1829-cu ildə Rusiya tərəfi xüsusi komitə təşkil etmiş və qeyd etdiyimiz kimi 12 maddəlik ümumi qaydalar müəyyənləşdirmişdi.

Bir az irəliyə gedərək belə bir təkzibolunmaz faktı xatırlatmaq istərdik ki, son üç yüz ildə azərbaycanlılara qarşı soyqırımı siyasətinin əsas səbəbkarları indiki Ermənistanda yaşayan ermənilər və onların sələfləridir. O sələflər ki, onların hamısı vaxtilə İrandan, Türkiyədən, daha sonra Suriyadan, Yunanıstandan, Livandan, Bolqarıstandan, Rumıniyadan Qərbi Azərbaycana - indiki Ermənistana köçüb gəliblər. Məhz bu proseslərin nəticəsi olaraq 1905-1906-cı illərdə azərbaycanlılara qarşı böyük və ağlasığmaz qırğınlar baş verdi, rus və erməni-daşnak qüvvələri təkcə Qərbi Azərbaycanda deyil, Cənubi, Şimali və Şərqi Azərbaycanda da azərbaycanlılara qarşı kütləvi soyqırım törətməyə nail oldular.

Məhz bu proseslərin davamı və ən yüksək zirvəsi kimi 1988-1990-cı illərdə Ermənistanda azərbaycanlıların kökünü kəsmək və "türksüz Ermənistan" yaratmaq məqsədilə soydaşlarımıza qarşı əsrin ən ağır və qəddar vəhşilikləri həyata keçirildi.

Azərbaycanlıların kütləvi qırğınları bütün dövrlərdə və bütün hallarda əvvəlcə deportasiya, onun ardınca isə soyqırımlarının başlanması ilə müşayiət olunmuşdur. Köçürmələr soyqırımlarla başlanmış, soyqırımlarla da tamamlanmışdır. Bu hal xüsusən 1905-1906, 1917-1918, 1988-1990-cı illərdə dəhşətli amansızlıqlarla həyata keçirilmişdir.

"Bu da bir həqiqətdir ki, azərbaycanlılara qarşı soyqırım hadisələri üçün təkcə ermənilər deyil, həm də onların arxasında duranlar və onların havadarları da məsuliyyət daşıyırlar. Amma həqiqət gec-tez öz yerini tutur. Tarix hər şeyi öz məcrasına qoya-qoya davam edir və onun səhifələrini bicliklə yazanlar deyil, düzlüklə yazanlar və yozanlar bəzəyir, yaşadır, nəsillərdən-nəsillərə ötürürlər.

Tarix bütün dövrlərdə hamı üçün ibrət dərsi olmuşdur. O xalqlar öz istək, arzu və amallarına nail olurlar ki, onlar tarixdən lazımi ibrət dərsləri götürə bilirlər".[1]



Azərbaycan Milli Kitabxanası

## § 2. AZƏRBAYCANLILARA QARŞI 1905-ci İL SOYQIRIMI

Ötən əsrin əvvəllərində baş vermiş erməni-müsəlman davaları tarixinə müraciət edən araşdırmacıların çoxu bu fikirdədir ki, törədilmiş qırğınların əsas baiskarları erməni kilsəsi və erməni millətçiləri olmuşlar. "Erməni millətçiləri əvvəl Osmanlı dövlətində, sonra isə Rusiya şəhərlərində xüsusi qımdatxanalar (müasir saqqallı erməni quldurlarının əcdadlarını türklərə qarşı birləşdirmiş mərkəzlər - N.Ş.) yaratmışdılar. Ora ziyalılar, cavanlar, sənətkarlar və erməni icmasının başqa nümayəndələri cəlb olunurmuş. Osmanlı və Azərbaycan türklərinə qarşı təbliğatda, təxribatda, sui-qəsddə, eləcə də silahlı toqquşmalarda istifadə etmək üçün lazımi hərbi sursatın, çar məmur və zabitlərinin rüşvətlə ələ keçirilməsi məqsədilə varlı erməni təbəqələrindən pul toplamaq qımdatların əsas vəzifələrindən biri idi".[2]

Məhz erməni millətçi ziyalılarının və kilsənin, bir də onların havadarları olan ali rus məmurlarının əməlləri və "işbirliyi" sayəsində günahsız insanlar qətlə yetirilirdi.

Araşdırıcı-şərqşünas alim Kamandar Şərifli M.M.Nəvvabın "1905-1906-cı illərdə erməni davası" əsərinin 1993-cü il nəşrinə yazdığı "Qanlı-qadalı illərin dəyərli abidəsi" adlı ön sözdə çox doğru olaraq qeyd edir: "Əgər biz XX yüzilliyin lap əvvəllərindən başlayaraq bu günümüzədək erməni millətçiləri tərəfindən xalqımıza qarşı törədilən aşkar və gizli qırğınlara, torpağımıza şərik və sahib olmaq məqsədilə aparılan təbliğatlara və silahlı vuruşmalara dair çar Rusiyasında və keçmiş SSRİ-də, eləcə də xarici ölkələrdə yazılmış onlarla məxəzi izləmiş olsaq, görərik ki, elə bu iki millət arasında ədavəti qızışdıran və təşkil edən başlıca qüvvə kilsə və onun ətrafına toplanmış erməni "ziyalıları" olmuşlar".[3]

Azərbaycanlılara qarşı, xüsusən Qərbi Azərbaycanda - soydaşlarımızın tarixi-etnik torpaqlarında qırğın planlarını ermənilər əsrin lap ilk illərindən - 1903-cü ildən hazırlamağa başlamışdılar. Sonra bu işə hazırlıq Azərbaycanın digər ərazilərində də gizlin olaraq davam etdirildi.





1904-cü ildə Bakıda ermənilərlə müsəlmanlar arasında baş vermiş münaqişədən bəhs edən M.M.Nəvvab yazır: "Əvvələ bunu bilmək lazımdır ki, İrəvan şəhərinin erməniləri çox kinli, ədavətli, təkəbbürlü, xudpəsənd və xəmirləri fitnə-fəsad ilə yoğrulmuş adamlardır. Hansı vilayətdə ki bunlar tapılır, mütləq orda bir ədavət və iğtişaş olacaq. Qafqaz vilayətlərində nə qədər iğtişaş və münaqişələr baş verirdisə, onların birinci səbəbkarı İrəvan erməniləri olurdu..."[4]

İki əsrə yaxındır ki, erməni siyasətbazları uydurulmuş "Böyük Ermənistan" yaratmaq uğrunda mübarizə aparır, mənfur ideyalarını açıq, yaxud gizli şəkildə həyata keçirmək üçün Qafqaz türklərinə qarşı soyqırım siyasətini məqsədyönlü şəkildə mərhələ-mərhələ yerinə yetirir.

Qafqazda çarizmin işğalçılıq və müstəmləkəçilik siyasətinin həyata keçirilməsində yaxından iştirak edən erməni siyasətbazların öz milli mənafeləri var idi. Onlar "dənizdən-dənizə böyük Ermənistan" mifinin reallaşması üçün məhz çar Rusiyasının vasitəsilə İrandan və Türkiyədən ermənilərin kütləvi şəkildə köçürülüb Qafqazda, o cümlədən Azərbaycan torpaqlarında məskunlaşmasına nail oldular.

Ermənilərin bu ərazidə məskunlaşdırılması uzaqgörən bir siyasətə xidmət edirdi. Onlar bu ərazilərdə məskunlaşmaqla gələcəkdə aborigen müsəlman əhalisini həmin torpaqlardan sıxışdırıb çıxarmağı, ərazi iddiası irəli sürməyi, soyqırımı tətbiq etməklə öz mənfur ideyaları olan "Böyük Ermənistan" xülyasını həyata keçirməyi nəzərdə tuturdular.

Xalqlara böyük fəlakət gətirən bu çirkin niyyəti yerinə yetirmək üçün ermənilərin Qafqazda məskunlaşdırılması əsas planın başlanğıcı, ilkin mərhələsi idi. Erməni əhalisi arasında geniş təbliğat aparmaq, onların mənəviyyatını bu mənfur ideya ilə zəhərləmək, ərazisində, torpağında yaşadığı Qafqaz türklərinə qarşı nifrət hissi oyatmaq və gələcək fəaliyyətdə onlardan istifadə etmək həmin planın sonrakı mərhələsinə daxil idi.

Bu planı həyata keçirmək məqsədilə ermənilər 1890-cı ildə "Daşnaksütyun" partiyasını yaratdılar. Tezliklə bu partiyanın özəkləri bütün Qafqazı, Rusiyanı, habelə dünyanın demək olar bütün öl-

Azərbaycan Milli Kitabxanası

kələrini əhatə elədi.

1905-ci ildə Rusiyada, eləcə də Qafqazda inqilabi dalğaların artdığından istifadə edən "Daşnaksütyun" partiyası böyük səylə hazırladığı soyqırğını planını həyata keçirməyə çalışdı.

Bu dövrdə Qafqazda, o cümlədən Azərbaycanda xalqlar arasında düşmənçilik siyasətinin aparılması çarizmin özünə də sərfəli idi. Çünki çar məmurları erməni-müsəlman qırğınının başlanması ilə kütlələrin inqilabi işdən uzaqlaşacağını yəqin edirdilər. Buna görə onlar ermənilərin planının mahiyyətinə varmır, əksinə, qırğını daha da qızışdırmağa çalışırdılar.

Ermənilər qırğın baş verənə qədər yaxşı silahlanmışdılar. Bakı şəhər qubernatorluğuna verilən raportlardan aydın olur ki, hər bir erməni evi, ailəsi müxtəlif növ silahlarla təchiz edilmişdi.

Tezliklə, Bakıda əsası qoyulan bu soyqırım Azərbaycanın başqa əyalətlərinə də keçdi. Gəncə, Qarabağ, Naxçıvan, Zəngəzur, İrəvan və Şirvan mahallarında qırğın daha da genişləndi. Şuşa, Cavanşir, Cəbrayıl, Zəngəzur qəzalarında 75 kənd yandırıldı, 3.431 azərbaycanlı ailəsi bu hadisələrin qurbanına çevrildi.

Erməni daşnakları İrəvan-Naxçıvan, Naxçıvan-Zəngəzur və Zəngəzur-Qarabağ istiqamətində soyqırım siyasətini tətbiq etməklə həmin ərazilərdən müsəlman əhalisinin təmizlənməsi, boşaldılması və sonra bu ərazilərin özlərinin yaşadıqları torpaqlara birləşdirilməsi məqsədi güdürdülər. Buna görə də 1905-ci ildə əsası qoyulmuş bu soyqırımı siyasəti sonrakı illərdə daha mütəşəkkil və məqsədyönlü şəkildə həyata keçirildi.

Tarixi məlumatlardan aydın olur ki, 1905-ci ildə ermənilər tam silahlanmışdılar. Onların Azərbaycan kəndlərinə basqınları nəticəsində əhali ev-eşiyi boşaldır, yurd-yuvalarından qaçır və böyük tələfat verirdi. Ələ keçən müsəlman kəndləri və əhalisi amansızlıqla məhv edilirdi.

Eyni vəziyyət İrəvan mahalında da hökm sürürdü. 1905-ci ilin may-iyul aylarında burada ermənilər mütəşəkkil silahlı qoşunla azərbaycanlı kəndlərinə hücum etmiş, bir çox kəndləri yandırmış, əhalini öldürmüşdür. Bəzi kəndlərdə müsəlmanlarda tək-tük ov tüfəngi olduğundan erməni yaraqlılarının qabağına əhali arvad-uşağı





qorumaq üçün xəncərlə çıxmışdılar. Bu vaxt erməni yaraqlılarının sayı 10 min nəfərə çatırdı. Onlar İrəvan ətrafında və Eçmiədzində bir çox azərbaycanlı kəndlərini dağıtdılar, xeyli müsəlman əhalisini qırdılar və öz yurdundan didərgin saldılar.

Böyük ədib M.S.Ordubadi bu haqda belə yazırdı: "İrəvan mahalı bir yanar dağa, vulkana dönüb nəcib islam millətini yandırmaqda və boğmaqda idi".

1905-ci ilin avqust-noyabr aylarında Azərbaycanda erməni-müsəlman qırğınları daha da şiddətləndi. Xüsusilə, Cəbrayıl-Qaryagin bölgəsində ermənilər böyük vəhşiliklər törətdilər. Müsəlman özünümüdafiə dəstələri gəlib çatana qədər ermənilər bir-bir Azərbaycan kəndlərinə hücum edir, əhalini öldürür, evləri yandırır və bununla da ərazini müsəlmanlardan təmizləmək siyasətini uğurla həyata keçirməyə çalışırdılar. Veysəlli, Qacar, Çəmən, Xırmancıq, Mərzə, Arış və başqa kəndlərdə azərbaycanlılardan ibarət özünümüdafiə dəstələri erməni yaraqlılarına layiqincə cavab verə bildilər.

1905-ci oktyabrın 3-də ermənilər Qarabağın Sırxavənd kəndində böyük vəhşiliklər törətdilər. Həmin gün meşədən çıxan erməni piyada dəstələri kəndə yaxınlaşıb dinc əhalini atəşə tuturlar. Silahlı nizami qoşuna qarşı müqavimət göstərə bilməyən əhalinin meşəyə qaçmaqdan başqa çarəsi qalmır. Lakin buna baxmayaraq, 400 nəfər erməni süvarisi onları təqib edib öldürür. Erməni silahlı dəstələri qısa vaxt ərzində kəndin demək olar bütün əhalisini qırır, evləri tam dağıdırlar. Sonra onlar bu kənddən Əliağalı yaşayış yerinə keçib oranın da əhalisinin başına eyni aqibəti gətirirlər.

Ermənilərin bu vəhşiliklərini eşidən bir çox azərbaycanlı kəndlərin əhalisi ev-eşiyi atıb qaçmışdılar. Buna görə də erməni silahlı dəstələri asanlıqla kəndləri tutur, qarət edir və sonra da dağıdıb yandırırlar.

Bu dövrdə dəfələrlə sülh danışıqları aparılmasına baxmayaraq, ermənilər müvəqqəti sakitlikdən istifadə etmiş, azərbaycanlıların gözləmədikləri halda qəflətən bu və ya digər kəndlərimizə hücum etmiş, yaxud terror hadisəsi həyata keçirmişlər. Gəncə, Tiflis qəzalarında yaşayan azərbaycanlılar dəfələrlə bu siyasətin acı nəticələrinə düçar olmuşlar.



Azərbaycan Milli Kitabxanası

1905-ci il erməni-müsəlman qırğınlarının həyata keçirilməsi sonrakı illərdə erməni daşnakların bu qırğın planını daha yaxşı hazırlamasında böyük rol oynadı. Belə ki, 1918-1920-ci illərdə yaxşı silahlanmış erməni dəstələri Bakı, Quba, Şamaxı, Naxçıvan, Gəncə, Qarabağ, Zəngəzur və İrəvanda azərbaycanlılara qarşı böyük soyqırım siyasətini həyata keçirdilər. Bu dövrdə on minlərlə günahsız uşaq, qadın və qoca amansızlıqla qətlə yetirildi: kəndlər dağıdıldı, əhali öz dədə-baba yurdundan didərgin, qaçqın vəziyyətinə düşdü. Həmin dövrün erməni, gürcü və Azərbaycan mətbuatında göstərildiyi kimi, İqdır və Eçmiədzin qəzalarında 60 kənd və bütün kişi əhalisi, Göyçə quberniyasında 22 kənd və 60 min nəfər, Yeni Bəyaziddə 84 kənd və 15 min nəfər, İrəvan qəzasında bütün kəndlər, Eçmiədzin və Sürməli qəzalarında 96 kənd və qəsəbə, Zəngəzur qəzasında 115 kənd, o cümlədən 4472 qadın və uşaq məhv edilmişdir. 1915-ci ildə İrəvan quberniyası müsəlmanlarının amerikalılara müraciətində göstərilir ki, həmin vaxta qədər bu qırğın zamanı 88 kənd dağıdılmış, 1920 ev yandırılmış və 131970 nəfər kişi öldürülmüşdür. Həmin dövrdə Qarabağın dağlıq hissəsində 150-dən çox müsəlman kəndi bütünlüklə məhv edilmiş, əhalisinin böyük əksəriyyəti isə vəhşicəsinə öldürülmüşdür.

1918-ci il mart qırğınları zamanı Bakı şəhərində 18 min nəfər bu soyqırımın qurbanı olmuşdur. 1920-ci ilin mayında ermənilərin bilavasitə yaxından köməyi sayəsində təcavüzkar XI Qızıl Ordu Gəncə şəhərində 12 min nəfərdən çox azərbaycanlını məhv etmişdir.

Erməni daşnaklarının törətdikləri bu milli soyqırım nəticəsində Azərbaycandan 9800 kvadratkilometr ərazi alınıb Sovet hakimiyyəti illərində Ermənistana verilmişdir.

"Lakin bu da erməni daşnaklarının iştahasını doydurmamışdır. Onlar "Böyük Ermənistan" mifini həyata keçirmək məqsədilə yeni-yeni təcavüzkar planlar hazırlamış, nəzərdə tutduqları mənfur siyasəti həyata keçirməyə çalışmışlar.

Sovet partiya və təsərrüfat orqanlarında işləyən mirzoyanlar, mikoyanlar və bir tərəfdən Ermənistanda və ermənilər yaşayan digər ərazilərdə öz gizli daşnak təbliğatlarının, millətçilik ideyalarının yayılmasına geniş imkan və şərait yaratmış, digər tərəfdənsə Azərbay-





canda, habelə Ermənistanda azərbaycanlı ziyalılarının məhvinə, sürgünə göndərilməsinə fitva vermişlər".[5]

1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman qırğınlarına dair "Qanlı illər" kitabını yazmış görkəmli yazıçı və publisist Məmməd Səid Ordubadi o dövrdə baş vermiş hadisələrə dair 245 məktub və yüzdən artıq məlumat aldığı və əldə etdiyi üçün erməni-müsəlman toqquşmalarının əsl mahiyyətini çox obyektiv və dəqiq faktlara əsaslanaraq açıqlaya bilmişdir.

Bu hadisələrin əsas səbəblərini sadalayan ədib, ilk növbədə "Daşnaksütyun" partiyasının niyyətlərini və ermənilərin müstəqil dövlət yaratmaq iddialarını ön plana çəkir və bunun üçün ermənilər "Türkiyə şəraitinə baxıb, işin çətinə düşdüyünü görüb, erməniləri Qafqaza daşımağı məsləhət" bilirlər.

M.S.Ordubadi baş vermiş hadisələrin bir səbəbini də o vaxtlar müsəlmanların elmsizliyi və o dövrkü işlərdən xəbərsiz olmaları ilə əlaqələndirərək yazır: "Müsəlmanlar elm və siyasətdən bixəbər olduqlarından hökumət məmurlarının Qafqazda tutduğu əqidəsini və ermənilərin o əqidədən necə istifadə etdiklərini düşünmədilər. Bakı faciəsindən sonra erməni-müsəlman hadisələrinin bu qədər uzanmasına səbəb müsəlmanların elmsizliyidir, digər bir cəhət var isə, o da müsəlmanların silahsız və müasir işlərdən xəbərsizliyidir. Bunu düşünməliyik ki, ermənilər Bakıda müsəlmanları yoxlamaq üçün öz əsgərlərinə müəyyən işarə verdilər. O vaxt müsəlman camaatı hazırlıq görüb ayıq tərpənsəydilər, erməniləri bir oyanışa, bir tənbihə uğratsa idilər, Qafqaz faciələrinə büsbütün son qoysalar, müsəlmanların da təbii şücaət və rəşadəti onlara məlum olardı. Əvvəlki faciələrdə ermənilərin bütün Qafqazı işğal altına alacaq qədərində əsgərləri yox idi. Ermənilər yalnız hiylə və siyasətlə iş tutub bir qrup könüllü əsgərlərlə müsəlmanların qüvvəsini əzmək istəyirdilər. Belə ki, Bakıda sülh edib müsəlmanları yatırmaqla Şuşada müharibəyə başlayır, Şuşada sülh edib Gəncə quberniyasının sair yerlərini yandırmağa və dağıtmağa təşəbbüs edirdilər".[6-9]

XX əsrin əvvəllərində Qafqazda, xüsusən də indiki Ermənistan ərazisində Azərbaycan türklərinə qarşı törədilən qırğınların ssenarisi ermənilərin XIX əsrin sonunda Şərqi Anadoluda əldə etdikləri



Azərbaycan Milli Kitabxanası

təcrübəyə əsaslanırdı.

1908-ci ildə Rusiya Daxili İşlər Nazirliyi polis departamentinin sənədlərində göstərilirdi ki, "Türkiyədəki məlum hadisələrdən sonra Zaqafqaziyaya yarım milyon erməni gəlmişdir. Bu ermənilər dərhal öz qara əməllərini göstərdilər".[10]

Bundan sonra indiki Ermənistan ərazisində "Daşnaksütyun" partiyasının sıraları daha da artmış, Qafqazda antitürk təbliğatı xeyli güclənmişdi. "Novaya vremya" qəzetinin İrəvan üzrə müxbiri Qriqoryevin verdiyi məlumata görə, törədilən cinayətlərin 80 faizi Türkiyədən gəlmiş ermənilərin, muzdlu qatillərin payına düşürdü.[11]

XX əsrin əvvəllərində erməni şovinizminin, millətçi erməni partiyalarının maddi və mənəvi qida mənbəyi rolunu erməni kilsəsi məharətlə oynayırdı. 1903-cü ildə kilsə torpaqlarının Rusiya Torpaq və Əmlak Nazirliyinin sərəncamına keçirilməsi haqqında çıxarılan qanun kilsənin maliyyələşdirdiyi siyasi təşkilatların maddi vəziyyətinə zərbə vurduğu üçün erməni terrorizminin genişlənməsinə, antitürk antimüsəlman əhval-ruhiyyəsinin qızışmasına səbəb olmuşdu. Erməni kilsəsi İrəvan və Eçmiədzində bu qanun əleyhinə qiyamlar təşkil etmişdi.[12] Həmin il avqustun 29-da Gəncədə, sentyabrın 2-də Qarsda və Bakıda, sentyabrın 12-də Şuşada, oktyabrın 14-də Tiflisdə ermənilər iğtişaşlar və terror törətmişdilər. 1905-ci ildə Rusiyanın özündə baş verən iğtişaşlar, çarizmə qarşı narazılıq dalğasının güclənməsi Zaqafqaziyada güclü əks-səda doğururdu. Bu qarışıqlıqdan ermənilər məharətlə istifadə edirdilər. Rusiyanın hakim şovinist dairələri də zərbəni özlərindən yayındırmaq üçün ermənilərin antitürk, antimüsəlman kampaniyasını qızışdırırdılar. Qafqaz canişinliyinin yüksək rütbəli erməni və ermənipərəst məmurları vasitəsilə silahlandırılan erməni dəstələri 1905-ci ildə Bakıda, İrəvanda, Naxçıvanda, Zəngəzurda, Qarabağda, Gəncədə, Tiflisdə və başqa yerlərdə yaşayan azərbaycanlılara qarşı silahlı hücumlar edib, həmin ərazilərdən onları təmizləməklə ermənilərin say üstünlüyünə nail olmaq istəyirdilər. Çünki həmin dövrdə Qafqazdakı 54 qəzadan yalnız beşində ermənilər çoxluq təşkil edirdilər.

1905-1906-cı illərdə Qafqazda erməni-müsəlman qırğınları haqqında polis departamentinin adı çəkilən sənədində deyilir: "Daşnaksütyun" öz qüdrətini göstərdi, müsəlmanlar cəfasını çəkdilər. Burada ikili oyun oynanılmışdı: birincisi, müsəlmanlarda olan qisasın bir qismini almaq, digər tərəfdən baş verən hadisələrin günahını mətbuat və təbliğatın köməyi ilə rus hökumətinin üzərinə yıxmaq, bununla da təkcə erməniləri deyil, Qafqazın digər sakinlərini də inqilabçılaşdırmaq üçün güclü təbliğat materialı əldə edilmiş olurdu. Nəticədə ermənilərə münasib olmayan bir çox rus məmurları və ayrı-ayrı şəxslər terror qurbanı oldular: general Əlixanov (Əlixanov-Avarski - müəl.), qubernatorlar Nakaşidze, Andreyev (birincisi Bakı qubernatoru, ikincisi Yelizavetpol (Gəncə) vitse-qubernatoru - müəl.), polkovniklər Bıkov, Saxarov və başqa dövlət məmurları (partiyanın hesabatından). Onların qismən nail olduqları ikinci məqsədləri ondan ibarət idi ki, Zaqafqaziyada ermənilərlə müsəlmanların yaşadıqları əraziləri bir-birindən ayırsın, Türkiyədən və qismən İrandan köçən ermənilərin məskunlaşdırılması üçün torpaqlar boşaldıldı. Son 5-6 ildə onların sayı yarım milyona çatmış, 200 min nəfər isə rus idarələrinin vəkaləti ilə təbəəlik əldə etmişdi. Yelizavetpol, İrəvan və Qars vilayətlərində ərazilərin qismən ayrılmasına nail olunmuş, torpaqların müəyyən hissəsi boşaldılmış, həmin ərazilərdə bir çox müsəlmanlar qaçaraq canlarını qurtarmışdılar".[13]





Əslində, Rusiyanın hakim dairələri də 1905-1906-cı illər erməni-müsəlman iğtişaşlarından öz məqsədləri üçün istifadə etməklə ikili oyun oynamışdılar. Çar məmurları Qafqazda güclənən narazılıq dalğasının hökumət əleyhinə yönələcəyindən qorxduqlarından, ermənilərin müsəlmanların yaşadığı ərazilərdə törətdikləri qırğınlara biganə qalmış, bəzi hallarda isə onların tərəfini saxlamaqla hər iki tərəfin gücünün etnik toqquşmalara sərf edilməsinə nail olmuşdular. Bu məqsədlə xüsusi xəfiyyə şəbəkəsinin qurulması haqqında C.Zeynaloğlunun 1924-cü ildə İstanbulda dərc edilən kitabında belə məlumat verilir: "Yalnız azəri türkləri qəflətdə idilər və iğtişaşlarda çar tərəfini saxlayırdılar. Rusiya hökuməti müsəlmanların bu qəflətindən istifadə edib, Peterburqdan xüsusi surətdə yüz otuz xəfiyyə məmuru göndərərək, türklər ilə ermənilər arasında icra etdiyi propaqanda ilə biri digəri əleyhinə silah işlətməyə təşviq və əsrlərcə yaxşı keçinən iki milləti biri digərinə qırdırdı".[14]



Azərbaycan Milli Kitabxanası

1905-ci il fevralın 6-da Bakıda bir nəfər azərbaycanlının erməni komitəçiləri tərəfindən öldürülməsi ilə başlanan erməni-müsəlman qırğınları bir çox müəlliflərin iddia etdikləri kimi bir təsadüf nəticəsində deyil, məhz bütün Qafqazın varlı ermənilərinin zaman-zaman cəm olduqları bir şəhərdə planlı şəkildə baş vermişdi. Ermənilər Bakıda erməni milyonerlərinin köməyi ilə istədiklərinə nail olacaqlarına, Bakının neft səltənətini əllərinə keçirəcəklərinə və bundan sonra bütün Zaqafqaziyadan müsəlmanları silah gücünə qovub Ermənistan dövləti yaradacaqlarına əmin idilər. Fevralın 6-dan 10-na qədər Bakıda şiddətlə davam edən qırğınlar zamanı hər iki tərəfdən tələfat min nəfərə çatsa da, ermənilərin niyyətləri baş tutmamış və məğlub olmuşdular.[15]

Ermənilər fevralın 21-23-də İrəvanda da qırğınlar törətmişdilər. M.S.Ordubadinin "Qanlı illər" kitabında verdiyi məlumata görə, ermənilərin növbəti fitnəkarlığı 1905-ci il mayın 5-də Naxçıvan qəzasının Cəhri kəndində üç nəfər müsəlmanın ağır yaralanması və mayın 7-də bir nəfər müsəlmanın Tunbul kəndində öldürülməsi ilə yenidən qızışır. Mayın 8-də İrəvan vitse-qubernatoru Baranovski, İrəvan şəhər qlavası Ağamolovla birlikdə Naxçıvan şəhər qlavası Cəfərqulu xan Naxçıvanski Naxçıvana gəlirlər. Qırğınlar ara vermədiyi üçün Tiflisdən general Əlixanov Avarski də Naxçıvana göndərilir. Ermənilər Naxçıvanda da məğlub olduqlarından növbəti iğtişaşları İrəvanda törədirlər. Ermənilərin məqsədi ilk növbədə İrəvan və onun ətraf kəndlərini müsəlmanlardan təmizləmək, sonra isə M.S.Ordubadinin təbirincə, "İrəvandan Naxçıvana qədər yol üstə yerləşən müsəlman kəndlərini dağıtmaqla İrəvan ermənilərini Naxçıvanda hazır əsgəri qüvvələrlə birləşdirmək, Naxçıvandan Zəngəzura kimi yol boyunda olan kəndləri dağıdıb Zəngəzur könüllüləri ilə Naxçıvandakı əsgəri qüvvəni birləşdirmək kimi alçaq xəyallar"-dan[16] ibarət idi.

Mayın 23-də ermənilərin Qarsaçay bağçasında müsəlman gənclərinə hücumu ilə İrəvanda qırğınlar başlanır. Mayın 31-də İrəvanda qırğınlar dayandırılsa da, ermənilər ətraf müsəlman kəndlərinə hücum etməyi qərara alırlar. Elə həmin axşam ermənilər Qırxbulaq mahalının Gözəcik kəndinə hücum edirlər. İyunun 2-də 10 min nə-





fərlik erməni alayı Məngüs kəndinə hücum edir. Dağılmış 12 müsəlman kəndinin əhalisi Təzəkəndə qaçır. Ermənilər iyunun 3-də Güllücə kəndinə hücum edirlər. Silahsız əhali Tutiyə, Damarqırmaz, Kamal kəndlərinə qaçır. Qırğınlar 18 gün davam edir. İyunun 9-da ermənilər Pərsi, Nəzrəvan, Kiçikkənd, Kötüklü, Qoşabulaq, İrku, Əngirsək, Təkiyə kəndlərini dağıdırlar. İyunun 10-da ermənilər Eçmiədzində 10 kəndi dağıdırlar.

1897-ci ildə İrəvan quberniyasında azərbaycanlı əhali 313176 nəfər olduğu halda, 10 ildən sonra - yəni 1907-ci ildə 302965 nəfər qalmışdı. Deməli, 1905 və 1906-cı illərdə İrəvan quberniyasında əhalinin 10 illik təbii artımından 10 min nəfər artıq azərbaycanlı qətlə yetirilmişdi.

İrəvan quberniyasında öz məqsədlərinə nail olan erməni silahlı dəstələri Qarabağda qırğınlar törətməyə başlamışdılar. İyunun 1-dən başlayan erməni hücumları nəticəsində Cəbrayıl-Qaryagin bölgəsində Veysəlli, Qacar, Çəmənli, Arış, Qışlaq, Məzrə kəndləri darmadağın edilir. Avqustun 16-da Şuşada qırğınlar törədilir.

1905-ci ilin noyabrında Gəncə şəhərində, Cavanşir və Qazax qəzalarında, Tiflis şəhərində ermənilər iğtişaşlar törədərək minlərlə günahsız azərbaycanlını qətlə yetirirlər.

Erməni müəllifi S.Zavaryanın verdiyi məlumata görə, həmin dövrdə Şuşa qəzasında 12, Cavanşir qəzasında 15, Cəbrayıl qəzasında 5, Zəngəzur qəzasında 43 (cəmisi 75) müsəlman kəndi dağıdılmışdır.[17]

1906-cı ildə Tiflisdə Qafqaz canişini Vorontsov-Daşkovun təşəbbüsü ilə erməni-müsəlman qırğınlarına son qoymaq məqsədilə sülh konfransı (məclisi) keçirilir. Həmin konfransda müsəlman nümayəndələri Əhməd bəy Ağayev, Əlimərdan bəy Topçubaşov, Adil xan Ziyadxanov və başqaları "Daşnaksütyun" partiyasının niyyətlərini ifşa edir, onun Qafqazda törədilən qırğınların, terrorçuluğun təşkilatçısı və icraçısı olduğunu göstərir, rəsmi hökumət dairələrinin bu təşkilatın əməllərinə göz yumduğunu sübuta yetirirlər.[18]

Lakin bu konfransın keçirilməsindən bir qədər sonra erməni silahlı dəstələri yenidən qırğınlara başlamışdılar. Bakıda və Şuşadakı ikinci məğlubiyyətlərindən sonra "Böyük Rusiya inqilabı söndü, biz

Azərbaycan Milli Kitabxanası

işləri sona çatdıra bilmədik" deyə 1906-cı ilin yayında Qarabağdan Zəngəzura yol açmaqdan ötrü İrəvan, Abaran, Aleksandropol, Şörəyel ermənilərinə teleqramlar göndərərək əsgər toplamışdılar. İrəvandan Zəngəzura, Zəngəzurdan Qarabağa qədər yol boyunca erməni əhalisinin sayı olduqca az idi. Ona görə M.S.Ordubadi "Tiflis sülh danışıqları" adlı yazısında həmin tədbirin hesabatını vermişdir. "1906-cı il fevral ayının 20-də Tiflis şəhərində Qafqazın səxavətli canişini cənab baş komandan Vorontsov-Daşkov həzrətlərinin səy və alicənabanə ciddi-cəhdləri sayəsində Yaşıl zal adlı hümayun sarayda təşkil olunmuş erməni-müsəlman sülh məclisinə dair yazısının əvvəlində müəllif tədbirin məqsədi, əhəmiyyəti və iştirakçıları barədə belə yazır: "Məclisin məramı Qafqaz müsəlmanlarını qan dəryasından çıxarıb müharibə və hadisələrin baş verməsi səbəblərini təftiş edib sonra hər iki millətin dərd və vəziyyətinə baxıb çarə axtarmağa və bir daha belə hadisələrə yol verməmək üçün hökuməti bir sıra lazımlı tədbirlər görməyə vadar etməkdir".

Hökumət tərəfindən bu məclisə tam nəzarət yetirən şəxslər: Qafqaz canişini cənab Vorontsov-Daşkov, Tiflis, İrəvan, Gəncə qubernatorları, canişin həzrətlərinin müavinləri, cənab Krım Soltanı Gəray, general Malama, general Şirinkin, kargüzar Peterson cənabları.

İslam nümayəndələri: Bakıdan cənab Əhməd bəy Ağayev, Kərbəlayi İsrafil Hacıyev, Əlimərdan bəy Topçubaşov, Tiflisdən hörmətli Məhəmməd ağa Vəkilov, Doktor Qarabəyov, Gəncədən Əliəkbərbəy Xasməmmədov, Ədil xan Ziyadxanov və başqaları.

Ermənı vəkilləri: "Müşak" qəzetinin müdiri Kalantar, Tiflisdən: Xatisov, Samson Artyunov, Bakıdan: Xatisov, Muşeksyan, doktor Stepanov, Arekelyan, Taqiyanusov, Ter-Avanesov, arixmandrix Muradyan və başqaları.

Məqsədin ərzi. Yuxarıda qeyd edilmiş sülh məclisinin qurulmasına və səxavətli sərdar tərəfindən fevral ayının 15-nə fərman verilmişdisə də, erməni vəkilləri nədənsə vaxtında gəlmədiklərindən məclisin başlanması ancaq fevralın 20-də gündüz saat birdə baş tutmuşdur...".[19]

Bu görüş zamanı Azərbaycan tərəfini təmsil edən nümayəndələr





- Əhməd bəy Ağayev, Əlimərdan bəy Topçubaşov, Adil xan Ziyadxanov, Kərbəyalı İsrafil Hacıyev, Məhəmməd ağa Vəkilov, Doktor Qarabəyov, Əliəkbər bəy Xasməmmədov və başqaları "Daşnaksütyun" partiyasının niyyətlərini, ermənilərin, Qafqazda törədilən qırğınların, terrorçuluğun təşkilatçısı və icraçısı olan bu partiyanın bəd əməllərini ifşa edir, həm də rəsmi hökumət dairələrinin bu təşkilatın əməllərinə göz yumduğunu sübuta yetiriblər.

Sülh danışıqlarına Bakıdan gəlmiş Kərbəlayı İsrafil Hacıyev erməni xislətini və onların havadarlarının əməllərini pisləyir və ultimativ şəkildə tədbir iştirakçılarına müraciət edərək deyir: "Bilmirəm bu nə istisnalardır ki, erməni millətinə məxsusdur?! Xristian olub rus ilə həmmillət olmaları, mədəni və dövlətli olmaları bəs deyil, gərək bir terrorları da olsun?! Bizim də terrorlarımız ola bilər. Biz də mauzer tüfəngləri saxlayıb, bomba ata bilərik, biz də ermənilərdən yaxşı mənsəb sahiblərini, qubernator da öldürə bilərik. Lakin biz bunların heç birisini etmirik, çünki bu rəzil və alçaq, səltənətə layiq olmayan işlərdir.

Bu məsələni müzakirə etməkdən qəsdimiz ancaq hökuməti vadar etməkdir ki, öz vəzifəsini, öz işini, öz ədalətini qorxusuz, vahiməsiz, layiqincə yerinə yetirsin. Əgər elə etməsə, biz də terrora keçməyə məcbur olarıq".[20] Tədbirdə daha sərt şəkildə və tutarlı dəlillərlə ermənilərin bəd əməllərini pisləyən Əhməd bəy Ağayev erməni nümayəndələrini fakt qarşısında qoyur...[21]

Həmişə olduğu kimi yenədə bu konfransın keçirilməsindən bir qədər sonra erməni silahlı dəstələri yenidən qırğınlara başlamışdılar.



Azərbaycan Milli Kitabxanası



Türklərə qarşı soyqırım törədənlər





# III FƏSİL

# 1914-1920-ci İLLƏRDƏ ERMƏNİLƏRİN TÜRKİYƏDƏ VƏ AZƏRBAYCANDA ERMƏNİSTAN DÖVLƏTİ YARATMAQ CƏHDLƏRİ VƏ ONLARIN HƏMİN DÖVRDƏ TÖRƏTDİKLƏRİ QIRĞINLAR

## *§ 1. 1917-1920-ci İLLƏRDƏ ERMƏNİLƏRİN TÜRKİYƏDƏ TÖRƏTDİKLƏRİ QIRĞINLAR (QARS, VAN, BİTLİS, İĞDIR)*

XX əsrin əvvəllərində Yaxın Şərqdə öz nüfuz dairəsini genişləndirmək uğrunda böyük dövlətlər arasında mübarizə kəskinləşmişdi. Bu regionda İngiltərənin, Fransanın, Rusiyanın, ABŞ-ın, Almaniyanın xüsusi marağı var idi.[1]

I dünya müharibəsi zamanı Almaniya ilə müttəfiq kimi çıxış edən Türkiyənin vəziyyəti ağırlaşmışdı. Rusiyanın hakim dairələrinin boğazlara və İstanbula yiyələnmək uğrunda mübarizəsi ənənəvi idi və bu istək yenidən baş qaldırmışdı.

1914-cü il fevralın 21-də Rusiyanın xarici işlər, hərbi və dəniz nazirləri çar II Nikolayın mövqeyini müdafiə edərək birgə qərar qəbul etmişdilər ki, "böyük Avropa müharibəsi baş verərsə, Rusiya Bosfor və Dardanel körfəzlərində, Konstantinopolda öz hakimiyyətini qurmaq yolu ilə "şərq məsələsini" öz xeyrinə həll etməlidir".[1a]

Digər tərəfdən, Türkiyə boğazlarda Rusiyanın təhdidindən qorxaraq öz mövqeyini qoruyub saxlamaq üçün Almaniya ilə müttəfiq olmuşdu. Almaniya avqustun 1-də Rusiyaya müharibə elan etmiş, avqustun 2-də Türkiyə-Almaniya ittifaqı haqqında müqavilə imzalanmışdı.

Azərbaycan Milli Kitabxanası

Müharibənin gedişində Rusiya ordusunun qarşısında tab gətirməyən Almaniya qərb cəbhəsindən rus qoşunlarının bir hissəsini geri çəkmək məcburiyyətində qoymaq üçün Türkiyəni təşviq edirdi ki, Qafqaz cəbhəsindən hücuma keçsin. Türkiyə isə hərbə hazır deyildi. Səfərbərlik yenicə elan edilmişdi. Almaniyadan gözlənilən sursat gəlib çıxmamışdı.[2] Bununla belə, Türkiyənin hərbi naziri Ənvər Paşanın əmri ilə 29 oktyabrda türk gəmiləri Rusiyanın Qara dəniz limanlarını bombalayır və Türkiyə-Rusiya müharibəsi başlanır. Rəsmi olaraq Qafqaz cəbhəsində isə Rusiya Türkiyəyə qarşı müharibəni noyabrın 1-də elan edir.

Rus-türk müharibəsindən faydalanaraq ermənilər Türkiyənin 6 vilayətində "Qərbi Ermənistan" dövləti yaratmaq istəyirdilər. Hələ 1913-cü ildə rus diplomatları mütəşəkkil erməni burjuaziyası ilə saziş bağlamağa və "məzlum ermənilərin müdafiəsi" uğrunda açıq çıxış edərək Türkiyənin şərq vilayətlərində islahatlar keçirilməsi tələbini irəli sürmüşdülər. Türkiyə hökuməti 1914-cü il yanvarın 26-da islahatlar haqqında saziş imzalamağa məcbur olmuşdu. Həmin sazişə görə, ermənilərə xarici dövlətlərin, birinci növbədə Rusiyanın nəzarəti altında idarəetmə, dil, hərbi mükəlləfiyyət və s. sahələrdə geniş muxtariyyət verilirdi.[3]

Müharibə başlanan kimi bütün ermənilərin katolikosu V Gevorq Qafqaz canişini Vorontsov-Daşkova məktubla müraciət edərək "erməni məsələsi"ni həll etməyin vaxtı olduğunu xatırlatmışdı.* Canişin də onu əmin etmişdi ki, şərait yaranan kimi bu məsələ həll ediləcəkdir. Müharibənin əvvəlində rus ordularının Körpüköy müharibəsində məğlubiyyətindən sonra 1914-cü il dekabrın 20-də çar II Nikolay döyüş bölgəsinə gəlmiş əsgərləri ruhlandırmaq üçün onlara mükafatlar təqdim etmişdi.[4]

Ermənilərin katolikosu V Gevorgla da 15 dəqiqəlik görüşü olmuşdu. **İmperator demişdi:** "-Zati müqəddəsləri, Sizi əmin edirəm ki, Siz nə arzu edirsinizsə, yerinə yetiriləcək, ancaq müharibədən sonra. Mən ermənilərin sədaqətinə tamamilə inanıram, erməni xalqını yaxşı gələcək gözləyir. Siz hansı ərazilərdə yeni idarəetmə (yeni erməni üsul-idarəsi) tətbiq edilməsini istərdiniz?

- **Katolikos:** 6 vilayətdə (sadalayır) və Kilikiyada, dəmir yolunu Qarsdan davam etdirmək, Aralıq dənizinə qədər çatdırmaq olar.





- **İmperator:** Həmin rayonlarda nə qədər erməni var? Onlar çoxdurlarmı?

- **Katolikos:** Yeni sərhədlərdə erməni əhalisi kifayət qədər olacaq, lakin Allahın və əlahəzrətin mərhəməti ilə yeni azad üsul-idarə ki olacaq, onda Əbdülhəmidin rejim və qırğınların zamanı vətənini tərk edən ermənilər Amerikadan, Misirdən və digər yerlərdən öz vətənlərinə qayıdacaqlar.

**İmperator:** İnanıram, inanıram - demişdi.

Bundan sonra katolikos Qafqazın canişini vasitəsilə bu məsələ ilə bağlı ona yazılı müraciət etdiyini bildirir.[5]

Göründüyü kimi, ermənilər "Böyük Ermənistan" dövləti yaratmaq üçün hər cür zəmin hazırlamışdılar və qarşıda isə həmin ərazilərdə yaşayan türkləri bütün vasitələrlə sıxışdırıb çıxarmaq, onların yerinə erməniləri məskunlaşdırmaq vəzifəsi dururdu.

Lakin 1914-1916-cı illərdə Rusiya, Fransa, İngiltərə və sonralar İtaliya arasında Türkiyəni bölüşdürmək haqqında gizli danışıqlar keçirilmişdi. 1916-cı ilin mayında bağlanan gizli müqaviləyə əsasən (Sayks-Piko müqaviləsi nəzərdə tutulur) "Türkiyə Ermənistanın böyük bir hissəsi sadə rus quberniyası şəkildə Rusiyanın tərkibinə daxil edilirdi, rus hökuməti həmin ərazilərə kazakları (Don, Kuban, Sibir kazaklarını) köçürmək, bununla da ruslaşdırmaq istəyirdi".[6]

Ancaq sonralar ermənilərin gözlədiklərinin əksinə olaraq, 1916-cı il iyunun 8-də imperator II Nikolay Türkiyənin işğal edilməsi haqqında əsasnaməni imzaladıqdan sonra "həmin ərazilərdə yaradılmış 29 dairənin hərbi rəislərindən yalnız birini ermənilərdən təyin etmişdi".[7]

Göründüyü kimi, Rusiya həmin dövrdə öz geosiyasi mənafeyini təmin etmək üçün ermənilərdən alət kimi istifadə edirmiş və Türkiyəyə xəyanət edən ermənilərdən çox da sədaqət gözləmirmiş.

"Daşnaksütyun" liderlərindən Kaçaznuni bu məsələyə münasibətində yazmışdır: "...ruslar bizi aldatdılar və satdılar. Ruslar Ermənistanı boşaltmaq və sonralar oraya kazakları yerləşdirmək xəttini tutdular. Knyaz Lobanov-Rostovskinin məşhur "Ermənisiz Ermənistan" layihəsi həyata keçirildi.[8]

I Dünya müharibəsi dövründə İran Azərbaycanının Türkiyə sərhədlərinə yaxın əyalətləri müharibə aparan dövlətlər üçün strateji



Azərbaycan Milli Kitabxanası



**75 yaşlı Ter Qriqor soyqırım törətməyə gedir**





əhəmiyyət kəsb edirdi. 1914-cü il noyabrın 6-da Rusiyanın xarici işlər naziri Sazonov Rusiyanın Londondakı nümayəndəsi Bekendorfu xəbərdar etmişdi ki, Türkiyə ilə müharibə zamanı rus qoşunları İranın bitərəfliyini pozacaqdır. Hələ 1914-cü ilə qədər Peterburq və İstanbul İran Azərbaycanının ərazisində müharibə meydanının cinahı kimi istifadə etməyi nəzərdə tutmuşdular. Tehran hökumətinin gücsüzlüyünü görən tərəflər Cənubi Azərbaycanın strateji üstünlüyündən faydalanmaq istəyirdilər. Rus qoşunlarının komandalığı isə bu cinahda Türkiyəni qabaqlamaq istəyirdi.[9]

Müharibə başlamazdan xeyli əvvəl çar Rusiyası özünün Yaxın Şərq siyasətində azsaylı xalqlar faktorundan məharətlə istifadə etmişdi. Türkiyədə yaşayan ermənilər, aysorlar, yunanlar Rusiyanın simasında Osmanlı imperiyasını diz çökdürəcək bir qüvvəni görürdülər. "I Dünya müharibəsi ərəfəsində bu xalqların nümayəndələri rus hökumətindən onları silahlandırmağı xahiş edir və vəd verirdilər ki, ilk çağırışda türklərə qarşı könüllü dəstələr təşkil edəcəklər".[10] A.Lalayan "Əksinqilabçı "Daşnaksütyun" və 1914-1918-ci illər imperialist müharibəsi" məqaləsində yazırdı ki, "Daşnaksütyun" partiyasının 1912-ci ildə təşkil etdiyi Erməni milli bürosu 1914-cü il imperialist müharibəsi zamanı ermənilərin çar Rusiyası tərəfindən müharibəyə cəlb edilməsi üçün geniş kampaniya aparırdı. "Milli büronun tərkibi aşağıdakılardan ibarət idi: Yepiskop Mesrop - Tiflis erməni burjuaziyasının rəhbəri və çarın Qafqazdakı canişini Vorontsov-Daşkovun arvadının məşuqu, "Daşnaksütyun" partiyasının fəal xadimi, Al.Xatisov erməni xalqının qatili, 1918-1920-ci illərdə daşnak hökumətinin başçısı, doktor Zavriyev - "Daşnaksütyun" partiyasının xarici işlər müdiri, Samon Harutyunov, xmbapet Dro (Drastamat Kananyan) - sonralar "Daşnaksütyun"un hərbi diktatoru və avantürist Andranik.

"Milli büro"nun üzvləri Vorontsov-Daşkovla görüşdükdən sonra Rusiyanın Türkiyə ilə müharibə aparacağı təqdirdə hər biri 400 nəfərdən ibarət dörd erməni könüllü dəstəsi hazırlamaq üçün razılıq almışdılar.[11]

1914-cü il avqustun 10-da Qafqaz canişini, Qafqaz cəbhəsinin baş komandanı Vorontsov-Daşkov hərbi nazir Suxomlinova müraciət etmişdi ki, Qafqaz dairəsinə 5000 tüfəng və 50 milyon güllə



Azərbaycan Milli Kitabxanası

göndərsin. Bununla o, Zaqafqaziyada yerli könüllüləri silahlandırmaq istəyirdi. Bundan əlavə olaraq, o, Türkiyədəki antitürk ünsürləri (ermənilər və yunanları) silahlandırmaq üçün 25 min tüfəng və 12 milyon güllə gətirtmişdi.[12]

Avqustun 16-da Qafqaz ordusunun səhra kəşfiyyat idarəsinin rəisi kapitan Dratsenko öz məruzəsində Türkiyə ermənilərini silahlandırmağın zəruri olduğunu göstərmişdi. Sonralar daşnak hökumətinin baş naziri olmuş Ov.Kaçaznuninin yazdığına görə, 1914-cü ilin payızında hələ ki, Türkiyə müharibə edən ölkələr ailəsinə daxil olmadığı və buna hazırlaşdığı vaxtda, Zaqafqaziyada böyük hay-küylə və böyük enerji ilə erməni könüllü dəstələri təşkil etməyə başlamışdılar.[13]

Qafqaz hərbi dairəsinin qərargah rəisi Yudeniç avqustun 16-da Baş Qərargahın rəisi general Yanuşkeviçə göndərdiyi gizli teleqramda göstərmişdi ki, əgər Türkiyədəki etniklər arasında üsyan qaldırmaq lazımdırsa, bunun üçün 25 min tüfəng, 12 milyon güllə və 25 min rubl lazımdır.[14] Bütün bunlarla yanaşı, Qafqazda yaşayan ermənilərdən ibarət könüllü silahlı dəstələr təşkil edilir, onlar nizami ordunun tərkibində deyil, türk qoşunlarına arxadan zərbə vurmaq üçün təlim-məşqlər keçirirdilər. Rəsmi dairələr bu cür könüllü dəstələr haqqında mətbuatda məlumat verməyi qadağan etmişdilərsə də, müharibənin gedişində hər şey aydın olmuşdu.[15]

Könüllü dəstələr həm də xaricdə hazırlanır, Rusiyanın rəsmi dairələrinin köməyi ilə indiki Ermənistan ərazisinə çıxarılırdı. Qafqaz cəbhəsində hərbi əməliyyatların iştirakçısı, general-mayor Q.Korqanyan təsdiq edir ki, ilk vaxtlar erməni könüllüləri sırasında 2500 nəfər olmuş, sonralar 6000-ə çatmışdır.

Bəzi müəlliflər bu rəqəmin 9000 olduğunu göstərirlər.[16]

Yuxarıda göstərildiyi kimi, "Erməni milli bürosu"nun Qafqaz canişini ilə danışıqları zamanı 1600 nəfərdən ibarət könüllü dəstələr təşkil etməyə razılıq verildiyi halda, "Milli büro" Türkiyənin şərq vilayətlərini sürətlə ələ keçirmək üçün 10000 nəfərlik dəstə təşkil etmişdi. "Milli büro" öz xmbabetlərini (dəstəbaşları) toplayaraq bu dəstələrə komandanlığı həvalə etmiş, türk əhalisini qəddarcasına məhv etməyi tapşırmışdı.[17]

Rusiyanın dəmiryol naziri 1915-ci il noyabrın 15-də xarici işlər





naziri S.Sazonova bildirmişdi ki, Bolqarıstandan erməni könüllü dəstələri pulsuz olaraq Qafqaza gətirilmişdir ki, türklərə qarşı vuruşsunlar.

Rusiyanın Misirdəki nümayəndəsi Smirnov 22 fevral 1915-ci ildə Petroqrada vurduğu teleqramında göstərmişdi ki, Fransadan, Amerikadan və digər ölkələrdən 1000-ə yaxın erməni gəlib, könüllü olaraq Qafqaza getmək istəyirlər və bunun üçün maddi yardım xahiş edirlər.[18]

ABŞ-dan ilk könüllülər dəstəsi 12 mart 1915-ci ildə yola düşərək Arxangelskə, oradan da Qafqaz cəbhəsinə yollanmışdılar. İkinci dəstə mayın 10-da, üçüncü dəstə isə noyabrın 21-də yola düşmüşdü.

Könüllülərin təchizatı üçün hər yerdə vəsait toplanırdı. Təkcə 1915-ci ildə 1444000 rubl toplanmışdı.[19]

1914-cü ilin sonunda artıq dörd könüllü drujina yaradılmışdı və onlar aşağıdakı istiqamətdə hücuma keçməli idilər.

I drujina - İran-Başqala-Van istiqamətində (komandir Andranik Ozanyan).

II drujina - İğdır-Bayazid-Berkri-Van istiqamətində (komandir general Nikolayev).

III drujina - Kağızman-Ələşkert-Manazkert-Bitlis istiqamətində (general Prjevalskinin tabeliyində).

IV drujina - Sarıqamış-Qaracaörən-Körpüköy-Ərzurum istiqamətində (polkovnik Kulebyakinin tabeliyində).

1915-ci il aprelin 16-da Vorontsov-Daşkov erməni drujinalarının ştat cədvəlini təsdiq etmişdi. Hər bir drujina dörd rotadan ibarət olmaqla, hər rotada 234 nəfər olmalı idi. Əlavə ştatlarla birlikdə hər drujinada 985 nəfər nəzərdə tutulurdu.

1915-ci ilin yanvarında isə Kənəkerdə quldurbaşı Vardanın rəhbərliyi ilə drujina formalaşdırılmışdı. 2-ci, 3-cü, 4-cü drujinalar onun tabeliyinə verilmişdi və "Araratyan zoraxumb" adlanırdı. Andranikin başçılığı ilə 1-ci drujina İranda - Cənubi Azərbaycanda idi və orada qırğınlar törədirdi.[20]

Erməni könüllü dəstələrinin Şərqi Anadoluya doğru hərəkətindən ruhlanan Türkiyə erməniləri "Qərbi Ermənistan"ı azad edib müstəqil dövlət qurmaq fürsətini əldən verməmək üçün hər yerdə



Azərbaycan Milli Kitabxanası

silahlı basqınlar edərək türkləri qırıb məhv etməyə başlamışdılar. Bu haqda çoxlu faktlar mövcuddur. İngilis tarixçisi Stenford C.Şou tarixi sənədlər əsasında göstərmişdir: "Erməni könüllülərinin köməyi ilə rus ordusu Van istiqamətində hücuma keçərək mayın 14-də oranı tutan kimi iki gün ərzində yerli müsəlman əhalisini kütləvi surətdə qırmağa başladılar... Rusların himayəsi altında Vanda erməni hökuməti qurulmuşdu (halbuki müharibənin əvvəlində vilayətdə ermənilər 42,3 %, yəni 33789 nəfər təşkil etmişdir). İyulun ortalarında hər tərəfdən 250 min erməni Vanda toplanmışdı".[21]

Türkiyə hökuməti məcburiyyət qarşısında qalıb ermənilərin türk ordusuna arxadan zərbəsinin qarşısını almaq məqsədilə müharibə rayonundan erməniləri ölkənin içərilərinə köçürmək haqqında qərar qəbul etmişdi. Hər cür hazırlıqdan sonra, mühafizə dəstələrinin müşayiəti ilə mayın 28-də köçürmə işlərinə başlanmışdı. Köçürmə şərtləri aşağıdakı kimi idi:

"Boşaldılan erməni evləri möhürlənərək mühafizə altına alınacaqdır; geridə buraxılan hər cür mal və əşya sahibinə qaytarılacaqdır; daşınmaz mallar, xarab olacaq qida maddələri açıq-artırma ilə satılacaq, pulları sahibinin adına əmanətə alınacaqdır; bilxassə kilsələrdəki rəsm və kitablar üçün ayrı inventar tənzim ediləcək, yaşadıqları kənddə kilsəsi olan ermənilərin Şərqi Anadoluda yenidən yerləşdikləri kənddə yeni kilsələri olacaqdır; bütün bunlara riayət etməyənlər üçün sərt tədbirləri görüləcəkdir".[22]

Göründüyü kimi, bu qərar ədalətli qərar idi və hərb bölgəsindən kənarda yaşayan ermənilərə şamil edilməmişdi. Bu o demək idi ki, Osmanlı dövləti ermənilərə qarşı ədalətlə davranmışdı.[23]

Ermənilər hər il aprelin 24-nü "soyqırım" günü kimi qeyd edərək iddia edirlər ki, guya həmin dövrdə türklər 1,5 milyon erməni-ni qırmışlar. Əslində isə, həmin gün sadəcə olaraq İstanbulda və digər şəhərlərdə türklərə qarşı xəyanət edən erməni təşkilatlarının təcili olaraq bağlanması, onların rəhbərlərinin həbs edilməsi və sənədlərin ələ keçirilməsi haqqında daxili işlər naziri əmr vermişdi. Bundan sonra 2345 erməni xəyanətə görə həbs edilmişdi. Maraqlı orasıdır ki, bu əmrin veriləcəyindən əvvəlcə xəbər tutan Eçmiədzin katolikosu aprelin 22-də ABŞ prezidentinə teleqram vurmuşdu ki, erməniləri "türk fanatizminin özbaşınalığından xilas etsin". Həmin





teleqram aprelin 24-də, yeni əmr verilən günü artıq ABŞ prezidentinə çatmışdı".[24]

Əslində, ermənilər aprelin 24-nü ona görə "soyqırım" günü kimi qeyd edirlər ki, yuxarıda qeyd etdiyimiz köç haqqında qərardan sonra onların "Qərbi Ermənistan" yaratmaq istədikləri 6 vilayətdə (Ərzurum, Van, Bitlis, Xarput, Diyarbəkir, Sivas) onsuz da azlıq təşkil edən ermənilərin sayı minimuma endirilmişdi. Yəni onların "Böyük Ermənistan" dövləti yaratmaq iddiaları puça çıxmışdı.

İstər indiki Ermənistan ərazisində, istərsə də Türkiyə ilə sərhədboyu ərazilərdə erməni quldur dəstələrinin özbaşınalıqları, qətl və qarətləri haqqında Rusiyanın rəsmi dairələrinə müntəzəm olaraq məlumat göndərilirdi.[25] Xüsusən, Daxili İşlər Nazirliyinin agentləri erməni hərbi hissələrinin törətdikləri vəhşiliklər haqqında, ermənipərəst Vorontsov-Daşkovun onları himayə etməsi haqqında Petroqrada məlumatlar göndərirdilər. Həmçinin bir çox zabit və generallar erməni könüllü dəstələrini soyğunçuluqda, qarətçilikdə və yerli əhaliyə qarşı (yəni türklərə) özbaşınalıqda təqsirləndirirdilər.[26] Ona görə də baş komandanlıq köhnə drujinalarda qayda-qanun yaradılmayınca yenilərinin yaradılmasını qadağan etmək haqqında əmr vermişdi.[27]

Yeri gəlmişkən, Vorontsov-Daşkovun ermənipərəst mövqe tutması və "Daşnaksütyun" partiyasının əməlləri haqqında S.Şaumyan sosial-demokratlar mövqeyindən çıxış edərək 1915-ci ilin oktyabrında yazmışdı: "Erməni burjuaziyası keçmiş canişin Vorontsov-Daşkovun ona göstərdiyi xüsusi diqqətə görə minnətdarlıq əlaməti olaraq və himayəsi altında sərbəstcə varlandığı çar hökumətinə sadiq bəndəlik hissini ifadə etmək üçün müharibə zamanı öz yalançı vətənpərvərliyini ən böyük hay-küylə göstərməyə çalışırdı... Bunun üçün o (yəni "Daşnaksütyun" partiyası - müəllif) öz pulu ilə erməni könüllü dəstələri yaratmışdı. Bu dəstələrə Türkiyə erməniləri də (türk ordusundan fərarilər və hətta Türkiyə parlamentinin deputatı) cəlb edilmişdilər... Bədbəxt Türkiyə ermənilərinin öz dövlətinin açıq xainləri kimi, demək olar ki, ucdantutma vəhşicəsinə məhv edilməsi erməni burjuaziyasının və onun nökəri "Daşnaksütyun" partiyasının xudbin sinfi siyasətinin kədərli, lakin təbii nəticəsi oldu...".[28]

Deməli, S.Şaumyan da etiraf edirdi ki, ermənilər türklərdən öz



Azərbaycan Milli Kitabxanası

xəyanətkar əməllərinin layiqli cavabını almışdılar. 1917-ci ildə erməni generalları Qaqfaz ordusunun tərkibində ayrıca erməni silahlı birləşmələrinin yaradılması haqqında dəfələrlə Ali Baş Komandanlıq adından vəsatət qaldırmışdılarsa da Müdafiə Nazirliyi buna razılıq verməmişdi. Bununla belə, Qafqaz ordusunda ermənilərin xüsusi çəkisi yüksək idi. 1917-ci il yanvarın 1-nə olan məlumata görə təkcə Tiflis səfərbərlik məntəqəsində hərbi xidmətə 304164 nəfər cəlb edilmişdi ki, onlardan 121321-i erməni, 121113-ü gürcü, 42712-i rus, 1314-ü tatar, 3221-i yəhudi, 2413-ü alman və 11470-i qeyri millətlərdən ibarət idi.[29]

Nəhayət, 1917-ci il oktyabrın 23-də Qars cəbhəsinin baş komandanının sərəncamı ilə iki erməni atıcı briqadası yaradılır. Sonralar bu briqadalar erməni daşnak hökuməti ordusunun əsasını təşkil etmişdi.

İstər indiki Ermənistan ərazisində, istər Qars vilayətində, istərsə də Qarabağ və Azərbaycanın digər bölgələrində yüz minlərlə soydaşımıza qarşı soyqırım aksiyası 1918-1920-ci illərdə məhz bu ordu tərəfindən həyata keçirilmişdi.

İndiki Ermənistan ərazisində ermənilərin azərbaycanlılara qarşı törətdikləri qırğınlardan bəhs etmədən öncə Qars vilayətində rus ordularının və erməni quldur dəstələrinin törətdikləri vəhşiliklərdən bəhs etmək lazımdır. Qars vilayətinin əhalisi etnik mənsubiyyət baxımdan İrəvan xanlığının əhalisi ilə demək olar ki, eyniyyət təşkil edirdi. Çünki İrəvan xanlığının əhalisinin əksər hissəsi XIX əsrdə baş vermiş Rusiya-İran müharibələrinin nəticəsində xanlığın ərazisindən qaçqın düşərək Qars vilayətində məskunlaşmışdılar. 1877-78-ci illər rus-türk müharibəsindən sonra Qars vilayəti hərbi-inzibati ərazi kimi Rusiyanın tərkibinə qatılmışdı. Vilayətin yerli türk əhalisi hər cür təzyiq və təqiblərə məruz qalmalarına baxmayaraq, yenə də bölgədə əksəriyyət təşkil edirdi. Təsadüfi deyil ki, 1919-cu ildə Paris sülh konfransında Azərbaycan Xalq Cümhuriyyətinin memorandumunda qeyd edilirdi ki, Qars ətrafının sakinləri azərbaycanlılarla eyni etnik qrupa daxildirlər, onların dini adət-ənənələri, vərdişləri, yaşayış tərzləri və məişətləri Azərbaycanın qalan hissələri ilə eyniyyət təşkil edir. Həmin ərazidə yaşayan müsəlmanlar dəfələrlə Azərbaycan hökumətinə müraciət etmişdilər ki, Azərbaycan







*Andranik öz dəstəsi ilə*

Cümhuriyyətinin tərkibinə qatılmaq istəyirlər. Memorandumda İrəvan quberniyası (bura Naxçıvan, Şərur-Dərələyəz, Sürməli qəzaları, Yeni Bayazid, Eçmiədzin, İrəvan və Aleksandropol qəzalarının bir hissəsi daxil edilmişdi) Azərbaycanın keçmiş inzibati-ərazi bölgüsü kimi təqdim edilmişdi.[30]

Digər tərəfdən, 1914-1918-ci illərdə Qars vilayətində ermənilərin törətdikləri qırğınların ən qaynar bölgəsindən olan Ağbaba nahiyəsinin əksər və Şörəyel nahiyəsinin bir hissəsi 1921-ci il Qars müqaviləsinə əsasən Ermənistan ərazisinə qatılmışdı. Bütün bunlara görə, indiki Ermənistan ərazisində ermənilərin törətdikləri qırğınlardan bəhs edərkən Qars vilayətində törədilən qırğınlardan bəhs etməmək mümkün deyildir.

1914-cü ildə başlanan rus-türk müharibəsində Körpüköy ətrafında rusların məğlubiyyətindən sonra yerli türklərin 37 illik rus-erməni əsarətindən qurtaracaqlarına ümidləri artmışdı. Lakin bu sevinc uzun sürmür. Türk tarixçisi Fəxrəddin Kırzıoğlunun yazdığına görə, ruslar müharibədə dönüş yaradaraq yeni-yeni türk torpaqlarını işğal etməyə başlayırlar. 1914-cü il yanvarın 5-də Ərdahanı işğal edən Sibir kazak alayı Çıldırdan Göləyədək türk kəndlərində "türklərin gəlişini alqışladınız" deyə, silahsız əhalini, çoluq-cocuq demədən qətlə başlayırlar. "1915-ci ilin əvvəlindən etibarən üç ay ruslar Qars vilayətindəki silahsız türk-müsəlman əhalisini qırıb qurtarmaqla məşğul oldu. Bakıdakı "İslam Cəmiyyəti Xeyriyyəsi"nin "Fəlakət və hərbzadələrə yardım şöbəsi" çardan rəsmən izn alıb 1915-ci il aprelin əvvəlində yardıma gəlincəyə qədər, çox vəhşicəsinə edilən bu rus qırğını davam etdi. Ən azı 40000 türk qətl edildi. Bu cəmiyyət rəsmi qediyyatla 22000 qarslıya 1917-ci ilin sonuna qədər yardımını davam etdirib onları ölməkdən qurtardı".[31]

Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti bu köməkliyi etmək üçün üç dəfə Rusiya çarına müraciət etmiş, lakin hər dəfə rədd cavabı almışdı. Bundan sonra cəmiyyət Əlimərdan bəy Topçubaşovun başçılığı ilə Tiflisə - Qafqaz canişininin yanına nümayəndə heyəti göndərir. Onlara "Siz qafqazlı müsəlmanlar, bizim düşmənlərimizə yardım etmək istəyirsiniz. Müharibə zamanı buna icazə verilməz" - cavabı verilir. Bu zaman Əlimərdan bəy Topçubaşov: "Siz iki dövlət - Osmanlı imperatorluğu ilə Rusiya çarlığı müharibə edirsiniz. Biz





sizin düşmənlərinizlə deyil, işğalınız altına aldığınız vilayətlərdəki pərişan qardaşlarımıza insani və maddi yardım etmək istəyirik"[32] - deyərək, icazə almağa nail olur.

Başqa bir mənbədə göstərilir ki, 1916-cı ildə Əlimərdan bəy Topçubaşov, Ağabala Quliyev və müsəlman icmasının digər üzvləri Tiflisə gedərək Qafqaz cəbhəsinin komandanı general Mşlayevski ilə görüşmüş və ondan Qars vilayətindən müsəlmanların erməni qırğınlarından qorunmasına təminat verməsini və ermənilərin qətlə yetirdiyi tatar (azərbaycanlı) ailələrinə yardım üçün vəsait yığılmasına icazə verilməsini xahiş etmişdilər.[33]

1915-ci ilin martında Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti Qarsa yardım üçün Xosrov bəy Sultanovun başçılığı ilə komissiya göndərmişdi. Novruz bayramı ərəfəsində yola düşən komissiya martın 21-də Gəncəyə gəlmiş, onları Həsən bəy Ağayev, Xəlil bəy Xasməmmədov, Ələkbər bəy Rəfibəyov, Xudadat bəy Rəfibəyov qarşılamış və əlavə maddi yardım göstərmişdilər. Gəncədə Əhməd Cavad da nümayəndə heyətinə qoşularaq Qarsa getmişdi.[34]

Doktor Xosrov bəy Sultanov 1915-ci il aprelin 8-də Ərdahandan "Kaspi" qəzetinə göndərdiyi məktubunda yazırdı: "Bütün müsəlman yaşayış məntəqələrində bir nəfər də olsa, canlı insan tapmaq mümkün deyil. Yalnız iki məntəqəyə 500-600 qadın və uşaq yığılmışdır. Onların içərisində cəmisi 6 kişi vardır ki, onlar da əldən düşmüş qocalardır".

Nümayəndə heyətinin üzvü İsmayıl Hazaralı xatirələrində yazır ki, Azərbaycan Xeyriyyə Cəmiyyəti rus işğalındakı Şərqi Anadolu vilayətlərinə göndərdiyi heyət vasitəsilə 12000 yetim uşaq topladı, milyonlar dəyərində ərzaq və geyim göndərdi. Rus zabitlərinin və erməni komitəçilərinin türklərə təhdid və təcavüz edən bir çox yüksək rus və erməni zabitləri azəri advokatlar tərəfindən məhkəməyə verildi və cəzalandırıldı. Bununla da türk xalqına qarşı edilən özbaşınalıq hərəkətlərinə son qoyuldu.[35]

Bakı əhalisini, Azərbaycan türklərini Anadoludakı qardaşlarına yardıma çağırmaq işində Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin nəşr etdiyi "Qardaş köməyi" məcmuəsinin çox böyük rolu olmuşdur. 1916-cı il fevralın 16-da rusların əlinə keçmiş Ərzurum şəhərinin əhalisinə də bu cəmiyyət tərəfindən yardım edilmişdi. 1917-



Azərbaycan Milli Kitabxanası

ci ilin iyun ayında general-mayor Xan Talışınski və Elyasov Xeyriyyə Cəmiyyəti tərəfindən Ərzuruma göndərilmişlər və buradakı qaçqınlara un, ərzaq, pal-paltar paylanmışdı.[36]

İndiki Ermənistan ərazisindən və ona bitişik Şərqi Anadolunun rus-erməni işğalı altında olan ərazilərindən canını salamat qurtarıb qaça bilən kimsəsiz uşaq və qadınların bir qismi Azərbaycana pənah gətirmişdilər. Tiflisdəki Müsəlman Xeyriyyə Cəmiyyəti qaçqın yetimlərin cüzi bir hissəsini yetimxana himayəyə götürmüşdü. Qaçqınların əksəriyyəti isə Bakıya üz tuturdu.

Sonralar Cənub-Qərbi Qafqaz Respublikasının xarici işlər naziri olan Fəxrəddin Ərdoğan 1917-ci ilin əvvəlində Rusiyadan sürgündən qayıdarkən Bakıda gördükləri haqda yazmışdır: "İlk iş olaraq Bakı Xeyriyyə Cəmiyyətinə getdik, orada olanlarla tanış olduq. Burada istiqlal eşqiylə cəmiyyətlər qurulmuş, durmadan çalışırlar. Düşdüyümüz İsmailiyyə binasında Musa Nağıyevin 50 yataqlı qonaqxanası vardı... Bu binanı Nağıyev Xeyriyyə Cəmiyyətinə bağışlamışdı, bundan başqa 200 yataqlı, bir də yetimxanası vardı. Bura cəbhədə toplanan kimsəsiz cocuqlar gətirilərək saxlanılırdı. Bakı yetimxanalarını da gəzdim, 100-ə qədər Ərzurum cəbhəsindən gətirilən cocuq və qadın burada saxlanılırdı".[37]

F.Ərdoğanın verdiyi məlumata görə, rus qoşunları Qarsdan geri çəkildiyi zaman Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin, Qarsdakı nümayəndələr Rza bəy Qaraşarov və Yusif Kənan bəy əhalini erməni qırğınlarından qurtarmaq üçün silah tədarük etmişdilər. Rza bəy Qaraşarov Qarsda "Yeni Xurşud" adlı qəzet çıxararaq, xalqı savadlanmağa çalışırmış".[38]

Rusiyada 1917-ci il fevral inqilabından sonra çar üsul-idarəsi yıxılmış, müvəqqəti hökumət qurulmuşdu. Martın 9-da müvəqqəti hökumətin qərarı ilə Qafqaz Canişinliyi buraxılmış, fövqəladə Zaqafqaziya Komitəsi yaradılmışdı. Noyabrın 11-də Zaqafqaziyada fəaliyyət göstərən siyasi təşkilatların Tiflisdə yığıncağı keçirilmiş və Zaqafqaziya Komissarlığı yaradılmışdı. Həmin ayda M.Ə.Rəsulzadənin rəhbərliyi ilə Azərbaycan fraksiyası təsis edilmişdi.

1917-ci il oktyabrın 25-də (köhnə stillə) Rusiyada bolşeviklər hakimiyyətə gəlir. Çevrilişin ikinci günü Sovetlərin Ümumrusiya qurultayı sülh haqqında dekret qəbul edir. Noyabrın 2-də Sovet hökuməti "Rusiya xalqlarının hüquqi Deklarasiyası"nı qəbul edərək bütün xalqlara öz müqəddəratını təyin etmək hüququ verir. Həmçinin millətlərin işləri üzrə Xalq Komissarlığı və onun nəzdində erməni məsələsi üzrə komissarlıq yaradılmışdı. Bu komissarlıq 1917-ci ilin sonundan 1921-ci ilin əvvəlinədək fəaliyyət göstərmişdi. Dekabrın 16-da Rusiya Xalq Komissarları Soveti S.Şaumyanı Qafqaz işləri üzrə fövqəladə komissar təyin etmişdi. Yuxarıda qeyd etdiyimiz kimi, Sovet hökuməti sülh haqqında dekret qəbul etməsinə baxmayaraq, dekabrın 29-da "Türkiyə Ermənistanı" haqqında dekret qəbul etmişdi. Bu dekret Qərbi Ermənistan dövləti yaratmaq üçün ermənilərin iştahını artırmışdı.





1918-ci ilin yanvarında Sovet Rusiyası hökuməti "Erməni qaçqınlarına təcili kömək göstərilməsi haqqında" erməni məsələləri üzrə komissarlığın bəyanatını müzakirə edərək qərara alır ki, bu məqsədlə təmənnasız olaraq 6.194.784 rubl vəsait ayırsın. Eyni zamanda bütün inqilab komitələrinə, digər yerli orqanlarına erməni könüllü dəstələri təşkil edərək, onları silahlandırıb maneəsiz surətdə Ermənistana göndərmək haqqında təlimat göndərmişdi.[39]

İstər çar Rusiyası, istərsə də Sovet Rusiyası erməni könüllü dəstələrinin təşkili və onların maliyyələşdirilməsini öz üzərinə götürmüşdü.

Yuxarıda qeyd etdiyimiz kimi, erməni könüllü dəstələri İrəvan quberniyasının və Qars vilayətinin istədikləri türk kəndlərinə hücum edir, əhalini qaçqın düşməyə məcbur edirdilər. Boşalmış türk evlərində isə Türkiyənin içərilərindən gələn erməniləri yerləşdirdilər. Erməni mənbələrinin verdiyi məlumatlara görə, 1914-1916-cı illərdə Qafqaza təqribən 350 min erməni köçmüşdü.[40] Onların böyük əksəriyyəti İrəvan quberniyasının ərazisində yerləşmişdilər. İş o yerə çatmışdı ki, etdikləri cinayətlərə görə cəzasız qaldıqlarını görən Tiflis quberniyasının tərkibində olan Axılkələk erməniləri türk kəndlərinə silahlı basqınlar edirdilər. Erməni vəhşiliklərini öz gözləri ilə görən 1-ci Axıska dairəsi müfəttişi doktor Xoroşenov yazmışdır: "Keçən 1917-ci ilin dekabr ayının ortasına doğru 8 ağbabalı müsəlman Boqdanovka kəndində yaşayan duxoborlardan quru ot satın almaq üçün buraya gəlmişdilər. Müsəlmanların yanında silah deyilən şey yox idi. Xocabəy kəndinin erməniləri bunu xəbər alın-



Azərbaycan Milli Kitabxanası

ca, həmən oraya gedərək bu 8 müsəlmandan 4-nü xəncərləyərək öldürdükdən sonra gözlərini oymuş, dilləri və gövdələrinin o biri hissələrini də kəsib, vücudlarını parça-parça edərək cürbəcür hərəkətlər yapmışlar. Qalan 4-nü də tüfənglə vuraraq öldürmüşdülər. Bundan sonra parçalanmış cəsədləri yandırdılar, tüfənglə öldürülən 4-nün cəsədlərini sonradan ağbabalılara verdilər.

1918-ci ilin yanvarından başlayaraq ermənilər müsəlmanların yaşadıqları kəndlərə hücuma başladılar. Öncə: "Silahlarınızı təhvil etsəniz, sizlərə əsla toxunmarıq" deyərək, söz verdilər. Ermənilər bu sözlərlə qalan silahları aldıqdan sonra, müsəlman kəndlərinə hücum etməyə, onları öldürməyə, kəndlərini yandırıb mallarını və əşyalarını qarət etməyə başladılar. Beləliklə, Xorepya, Kokiya, Vereban, Tog, Okam, Qulalız, Patkana, Sağamo, Kuvaşa, Alaca və Gümris adlı kəndləri yandırdılar, dağıtdılar, dirliklərini, heyvanlarını və bütün əşyalarını alıb apardıqdan sonra, sağ qalan kişilərlə qadınları da dustaq olaraq Axılkələk qəsəbəsindəki kazarmaya topladılar".[41]

Daha sonra Xoroşenov yazır ki, düşərgədəki müsəlmanlar soyuq və aclıqdan hər gün tələf olurdular. Bu, 1918-ci il mayın 21-nə qədər davam etdi. Türklərin gəldiyini eşidən ermənilər qaçmazdan əvvəl kazarmadakı əsir müsəlmanları xəncər və tüfənglə öldürdükdən sonra onların qaldıqları evləri üstlərinə uçurdular. Bir çoxlarının cəsədlərini çuxurlara atdıqdan sonra, üstlərinə qaz yağı tökərək yandırdılar. "Baxın 20-ci yüzilliyin Ermənistanında yaşayan mədəni (!) ermənilərin törətdikləri vəhşət budur" - yazır Xoroşenov. Sənədin rusca əsli Türkiyə İnqilab Tarixi İnstitutunun arxivindədir (№7417571).

Zaqafqaziyada Sovet hakimiyyətini qəbul etməyən siyasi qüvvələr birləşib 1917-ci il noyabrın 15-də Tiflisdə E.Gegeçkorinin sədrliyi ilə keçirilən Zaqafqaziya Komissarlığının iclasında Qafqaz cəbhəsinin baş komandanı Prjevalskinin təklifi ilə 3-cü türk ordusunun komandanı Mehmet Vehib Paşanın barışıq imzalanması təklifi haqqında müraciətini müzakirə etmiş, ertəsi gün bu təklifin bəyənilməsi haqqında cavab məktubu göndərmiş və komissarlıq bu münasibətlə orduya və Zaqafqaziya əhalisinə müraciət etmişdi.[42] Dekabrın 18-də Ərzincanda barışıq imzalanır. 1917-ci ilin dekabrın ortalarından Qafqazdakı rus ordusu cəbhəni özbaşına tərk etməyə başlamışdı.





Dekabrın 18-də Zaqafqaziya Komissarlığı milli korpuslar və hərbi hissələr təşkil ediləcəyini elan edir. Bundan istifadə edən ermənilər rus ordusunun hərbi texnikasına yiyələnərək, Cənub-Qərbi Qafqazda türklərə qarşı soyqırım həyata keçirirlər. Yanvarın 14-də Vehib Paşa Qafqaz ordusunun komandanı Odişelidzeyə məktub göndərir ki, sülh müqaviləsi imzalamaq üçün Qafqaz hökuməti ilə danışıqlara başlamaq istəyir.[43] Ərzincanda barışıq imzalandıqdan sonra rus qoşunları işğal etdiyi ərazilərdən geri çəkilməyə başlayır. Rus ordusu geri çəkilərkən müsəlman əhalisini vəhşicəsinə qırıb-çatır, kəndləri yandırır. Həmin dövrdə Tiflisdə nəşr edilən qəzetlər tərxis edilmiş rus ordusunun "adamyeyənlər bandasına" çevrilərək, Sarıqamışdan Aleksandropola (Gümrüyə) qədər keçdikləri əraziləri dağıdıb, xarabaya qoyduqlarını yazırdılar.[44]

Buna görə də Vehib Paşa barışığın pozulduğunu və erməni quldur dəstələrinin vəhşilikləri haqqında yanvarın 22-də general-leytenant Odişelidzeyə məktub göndərir (Musa Qasımlı. Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti. 3 hissədə. II hissə. Bakı, 2001, s. 91). Bundan sonra da erməni vəhşiliyinin həddini aşdığını, onların cəzasız qaldığını görən Vehib Paşa fevralın 1-də Baş komandan Prjevalskinin adına məktub, fevralın 11-də isə Odişelidzenin adına teleqram göndərir. O, məktub və teleqramlarda konkret faktlarla erməni vəhşilikləri haqqında məlumat verir və onlara qarşı ölçü götürülməsini tələb edir.[45]

Fevralın 12-də türk ordusu erməni qırğınlarına dözə bilməyərək hücuma keçir. Bu arada ermənilərin özbaşınalıqlarına "son qoymaq üçün" Zaqafqaziya Komissarlığı Andraniki və doktor Zavriyevi Ərzuruma göndərir. Bundan sonra ermənilər daha azğınlaşır. Karibi 1920-ci ildə Tiflisdə dərc etdirdiyi "Qırmızı kitab"da yazır: "General Andranik ermənilərin başçısı kimi 1918-ci il fevralın 18-də Ərzuruma gəldi. Burada, bu tərəfdə erməni silahlı qüvvələri o dərəcə başıpozuq idilər ki, talançılıqla məşğul idilər".[46]

Fevralın 18-də Zaqafqaziya Seymi yaradılır və fevralın 25-də Zaqafqaziya hökuməti Trabzonda danışıqlar keçirmək üçün türk komandanlığına müraciət edir. Martın 1-də Zaqafqaziya Seymi Türkiyə ilə sülh müqaviləsi bağlamaqda səlahiyyətli olduğunu və qoşunları 1914-cü il sərhədlərinə geri çəkmək üçün sülh müqaviləsi im-

Azərbaycan Milli Kitabxanası



Soyqırımı törədənlərə katalikos xeyir-dua verir





zalamaq istədiyini bildirir. Lakin martın 3-də Türkiyə ilə Sovet Rusiyası Brest-Litovsk müqaviləsini imzalayır. Bu müqavilə 1711-ci ildən bəri ilk dəfə Türkiyənin Rusiyaya qarşı bir zəfəri mahiyyətində idi və ruslar nəinki 1914-cü il sərhədlərinə geri çəkilməyi, hətta 1878-ci il Berlin müqaviləsi ilə Türkiyədən qoparılan Üç Sançağı (Batum, Ərdahan, Qars vilayətlərini) qaytarmağı qərara almışdılar.[47]

Brest-Litovsk müqaviləsinə əlavə Rusiya-Türkiyə müqaviləsinin 1-ci maddəsində deyilirdi ki, Rusiya türk ordusunun qeyd edilən ərazilərə qayıtmasınadək qarət və cinayətlərə yol verilməsinin qarşısını alacaq, erməni "çətələrini tərxis və tərksilah edib buraxacaq".[48]

Amma Rusiya tərəfi verdiyi vədə vaxtında əməl etmədi.

Zaqafqaziya hökuməti martın 7-də Brest-Litovsk müqaviləsinin imzalanmasına etiraz etmişdisə də rus qoşunlarının yerini tutmuş erməni silahlı qüvvələrinin türk ordusunun qarşısında duruş gətirmədiyini yəqin etdikdən sonra, aprelin 10-da Trabzondakı Zaqafqaziya nümayəndələri bu müqaviləni qəbul etdiklərini bildirmişdilər.

Zaqafqaziya Seyminin bütün müsəlman fraksiyaları aprelin 15-də Qars vilayətindəki hadisələr haqqında məsələ müzakirə edir. Müzakirənin protokolunda yazılır: "Qaçqın yunanlar xəbər verirlər ki, hücum edən türk qoşunlarının qarşısından çəkilən erməni hərbi hissələri və silahlı fərariləri yollarda rast gəldikləri müsəlman kəndlərini tam məhv edir, hər şeyi yandırır, əhalini qılıncdan keçirir, təsvir ediləsi mümkün olmayan vəhşiliklər törədirlər. Onlar qadınları lütüryan edir, süngülərə keçirilmiş südəmər körpələri hərbi qənimət kimi aparan "qalib" erməni qoşunlarının keçməli olduğu böyük yolların kənarına düzürdülər". Yunanlar deyirlər: "Gərək qeyri-insani əsəblərin ola ki, bu cəhənnəm əzabını, dəlilik dərəcəsinə çatdırılmış qadınların və uşaqların qəlbi dağlayan naləsini, köməksiz qocaların iniltilərini eşidə və dözə biləsən... Təxmini hesablamalara görə 82 kənd təsvirolunmaz dağıntılara məruz qalmışdır. Çiçəklənən Qars vilayəti kapitan Movsesyanın və general Areşovun dəstəsinin vəhşi tüğyanı sayəsində indi təəssüf ki, 1915-ci ilin əvvəlindəki dəhşətləri xatırladır. İndi bütün Qars vilayəti törədilmiş qəddar vəhşiliklərdən, həmişəlik insanlıq sifətini itirmiş ermənilərin riyakarlı-



Azərbaycan Milli Kitabxanası

ğından, vəhşiliyindən və alçaqlığından xəbər verən nəhəng qəbiristanlığa çevrilib".[49]

Erməni qırğınları martın 12-də türk qoşunlarının Ərzurumu azad etməsi zamanı daha da şiddətlənmişdi. Həmin hadisələri 15-ci Qafqaz Ordusu komandanı Kazım Qarabəkir Paşa Amerika nümayəndə heyətinin başçısı general Harborda verdiyi raportda belə izah etmişdir: "Ərzurumda elə acı mənzərələr gördük ki, insanı insanlıqdan iyrəndirirdi. Xalq gözü yaşlı ora-bura qaçaraq kimi oğlunu, kimi atasını, kimi arvadını süngünlənmiş və ya yandırılmış tapır, saçlarını yolurdular. Bir çox küçələrdə həyat yox idi. Yerlərdə cocuq, qadın, qoca qanlar içində yatırdılar. Yalnız son gecə (11-12 mart 1918-ci ildə) üç min müsəlman kəsdiklərini ermənilər öyünərək ruslara bildirmişdilər. Bunu polkovnik Tverdoxlebov yazmışdır. Dəmiryolu stansiyasında sanki bir məzarlıq ölülərini kənara tullamışdı. Cənazələr arasından keçərək, bu dəhşətləri gördük. Hələ içərisinə insanları doldurub birlikdə yandırdıqları binalar insanı titrədirdi".[50]

Kazım Qarabəkir Paşa yazır ki, türk qoşunlarının erməniləri Qarsda mühasirəyə almaq və onları təqib etməkdən vaz keçməsinə baxmayaraq yenə də ermənilər razılığı pozub şəhərdə qırğınlar törətmişdilər. "Aprelin 25-də axşam Qarsı geri aldıq. Şəhəri dolaşdım. Hər tərəf yanır, stansiyada yüzə qədər əsir əsgərimiz işgəncə ilə öldürülmüşdü. Qarsi müdafiə komandanlığı dairəsinin 20 metr qərbində (kiçik hövzədə) Qars çayına atılmış 50-yə qədər müsəlmanın cəsədini tapdıq".[51]

Bu arada, yeni aprelin 22-də Zaqafqaziya Seymi öz yığıncağında Zaqafqaziyanı müstəqil Demokratik Federativ Respublika elan edir və bu respublika aprelin 28-də Türkiyə tərəfindən tanınır.

Türk qoşunlarının qarşısından çəkilən erməni qoşunları Gümrüdə də dəhşətli qırğınlar törətmişdilər. Həmin qırğınlar haqqında sənədli məlumatlar şəkillərlə birlikdə diviziya generalı Əmhəd Hulki Saralın "Erməni məsələsi" kitabında toplanmışdır. "İslam əhalisinin uğradıqları məzalim üzərinə bəlgələrə dayanan bilgilər" adı ilə ilk nəşri bütünlüklə köşklərdən və kitabxanalardan yığışdırıldığı üçün 1919-cu ildə həm türkcə, həm də fransızca yenidən nəşr edilmişdi. Sənədlərdə deyilir:

1) 29.04.1918-ci ildə Gümrüdən 500 araba ilə Axılkələyə götü-





rülməkdə olan 3000-ə qədər qadın, qoca, uşaq və kişi öldürülərək yox edilmişdir.

2) Min əsgər, iki pulemyot və iki topla silahlanmış ermənilər (Duzluca) və İrəvan bölgəsindəki islam kəndlərini dağıtmış, qadın, uşaq və kişiləri qırmışlar.

3) 01.05.1918-ci ildə yüzə qədər erməni atlısı Şiştəpə və Düzkənd ətrafında (indiki Amasiya rayonunun ərazisində) altmış uşaq, qadın və kişini qırmışlar.

4) 01.05.1918-ci ildə Axılkələk ətrafındakı kəndlərdə Acaraca, Danqal, Mulanıs, Murcahet, Padızka, Havur və Gümrüs kəndləri yandırılmış, əhalisi məhv edilmişdi. Arpaçay üzərindəki Bacoğlu ilə İrəvanın şimal-şərqindəki kəndlərin xalqı ermənilər tərəfindən qırılmış, kəndlər yandırılıb dağıdılmışdır".[52]

İrəvan ətrafındakı müsəlmanları erməni qırğınlarından xilas etmək üçün Bakı İslam Xeyriyyə Cəmiyyətinin 36-cı Qafqaz diviziyası komandanlığına etdiyi müraciətdə deyilirdi: "İrəvan quberniyası ərazisindəki islamilərin qırılıb, yox edilməkdə olduqları, otuzdan çox müsəlman kəndinin yandırılıb, əhalisinin qırıldığı və İrəvandan qaçaraq gələn yaralı və xəstə köçkünlərin sayının gündən-günə çoxalmaqda və yoxsulluq ilə pərişanlıq içində üzüldüklərindən, bunlara sığınacaq və daldalanacaq yerinin göstərilməsi rica olunmaqdadır".[53]

Qeyd etdiyimiz kimi, Qars vilayətində türk qoşunlarının önündən geri çəkilməyə məcbur olan erməni könüllü birlikləri qırğınları İrəvan quberniyasının ərazisində davam etdirmişdilər. "Qarsdan sonra zorakılıq dalğası İrəvan quberniyasına keçdi. Qısa müddətdə Qars vilayətində 82, İrəvan quberniyasında 211 müsəlman kəndi yandırıldı, əhalinin bir hissəsi qırıldı, qalan hissəsi isə didərgin düşdü. İrəvan quberniyasından olan qaçqınların sayı 80 min nəfəri keçirdi".[54]

Zaqafqaziya Seyminin müsəlman fraksiyası Qars vilayətində və İrəvan quberniyasında törədilən qırğınlar haqqında iki dəfə məsələ müzakirə etmiş və Seym qarşısında məsələ qaldırmışdı:

a) daxili işlər nazirinə tapşırılsın ki, müsəlmanlara kömək etmək üçün xüsusi komissiya göndərilsin,

b) bütün müsəlman qaçqınları öz yerlərinə qaytarılsın,



Azərbaycan Milli Kitabxanası

c) ərazi nazirliyinə tapşırılsın ki, təcili yardım göstərsin,

ç) azğınlıq edən erməni hərbi hissəsi buraxılsın,

d) müsəlman qaçqınlarının sayı və vəziyyəti öyrənilsin, onlara əlavə yardım göstərilsin.

Müsəlman fraksiyasının gərgin səyi nəticəsində Zaqafqaziya hökuməti bu məsələni öyrənmək üçün komissiya yaratmış və qaçqınların ən zəruri ehtiyaclarını ödəmək üçün bir milyon manat vəsait buraxmışdı.[55] 1918-ci il mayın 15-də türk qoşunları Arpaçay xəttini keçib Gümrüyə daxil olmazdan əvvəl Kazım Qarabəkir Paşa Gümrüdəki erməni nümayəndələrinə: "Şəhərdəki türkləri gətirib təhvil verin və sonra da şəhəri təslim edin"-deyə ultumatum göndərir. Dərhal ermənilər təlaşla arabalar hazırlayırlar, Gümrüdə bulunan 250 xanə (ev) türkləri arabalara mindirib, Arpaçay üzərindəki körpüdən keçirərək türklərə təslim edirlər.[56]

Bu hadisə ilə əlaqədar Kazım Qarabəkir Paşa yazır: "Gümrü köylərində tək-tək qoca qadın və kişi qalmışdır. Gümrüdə 8-10 türk evi var. Orada türk gəncləri əsgərlərimizə sarılıb öpürlər. Əlində qanlı bir dəyənək, ağ saqqallı və bir çox yerlərindən qanlar axan, fəqət dim-dik duran bir baba əsgərlərimizin qoynuna sarılıb belə hayqırır: 93 hərbindən (yəni 1878-ci il) bəri bir gün dəxi ümidimizi kəsmədən sizinlə qovuşacağımı bilirdim. Fəqət artıq dünyanın sonuna qədər ayrılmayacağıq və gözlərindən yaşlar axır".[57] Gümrünü azad etdikdən sonra türk qoşunları iki istiqamətdə - İrəvan və Qarakilsə (Kirovakan) irəliləməyə başlayırlar. Mayın 28-də Hamamlı (Spitak) və Qarakilsəni azad edirlər.

Mayın 26-da Zaqafqaziya Seymi buraxıldıqdan sonra əvvəlcə Gürcüstan, mayın 28-də isə Azərbaycan və Ermənistan öz müstəqilliyini elan edir. İyunun 4-də Türkiyə ilə Ermənistan arasında Batumda sülh müqaviləsi imzalanır. Bu müqaviləyə əsasən Ermənistan Respublikasının ərazisi təqribən 9 min kv.km, əhalisi isə 321 nəfər (o cümlədən 230 min erməni, 80 min müsəlman, 5 min yezidi kürdləri, 6 min digər millətlər) təşkil edirdi.[58] Bu respublikanın ərazisinə Yeni Bəyazid qəzası, İrəvan qəzasının beşdə üçü, Eçmiədzin qəzasının dörddə biri, Aleksandropol qəzasının dörddə biri daxil idi.[59]

Ümumiyyətlə, Batum müqaviləsinə əsasən Ermənistan Respubli-





kasının ərazisi I dünya müharibəsinə qədər ermənilərin İrəvan quberniyasında kompakt yaşadıqları ərazilərlə məhdudlaşırdı.

Mütəxəssis Makkartinin hesablamalarına görə, I dünya müharibəsi zamanı rus və erməni hərbi birləşmələrinin Şərqi Anadolunu işğalı nəticəsində həmin ərazidən 800 min nəfər müsəlman qaçqın düşmüşdür. Müharibənin sonunadək Qafqazdan 400 mindən artıq müsəlman onların cərgəsinə əlavə olmuşdur. Şərqi Anadoluda milyondan artıq müsəlman - o cümlədən ən azı 130 min Qafqazdan olan müsəlman qaçqınlar qırılmışdır.[60]

Ermənistanda daşnakların hakimiyyəti dövründə türklərə qarşı soyqırım daha geniş vüsət almış, onların yaşadıqları ərazilər demək olar ki, bütünlüklə xarabazarlığa çevrilmişdi.

Türkiyənin Van, Bitlis, Muş, Qars və İğdır vilayətlərində 1914-1920-ci illərdə ermənilərin törətdikləri soyqırımlar çox dəhşətli və insanlığa yad olan cəhətləri ilə fərqlənir. Tarixi faktlar, son dövrlərdə aparılmış araşdırmalar göstərir ki, ermənilər Şərqi və Cənubi Anadoluda bir milyondan artıq yerli əhalini qətlə yetirmişlər. Bunu sonralar aşkar edilmiş kütləvi məzarlıqlar (onların sayı 200-dən artıqdır) bir daha sübut edir. Adanadan Qarsa, Ərzurumdan Ərzincana, Vandan Bitlisə, Qarsdan İğdıra qədər olan ərazidə belə kütləvi məzarlıqlar çoxdur. Bu tarixi dəhşətlərin bir daha şahidi olmaq üçün Ərzurum, Van, Qars, Bitlis, Muş bölgələrindəki tarix muzeylərinin soyqırım bölmələrinə baxmaq kifayətdir.



Azərbaycan Milli Kitabxanası

## § 2. 1918-ci İLDƏ AZƏRBAYCANDA TÖRƏDİLMİŞ QIRĞINLAR

### (Bakı, Şamaxı, Quba, Gəncə)

Bir neçə ildir ki, biz hər ilin 31 mart gününü azərbaycanlıların soyqırımı günü kimi qeyd edirik. Bununla ilk növbədə gələcək nəsillərdə milli yaddaşı daha möhkəm və geniş şəkildə formalaşdırmaq məqsədi güdməklə yanaşı, eyni zamanda, yeni soyqırımların qarşısını almaq üçün hamını ayıq-sayıq olmağa çağırırıq.

Qan yaddaşımızda çox faciəli izlər qoymuş və hər dəfə böyük ürək ağrısı ilə xatırladığımız 1918-ci il mart qırğınlarından 90 il keçir. O vaxta qədər görünməmiş vəhşiliyi törədənləri istər bugünkü nəsil, istərsə də gələcək nəsillər yaxşı tanımalıdır.

Çox qəribə də olsa, son vaxtlara qədər "Rusiya həbsxanasındakı xalqların xilaskarı" kimi tanıdılan, təbliğ olunan bolşeviklər 1917-ci ildə Oktyabr dövlət çevrilişi etdilər. Bundan sonra demokratiya və milli azadlıq şüarları altında "Bölünməz Rusiya" yaratmaq eşqi ilə yaşayanlar müstəqil dövlət qurmaq istəyən xalqların, o cümlədən Azərbaycan türklərinin həyati arzularını boğmağa çalışdılar. Buna nail olmaq üçün həmişəki kimi yenə erməni daşnakları kara gəldi. Stepan Şaumyan Bakıda xüsusi səlahiyyətli fövqəladə bolşevik komissarı təyin edildi. O, Bakı Sovetinin iclasındakı çıxışında heç nədən çəkinmədən açıqca deyirdi: "Bakı Soveti Zaqafqaziyada vətəndaş müharibəsinin başlıca mərkəzinə və istehkamına çevrilməlidir".

Bakıda yaradılan sovet qırmızı ordu hissələrinə əsasən "Böyük Ermənistan" xülyası ilə yaşayan erməni millətçiləri başçılıq edirdilər. Öz məqsədlərinə çatmaq üçün S.Şaumyan başda olmaqla Bakı bolşevikləri daşnaklarla ittifaqa girdilər. Bakıda mart qırğınlarının törədilməsinə şərait yaratdılar" ("Xalq qəzeti", 1 aprel 1993-cü il). Bir neçə gün ərzində azərbaycanlılara qarşı Quba, Şamaxı, Göyçay, Lənkəran və digər bölgələrimizdə də qırğınlar təşkil olundu.

Doğru qeyd edildiyi kimi, əlində V.İ.Leninin mandatı olan S.Şaumyan azərbaycanlılara qarşı böyük bir qırğın planı hazırlamışdı. "Bu sahədə S.Şaumyana daşnakların liderləri Andranik, Mikoyan, Hamazasp, Lalayan, Saakyan, Arakelyan, Əmiryan və başqa





qatı millətçilər yardımçı idilər. S.Şaumyanı Bakı Sovetindəki ermənipərəst məmurlarla yanaşı, erməni milli komitəsi də fəal surətdə dəstəkləyirdi" (Hacı Hacıyev).

Qısa müddət ərzində V.İ.Leninin razılığı, S.Şaumyanın rəhbərliyi, daşnak və bolşevik fəallarının birgə fəaliyyəti nəticəsində azərbaycanlılara qarşı törədilən soyqırım siyasəti ermənilərin və rusların dövlət siyasətinə çevrildi.

1918-ci ilin mart-aprel aylarında xalqımızın başına gətirilənləri oxuduqca, yüzlərlə təkzibolunmaz faktları araşdırdıqca adamı dəhşət bürüyür, bütün bunların daşnaklarla bolşeviklərin birgə fəaliyyətlərinin nəticəsi olduğunu biləndə isə indiyə qədər yazılanlara, deyilənlərə, yüksək səviyyədə təbliğ olunan "ideya və amallara" nifrətin həddi-hüdudu olmur.

Azərbaycan xalqının qəddar düşmənlərindən biri olan Stepan Şaumyan haqqında da çox yazılmışdır. Amma Sovet hökuməti dövründə tarixçilərimizin, demək olar, böyük əksəriyyəti onu vəsf etmişlər; bir inqilabçı, Lenin milli siyasətinin qızğın təbliğatçısı kimi az qala onu göylərə qaldırmışlar. Baxmayaraq ki, 1918 və 1920-ci illərdə çapdan çıxmış bir çox mətbuat orqanlarında S.Şaumyanın əsl siması, törətdiyi cinayətlər barədə xüsusi ifşaedici materiallar çap olunmuşdur. Bildiyiniz kimi, Azərbaycan yenidən müstəqilliyini əldə edənə qədər tarixçilərimizə bu haqda tədqiqat aparmaq, əsl tarixi həqiqətləri açıb xalqa çatdırmaq imkanı verilməmişdir. Daha doğrusu, yaranmış ictimai-siyasi şərait buna imkan verməmişdir. Baxmayaraq ki, həmin dövürdə ermənilər öz milli qəhrəmanları hesab etdikləri Andranikə heykəl də qoymuşlar, onun haqqında geniş təbliğat işi də aparmışlar. Halbuki, o və onun silahdaşları türklərin vəhşicəsinə öldürülməsində, ümumiyyətlə, soyqırımlarda çox böyük rol oynamış, minlərlə soydaşımızın qətlə yetirilməsində iştirak etmişlər.

Stepan Şaumyan hələ Qafqaza gəlməmişdən əvvəl "Böyük Ermənistan" siyasətinin həyata keçirilməsi naminə geniş fəaliyyət göstərmişdir. Onun Rusiyada və Avropa ölkələrində apardığı geniş ictimai-siyasi işin son nəticəsi bilavasitə erməni məsələsinin həllinə yönəlmişdi. O, bu istiqamətdə çox işlər görmüşdür. Lakin indiyədək onun fəaliyyətinin bu sahəsi diqqətdən yayınmışdır. Yəni XX



Azərbaycan Milli Kitabxanası

əsrin əvvəllərindən başlayaraq S.Şaumyanı bir inqilabçı kimi təhlil edən tarixçilər onun milli məsələnin həllində ermənipərəst mövqeyini lazımınca açıqlamamışlar. Yalnız son illərdə Stepan Şaumyanın milli məsələ ilə bağlı fəaliyyəti məhz həmin mövqedən tədqiq edilmiş, onun ermənipərəst fəaliyyəti araşdırılmışdır. Müəllif erməni siyasətçisinin geniş ictimai-siyasi fəaliyyətində mühüm yer tutan qatı millətçilik xüsusiyyətlərinin tədqiqinə diqqət yetirmişdir. S.Şaumyan bütün fəaliyyəti boyu milli amilləri diqqət mərkəzində saxlamaqla öz xalqına, millətinə, "Böyük Ermənistan" siyasətinin həyata keçirilməsinə xidmət etmişdir.

S.Şaumyan və digər erməni inqilabçıları bu məqsədlə XIX əsrin sonu - XX əsrin əvvəllərində yaranmış geniş ictimai-siyasi vəziyyətə uyğun olaraq müxtəlif siyasi təşkilatların sıralarına soxulmuşdular.

Rusiya bolşeviklər partiyasının sırasında fəaliyyət göstərən S.Şaumyan öz ətrafına erməni millətçilərini toplayaraq türk xalqlarına qarşı açıq-aşkar mənfur siyasət xəttini həyata keçirirdilər.

S.Şaumyan məhz bu antitürk baxışlara istinad edərək 1918-ci ildə Azərbaycanda soyqırımın həyata keçirilməsinə rəhbərlik etmişdir.

V.İ.Lenindən görüb-götürdüklərini Qafqazda tətbiq edən və bu zaman müsəlmanların, ilk növbədə azərbaycanlıların qatı düşməni mövqeyini tutan S.Şaumyanın bu sahədə göstərdiyi fəaliyyəti sübut edir ki, doğrudan da, həmin dövrdə azərbaycanlılara qarşı törədilən soyqırımların ilhamvericisi və başçısı məhz S.Şaumyan olmuşdur.

Hər şeydən ibrət götürmək, xüsusən tarixdən, tarixdə baş verən adi və qeyri-adi hadisələrdən də ibrət götürmək çox vacibdir. Son yüz ildə xalqımızla, torpağımızla bağlı o qədər qəribə və maraqlı hadisələr olub ki, onlara yenidən diqqət yetirmək, onları dönə-dönə götür-qoy etmək olduqca vacibdir. Elə etməliyik ki, heç olmasa gələcəkdə bu gün bizim dediklərimiz, yazdıqlarımız, danışdıqlarımız üçün gələcək nəsillərimiz xəcalət çəkməsinlər...

Son iki əsrdə bilavasitə Rusiyanın himayədarlığı ilə istədikləri əməlləri həyata keçirən ermənilər Qafqaza gəlmə bir xalq olmalarına baxmayaraq, bu qədim və zəngin ərazidə yurd salmaq, dövlət yaratmaq üçün hər cür hiyləyə, fitnə-fəsada əl atmışlar.





Bu haqda rus tarixçiləri İ.Dyakonov və H.Şavrov belə demişlər: "Qədim ermənilər, təxminən bizim eradan əvvəl birinci minillikdə, Fərat çayının yuxarı vadisi zonasında meydana gəlmişlər".[61] XX əsrin başlanğıcında Zaqafqaziyada yaşayan 1300000 ermənidən 1 milyondan artığı bu rayonun yerli əhalisi deyildir: onlar buraya bizim tərəfimizdən köçürülmüşlər.[62-64]

Ermənistan SSR EA-nın ilk prezidenti İ.Orbelinin qeydinə diqqət yetirək: "İndiki Dağlıq Qarabağ orta əsrlər Albaniyasının bir hissəsi olmuş, sonradan erməni feodalları tərəfindən zəbt edilmişdir".[65]

Ermənilərin kim olduqlarını və harada təşəkkül tapdıqlarını, fikrimizcə, tanınmış alim Manuk Abeqyan daha dəqiq və düzgün ifadə etmişdir: "Erməni xalqının əsli nədir; necə və nə vaxt, haradan və hansı yollarla o buraya (İrəvan torpaqlarına - müəl.) gəlib, erməni olmazdan əvvəl və sonra hansı tayfalarla əlaqədə olub, onun dilinə, etnik tərkibinə kim necə təsir göstərib? Bizim əlimizdə bunları sübuta yetirən aydın və dəqiq dəlillər yoxdur".[66]

Hansı dona, hansı cildə istəsən girməyi bacaran erməni daşnakları 1917-ci ildə belə bir plan hazırlamışdılar ki, istər Şimali Azərbaycanda, istər tarixi Azərbaycan torpaqlarında, istərsə də Qafqazın digər ərazilərində yaşayan azərbaycanlıları bütünlükdə məhv etsinlər, ermənilərin əsas məqsədi bir xalq və millət kimi azərbaycanlıların ən dəhşətli soyqırımını təşkil etmək idi. Daha doğrusu, erməni daşnak partiyasının liderləri 1918-ci ilin ilk aylarından etibarən Bakıdan başlayaraq Tiflisə qədər məskunlaşan azərbaycanlıları qırıb Kür çayına, Qubadan Astarayadək yaşayanları isə Xəzər dənizinə tökməyi planlaşdırmışdılar.

Həmin plana uyğun olaraq 1918-ci ilin mart-may aylarında Bakıda, Şamaxıda, Qubada və Göyçayda ermənilər yerli əhaliyə qarşı kütləvi qırğın tədbirlərinə əl atdılar.

Həmin günlərin acı həqiqətlərini qocaman müəllim Məmməd Hüseyn Axundov belə xatırlayır: "Ermənilər azərbaycanlıları qıraqıra Göyçaya çatmışdılar. Onlar görünməmiş vəhşiliklər törədir, hamilə qadınların qarnını yarıb uşağı nizəyə keçirib, divara sancır, camaatı məscidə doldurub yandırır, qız və gəlinlərin kürəyinə qaynar samavar bağlayır və başqa vəhşiliklər edirdilər".

1917-ci ildə Rusiyada çar hökuməti devrildikdən sonra Almani-



Azərbaycan Milli Kitabxanası

ya və Avstriya cəbhələrində xidmət edən minlərlə erməni əsgəri öz silahları ilə (o vaxtlar rus ordusuna azərbaycanlılar demək olar ki, hərbi xidmətə çağırılmırdılar, əvəzində dövlətə vergi verilirdi) daşnakların niyyətlərini həyata keçirmək üçün Bakıda cəmləşmişdilər.

1918-ci ilin mart ayının sonu Azərbaycan xalqının qanlı və faciəli günləri kimi tarixə düşmüşdür. İstiqlaliyyət tariximizin görkəmli araşdırıcısı Cahangir Zeynaloğlu mart hadisələri barədə belə yazır: "Daşnak firqəsi xüsusi bir proqram daxilində müntəzəm şəkildə Bakıda müsəlmanları qırdı. Bu qırğına "bolşevik - müsavat firqə mübarizəsi" adı verildi və qətl edilənlərin malları yağma edildi və yandırıldı. Martın 31-də başlayan bu qırğın üç gün davam eylədi. "İsmailliyyə" deyilən böyük və gözəl milli saray yandırıldı. "Təzə pir" və sair camilər də bombardman edildi. Şəhidlərin miqdarı 15 min təxmin edilməkdədir. Qətllərdən qurtulan müsəlmanlar ətraf köylərə və dağlara çəkildilər".[67]

Bakıda azərbaycanlıların kütləvi qırğınından sonra oyuncaq hökumətin (daşnakların və ermənipərəst komissarların daxil olduqları Bakı kommunasının) başçısı S.Şaumyan özünün baş planını (azərbaycanlıların bir millət kimi məhvi barədə) həyata keçirmək məqsədilə Quba, Şamaxı, Salyan və Göyçay bölgələrində törədiləcək qırğınları həyata keçirməyə başladı.

Ermənilərin Bakıda qazandığı uğurlar S.Şaumyana qol-qanad verirdi. Öz hərəkətlərinə haqq qazandırmağa çalışan daşnak lideri Rusiya proletariatının başçısından da xeyir-dua almışdı. O vaxtlar V.İ.-Lenin S.Şaumyana yazdığı xüsusi məktubda Bakıda mart qırğınında onun möhkəm və qəti siyasətinə məftun olduğunu bildirir və həmin siyasəti davam etdirməyi məsləhət görürdü. Daha sonra bolşeviklərin rəhbəri tapşırırdı ki, bu siyasəti çox ehtiyatlı bir diplomatiya ilə birləşdirmək unudulmamalıdır. V.İ.Leninin fikrincə, belə etdikdə qələbənin təmin olunacağına böyük inam bəsləmək olardı.

1918-ci ilin aprelində Bakı şəhəri və Bakı quberniyası bolşeviklərin əlinə keçdiyi bir vaxtda S.Şaumyanın tapşırığı ilə Quba qəzasında hakimiyyəti ələ keçirmək üçün tədbirlər görülməyə başlamışdı. Aprelin ortalarında S.Şaumyan özünün sadiq məsləkdaşı David Gelovanini ermənilərdən ibarət iki yüzə yaxın silahlı əsgərlə Qubaya göndərir. Burada özünü Quba qəzası komissarı elan edən D.Ge-



Azərbaycan Milli Kitabxanası





Soyqırım törədən ermənilərdən bir qurupu.

lovani yerli əhaliyə bildirir ki, onlar mütləq bolşeviklərin hakimiyyətini tanımalıdırlar. Vəziyyətin çox ağır olduğunu dərk edən qubalılar bu təkliflə razılaşırlar. Bir neçə gündən sonra Qubada sakitliyin yarandığını görən D.Gelovani yerli camaatın tərksilah edib həbsxanada saxladıqları iki yüzdən artıq erməni azadlığa buraxdırır.

D.Gelovaninin bolşevik idarə üsulu uzun çəkmir. Bir neçə gündən sonra şəhərin və ətraf kəndlərin camaatı bolşevik komissara silahlı müqavimət göstərib ona ya Qubanı tərk etməsini, ya da təslim olmasını təklif edirlər. Arxadan köməyə gələn xüsusi toplu-pulemyotlu dəstə belə, D.Gelovaniyə kömək edə bilmir.

D.Gelovani Qubanı tərk etmək məcburiyyətində qalır. Şəhərdən çıxarkən, o, buradakı erməniləri də özü ilə aparır. Qubalılar bu hadisələr zamanı həm şəhərdə yaşayan, həm də D.Gelovaninin əsgərlərindən olan ermənilərdən az da olsa Bakı qırğınının heyfini çıxırlar.

D.Gelovani Qubadan qovulduqdan iki həftə sonra xəbər gəlir ki, bolşeviklərin bu qəzaya yeni və güclü təcavüzü hazırlanır.

May ayının 1-də məşhur daşnak zabiti Hamazaspın başçılığı ilə ancaq ermənilərdən ibarət olan böyük hərbi dəstə Qubanı mühasirəyə alaraq, şəhəri toplardan və pulemyotlardan atəşə tutur.

Məlum olduğu kimi, Hamazaspın dəstəsi adi əsgərlərdən ibarət olmamışdır. Onlar xüsusi "cəza dəstəsi" adı altında birləşən, vəhşilikləri ilə seçilən ermənilərdən ibarət qoşun hissələri imiş.

Hamazaspı "cəza dəstəsi" ilə Qubaya şəxsən S.Şaumyan göndərmiş və bu barədə o, digər komissarlarla heç məsləhətləşməmişdi. Bu dəstəni təşkil edən isə hərbi komissar erməni Qriqori Korqanov olmuşdur. Q.Korqanov S.Şaumyanın təklifi ilə Hamazaspın dəstəsinə yalnız "Daşnaksütyun" partiyasının üzvü olan əsgərləri (iki min nəfər) daxil etmiş və ona qatı millətçi Venuntsu dəstə komissarı təyin etmişdi.

Hamazasp Qubanı işğal etdikdən sonra şəhər camaatına hədə-qorxu məzmunlu müraciətində onun dəstəsinin bu yerlərə hansı məqsədlə göndərildiyi açıq şəkildə ifadə olunur. O vaxt Hamazasp demişdi: "Mən erməni xalqının qəhrəmanı və onun marağının müdafiəçisiyəm. Mən buraya - Qubaya xüsusi cəza dəstəsi ilə ona görə göndərilmişəm ki, iki həftə əvvəl burada öldürülən ermənilərin





heyfini sizdən alım. Mən buraya qayda-qanun yaratmaq, Sovet hakimiyyətini qurmaq üçün gəlməmişəm.

Bu yerlərdə erməniləri qırdığınıza görə, Xəzər dənizinin sahillərindən tutmuş Şahdağa qədər olan ərazidə yaşayan bütün müsəlmanları məhv etmək barədə mənə göstəriş verilib. Mənə sizin yurd-yuvanızı yerlə-yeksan etmək, Şamaxıda törətdiklərimizi sizin də başınıza açmaq, erməni qardaşlarımızın qanının intiqamını almaq tapşırılıb".

Hamazaspın dəstəsi istər Qubaya gələrkən bütün yol boyu, istər şəhərə girərkən, istərsə də mahalın digər ərazilərində olarkən çox dəhşətli və azğın hərəkətlər etmişlər. Ermənilər qarşılarına çıxan kəndləri, obaları, yurd yerlərini dağıdır, yandırır, rastlaşdıqları kişiləri, qadınları, uşaqları qəddarcasına qətlə yetirirdilər. Qubada bir-bir evlərə girib bəzən bütün ailəni məhv edən ermənilər hətta hamilə və uşaqlı qadınlara belə rəhm etməmişlər. Məsələn, onlar Kərbəlayı Məmməd Tağı oğlunun 14 nəfərdən ibarət ailəsinin, Məhəmməd Rəsul oğlunun 5 nəfərlik ailəsinin başlarını kəsmiş, Hacı Dadaşbala Qasım oğlunun arvadı Bibixanım və oğlu Abdul Qasımı diri-diri oda ataraq yandırmış, Kərbəlayı Abuzər Məstan oğlunu və iki qızı - Hökuməni və Bustanı qucaqlarındakı körpələrlə birlikdə tikə-tikə doğramış, Məşədi Qənbər Molla Məhəmməd Saleh oğlunu, onun arvadını və beş körpə uşağını şaqqalamışlar.

Hər cür vəhşilik və talanlarla yanaşı, ermənilər ən alçaq və rəzil hərəkətlərə də əl atmaqdan çəkinməmişdilər. Belə ki, qansız erməni əsgərləri şəhərin hörmətli ağsaqqallarına əmr etmişdilər ki, onlara əylənmək üçün müsəlman qadın və qızları gətirsinlər. Bununla qəti şəkildə razılaşmayan Əlipaşa Kərbəlayı Məhərrəm oğlu və onun oğlu yerindəcə vəhşicəsinə güllələnmişdilər. Bəzən ermənilər onların əmrlərini yerinə yetirməyən kişilərin gözlərini çıxarmış, qarınlarını xəncərlə doğram-doğram etmişlər. O vaxt şəhərdə iki mindən artıq kişini öldürən azğın erməni əsgərləri yüzə yaxın qadın və qızı zorlamış, namuslarına toxunmuşlar...

Şəhər əhalisinin əmlakı tar-mar edilərək oğurlanmışdı. Təkcə Qubanın özündə Hamazaspın əsgərləri dörd milyon manat nağd pul, xeyli qızıl pul, qiymətli daş-qaş və beş milyon manatlıq əşya-mal, iyirmi beş milyon manatlıq ərzaq ehtiyatı ələ keçirmişdilər. Xatırla-



Azərbaycan Milli Kitabxanası

daq ki, həmin qızılların və qızıl pulların bir hissəsi sonralar S.Şaumyan həbs edilərkən (öz məsləkdaşları ilə birlikdə) onun yük çamadanlarındakı 80 milyon məbləğindəki qızıl pulun içərisində olmuşdur. Təkcə Qubanın özündə Hamazaspın dəstəsi 105 ev yandırmışdır. Hamazaspın cəza dəstəsi Qubaya gələrkən Bakı-Xaçmaz dəmir yolunun sağ və sol tərəflərində yerləşən kəndləri dağıtmış, yandırmış, əmlakını qarət etmiş, qaçıb canını qurtara bilməyənləri isə qətlə yetirmişdi. Bəzən hətta elə olub ki, bu və ya başqa yaşayış məntəqəsində camaat ermənilərlə dil tapmağa, danışıqlar aparmağa cəhd göstərmiş, lakin əvəzində düşmən güllələrinin qurbanı olmuşlar. Məsələn, Dəvəçi icmasının Dəvəçibazar və Qızılburun camaatı on beş nəfərdən ibarət ağsaqqallar heyətini erməniləri duz-çörəklə qarşılamağa göndərmiş, lakin Hamazaspın göstərişi ilə onların hamısı güllələnmişdi.

❖❖❖

Ermənilər bütün kəndlərdəki məscidləri dağıdaraq, müqəddəs Quran kitablarını təhqir edərək ayaqlar altına atmış və yandırmışlar. Bütünlükdə Quba mahalında daşnaklar 122 kəndi dağıtmış, yandırmış, viran qoymuşlar. Bəzi kəndlərdə, məsələn, Nardərə, Qarabulaq, Nığır düzü kimi qədim yaşayış məskənlərində hətta indinin özündə 3-5 ev qalıb. Adları çəkilən məntəqələrdə elə bizim günlərdə təzə binaların özülü qazılarkən 90 il əvvəl ermənilərin yandırdıqları binaların külü üzə çıxır.

Ermənilərin Quba mahalında törətdikləri vəhşilikləri öz gözləri ilə görən, yaralanan, həm də təsadüf nəticəsində salamat qalan adamlar da olmuşdur. Onların söylədikləri daşnak əməllərinin necə dəhşətli və qansız hərəkətlər olduğunu bir daha sübut edir. Sonralar Quba şəhəri sakinlərindən, eləcə də mahalın digər yerlərində yaşayan əhalinin nümayəndələrindən Quba hadisələrini tədqiq edən, öyrənən fövqəladə istintaq komissiyası bir sıra ifadələr almışdır. Həmin komissiyanın üzvü A.Novatskinin hazırladığı məruzə erməni vəhşiliklərini kifayət qədər əks etdirmişdir. O, hətta məruzəsinin sonunda Quba qırğınını törədənlərin ən ağır cəzalara layiq olduqlarını da qeyd etmişdir.[68] Lakin belə bir qiymətli sənəd uzun müddət





bilərəkdən unudulmuş, gizlədilmişdir...

Uzun illər, 1918-ci il hadisələrinin çoxu qəsdən unuduldu. Xüsusən, Şimali Azərbaycanda bolşeviklər hakimiyyət başına gəldikdən sonra ermənilərin Bakıda, Şamaxıda və Qubada törətdikləri vəhşiliklər barədə danışılmadı. Azərbaycanda ən məsul vəzifələrə irəli çəkilən ermənilər və ermənipərəst "azərbaycanlılar" olub-keçənləri çox böyük ustalıqla ört-basdır edə bildilər. Xalqdan gizlədilən həqiqətlər xatirələrdən silindi.

Vaxtilə görkəmli ədibimiz Üzeyir bəy Hacıbəyli 1918-ci ilin mart ayında ermənilərin qansız və vicdansız hərəkətləri ilə bağlı yazırdı ki, əgər Osmanlı türk qəhrəmanları vaxtında köməyə gəlməsəydilər, azğınlaşmış ermənilər nəinki Bakıda, Şamaxıda, Qubada, bəlkə də bütün Azərbaycanda daşı daş üstə qoymazdılar... Bəli, o vaxt erməni vəhşiliklərinin qarşısına türklər Göyçay bölgəsində sədd çəkdilər, daşnakların bütün dəstələri darmadağın edildi.

❖❖❖

Bakıda törədilən qırğınlar Erməni Milli Şurasının qələbəsi sayılsa da, Müsəlman Milli Şurasının ağır məğlubiyyətə uğraması heç də daşnakların qələbəsi deyildi. Düzdür, Bakıda axıdılan günahsız qanlar nə qədər faciəli olsa da, o dövrdəki müvəqqəti məğlubiyyətlər azərbaycanlıları heç də həvəsdən salmadı, mübarizlik ruhunu qıra bilmədi.

Əksinə, "mart günlərindən sonra, azərbaycanlılar artıq muxtariyyətdən deyil, ayrılmaqdan danışır və öz ümidlərini rus inqilabına yox, Türkiyənin köməyinə bağlayırdılar".[69]

Faciəli Mart qırğınından sonra Bakıda yerləşən Müsəlman Milli Şurası və azərbaycanlıların digər siyasi təşkilatları müvəqqəti olaraq Gəncəyə və Tiflisə köçmək məcburiyyətində qaldılar. Azərbaycanın müxtəlif ərazilərində daşnakların törətdikləri vəhşiliklərin dalğaları tədricən Gəncə və onun ətraf yerlərində də hiss olunmağa başlayırdı.

O vaxtlar Azərbaycan demokrat qüvvələrinin məqsədini lağa qoyan daşnak lideri S.Şaumyan və digər erməni liderləri mətbuat səhifələrində azərbaycanlılara rişxəndlə bildirirdi ki, "Siz muxtariyyət deyil, xarabazar alacaqsınız". S.Şaumyan və onun əlaltıları bununla



Azərbaycan Milli Kitabxanası

demək istəyirdilər ki, azərbaycanlılar öz ulu torpaqlarında heç vaxt nə milli dövlət yarada biləcək, nə də Qafqazda muxtariyyət əldə edəcəklər.

Erməni daşnaklarının niyyətləri çox dərin qatlarda Azərbaycanı erməniləşdirmək arzusu ilə bağlı idi. Belə ki, 1918-ci ilin aprelində təşkil olunmuş Bakı quberniyası Xalq Komissarları Sovetinin rəhbərləri nəinki Azərbaycanın türk xalqına öz müqəddəratını təyin etmək hüququnu rəva görmür, hətta başçıları S.Şaumyan "Azərbaycan" sözünü qəbul etməkdən imtina edirdi. Əmiryanın redaktoru olduğu "Bakinski raboçi" qəzeti bu sözü məsxərəyə qoymaqdan belə çəkinmirdi. "Bakı və Bakı quberniyasında milli qüvvələrə divan tutduqdan sonra, Bakı Soveti özünün, əsasən erməni, hərbi hissələrindən ibarət olan dəstələrini Gəncəyə hücuma hazırlayırdı".[70]

Ermənilərin Bakıda törətdikləri vəhşiliklər tədricən Azərbaycanın digər bölgələrində də təkrar olundu.

M.Ə.Rəsulzadə "Azərbaycan Cümhuriyyəti" kitabında erməni daşnaklarının o vaxtkı əməlləri barədə yazır: "Şamaxının düçar olduğu təcavüzə məruz qalan, Salyan, Quba, Həvahi və Kürdəmir kimi qəza, şəhər və qəsəbələri dəxi məruz qaldı. Bu təcavüzlər əsasında yaxılan xanimanların, qıyılan irz və namusların, kəsilən qarı qocaların, yəğmaya gedən mal və məvaşinin təsviri qeyri-qabili-təsəvvür bir faciə təşkil edir".[71]

Bakıda fəaliyyət göstərən Erməni Milli Şurası əsasən ermənilərdən ibarət bolşevik silahlı dəstələrini Hacıqabul, Kürdəmir və Göyçay, eləcə də Salyan və Lənkəran istiqamətlərinə göndərərək, yerli əhalini - azərbaycanlıları qırmaq barədə göstərişlər hazırlamışdı.

Bakı Komissarları Sovetinin rəhbəri Şaumyanın başçılıq etdiyi bolşevik təşkilatları azərbaycanlılarla öz milli haqq-hesablarını bolşevizm pərdəsi altında çəkən daşnak şovinistləri ilə dolmuşdu.[72] Şamaxı və Göyçay istiqamətində göndərilən erməni silahlı dəstələrinə S.Şaumyanın ən yaxın dostları Stepan Lalayan və Tatevos Əmirov başçılıq edirdilər.

Gəncədə azərbaycanlıların kütləvi qırğınlarını təşkil etmək üçün ermənilər çox böyük hazırlıq işləri aparırdılar.

Məsələn, V.İ.Leninin tövsiyəsi və himayədarlığı ilə Bakıya xüsusi səlahiyyətlə fövqəladə bolşevik komissarı təyin olunan





S.Şaumyan Bakı Sovetinin sədri kimi belə bir göstəriş verdi ki, Bakıda olduğu kimi, Gəncədə də hərbi alayların ixtiyarında olan bütün silahlar ermənilərin əllərində cəmləşdirilsin.

Əslində, o vaxtlar Zaqafqaziya Seymi belə bir qərar çıxarmışdı ki, Gəncədə yerləşən 216-cı və Bakıda yerləşən 219-cu alaylar özlərinin bütün silahlarını və sursatlarını müvafiq olaraq yeni yaradılan Gəncə və Bakı müsəlman alaylarına versinlər. Amma ermənilər bu işə heç cür yol vermək istəmirdilər. Onlar hər cür hiylə və üsuldan istifadə edərək 216 və 219-cu alayların silahlarını öz əllərinə keçirməyə müvəffəq olmuşdular.

Gəncədə ermənilərin bu hərəkətləri çox böyük narazılıqlara səbəb olmuşdu. Azərbaycanlılarla ermənilər arasında qanlı toqquşmalar başlandı. Vəziyyətin getdikcə ağırlaşması həm Bakıda, həm də Tiflisdə ciddi narahatlıq doğurdu. Yaranmış gərginlikdən çıxış yolu tapmaq məqsədilə Zaqafqaziya Seymindən müsəlman və erməni milli şuralarından, habelə "Müsavat" partiyasından səlahiyyətli nümayəndələr Gəncəyə göndərildi. Danışıqlardan sonra azərbaycanlılar Milli Ordunun yaradılması işində xeyli fəallıq göstərdilər. Ermənilərin hər cür maneçiliklərinə, fitnə-fəsadlarına baxmayaraq qısa müddət ərzində həm Gəncədə, həm də Azərbaycanın digər yerlərində milli ordunun yaradılması sahəsində bir sıra konkret işlər görüldü.

Bütün bu məsələlərin müqabilində ermənilər həm gizlicə, həm də aşkar çoxlu əks-tədbirlərə əl atırdılar. Daha doğrusu, daşnaklar xəlvətcə öz işlərini görürdülər. Həştərxandan, Krasnovodskdan gələn ermənilər bu bəhanə ilə Bakıda saxlanırdılar ki, guya müsəlmanlar yollarda onlara hücum edirlər. İrandan və Krasnovodskdan paroxodlarda Şura hökuməti adına gətirilən mühümmati-hərbiyyə və qeyri şeylər daşnakların əlinə keçirdi. Bunlar etibarlı yerlərə yığılırdı. O cümlədən Mantaşovun zavoduna və qeyri yerlərə.

Bunların hamısı ilə bərabər, eyni zamanda, Şaumyan və Avakyanın fitnəkarlığı sayəsində Şamaxı hadisələri vaqe oldu.

Şamaxıda ermənilərin törətdikləri vəhşiliklərlə bağlı S.Şaumyanın daşnaklara müraciətlə hazırladığı məktub Gəncə komendatının əlinə keçir. Həmin məktubdan açıq-aydın görünürdü ki, həm Şaumyan, həm də Avakyan ən qatı daşnakdırlar.



Azərbaycan Milli Kitabxanası

S.Şaumyan Bakı Xalq Komissarları Soveti adından 1918-ci il iyun ayının 6-da ermənilərdən ibarət hərbi hissələrin Gəncə üzərinə hücumu barədə əmr hazırlayır və daşnak sərkərdələrinə xüsusi tapşırıqlar verir.

Şamaxı şəhərini və onun ətraf kəndlərini viran qoyan, müsəlman əhalisini ucdantutma qıran vəhşi daşnaklar Gəncə istiqamətində irəliləməyə başlayırlar. Erməni silahlı qüvvələri əgər Bakıdan Şamaxıya üç günə gedib çıxmışdılarsa, onlar iki gün ərzində Ağsu və Göyçayı da zəbt etməyə imkan tapdılar. Vəziyyət çox ağırlaşırdı. Bütünlükdə həm yeni yaradılmış Azərbaycan Xalq Cümhuriyyətinin, həm də bir millət kimi azərbaycanlıların taleyi məsələsi ortaya çıxmışdı. Faciənin qarşısını almaq üçün qəti tədbirlər görmək vaxtı çatmışdı. Həmin günlər barədə M.F.Axundovun xatirələri çox maraqlıdır. O yazır: "Bu vaxt bizim milyonçular İrana müraciət edib kömək istəyirlər. İran isə ancaq üçüncü müraciətdən sonra cavab verir ki, biz sizin daxili işinizə qarışmırıq. Bundan sonra H.Z.Tağıyev Türkiyəyə, Ənvər Paşaya müraciət edir. Ənvər Paşa dərhal İstanbul müdafiəsindən seçmə türk diviziyalarını çıxarıb Azərbaycana köməyə göndərir. Bu zaman Tovuzda atamgil qiymətdən ağır, çəkidən yüngül əşyaları yığıb, qaçmağa hazırlaşırlar. Bir azdan xəbər çatır ki, türklər eşalonla köməyə gəlirlər. Atamgil əllərində duz-çörək, gözlərində yaş türkləri qarşılamaq üçün vağzala çıxırlar.

Türk diviziyaları Göyçayda ermənilərin qarşısını kəsir, onları qova-qova Bakıya daxil olur. Hər stansiyada bir zabit, 5-6 əsgər qoyurlar ki, yerli azərbaycanlılardan özünü müdafiə dəstələri yaratsınlar.

Ancaq türk diviziyalarını əvəz edən ərəb diviziyalarının ingilislərə satıldığını görən Mustafa Kamal Paşa Azərbaycandan diviziyaları geri çağırır (bunun başqa obyektiv səbəbləri də olmuşdur - müəl.). Beləliklə, türklərin Göyçə gölünü və Dərbəndi Azərbaycana qaytarmaq planları yarımçıq qalır".[73]

Doğrudan da həmin ağır günlərdə qardaş Türkiyənin kömək əli vaxtında yetişməsəydi, Azərbaycan torpağının və azərbaycanlıların taleyinin necə olacağını, bütün bunların nə ilə nəticələnəcəyini təsəvvür belə etmək çətindir.

1918-ci il may ayının 28-də Azərbaycan Xalq Cümhuriyyəti ya-





randı. İyun ayının 4-də Azərbaycan Cümhuriyyəti ilə Türkiyə dövləti (Osmanlı imperiyası) arasında dostluq və qarşılıqlı yardım barədə müqavilə bağlandı.

AXC hökuməti Tiflisdə təxminən üç həftəlik fəaliyyətindən sonra iyun ayının 16-da Gəncə şəhərinə köçdü.

Azərbaycan milli dövlətinin yaradılması və hökumətin müvəqqəti olaraq Gəncədə yerləşməsi bu qədim şəhərdə ermənilərin daha geniş şəkildə əl-qol açmalarına imkan vermədi, onların hazırladıqları bir çox azğın və murdar planları alt-üst etdi. Azərbaycana Türkiyədən silahlı qoşun hissələrinin köməyə gəldiyini görən daşnaklar müttəfiqlər sorağında çox yollara əl atdılar. Lakin S.Şaumyan və onun tərəfdarları iyul ayının sonunda istefa verməyə məcbur oldular. Bakıda hakimiyyəti eser-menşevik və yeni daşnaklardan ibarət Sentrokaspi diktaturası aldı.

Az keçməmiş özünün çox gücsüz olduğunu başa düşən Sentrokaspi ingilisləri kömək üçün Bakıya dəvət etdi. Lakin Odlar yurdunda ağalıq etmək arzusu ilə yaşayan yad və qondarma hökuməti nə ingilislər qoruya bildi, nə də özünün 14-cü maddəsi ilə AXC-yə arxadan zərbə vuran Mudros sazişi.

Avqust ayının ikinci yarısında Azərbaycan dövlətinin qoşunları, eləcə də Türkiyədən öz qan qardaşlarını müdafiə etmək üçün gəlmiş türk hərbi dəstələri Bakı üzərinə qəti hücum planları hazırladılar.

1918-ci il sentyabrın 15-də general-leytenant Əliağa Şıxlinskinin rəhbərliyi altında Azərbaycan və üç gün sonra isə Nuru Paşanın başçılığı ilə türk qoşun hissələri Azərbaycan və üç gün sonra isə Nuru Paşanın başçılığı ilə türk qoşun hissələri Azərbaycan Xalq Cümhuriyyəti paytaxtı Bakını menşevik, eser və daşnaklardan ibarət oyuncaq Sentrokaspi hökumətindən təmizlədi. İngilislər elə sentyabrın 15-də Bakını tərk etdilər. Öz xalqına sadiq sərkərdələrin və kifayət qədər silahın olması bu ağır müharibədə igid Azərbaycan əsgərlərinə qələbə qazandırdı. 15 min nəfərlik qoşunla düşmənin 50 minlik ordusu tamamilə darmadağın olundu.[74]

Azərbaycan hökuməti Bakıya köçdü.



Azərbaycan Milli Kitabxanası

## § 3. QAFQAZ İSLAM ORDUSUNUN AZƏRBAYCANA GƏLİŞİ

1918-ci il Azərbaycan xalqının tarixində çox mühüm bir mərhələdir. Bir sıra acınacaqlı və şərəfli səhifələrlə zəngin olan 1918-ci il hadisələri son illərdə az-çox araşdırılsa da, əslində, kifayət qədər öyrənilməmişdir.

İstər 1918-ci il fevral-mart-may qırğınları, istər Zaqafqaziya Seyminin əsas və tərkib hissələrindən olan Azərbaycan milli ictimai-siyasi qüvvələrinin, istər Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və onun Gəncə mərhələsi, istərsə də həmin ildə baş vermiş digər tarixi hadisələr Azərbaycan tarixşünaslığında hələ ki, hərtərəfli tədqiqatlarını gözləyir. Düzdür, 1990-1998-ci illərdə ayrı-ayrı qeyrətli tarixçilərimizin və politoloqlarımızın fədakarlığı və vətəndaşlıq səyləri hesabına bu sahədə bəzi məqalə və kitablar işıq üzü görmüşdür, lakin bunlar çox azdır.

Fikrimizcə, 1918-ci il hadisələri içərisində ən az diqqət yetirilən məsələlərdən biri həmin ildə Bakının, eləcə də bütünlüklə Azərbaycanın erməni-daşnak və rus işğalından azad olunmasında Qafqaz İslam Ordusunun xidmətlərinin araşdırılıb üzə çıxarılmasıdır.

Biz Qafqaz İslam Ordusu deyərkən, 1918-ci ildə Qafqaz cəbhəsində, eləcə də Qafqazdan cənubda yerləşən Azərbaycan ərazilərində düşmənlərdən xilas yürüşləri aparmış ordunu nəzərdə tuturuq.

Qeyd etmək lazımdır ki, Gənc Azərbaycan Xalq Cümhuriyyəti 1918-ci il iyun ayının 4-də Türkiyə dövləti ilə hərbi əməkdaşlıq sahəsində müqavilə bağlamışdı.

Bu zaman Azərbaycan hökumətinin öz ordusu da vardı. "Əlahiddə Azərbaycan korpusu" adı altında yaradılan hərbi hissələrin sıraları qısa müddətdə genişləndirilmişdi.

Azərbaycan Nazirlər Şurasının sədri Fətəli xan Xoyskinin Türkiyəyə hərbi yardım barədə müraciətindən sonra Osmanlı tərəfi, təxminən eyni vaxtda Batumda olan Azərbaycan Xalq Cümhuriyyətinin nümayəndə heyəti ilə 4 iyun 1918-ci ildə imzalanan müqaviləyə əsasən (o vaxt Batumda (Batumi şəhəri) türk nümayəndələri (Osmanlı dövlətinin Ədliyyə naziri Xəlil bəy və Şərq Orduları Qrupunun komandanı Vahib Paşa) ilə Azərbaycan Xalq Cümhuriyyətinin nümayəndələri (Məhəmmədəmin Rəsulzadə və xarici işlər naziri Məmməd Həsən Hacınski) arasında görüş keçirilmişdi. O vaxt Türkiyə dövləti Azərbaycana hərbi yardım etmək qərarına gəlir.





Qarşıda duran yeganə maneə o zaman Qafqazın siyasi həyatında müəyyən rol oynayan Almaniyanın etirazı idi. Ona görə də Türkiyə və Azərbaycan arasındakı qarşılıqlı razılaşma nəticəsində Azərbaycana köməyə gələn diviziya Qafqaz İslam Ordusu adlandırıldı və ona komandanlıq Nuri Paşaya həvalə olundu. Daha doğrusu, "İstanbul hökuməti və Baş komandanlıq tələblərə görə Azərbaycana gec də olsa belə bir ordu göndərməyi vacib bilərək hərəkətə başladı. Almanların müdaxiləsinin qarşısını almaq üçün bu orduya Qafqaz İslam Ordusu adı verildi. Yeni nizami qüvvə olacaq bu ordu Azərbaycandan toplanacaq könüllülərlə möhkəmləndiriləcəkdi. İngilislərin də Azərbaycan, o cümlədən Təbrizə girmələrinin qarşısını almaq üçün Yaqub Şövqi Paşanın komandanlığı altında IX Ordu hərəkətə gətirildi. İslam Ordusunun əsas özəyi IX Ordunun 5-ci Qafqaz diviziyası idi.[75]

Türk ordusunun bu tarixi xidmətləri olduqca əvəzsizdir. 1993-cü ildə Türkiyə Silahlı Qüvvələri Baş qərargahının nəşriyyatı "I Dünya müharibəsində türk hərbi, Qafqaz cəbhəsi, 3-cü ordu hərəkatı" adlı çox qiymətli sənədlərlə zəngin, bir neçə cilddən ibarət əsər çap etmişdir. Bu əsərin ikinci cildində "Türkiyənin Azərbaycana əsgəri yardımı" bölməsi də vardır.[76]

1918-ci ilin əvvəllərindən başlayaraq, Bakıda, eləcə də Azərbaycanın digər ərazilərində erməni-daşnak qüvvələri və rus bolşevikləri işğalçılıq siyasəti aparırdılar. Hər iki tərəfin Azərbaycanın işğal edilməsində öz marağı vardı.

Əgər ermənilər tarixi Azərbaycan torpaqlarını zəbt edərək "Böyük Ermənistan" yaratmaq arzusu ilə əl-qol açırdılarsa, Rusiya bolşevikləri Bakını-Abşeronu qoparıb Rusiyanın yeni bir quberniyasına çevirmək planı ilə nəfəs alırdılar.

Bu dövrdə daha bir qorxulu qüvvə meydana gəlmişdi. Yenicə müstəqillik əldə edən Gürcüstan dövləti də öz növbəsində himayədarları almanların köməyi ilə o vaxtlar azərbaycanlılar yaşayan və Qafqaz İslam ərazisinə aid olan bəzi torpaqları işğal edirdilər. Təsadüfi deyil ki, V Qafqaz diviziyasının Azərbaycana yardım üçün gəl-



Azərbaycan Milli Kitabxanası

məsinə sovet Rusiyasının tələbi ilə almanlarla birgə gürcülər də maneçilik törətməyə çalışırdılar. O vaxt V Qafqaz diviziyasına Gürcüstan dəmiryolu ilə Gəncəyə gəlməyə imkan verilmədi.

Bütün bu planlar I Dünya müharibəsindən məğlub çıxmasına baxmayaraq Osmanlı dövlətinə az-çox məlum idi. Türkiyə tərəfi Azərbaycanla, Qafqazla bağlı təcavüzkarlıq planlarının qarşısını almaq üçün yollar fikirləşirdi. Digər tərəfdən, Osmanlı Türkiyəsi bütün dövrlərdə Azərbaycanın və Azərbaycan türklərinin taleyinə biganə qalmayıb.

Qafqazdakı ictimai-siyasi durumu nəzərə alaraq Türkiyə tərəfi bir sıra təxirəsalınmaz tədbirlər hazırlamağa başladı. "Türkiyə Ordusunun Baş Komandanlığı Azərbaycanda 3 piyada alayı və 3 piyada diviziyasından ibarət ordu təşkilini qərarlaşdıraraq, I və II diviziyanın təşkili ilə məşğul olacaq zabitlərin 6-cı ordu komandanlığına - Mosula, III diviziyanın zabit heyətinin isə 3-cü ordu komandanlığına - Trabzona göndəriləcəyini 1918-ci ilin martında 3-cü və 6-cı ordu komandanlıqlarına xəbər verdi. Qafqazda təşkil ediləcək bu orduda xidmət edən bütün generallar, yüksək strukturlu zabitlər əlavə fəxri rütbə daşıyacaq və bu rütbənin səlahiyyətlərini alacaqdılar.[77]

1918-ci il mart ayının 22-də Osmanlı dövlətinin hərbi naziri Ənvər Paşanın imzaladığı təlimatnamədə Qafqaz İslam Ordusunun yaradılması üçün göstərilən konkret işlər həyata keçirilməyə başladı. Ənvər Paşanın əsas məqsədi Türkiyə nizami qoşunlarının köməyi ilə Təbrizdən Dağıstana, Tehrandan Türküstana qədər olan bütün əraziləri nəzarət altına almaq, onları yadelli işğalçıların əlindən qoparmaq, imkan daxilində bu yerlərdə milli hökumətlərin yaradılması üçün ictimai-siyasi zəminə nail olmaqdan ibarət idi. Bu çox çətin vəzifə olsa da, qısa müddət ərzində türklərin hərbi manevr və uğurları qarşıya qoyulan bir çox məqsədlərin reallaşması ilə nəticələndi.

Nuru Paşanın rəhbərlik etdiyi heyət 1918-ci ilin aprel-may aylarında Mosuldan çıxaraq Rəvandiz-Savuçbulaq-Təbriz yolu ilə Azərbaycanın Zəngəzur mahalına çatdı. Nuru Paşa mayın 25-də Gəncə şəhərində öz hərbi qərargahını yaratdı. Çox düzgün olaraq qeyd edilir ki, "Gəncənin Azərbaycanda istiqlalın müdafiəsinin mərkəzinə çevrilməsi onunla əlaqədar idi ki, Azərbaycan Demokratik Respublikasından qabaq türk hərbi hissələri Gəncəyə gəlmişdilər".[78]





Türklərin Gəncəyə gəlişi bütünlükdə gənc Azərbaycan hökumətinin Tiflisdən Gəncəyə keçməsi üçün şərait yaratdı. Daha doğrusu, "başda daşnak S.Şaumyan olmaqla Bakı Xalq Komissarları Soveti Azərbaycan Demokratik Respublikası hökumətinin, Tiflisdən Azərbaycan ərazisinə - Gəncəyə gəlməsinə imkan verməməyə çalışırdı". Bir qədər irəlidə görəcəyik ki, elə 1918-ci ilin sentyabrında Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin Bakıya köçməsi də məhz milli Azərbaycan və türk qoşunları tərəfindən Bakının erməni-daşnak və rus işğalçılarından təmizlənməsindən sonra baş tutur.

Əsasən, Osmanlı türk əsgərlərindən, eləcə də Azərbaycanın müxtəlif ərazilərindəki yerli əhalidən toplanmış könüllülərdən ibarət olan Qafqaz İslam Ordusuna başçılıq edən Nuru Paşa çox təcrübəli və uzaqgörən sərkərdə idi. Nuru Paşanın tələbi ilə Qafqaz İslam Ordusunu gücləndirmək üçün Türkiyə qoşunlarının V Qafqaz diviziyası da Qafqaz İslam Ordusunun sərəncamına göndərildi. Yeni təsis olunan V Qafqaz diviziyası təcrübəli komandan Mürsəl Paşanın rəhbərliyi altında Gümrü-Dilican-Qazax istiqamətində hərəkət edərək 1918-ci il iyun ayının 15-də Gəncə ətrafında mövqelərini tutdular. Xatırladaq ki, elə bundan bir gün sonra Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti Tiflisdən müvəqqəti paytaxta - Gəncəyə köçə bildi.

Qeyd etdiyimiz kimi, Qafqaz İslam Ordusunun bir neçə alayı Azərbaycan hərbi hissələrindən və könüllülərdən ibarət idi.

1918-ci ilin iyun günlərində Ağdam şəhərində təşkil olunan Cavanşir alayının taqım əsgərləri şəhər küçələrində bu misraları ucadan oxuya-oxuya addımlayırdılar:

**Qafqaziyada qan olacaq,**
**Tarixlərə şan olacaq!**
**Bu yerlərdə Moskov deyil,**
**Azərbaycan xan olacaq!**
**Azərbaycan xan olacaq!**
**Azərbaycan xan olacaq!**

Qafqaz İslam Ordusu Azərbaycanın qərb və cənub-qərb istiqamətlərindən Gəncəyə qədərki ərazilərində möhkəmləndikcə, Bakının və Azərbaycanın şimal və cənub ərazilərinin xeyli hissəsini ələ keçirməyə müvəffəq olan erməni-daşnak və bolşevik hakimiyyəti ciddi-cəhdlə əks tədbirlər görməyə başladılar.



Azərbaycan Milli Kitabxanası

Bakı kommunasının qoşunları Gəncə istiqamətində hücuma keçdikləri vaxtdan on gün sonra V Qafqaz diviziyası Bakıya doğru hərəkətə başladı.

Hələ iyun ayının 13-də məlum olmuşdu ki, Qırmızı Ordu hissələri artıq Gəncədən 160 km məsafədəki əraziyə - Kürdəmirə çatmışlar.

Kürdəmir-Müsüslü istiqamətində erməni-daşnak və bolşevik qoşunlarına qarşı 300 nəfərlik könüllü azərbaycanlı vuruşurdu.

İyun ayının 17-də Göyçayın yaxınlığında Ağstafadan qatarla Göyçaya gələn 10-cu Qafqaz alayının qeyri-bərabər döyüşlərdə mühasirəyə düşərək məğlubiyyətindən dərhal sonra təcili olaraq tanınmış azərbaycanlı komandan, general Əliağa Şıxlinski və V Qafqaz diviziyası düşmənin qarşısını kəsdi.

Qısa hazırlıqdan sonra iyunun 30-da kütləvi hücuma keçən V Qafqaz diviziyası üç gün ərzində həm şimal, həm şərq, həm də cənub istiqamətlərində düşməni bütün cəbhə boyu geri oturtmağa nail oldu. Göyçay döyüşləri uğurla başa çatdı.

Lakin düşmən tərəfinin müəyyən qüvvələri hələ güclü müqavimət göstərirdi. Qafqaz İslam Ordusunun əlavə hərbi qüvvələrə və sursata ehtiyacı vardı.

Ənvər Paşa Qafqazdakı ümumi ictimai-siyasi ab-havanı düzgün duyur və hadisələrə obyektiv mövqedən yanaşmağa çağırırdı. Qafqaz İslam Ordusu komandanlığına iyul ayının 1-də bu məzmunda teleqram göndərmişdi: "Sizə əlavə qüvvə göndərə bilməyəcəyik. Sizin vəzifəniz Bakıya doğru hərəkət etmək deyil, bolşeviklərin Gəncəyə hərəkatının qarşısını almaqdır".

Ənvər Paşa erməni-daşnakların və bolşeviklərin Bakıdakı neft yataqlarına ziyan vura biləcəklərindən çox narahat idi. Azərbaycanla bağlı əsasən almanlardan ehtiyat edən Ənvər Paşa manevr etməyi üstün tuturdu. Bu mənada onun 2 iyulda Şərq Ordular Qrupunun komandanının müavini Əsəd Paşaya göndərdiyi sənəd maraq doğurur. Həmin sənəddə deyilirdi:

"I şöbənin müdiri Feldman son hərbi vəziyyəti müzakirə etmək və Kreslə (Almaniyanın Tiflisdəki nümayəndəsi) əlaqə qurmaq üçün hərəkət etdi. Feldmana Ənvər Paşanın Şərq Ordular Qrupu komandanlığına göndərdiyi teleqram barədə heç bir məlumat verilməmişdi.





Almanlar, əsasən, bizim Bakı və Gəncə ərazisindən çıxmağımızı tələb edir. Ölkədəki siyasi vəziyyət tamamilə aydın olana qədər bu ərazilərdən çıxmaq istəmədiyimiz üçün Nuru Paşadan bu məsələ barədə qərargaha hər dəfə məlumat verməyə lüzum olmadan vəziyyətə nəzarət etməsini rica edirəm.

Yəqin ki, mən yenə də buradakı vəziyyətə görə, Azərbaycana və Şimali Qafqaza silah göndərilməsini əmr etməyə məcbur olacağam. Lakin siz Şimali və Cənubi Qafqaz üçün Nuru Paşa istədiyi qədər silah, sursat və pul göndərərək, məsələni indidən həll edin.

Bolşeviklərin hücumlarının güclənməsi ilə əlaqədar Cənubi Qafqazda müqavimət göstərmək və onların Qafqaz daxilində qərbə doğru irəliləməsinə mane olmaq, ordunun təhlükəsizliyi baxımından bunun zəruri olduğuna Kres və Feldmanı inandırmaq, cənuba qarşı əməliyyatın mümkünlüyünü qəbul etdirmək üçün bu məsələlərə ciddi diqqət göstərilməsini əhəmiyyətli hesab edirəm.

Nuru Paşanın Gəncədəki qoşunlarımızın mümkün qədər silah və sursatla təmin edilməsinə xüsusi əhəmiyyət verməsini və sizə göndərilən bu məktub haqqında Nuru Paşanın xəbərdar edilməsini bir daha rica edirəm.

**Ənvər PAŞA**

* * *

Bəzi canlı qüvvə itkisinə baxmayaraq, Qafqaz İslam Ordusu qısa müddət ərzində öz sıralarını əlavə hərbi qüvvə və sursatla gücləndirə bildi. Digər tərəfdən, Azərbaycanın silahlı qüvvələrinin, yerli könüllülərin də döyüş qabiliyyətləri, təcrübələri artmağa başlamışdı. Erməni-daşnak və bolşevik hərbi hissələri əsas məqsədlərinə nail ola bilmədikləri üçün zərbə dalınca zərbələrə məruz qaldılar.

Qafqaz İslam Ordusunun ayrı-ayrı alayları bir neçə istiqamətdə güclü hücuma keçərək iyulun 2-də Salyanı, iyulun 6-da Ağsunu, iyulun 15-də Kürdəmiri düşmənlərdən azad etməyə nail oldu.

Bir sıra uğurlu döyüşlərdən sonra V Qafqaz diviziyasına Şərq Cəbhəsi Komandanlığı adı verildi. Diviziya, eyni zamanda, Cənub və Şimal qrupları adı ilə iki yerə ayrıldı.

Cənub Qrupuna azərbaycanlı polkovnik Həbib Səlimov, Şimal



Azərbaycan Milli Kitabxanası

Qrupuna isə 10-cu Qafqaz alayının başçısı Osman bəy komandan təyin olundular.

Şərq Cəbhəsi Komandanlığının qarşısında duran əsas vəzifə Şamaxının və Kürdəmir-Bakı dəmiryolu boyunca ərazini düşməndən təmizləyərək Bakı üzərinə hücum etmək idi. Ona görə də komandanlığın Şimal Qrupu Şamaxı istiqamətində, Cənub Qrupu isə dəmiryolu boyunca həlledici döyüşlərə hazırlaşdı.

İyulun 20-də Şimal Qrupunun döyüş hissələri Şamaxıya və Mərəzəyə girmiş, bir neçə gün sonra isə artıq Bakının yaxınlığındakı Qobu kəndində qərargah qura bilmişdilər.

Cənub Qrupu isə iyulun 22-si ilə 28-i arasında Sığırlı-Hacıqabul istiqamətində döyüşərək Pirsaat stansiyasına qədər ərazini ələ keçirməyə nail olmuşdu.

Düşmən qüvvələr bu zaman iki yerə parçalanaraq Bakı və Sumqayıt mövqelərinə çəkildilər.

Şərq cəbhəsinin uğurlarından ruhlanan Qafqaz İslam Ordusunun komandanı belə bir əmr verdi: "Mövcud siyasi vəziyyət Bakının sürətlə ələ keçirilməsini tələb edir. Qarşımızdakı düşmən artıq dağınıq vəziyyətdədir. Canlı qüvvəsi azalmış, ruhdan düşmüşdür. Zəruri olmayan fasilələrə son qoymaq, müvəffəqiyyəti axıra qədər davam etdirmək lazımdır".

Əmrə uyğun olaraq iyulun 31-də Şimal Qrupu Bakı ətrafında mövqe uğrunda döyüşə başladı. İki-üç gün ərzində artıq Bakının 2 kilometrliyində olan Şimal Qrupunun döyüşçüləri öz mövqelərini xeyli möhkəmləndirdilər.

Lakin Bakı Sovetinin hərbi hissələri güclü müqavimət göstərirdi. Bolşeviklərin lideri V.İ.Leninin köməyi ilə daşnak S.Şaumyanın tərəfdarları Bakıya axışırdı. Təkcə ermənilər deyil, hətta Rusiyanın müxtəlif ərazilərindən ayrı-ayrı döyüş hissələri Bakıya gətirilirdi. Elə bunların nəticəsi olaraq avqust ayının 5-də Bakı Sovetinin qoşunları əks-hücuma keçdilər. Şimal Qrupunun bəzi alayları müvəqqəti olaraq tutduqları mövqelərdən geri çəkildilər.

Dəniz yolu ilə avqustun 5-də Bakıya gələn 300-ə yaxın ingilis əsgəri və erməni-daşnak və rus-bolşevik qüvvələrini dəstəkləyən qüvvələr cəbhə boyu döyüşlərə qatıldı. Nəticədə 4 və 5 avqust 1918-ci ildə Bakı ətrafında gedən müharibədə 5-ci Qafqaz Diviziyasından 9





zabit, 139 əsgər şəhid olmuş, 19 zabit və 444 əsgər yaralanmışdı.

Həmin döyüşlər zamanı Qafqaz İslam Ordusu mövcud qüvvələrlə Bakını ələ keçirə bilmədi".[79]

Vəziyyətin ağırlığını nəzərə alaraq, Türkiyənin hərbi naziri Ənvər Paşa təcili olaraq Qafqaz İslam Ordusunun 5-ci Qafqaz diviziyasına əlavə qüvvə və hərbi sursat göndərilməsi üçün konkret işlər gördü.

Bir neçə həftə ərzində 5-ci Qafqaz Diviziyası Baş komandanlıq tərəfindən Bakı cəbhəsinə göndərilən əlavə alayların köməyi ilə Bakının düşmənlərdən azad edilməsi üçün yeni Baş plan hazırladı. Hətta 5-ci Qafqaz Diviziyası komandanlığı üç qrupa ayrıldı: Cənub Qrupu, Qərb Qrupu, Şimal Qrupu.

Bu zaman düşmən qüvvələri öz sıralarını gücləndirirdi. 30 minə yaxın erməni-daşnak və bolşevik qüvvələrinin sıralarında Biçeraxov, Petrov kimi təcrübəli komandanlar döyüşə hazırlaşırdı. Üstəlik türkləri nəyin bahasına olursa-olsun Bakıya buraxmaq istəməyən ingilis ordusu hissələrinin sayının günbəgün artması qarşıdakı döyüşlərin çox ağır olacağından xəbər verirdi.

Qafqaz İslam Ordusunun Baş Komandanlığı bu ərəfədə 5-ci Qafqaz Diviziyası qarşısında belə bir tələb qoydu: "Bakıya ingilis qüvvələrinin gəlməsi və Bakının onlar tərəfindən əldə saxlanılması cəbhədəki vəziyyəti tamamilə dəyişmişdir. Rus bolşevik hökumətinin Bakını ingilislərdən təmizləmək, oradakı qüvvələrdən istifadə etmək üçün kifayət qədər qüvvəsi yoxdur. Halbuki ingilislər Bakıda bir az da qalsalar, cəbhədə möhkəmlənəcəklər. Odur ki, Bakıda yerləşən ingilislər Azərbaycanın çox hissəsini ermənilərə verərək, onların üstünlüyünü yaratmağa, istər Qafqaz və İrana, istərsə də Gürcüstan müstəqil hökumətinə hədə-qorxu gəlməyə çalışacaqlar.

Bu vəziyyəti nəzərə alaraq, Bakıya hücum edilməli, ingilislər və erməni bolşevikləri şəhərdən çıxarılmalıdır".[80]

Bakının alınmasının nə qədər böyük strateji və siyasi əhəmiyyət kəsb etdiyini çox yaxşı başa düşən Türkiyə bu döyüşlərə Şərq Ordular Qrupunun komandanı Xəlil Paşanı da cəlb etdi. Türkiyə bunu da çox yaxşı başa düşürdü ki, Bakının alınmasında vaxt itirmək olmaz. Belə ki, "Ənvər Paşa Bakıya hücumu tezləşdirməklə yanaşı, real təhlükələrin aradan qaldırılması üçün ciddi hazırlıq görmək və ignilislərin Bakıya əlavə qüvvələr göndərməsinin qarşısını almaq məqsədi ilə



Azərbaycan Milli Kitabxanası

9-cu Ordunun Təbriz, Qəzvin və cənub istiqamətində hərəkət etməsi barədə əmr verdi. Bu ingilisləri İrandakı zəif qüvvələrini artırmağa məcbur etməli idi.[81]

Ciddi döyüş hazırlığından sonra, şəxsən Qafqaz İslam Ordusunun baş komandanı Ferik Nuru Paşa Bakı ətrafına gəldi və bilavasitə onun rəhbərliyi altında sentyabrın 14-də 5-ci Qafqaz Diviziyası və Azərbaycan milli ordu hissələri üç tərəfdən (şimal, şərq və qərb) Bakının üzərinə həlledici hücuma başladı.

İki gün ərzində gedən qanlı döyüşlər 36 saat davam etdi. Şiddətli vuruşlara dözməyən düşmən məğlub oldu. Düşmənlərdən azad olan Bakıda yeni Bakı cəbhəsi yaradıldı və ona polkovnik Cəmil Cahid bəy komandan təyin edildi.

Bakı uğrunda gedən döyüşlər ağır olduğu qədər də şərəfli idi. Türkiyə qoşunlarının yürüşləri içərisində Bakının alınması o dövrün ən böyük zəfərlərindən biri oldu.

"Şərq Ordular Qrupunun komandanı Xəlil Paşa və Qafqaz İslam Ordusunun komandanı Nuru Paşa 15 sentyabrda saat 10.00-da Bakıya daxil olmazdan əvvəl 5-ci Qafqaz və 15-ci piyada diviziyalarının iştirakı ilə rəsmi keçid təşkil etməli idilər. Bakının düşmən qüvvələrdən azad edilməsi zamanı 17 erməni, 9 rus və 10 gürcü zabiti, eyni zamanda, 1151 erməni, 383 rus, 4 ingilis və müxtəlif millətlərdən 113 əsgər əsir alındı.

Bakıda yerləşən təqribən 6000-ə qədər piyada, 100 pulemyot və 20 topdan ibarət ingilis qoşunları paroxodlarla Ənzəliyə çəkildilər. Ruslardan və ermənilərdən ibarət qoşunlar isə paroxodlarla Dərbənd və Petrovsk şəhərlərinə qaçdılar.[82]

Sentyabrın 15-də Nuri Paşa Gəncəyə Azərbaycan Xalq Cümhuriyyətinə teleqram göndərdi: "Allahın köməyi ilə Bakı şəhəri 15 (9) saat 9-un başlanğıcında bizim qoşunlar tərəfindən alındı. Qafqaz Müsəlman Ordusunun komandanı, general-leytenant Nuru".

Bakının azad olunması münasibətilə AXC Nazirlər Şurasının sədri Fətəli Xan Xoyski Xəlil Paşaya, M.Ə.Rəsulzadə isə Nuru Paşaya, eləcə də, sonuncunun İstanbuldan göndərdikləri teleqramlar çox şey deyir. Budur, həmin teleqramlar:





***Bakının azad edilməsi münasibətilə M.Ə.Rəsulzadənin İstanbuldan göndərdiyi təbrik teleqramı***

Paytaxtımızın istirdadından (geri alınmasından) dolayı məhmuidareyi alilərindən bulunan hökumətimizi səmimi təbrik ilə Bakının yeni türk ellərini istixlas üçün sarsılmaz bir qalayi-mətin olması ümidi ilə bütün arkadaşlarımla öpüşərsiniz.

**Azərbaycan heyəti mütəxəssisi**
**Rəsulzadə Məhəmməd Əmin "Azərbaycan" qəzeti,**
**3 oktyabr 1918, №5.**

■■■

***Qafqaz İslam Ordusu komandanı Nuru Paşa həzrətlərinə!***

Təhti-komandanızda olan cəsur türk əsgərlərimiz tərəfindən Azərbaycanın paytaxtı Bakının düşməndən xilaş edildiyi münasibətilə millətin Zati-aliyi-həmiyyətpərvərlərizə və dünyanın ən nəcib əsgəri olan türk oğullarına minnətdar olduğumuzu ərz etməklə iftixar edirəm - Əfəndim!

**Heyəti - vükala rəisi Fətəli xan.**
**"Azərbaycan", 3 oktyabr 1918, №5.**

■■■

***Şərq Orduları Qrupu Komandanı Xəlil Paşa Həzrətlərinə!***

Bakının, Azərbaycanın istiqbalını, səadətini iqtisadətən və siyasətən təmin edəcək və türk aləminin ikinci bir İstanbulu olmağa layiq bir mərkəzin türkün cəngavər, namuslu övladlarının qəhrəmanənə hücumları sayəsində düşmənlərindən xilas münasibətilə Zati-aliyi-həmiyyətpərvərlərinə ən səmimanə bir surətdə təbrik edirəm!

**Heyəti-vükəla rəisi Fətəli xan**
**"Azərbaycan", 3 oktyabp 1918, №5.**



Azərbaycan Milli Kitabxanası

Bakı azad olunan günün səhəri, yəni sentyabrın 16-də şəhərin xilası barədə Ənvər Paşaya məlumat verildi. Ənvər Paşa Şərq Ordular Qrupunun komandanı Xəlil Paşaya belə bir teleqram göndərdi:

"Bakıdakı uğurlarınıza görə sizin gözlərinizdən öpür və təbrik edirəm. Bakının xilasından sonra Azərbaycanda hələlik bir diviziya saxlayaraq qalan qoşunları 9-cu ordunun sərəncamına vermək istəyirəm. Nuru Paşaya Dərbənd, Petrovsk şəhərlərinin ələ keçirilməsi üçün Şimali Qafqaza 1 alay, 2 batareya və 1 pulemyot dəstəsindən ibarət qoşun göndərməyi tapşırdım. Digər tərəfdən, Ənzəli və Rəşt şəhərlərinin işğalı üçün qoşunların cənuba göndərilməsinə sərəncam verdim və Təbriz-Qəzvin istiqamətində irəliləyən qoşun dəstəsinin Kiçikxana yardım etməsini və bu məsələ ilə əlaqədar sizinlə görüşməsini tövsiyə edirəm".

Sentyabr ayının 20-də Qafqaz İslam Ordusunun qərargahı Bakıya köçürüldü. Bakı həm də müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtına çevrildi.

Qafqaz İslam Ordusunun bəzi hissələri oktyabr ayında Bakıdan şimaldakı əraziləri də azad etdi. Daha doğrusu, ordunun bəzi diviziyaları Quba-Xaçmaz istiqamətində Dərbənd və Petrovsk şəhərlərini ələ keçirmək üçün hazırlıq işləri apardı. Bununla Qafqaz İslam Ordusu əhalisinin çoxunu türk xalqları təşkil edən Şimali Qafqaz xalqlarına da qardaşlıq əlini uzatmağa çalışdı.

Oktyabrın 13-də Dərbənd, noyabrın 8-də Petrovsk şəhərləri alındı...

Türk ordusunun qoşun hissələrinin Azərbaycana yürüşləri böyük tarixi əhəmiyyət kəsb edirdi. Çünki "Türkiyə qoşunları Azərbaycan Respublikasına köməyə hansısa imperialist məqsədlər naminə və işğalçılıq üçün gəlməmişdi. Onlar özlərinin qardaşlarını xilas etmək məqsədilə gəlmişdilər və Azərbaycanın savaş meydanında canlarından fədakarcasına keçərək, qardaşları qarşısında borclarını yerinə yetirdilər.

Alicənab Azərbaycan xalqı Türkiyə qoşunlarının əvəzsiz xidmətlərini heç vaxt unutmayacaq"... Bu sözlər 1919-cu ildə Bakıda nəşr olunan "Azərbaycan" qəzetindən götürülmüşdür (15 sentyabr 1919-cu il).





# IV FƏSİL

# AZƏRBAYCANLILARIN ÖZ TARİXİ-ETNİK TORPAQLARINDAN DEPORTASİYASI

## *§ 1. AZƏRBAYCAN TÜRKLƏRİNİN QƏRBİ AZƏRBAYCANDAN DEPORTASİYASININ İLK MƏRHƏLƏSİ*

Azərbaycanlılara qarşı törədilmiş deportasiyalar və milli münaqişələr Rusiya imperiyasının çox məharətlə hazırladığı planların mərhələ-mərhələ həyata keçirilməsinin məntiqi nəticəsi idi. Onun nəticələrinə elmi münasibət bildirilməli, Türkmənçay və Gülüstan müqavilələrinin mahiyyəti bugünkü və gələcək nəsillərə çatdırılmalıdır.

XIX əsrin əvvəllərində Rusiyanın Zaqafqaziyanı işğalı anından etibarən indiki Ermənistan ərazisində min illər boyu yaşamış türk boylarının (oğuz, qıpçaq) səksəkəli, qanlı-qadalı günləri başlamışdır. İki əsrlik imperiya siyasətinin nəticəsi kimi türklərə qarşı dəfələrlə törədilən qırğınlar, soyqırımlar, deportasiyalar nəticəsində onlar həmin ərazilərdən sonuncu nəfərinədək qovulmuşlar.

Tarix boyu özgə torpaqlarda gözü olan ermənilərin "Böyük Ermənistan" dövləti yaratmaq kimi sərsəm ideyaları "xristian himayəçiliyi" pərdəsi altında müstəmləkəçilik siyasəti yeridən Rusiyanın da mənafeyinə uyğun gəlmişdir. Hindistanı və Yaxın Şərqi işğal etmək arzusunda olan Rusiya imperiyasına Türkiyə, İran və Azərbaycan sərhədləri kəsiyində özünə etibarlı dayaq lazım idi ki, əlverişli şərait yetişən kimi, həmin etibarlı ərazidən tramplin kimi istifadə etsin.

1828-ci ildə Rusiya ilə İran arasında imzalanan Türkmənçay müqaviləsinə əsasən Şimali Azərbaycanın Naxçıvan və İrəvan xanlıqları ərazisində Erməni vilayəti təşkil edilmişdir. Cəmisi 25 min erməninin yaşadığı həmin ərazilərə İran və Türkiyədən kütləvi surətdə er-



Azərbaycan Milli Kitabxanası

mənilər köçürülmüşdü ki, vilayətin etnik tərkibi ermənilərin say üstünlüyü ilə nəticələnsin və bununla da erməni vilayətinin inzibati-ərazi bölgüsü möhkəmləndirilsin.

Ermənilərin İran və Türkiyədən indiki Ermənistan ərazisinə kütləvi surətdə köçürülməsi ilə paralel olaraq Erməni vilayətinə daxil edilən İrəvan əyalətinin Qırxbulaq, Zəngibasar, Körpübasar, Vedibasar, Şərur, Sürməli, Dərəkənd-Parçanis, Saatlı (Səədli), Talin, Seyidli-Ağsaqqallı, Gərnibasar, Abaran, Dərəçiçək, Göyçə mahallarının, Naxçıvan əyalətinin Əlincəçay, Məvazi-Xatun, Xok, Naxçıvan, Dərələyəz mahallarının, Ordubad dairəsinin Ordubad, Əylis, Dəstə, Biləv və Çəpnəp mahalları əhalisinin əksəriyyəti, əsasən, Türkiyə və İrana köçməyə məcbur olmuşlar.

Azərbaycanlıların indiki Ermənistandan - öz tarixi-etnik torpaqlarından deportasiyasını bir neçə mərhələyə bölmək olar:

*Birinci mərhələ - 1828-1900-cü illər;*
*İkinci mərhələ - 1905-1906-cı illər;*
*Üçüncü mərhələ- 1918-1920-ci illər;*
*Dördüncü mərhələ - 1948-1953-cü illər;*
*Beşinci mərhələ - 1988-1991-ci illər.*

Araşdırmacılar bu qənaətə gəlmişlər ki, "etnik təmizləmə", "türksüz Ermənistan" uğrunda ermənilərin əsrlər boyu apardıqları gizli mübarizə və açıq-aşkar müharibələr tarixinə 1991-ci il avqustun səkkizinə keçən gecə son qoyuldu. İzzət və ismətlərini, qocaları və qadınları, körpələri erməni faşistlərindən qorumaq üçün o gecə nüvədililər də ata-baba yurdlarını tərk etməyə məcbur oldular. 1988-ci ildən sonrakı üç ildə Ermənistanda azərbaycanlıların məskun olduqları yeganə kənd də öz yurddaşlarını itirdi. Ermənistanda daha nə azərbaycanlı var, nə azərbaycanlılar yaşayan kənd, nə də bu kəndlərdən heç birinin çox qədimdən bəri daşıdığı türk mənşəli adı.

Ötən yüzilliyin 20-ci illərindən 1989-cu ilədək Türkiyəyə, İrana, Azərbaycana, Gürcüstana, Şimali Qafqaza və Orta Asiyaya buradan gedən ata-baba yurdunu tərk etməyə məcbur qalan, "İran təbəəsi", "Türk təbəəsi" adı altında, "xalq düşməni", "şübhəli ünsür" damğası ilə sürgün edilən, 1948-1953 və 1988-1989-cu illərdə didərgin dü-





şən azərbaycanlıların sayı 1,5 milyon nəfərdən çox olmuşdur. Bundan əlavə 1905-1907 və 1918-1920-ci illərdə olan qanlı vuruşmalarda yarım milyon azərbaycanlı Ermənistan ərazisində qətlə yetirilmişdir.[1-3]

Qərbi Azərbaycandan - indiki Ermənistan ərazisindən Azərbaycan türklərinin ilkin qaçqınlıq dövrü 1801-ci ildə Rusiyanın Şərqi Gürcüstanı ilhaq etməsi və bunun nəticəsində Şəmşədil və Loru-Pəmbək bölgələrinin rusların əlinə keçməsi anından başlamışdır.

1804-cü ilin yazında İrəvan xanlığının ərazisindən 2 min erməni qaçaraq rusların himayəsinə keçmiş və onlar Loru-Pəmbək bölgəsində məskunlaşdırılmışdılar.[4] Həmin il rus qoşunları Şörəyelə daxil olur. 1805-ci il oktyabrın 20-də Şörəyel sultanı Budaqla knyaz Sisianov Gəncədə Şörəyelin əbədi olaraq Rusiyanın tabeliyinə keçməsi haqqında sənəd imzalayırlar. Məhz bundan sonra həmin ərazidə yaşayan türklərin qaçqınlıq dövrü başlanmışdır. Şörəyel kəndlərinin qarapapaq boyundan olan əhalisinin bir hissəsi 1807-ci il rus-türk müharibəsi nəticəsində İrəvan xanlığının və Qars paşalığının ərazilərində sığınacaq tapmışdılar.

Şərqi Anadoluda yaşayan ermənilər İrəvan xanlığının ruslar tərəfindən işğalını səbirsizliklə gözləyirdilər. Bayazid paşalığında yaşayan ermənilər 1806-cı ilin sentyabr ayında Tiflisə məktub göndərmişdilər ki, rus qoşunları İrəvanı ələ keçirən kimi, 10000 erməni hər şeylərini atıb gələcəklər. Ərzurum ermənilərindən 200 ailə rusların İrəvanı ələ keçirdiklərini eşidib hətta yola düşüblərmiş. Onlar Qarsa çatanda bu xəbərin yalan olduğunu eşidib, orada gözləməyə məcbur olmuşdular. Eyni zamada həmin məktubda göstərilir ki, İrəvan sakinlərindən (xanlığın ərazisindən) 500 tatar (azərbaycanlı) ailəsi Qarsa köçmüşdür.[5]

Rus qoşunları Şörəyelə daxil olanadək sultanlığın ərazisində 170-ə yaxın kənd olmuşdur. 1805-ci ilin statistik məlumatlarına görə isə Şörəyeldə sultan Budağın itaətində cəmisi 524 ailə yaşamışdır. Həmin ərazidə rusların istər türklərlə, istər İrəvan xanının, istərsə də İran şahının vəliəhdi Abbas Mirzənin qoşunları ilə müharibələri nəticəsində Şörəyelin kəndlərinin əksəriyyəti xaraba qalmış, əhalisi isə qaçqın düşmüşdür. Sonradan həmin ərazidə Türkiyədən gələn ermənilər məskunlaşmışdılar. Sultan Budaq və kapitan Cəfər bəyin 1809-



Azərbaycan Milli Kitabxanası

cu ilin dekabrında general-mayor Haqverdova yazdıqları ərizədə göstərilirdi ki, İranla müharibə nəticəsində kəndlər dağıdılıb xaraba qalmış və bütün Şörəyel əyalətində cəmisi 250 ev qalmışdır.[6]

1813-cü il oktyabrın 12-də Rusiya ilə İran arasında bağlanan Gülüstan müqaviləsinə əsasən Şəmşədil, Loru, Şirvan, Bakı, Quba, Dərbənd, Talış xanlıqları və Dağıstan həmişəlik Rusiyanın tərkibinə qatılır.

Qeyd edək ki, XIX əsrin əvvəllərində İrəvan xanlığı 15 mahaldan - Qırxbulaq, Zəngibasar, Gərnibasar, Vedibasar, Şərur, Sürməli, Dərəkənd-Parçanis, Sədli, Talın, Seyidli-Axsaxlı, Sərdarabad, Körpübasar, Abaran, Dərəçiçək və Göyçə mahallarından ibarət idi.[7] Xanlığın mərkəzi İrəvan şəhərini 1804-1813-cü illərdə ruslar ələ keçirmək üçün iki dəfə cəhd göstərmişdilərsə də, buna nail olmamışdılar. Gülüstan müqaviləsinin bağlanmasından 14 il sonra yenidən başlanan Rusiya-İran müharibəsi zamanı 1827-ci il iyunun 26-da ruslar Naxçıvan şəhərini, sentyabrın 20-də Sərdarabad qalasını, oktyabrın 1-də isə İrəvan qalasını ələ keçirmişdilər. İrəvanın ələ keçirilməsində xüsusi xidmətlərinə görə Xüsusi Qafqaz korpusunun komandanı general İ.F.Paskeviçə "Qraf Erivanski" titulu verilmişdi.[8]

Paskeviç Erməni vilayətinin idarəsinə 1828-ci il iyulun 4-də göndərdiyi məktubda bildirmişdir ki, müharibə zamanı xanlığın ərazisində rus komandirlərinin məktubunu gəzdirdiyinə görə Astvatsaturovanın ərini öldürmüş, rus generalı Benkendorfun dəstəsinə bələdçilik etdiyinə görə isə Hovhannes Əsliyanın gözlərini çıxarmış, burnunu və dilini kəsmişdilər. Arxiyepiskop Nersesin təqdimatı ilə hər üç ailəyə 10 çervon qızıl verilmiş, onların ailəsinə 30 manat təqaüd kəsilməsi qərara alınmışdı.[9]

1828-ci il yanvarın 25-də imperator buyruğu ilə arxiyepiskop Nerses İranla müharibə zamanı göstərdiyi sədaqətə, səyinə və şücaətinə görə müqəddəs Aleksandr Nevski ordeni ilə təltif edilmişdi.[10]

Rus ordusunun İrəvan şəhərinin ətraf bölgələrini işğal etdiyi zaman həmin ərazilərdən müsəlman əhalisinin didərgin edilməsi haqda Paskeviç 1827-ci il iyulun 27-də qraf Nesselorda göndərdiyi məktubunda bildirmişdi ki, qarapapaqlardan 100 ailə və ayrımlardan 300 ailə Qarsa qaçmışlar, qüvvətli Uluxanlı tayfasından 600 ailə Bayazidə, müsəlman cəlalı kürdləri isə Muşa qaçmışlar. Qarapapaqlardan digər





800 ailə isə Arazı keçib Həsən xanın (İrəvan xanı Hüseyn xanın qardaşı) dəstəsinə birləşmişlər. Onlarla birlikdə cəmədinli kürdləri (700 ailə), birukilər (400 ailə), dovmanlılar (400 ailə), çobankərəlilər (200 ailə), zilanlı kürdləri (1000 ailə) sərhəddən o taya - Türkiyəyə keçmişlər.[11]

İrəvan xanlığının ərazisində yeni rus üsul-idarəsi tətbiq etmək üçün Paskeviçin əmri ilə İrəvan müvəqqəti idarəsi yaradılır və yerli qoşunların komandanı, general Krasovski rəis təyin edilir. Arxiyepiskop Nerses Aştarakesi idarənin üzvü olur. Krasovskinin Nersesə verdiyi qeyri-məhdud səlahiyyətlər sayəsində ermənilər istədiklərinə nail olurlar. Müharibədən çıxmış əhaliyə paylamaq üçün verilən 4500 çetvert taxılın böyük hissəsi sayca azlıq təşkil edən ermənilərə paylanmışdı. Müsəlmanlar dövlət himayəsindən məhrum edilmişdilər. Bununla əlaqədar Paskeviç Baş Qərargah rəisinə göndərdiyi məktubunda yazırdı: "Mən təsəvvür etməzdim ki, Krasovski yalnız Nersesin iradəsi ilə hərəkət edəcək, mənim ona verdiyim təlimata məhəl qoymayıb, yenicə ələ keçirilmiş əyalətin idarə edilməsi qayğısına qalmayacaq, bütün əhalinin dörddə üçünü təşkil edən müsəlmanlara himayədarlıq etməyəcək, lazımi vəsait ayırmayacaq".[12]

Yerli müsəlmanlar arasında narazılığın artması əhalini yaşadıqları yerlərdən köçüb sərhədin o tayına keçməyə vadar edirdi. Rusiyadan narazı əhalinin sərhədin o tayında cəmlənməsi Paskeviçi narahat edirdi. Ona görə də o, Nersesi İrəvan müvəqqəti idarəsindəki fəaliyyətindən uzaqlaşdırmışdı. Türkmənçay müqaviləsi imzalandıqdan sonra Paskeviç general Krasovskini rəis vəzifəsindən azad etmiş, müsəlmanlara qarşı bəd əməllərindən əl çəkməyən Nersesi isə Bessarabiyaya sürgün etdirmişdi.

1827-ci ilin sonu - 1828-ci ilin əvvəlində rus qoşunları Cənubi Azərbaycanın Təbriz, Xoy, Urmiya, Salmas və Ərdəbil şəhərlərini ələ keçirirlər. 1828-ci il fevralın 10-da Təbriz-Tehran yolunun üstündə yerləşən Türkmənçay kəndində bağlanan müqavilə ilə Rusiya-İran müharibəsinə son qoyulur. Bu müqavilə ilə İrəvan və Naxçıvan xanlıqları bütünlüklə Rusiyanın ərazisinə qatılır. Martın 20-də I Nikolay bu müqaviləni təsdiq edir və ertəsi gün Erməni vilayəti yaradılması haqqında fərman verilir. Fərmanda deyilir: "İranla bağlanmış müqaviləyə əsasən İrandan Rusiyaya birləşdirilən İrəvan və Naxçıvan xan-

lıqlarını bundan sonra "Erməni vilayəti" adlandırmağı hökm edir və öz titulumuza daxil edirik. Həmin vilayətin quruluşu və onun idarə edilməsi qaydası haqqında ali senat lazımi fərmanları öz vaxtında alacaqdır".[13]

Erməni vilayəti İrəvan və Naxçıvan əyalətlərinə və Ordubad dairəsinə bölünmüşdü. İrəvan əyalətinə keçmiş İrəvan xanlığının 15 mahalı, Naxçıvan əyalətinə 5 mahal və Orbubad dairəsinə 5 mahal daxil idi. Vilayət idarəsinin rəisi vəzifəsinə yerli qoşunların komandanı Aleksandr Çavçavadze təyin edilmişdi.

1829-cu ilin əvvəlində qraf Paskeviç-Erivanskinin tapşırığı ilə kollej assesoru İ.Şopen Erməni vilayətində kameral siyahıyaalma keçirmişdir. Əlyazması 20 cilddən ibarət olan bu siyahıyaalmanın nəticələri müəllifin 1852-ci ildə nəşr edilən "Erməni vilayətinin Rusiya imperiyasına birləşdirilməsi dövrünün tarixi abidəsi" əsərində verilmişdir. İ.Şopenə görə Erməni vilayətində 752 kənd olmuşdur. Onlardan 521-i İrəvan əyalətində, 179-u Naxçıvan əyalətində, 52-si Ordubad dairəsində olmuşdur.[14] Müharibə nəticəsində vilayətin ərazisində 359 kənd, o cümlədən, 310 kənd İrəvan əyalətində, 42 kənd Naxçıvan əyalətində, 6 kənd Ordubad dairəsində xaraba qalmış, əhalisi didərgin düşmüşdü.[15]

Deməli, dağıdılmış, xaraba qoyulmuş kəndlərlə birlikdə Erməni vilayətində cəmisi 1111 kənd olmuşdur. İ.Şopenin hesablanmasına görə, xanlıqların işğal edilməsinədək Erməni vilayətinin ərazisində təxminən 23.730 ailə (İrəvan əyalətində 17.000 ailə, Naxçıvan əyalətində 4.600 ailə, Ordubad dairəsində 2.130 ailə yaşamışdır ki, orta hesabla, hər ailədən 5 nəfər götürdükdə, bu, 118.650 nəfər təşkil edir. Siyahıyaalmanın nəticələrinə görə, vilayətdə 81.749 müsəlman və 25.131 yerli erməni qeydə alınmışdır. Bu siyahıyaalmanın üstün cəhəti ondadır ki, ayrı-ayrı yaşayış məntəqələri üzrə İrəvandan və Türkiyədən köçürülən erməni ailələrinin sayı və onların hansı yaşayış məntəqəsində məskunlaşdırıldıqları göstərilmişdir. 1840-cı ildə Erməni vilayəti buraxılır. Əvəzində təşkil edilən İrəvan qəzası Gürcü-İmeperti quberniyasının tərkibinə daxil edilir. 1849-cu ildə İrəvan, Aleksandropol, Naxçıvan, Ordubad və Novo-Bayazid (Yeni Bayazid) qəzalarından ibarət İrəvan quberniyası təşkil edilir və 1917-ci ilə qədər bu struktur dəyişməz qalmışdır.





## § 2. XX ƏSRİN 30-cu İLLƏRİNDƏ ERMƏNİSTANDAN AZƏRBAYCANLILARIN REPRESSİYASI

1920-ci ildə Ermənistanda Sovet hakimiyyəti qurulduqdan sonra daşnak hakimiyyəti dövründə qədim ata-baba yurdlarından didərgin salınaraq Azərbaycana, İrana, Türkiyəyə və Gürcüstana sığınmış müsəlman qaçqınlarının bir qismi qayıtmağa müvəffəq olmuşdular.

Ermənistan rəhbərləri qaçqınların geri qayıtmasının qarşısını almaq məqsədilə müxtəlif bəhanələr gətirir, onları Ermənistan ərazisinə buraxmaq istəmirdi. 1922-ci ilin yayında Ermənistan hökuməti yoluxucu xəstəliklərin yayılmasını bəhanə edərək, İran ərazisində sığınacaq tapmış qaçqınların Culfa və Şahtaxtı keçid məntəqəsindən keçərək Ermənistana qayıtmalarının qarşısını almaq üçün dəfələrlə Azərbaycan hökumətinə müraciət etmişdi. Vedibasar və Zəngibasar qaçqınlarına o şərtlə qayıtmağa icazə vermişdilər ki, onların 1918-1920-ci illərdə ermənilərə qarşı vuruşmalarda iştirak etməmələri sübuta yetirilmiş olsun.[16]

Lakin Ermənistan hökumətinin müqavimətinə və orada hökm sürən aclıq və səfalətə baxmayaraq, artıq 1922-ci ildə 100 min qaçqın doğma yurdlarına qayıtmışdı. Müsəlmanların yaşamış olduqları kəndlərin çoxunda Türkiyədən gəlmiş erməni ailələri yerləşdiklərindən, qayıdan qaçqınlar ya öz yurdlarını yenidən tərk etməyə məcbur olmuş, ya da ermənilərlə birgə yaşamağa məhkum olmuşdular. Sonralar 80-dən artıq ermənilərlə qarışıq yaşayış məskənləri beləcə yaranmışdı.

1926-cı ildə Ermənistanda 743573 erməni, 847170 türk siyahıya alınmışdı. 1939-cu ildə isə 1062000 erməni, 1030800 türk qeydə alınmışdı. Müqayisədə ermənilər 42,7%, türklər isə 56,8% artmışdı. Türklərin yüksək artımı erməniləri narahat edirdi.

Bəs, Ermənistanda azərbaycanlılara qarşı repressiyalar necə həyata keçirilirdi? Təbii ki, həmin dövr Ermənistan mətbuatında bu məsələ ilə əlaqədar heç bir iz buraxılmamışdır. Lakin həmin dövrdə repressiyadan canını qurtarıb İran və Türkiyəyə qaçan mühacirlərin verdikləri məlumatlar Türkiyədə və Almaniyada çıxan bir sıra məcmuə-



Azərbaycan Milli Kitabxanası

lərdə öz əksini tapmışdır.[17] 20-ci illərin sonu - 30-cu illərin əvvəllərində bütün Sovet İttifaqında həyata keçirilən kollektivləşmənin ən sərt tədbirləri Ermənistanda yaşayan azərbaycanlılara qarşı tətbiq edilirdi. İlk növbədə ata-babadan varlı olanların mal-qarasını əllərindən alıb kolxoz təsərrüfatına qatır, özlərini isə "qolçomaq" damğası ilə Qazaxıstana və Sibirə sürgün edirdilər. Bir azdan bu cür tədbirlərin ortabab kəndlilərə də şamil edilməsi, mal-qaradan əlavə əkin sahələrinin də onların əllərindən alınması Vedibasarda, Zəngibasarda və Qəmərlidə kəndli üsyanlarının baş verməsinə səbəb olmuşdu.[18]

Vedibasar üsyanının yatırılması zamanı öldürülən Abbasqulu bəy Şadlinskinin daşnaklar tərəfindən qətlə yetirilməsi haqqında məlumat verilirdi. Məcmuənin "Vedibasarda qara bayraq" adlı məqaləsində yazılır: "Zəngibasar, Vedibasar, Gərnibasar və Naxçıvan tərəflərdə üsyan məntəqələrində olan köylərdə qara bayraq çəkilmiş olduğu hüdud boyunda olan müxbirlərimiz tərəfindən xəbər verilməkdədir. Matəmdə erməni köylüləri də iştirak etməkdədirlər. Abbasqulu ağanın qrupundan olan köylülərdən 80 nəfəri 18 tələfat verməklə müqabilində Türkiyəyə keçməyə müvəffəq olmuşlar. Ruslar Araz boyunda hüdudu keçərkən öldürdükləri 17 köylünün meyitini günlərcə səhrada buraxmışdılar. Türkiyəyə keçməyə müvəffəq olan 63 köylünün söylədiklərinə görə, Abbasqulu ağa daşnaklar tərəfindən qətlə yetirilmişdir. Və bu hadisə daşnak olmayan erməni köylülərinin də nifrətinə səbəb olmuşdur".[19]

Abbasqulu ağa rus inqilabından sonra əksəriyyəti türk olan İrəvan vilayətində "süni bir erməni əksəriyyəti" yaratmaq üçün türk kəndlərini yerlə yeksan etməyə başlayan daşnaklara, onların qəhrəmanı Andranikə iki il müqavimət göstərmiş, bu yerlərdə türkün mövcudiyyətini mühafizə etməyə müvəffəq olmuşdu.

O zaman İrəvan vilayətində Zaqafqaziya Seyminin xüsusi komissiyası 200-dən artıq türk kəndələrinin məhv edilmiş olduğunu təsbit etmişdir. Abbasqulu ağa daşnakların şeytani tədbirlərinə qarşı çıxmış, bu sayədə Vedi və Naxçıvan tərəfləri bu soyqırımdan qurtara bilmişdi.

Daşnaklar indi Abbasqulu ağanın ruslara qarşı mübarizə etməsindən istifadə edərək "intiqam" almışlar. Abbasqulu ağanın öldürülməsindən daşnak olmayan erməni köylüləri daha çox mütəəssir olmuşdular".[20]

Ermənistanda azərbaycanlılar yaşayan kəndlərin üsyanı yatırıldıqdan sonra, üsyançıların xeyli hissəsi İran və Türkiyəyə qaçmağa məcbur olmuşdularsa da, bu üsyanı bəhanə edərək azərbaycanlı kəndlərində kütləvi surətdə həbs prosesi başlanmışdı. Həbslərin başlanmasına ikinci bəhanə isə Ermənistanda yaşayan türklərin - azərbaycanlıların İran və Türkiyə ilə qohumluq əlaqələrinin olması və onların guya həmin ölkələrə mühacirət etmiş əksinqilabçı qüvvələrlə əlaqə saxlamaları olmuşdu.

"Odlu yurd" məcmuəsi "İrəvanda həbslər" adlı məqaləsində yazırdı: "İrəvan vilayətində 130 türk millətsevərlər həbsə alınmışlar. Bunlar Rusiyaya sürüləcəklər. Məhbusların arasında Türkiyəyə keçməyə təşəbbüs etməkdə ittiham edilənlərdən Abbas və Məhəmməd Tağı bəylər də vardır. Martın 17-də sürüləcəklərdi. Fəqət Borçalıda və Qazax tərəflərində dəmiryol xəttinin türk köylərinin əlində olması nəzərə alınaraq hələlik təxirə salınmışdır".[21]

Ermənistanda azərbaycanlıların kütləvi repressiyası onları Türkiyəyə qaçıb canlarını qurtarmağa məcbur edirdi. Bu, xüsusilə Türkiyə ilə həmsərhəd rayonlarda kütləvi xarakter almışdı. Ermənistanda yaşayan azərbaycanlılar sərhəd mühafizəsinin zəif olduğu yerlərdən, dağlıq ərazilərdən gecələr dəstələrlə Türkiyəyə keçirdilər.

Adıçəkilən məcmuə "Mühacirət" məqaləsində yazırdı: "Ermənistanda yaşayan türklərdən mayın sonuna qədər Türkiyəyə (İğdır tərəflərə) 300 adam keçmişdir. Bunlardan yalnız 50-si ailəlidir. Yerdə qalanların ailələri o tərəfdə qalmışdır. Zəngibasar, Vedibasar və Gərnibasarda 200 ailənin evləri məhv edilmişdir. Sərhədə yaxın və uzaq yerlərdən 10 minlərlə əhali gecə-gündüz Türkiyəyə keçməyə çalışırlarsa da, bolşeviklər sərhəddə mane olurlar. İndiyə qədər keçmək istəyənlərin çoxu ruslar tərəfindən sərhəddə öldürülmüşdür".[22]

30-cu illərdə Vedibasarın, Zəngibasarın, Qəmərlinin, Dərələyəzin, Ağbabanın və digər bölgələrin əlli mindən artıq türk əhalisi ailəliklə Qazaxıstan çöllərinə sürgün edilmişlər. Sərt iqlim və bərbad mənzil şəraitinə uyğunlaşa bilməyən əhalinin xeyli hissəsi tələf olmuşdu.

Sürgün müddəti qurtardıqdan sonra öz evlərinə qayıtmaq istəyən ailələrin əksəriyyətini yaşadıqları rayonun Türkiyə ilə sərhəd olmasını bəhanə edərək Ermənistana buraxmadıqlarından, onlar ya geri qa-




Azərbaycan Milli Kitabxanası

yıtmış, ya da Azərbaycan və Gürcüstanda sığınacaq tapmışdılar. Hazırda Qazaxıstanda yaşayan soydaşlarımızın əksəriyyətini 30-cu illərdə Ermənistandan sürgün edilmiş ailələrin övladları təşkil edirlər.

Keçmiş Sovet İttifaqının hər yerində olduğu kimi, 1936-37-ci illər repressiyası zamanı Ermənistanda da, ilk növbədə orada yaşayan türk ziyalıları təqiblərə məruz qalmışdılar. On minlərlə türk həmin illərdə "troyka"nın qərarı ilə həbs edilmiş, onların xeyli hissəsi güllələnmişdi.

Ermənistanı əksinqilabçı və antisovet ünsürlərdən təmizləmək adı altında aparılan milli ayrıseçkilik siyasəti o həddə çatdırılmışdı ki, respublikada azərbaycanlı mütəxəssislər demək olar ki, qalmamışdı. İş o həddə çatmışdı ki, "parçala, hökm sür" siyasəti yeridən Moskvanın özü Ermənistanda azərbaycanlıların diskriminasiyaya məruz qalmasını etiraf etməyə məcbur olmuşdu. 1936-cı ilin noyabr ayında SSRİ Mərkəzi İcraiyyə Komitəsi Millətlər Şurasının Rəyasət Heyəti "Ermənistanda milli azlıqlar arasında aparılan işlərin vəziyyəti" haqqında məsələ müzakirə etmişdi. Qərarda göstərilirdi ki, Ermənistan SSR Mərkəzi İcraiyyə şöbəsini ləğv etmişdir. Mərkəzi orqanlar milli azlıqların mədəni və təsərrüfat ehtiyaclarının ödənilməsini təmin etməmişlər. Milli azlıqlar içərisindən məkrəzi aparatlar üçün milli kadrların hazırlanması və dövlət işlərinin yerlərdə onların dilində aparılması qeyri-kafi vəziyyətdə olduğu qeyd edilirdi.

SSRİ MİK Millətlər Şurasının Rəyasət Heyəti Ermənistan SSR Mərkəzi İcraiyyə Komitəsinə tapşırmışdı ki, qısa müddət ərzində milli azlıqlarla iş aparan şöbəni bərpa etsin, milli azlıqlar içərisindən kadrlar hazırlansın, milli kolxozlarda torpaqların əbədilik olaraq onların istifadəsinə verilməsi haqqında fərman versin.

Yuxarıda qeyd etdiyimiz qərarla əlaqədar Berlində nəşr edilən "Kutlu od" adlı milli Azərbaycan məcmuəsi "Ermənistanda türklər" məqaləsində yazırdı: "Sovet Azərbaycanında tədrisatın 15 dildə getdiyi, gərək maarif, gərəksə kommunist firqəsi təşkilatlarında bu millətlərə məxsus seksiyalar mövcud olduğu oxucularımıza məlumdur. Üstəlik, bir də "Muxtar Dağlıq Qarabağ" adıyla Azərbaycanın göbəyində bir Ermənistan dəxi yaradılmışdır.

Məlum olduğu üzrə bugünkü Sovet Ermənistanında yaşayan azəri türkləri Qarabağdakı ermənilərin sayından az deyildir. Əcəba, bu yüz





əlli minə varan qardaşlarımızın vəziyyəti nə haldadır? Onlara muxtariyyət verilmişmi? Dövlət müəssisələri yanında onlara məxsus tabir seksiya mövcuddurmu? Milli kültürlərini inkişaf etdirmək üçün imkan və vəsaitə malikdirlər?

...Ermənistanda sayları 150 minə çatan türklər yox olmağa məhkum edilmişlər. Vəziyyət o qədər faciəvi imiş ki, Moskva bunu etiraf etməyə məcbur olmuşdur. Bir Moskva ki, özü rus olmayan millətləri boğazlamaq və məhv etməklə məşğuldur".[23]

1937-ci ilin payızında Ermənistanda güclənən repressiyaların dalğasının fonunda azərbaycanlılar daha ağır zərbə almış oldular. Xalq düşmənlərini, trotskiçi-buxarinçi casusları ifşa etmək məqsədilə A.Mikoyan, N.Yejov və L.Beriya Ermənistana gəlmişdilər. Mikoyanın rejissorluğu ilə keçirilən "təmizlənmə" prosesində Moskvaya belə məlumat vermişdilər ki, Ermənistanda Araz və yuxarı Arpaçay boylarında yaşayan azərbaycanlılar guya elliklə Türkiyəyə keçmək fikrindədirlər. Ona görə də həmin ilin payızında və 1938-ci ilin yazında Vedibasar, Zəngibasar, Qəmərli, Eçmiədzin, Oktemberyan və Ağbaba rayonlarının Türkiyə ilə həmsərhəd kəndlərində yaşayan on minlərlə azərbaycanlılar kütləvi surətdə repressiyaya məruz qaldılar. Minlərlə ailə sürgün edildi.

Ümumiyyətlə, Ermənistanda 30-cu illərdə 50 mindən artıq azərbaycanlı repressiyaya məruz qalmışdı. Bu aksiya icra edilən zaman heç bir müqavimətə rast gəlməyən Ermənistan rəhbərləri 40-cı illərin sonu - 50-ci illərin əvvəllərində daha bir aksiyanın - azərbaycanlıların deportasiyası aksiyasının həyata keçirilməsinə nail oldular.



Azərbaycan Milli Kitabxanası

## § 3. 1948-1953-cü İLLƏRDƏ AZƏRBAYCANLILARIN ERMƏNİSTANDAN KÖÇÜRÜLMƏSİ

Ermənistanda azərbaycanlılara qarşı 1918-1920-ci illərdə soyqırımı və 1936-1937-ci illərdə repressiya aksiyası həyata keçirilməsinə baxmayaraq, Ermənistanın Türkiyə və İran, Azərbaycan və Gürcüstan sərhədləri boyunca olan ərazilərdə, eləcə də, Ermənistan Respublikasının paytaxtında və bir sıra münbit torpaqları olan ətraf rayonlarda azərbaycanlılar yaşayırdılar. Ermənistan rəhbərlərinin qarşısında duran başlıca vəzifə İrəvan ətrafında və Türkiyə ilə sərhədboyu münbit torpaqlarda yaşayan azərbaycanlıları həmin ərazilərdən köçürməyə nail olmaqdan ibarət idi. Bunun üçün isə, ilk növbədə, Moskvanın razılığı alınmalı idi. Bəhanə kimi xaricdə yaşayan ermənilərin Ermənistanda yaşamaq arzusunda olduqlarını, lakin onları yerləşdirmək üçün ərazilərin azlıq təşkil etdiyini Stalinin nəzərinə çatdırmaq lazım gəlirdi. Çıxış yolunu isə İrəvan ətrafında yaşayan türklərin Azərbaycanın aran rayonlarına köçürülməsində görürdülər. Çünki Azərbaycanın dağətəyi rayonlarında, əsasən, ermənilər yaşayırdılar. Onlar isə bu ərazilərə hələ 1828-1831-ci illərdə Rusiyanın himayəsi altında köçürülmüşdülər.

Xaricdə yaşayan ermənilərin Ermənistana köçürülməsi üçün məsələ qaldırmaq fürsətini onlar ilk dəfə 1943-cü ildə Tehran konfransı zamanı əldə etmişdilər. Konfransın gedişində hiyləgər erməni diasporunun nümayəndələri SSRİ xarici işlər naziri Molotovla əlaqə yaratmış, onların Ermənistana köçürülməsi üçün Sovet rəhbərliyinin razılıq verməsini xahiş etmişdilər. Molotov İ.Stalinlə danışdıqdan sonra onların köçürülməsinə razı olduqlarını bildirmişdi.

Bundan sonra Ermənistan rəhbərləri xaricdən gətiriləcək erməniləri yerləşdirmək bəhanəsi ilə oradan azərbaycanlıların deportasiya edilməsinə nail olmağa çalışır.

1945-ci ilin noyabrında Ermənistan hökumətinin vəsatətini əsas götürərək SSRİ hökuməti xaricdə yaşayan ermənilərin Sovet Ermənistanına köçürülməsi işinin təşkili haqqında qərar verir. Ermənistan hökuməti yanında repatriantların qəbulu və yerləşdirilməsi üzrə xüsusi komitə yaradılır və ermənilərin köçürülməsi nəzərdə tutulan ölkələrə respublika hökuməti öz nümayəndələrini göndərir. Artıq 1946-cı ilin əvvəlində 130 min erməni Ermənistana köçmək arzusunda olduğunu bildirir. "Hnçak" və "Ramkavar" partiyaları, Ümumerməni Xeyriyyə İttifaqı köçürülmənin təşkili üçün 1 milyon dollar xərcləyirlər.





Təkcə 1946-cı ildə Suriyadan, Yunanıstandan, Livandan, İrandan, Bolqarıstan və Rumıniyadan 50,9 min nəfər, 1947-ci ildə Fələstindən, Suriyadan, Fransadan, ABŞ-dan, Yunanıstandan, Misirdən, İraqdan və Livandan 35,4 min nəfər erməni qəbul edilib Ermənistanda yerləşdirilmişdi.

Göründüyü kimi, "millətlər atası" Stalinin sayəsində ermənilərə yeni həyat, azərbaycanlılara isə sürgünlər, didərginlik və deportasiya qismət olurdu.

Ermənistan rəhbərliyi köçürülmələrin 1946-cı ilə nisbətən 1947-ci ildə azalmasının səbəbini onunla izah edirdilər ki, xaricdən gələn ermənilər, əsasən, şəhər sakinləridir, onları dağlıq rayonlarda yerləşdirmək mümkün deyil, köçürülənlər isə yalnız İrəvan və onun ətraf rayonlarında məskunlaşmaq istəyirlər. Ermənistan rəhbərliyi xaricdən gələn erməniləri qəsdən günlərlə dəmiryol stansiyalarında saxlatdırır, onlar arasında təbliğat aparırdılar ki, əgər İrəvanda və ətraf rayonlarda yerləşdirilməsələr, geriyə-xaricə qayıtmaq haqqında Moskvaya teleqramlar vursunlar. Onlar bütün bunların Sovet hökumətinin xarici ölkələrdə nüfuzuna təsir edəcəyini İ.Stalinin nəzərinə xüsusilə çatdırırdılar. Xaricdən Ermənistana köçmək arzusunda olan minlərlə erməninin siyahısı hər gün Moskvaya təqdim edilirdi.

Ermənistan KP MK-nın birinci katibi Q.Arutyunov vəziyyətdən yeganə çıxış yolunu Ermənistandan yüz min əhalinin Azərbaycana köçürülməsində görür, İ.Stalindən buna razılıq verməsini xahiş edirdi. Ermənistan hökuməti köçürüləcək yaşayış məntəqələrinin siyahısını əvvəlcədən hazırlamışdı. Bu siyahıya, ilk növbədə, İrəvan şəhəri və ona yaxın rayonlar - Əştərək, Zəngibasar, Eçmiədzin, Oktemberyan, Artaşat (Qəmərli), Qarabağlar, Vedi, Yeğeqnadzor, Axta (Razdan), Əzizbəyov və s. rayonları daxil edilmişdi.

Ermənistan rəhbərləri Stalini inandıra bilmişdilər ki, köçürülən azərbaycanlıları Azərbaycanın pambıq yetişdirilən rayonlarında, Muğan-Mil düzənliyində yerləşdirmək iqtisadi cəhətdən sərfəlidir.



Azərbaycan Milli Kitabxanası

Ermənistandan azərbaycanlıların və müsəlman kürdlərinin zorla Azərbaycana köçürülməsinə razılıq verən, isti iqlim şəraiti və baxımsızlıq nəticəsində on minlərlə adamın tələf olmasında müqəssir hesab edilən Azərbaycan KP MK-nın birinci katibi Mir Cəfər Bağırovun məhkəməsi zamanı o, həmin prosesi belə şərh etmişdi ki, 1947-ci ilin sonunda İ.Stalinin köməkçisi Poskrebışev ona zəng edib Stalinin onu çağırdığını söyləyir. O, Moskvaya gedir və Stalinin qəbul otağında Q.Arutyunovla rastlaşır. Birlikdə Stalinin kabinetinə daxil olurlar. Stalin müqəddiməsiz- filansız deyir:

- Bağırov, bilirsən ki, ermənilər xaricdən Ermənistana gəlirlər. Arutyunovun da torpağı yoxdur. Sən öz azərbaycanlılarını oradan götür, onları Muğanda, Mildə yerləşdirərsən.

M.C.Bağırov deyir ki, yoldaş Stalin, bu asan məsələ deyil. İcazə verin qayıdım, Bakıda yoldaşlarla da məsləhətləşim. Məsələni yoluna qoymağı götür-qoy edək.

Stalin onun bu cavabından əsəbiləşir və deyir:

- Deyildi, əməl et! Qurtardı!

M.C.Bağırovun Bakıya qayıtmasından bir qədər sonra, yəni dekabrın 23-də SSRİ Nazirlər Soveti "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" qərar qəbul edir.

Ermənistan rəhbərliyinə də elə bu lazım idi. 1948-ci ildə Suriyadan, Livandan, Fransadan, ABŞ-dan, Misirdən, Bolqarıstandan və Ruminiyadan cəmi 10 minə yaxın erməni köçürülür.

Beləliklə, xaricdən ermənilərin Ermənistana köçürülməsi dayandırılır. Ümumiyyətlə, 1946-1948-ci illərdə xaricdən Ermənistana təqribən 100 min erməni köçürülür. 1947-ci il 23 dekabr tarixli qərarda göstərilirdi ki, 1948-1950-ci illərdə "könüllülük" prinsipi əsasında Ermənistan SSR-də yaşayan 100 min kolxozçu və digər azərbaycanlı əhali Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülsün.

1948-ci ildə 10 min, 1949-cu ildə 40 min və 1950-ci ildə 50 min nəfərin köçürülməsi nəzərdə tutulurdu. Həmin qərarın 11-ci bəndində göstərilirdi ki, Ermənistan SSR Nazirlər Sovetinə icazə verilsin ki, azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar onların boşaltdıqları tikililəri və yaşayış evlərini xaricdən Ermənistana gələn erməniləri yerləşdirmək üçün istifadə etsinlər.





Azərbaycan SSR Nazirlər Sovetinin 1948-ci il 2 fevral tarixli qərarına əsasən, 1948-ci ildə Ermənistandan köçürüləcək 10 min nəfər əhalini qəbul etmək və yerləşdirmək planlaşdırılmışdı. Qərarda Salyan, Saatlı, Sabirabad, Əli Bayramlı, Puşkin, Ağcabədi və Xıllı Rayon İcraiyyə Komitəsinə tapşırılmışdı ki, 1948-ci il fevralın 15-dək köçürülənlərin yerləşdiriləcəyi kolxozlarda olan boş yaşayış evlərinin təmiri və bərpası üçün tikinti briqadaları yaratmaq, onları lazımi nəqliyyat vasitəsilə təmin etmək, yaşayış evlərinin bir hissəsini köçürülənlərə vermək istəyən kolxozçuları aşkar etmək və qeydiyyata götürmək, kolxozlarda köçürülmə ilə əlaqədar geniş izahat işləri aparmaq lazımdır.

Bu qərarın icra edilməsinin məcburiliyi ona gətirib çıxardı ki, mülayim iqlim şəraitinə iqlim şəraitinə uyğunlaşmış əhalinin xeyli hissəsi Kür-Araz ovalığında ictimai binalarda yatalaqdan, qızdırmadan, malyariyadan və digər yoluxucu xəstəliklərdən məhv olurdular.

Ümumiyyətlə, 1948-ci il noyabrın 1-nə qədər 1799 təsərrüfat, 7747 nəfər köçürülmüş, üstəlik 429 (2834 nəfər) köçürülməsi nəzərdə tutulan və tutulmayan rayonlardan müxtəlif təzyiqlərə məruz qaldıqları üçün pərakəndə halda Azərbaycana köçmüşdülər.

Həmin ilin dekabrında 129 təsərrüfatda birləşən 462 nəfər də köçür. Onlardan 65 ailə Noyemberyan rayonunun Körpülü kəndinin, 46 ailə isə Yerevan şəhərinin sakinləri olmuşlar. Ümumiyyətlə, rəsmi məlumatlara əsasən, 1948-ci ildə Ermənistandan Azərbaycana 2357 ailə (11.046 nəfər) köçürülmüşdür.

1949-cu il sentyabrın 21-də vəziyyətin dözülməz olduğunu nəzərə alaraq Azərbaycan SSR Nazirlər Soveti SSRİ Nazirlər Sovetinə müraciət edir ki, həmin il köçürülmə planını 10 min nəfərə endirsin. 1949-cu ilin oktyabr ayına olan məlumata görə 983 təsərrüfat (4000 nəfər) köçürülmüş, 1500 təsərrüfatı birləşdirən 6000 nəfərə isə köçürülmə biletləri verilmişdir. Hətta Ermənistanda benzin çatışmadığından köçürmə planını yerinə yetirmək məqsədilə Azərbaycan öz yanacaq fondundan əhalini dəmiryol stansiyalarına gətirmək üçün 60 ton benzin ayırır. Ümumiyyətlə, 1949-cu il dekabrın 2-nə olan məlumata görə, Ermənistandan 2368 təsərrüfat, 10595 ailə köçürülür.

Azərbaycan SSR Nazirlər Soveti 1950-ci ildə 2419 ailənin (14361

nəfər) köçürülməsi üçün qərar qəbul edir.

1948-1950-ci illərdə Ermənistan SSR-dən köçürülmüş 8110 ailədən yalnız 4878-ni yaşayış evləri ilə təmin etmək mümkün oldu.

1951-ci ilin əvvəlindən əhalinin bir hissəsi məcbur olub Ermənistana - boşaldılmış kəndlərinə qayıdırlar. Geri qayıtmanın kütləvi şəkil alacağından ehtiyat edən Ermənistan rəhbərliyi böyük hay-küy qaldırır, onları qəbul etməkdən imtina edir. Əslində, xaricdən gələn erməniləri yerləşdirmək adı altında köçürülən kəndlər, əsasən, boş qalırdı. Xaricdən gələnlərin cüzi hissəsi kənd rayonlarına gedirdilər. Hər cür yağlı vədlərlə gətirilən ermənilərin əksəriyyəti özlərini aldadılmış hesab edir, sosial inkişaf baxımından bərbad vəziyyətdə olan azərbaycanlı kəndlərinə ayaq qoymaq istəmirdilər. Ermənilər kütləvi surətdə gəldikləri ölkələrə qayıtmağa can atırdılar.

1951-ci ildə Ermənistandan 1500 ailənin Kür-Araz ovalığına köçürülməsi planlaşdırılır. Onlardan 400 ailə İrəvan şəhərinin sakinləri nəzərdə tutulurdu. 1952-ci ildə Azərbaycan SSR Nazirlər Sovetinin köçürmə planı haqqında qəbul etdiyi qərarda 1200 təsərrüfatın köçürülməsi nəzərdə tutulur və ilin axırında bu plan 124,6 faiz yerinə yetirilir. Həmin illərdə, eyni zamanda, qeyri-rəsmi surətdə Ermənistandan Azərbaycana mindən çox ailə köçüb gəlir.

1953-cü ildə İ.Stalinin ölümündən sonra köçürmə səngiyir və əhalinin geriyə qayıtma prosesi sürətlənir.

Ümumiyyətlə, 1948-1953-cü illərdə Ermənistandan Azərbaycana deportasiya edilən əhalinin sayı 100 min nəfərdən çox olmuşdur.

Qeyd edək ki, Ermənistandan azərbaycanlıların deportasiyası ilə yanaşı, yaşayış məntəqələrinin adlarının dəyişdirilməsi, təhsil və mədəniyyət ocaqlarının bağlanması, rayonların birləşdirilməsi əməliyyatı aparılır. Təkcə 1947-1953-cü illərdə 60 yaşayış məntəqəsinin adları dəyişdirilmişdir. Ermənistan SSR Ali Sovetinin 19 sentyabr 1950-ci il tarixli fərmanı ilə aşağıdakı dəmiryol stansiyalarının adları dəyişdirilmişdir:

Kolagirən-Tumanyan, Hamamlı-Spitak, Ortakilsə-Maisyan, Tumardaş-Vardakar, Arpaçay-Axuryan, Qaraqula-Gedap, Ələyəz-Arajats, Boğudlu-Arteni, Qaraburun-Qarmraşen, Qamışlı-Sovetaşen, Uluxanlı-Masis, İmanşahlı-Mxçyan, Qəmərli-Artaşat, Şirazlı-Ayqavan.

1951-ci il martın 19-da verilən fərmanla Dilican rayonu İcevanla,





Əzizbəyli rayonu Mikoyan rayonu ilə, Ələyəz rayonu Abaranla, Qarabağlar rayonu Vedi ilə, Qukasyan rayonu Amasiya ilə birləşdirilmişdir. Kadr məsələləri həll edildikdən sonra bəzi rayonları sonralar yenidən ayırmışdılar.

Ermənistanda köçürmə aksiyasını həyata keçirdikdən sonra türkdilli əhalinin azalmasını əsas götürərək rayon və respublika səviyyəli türkdilli kadrları ermənilərlə əvəz etməyə başladılar. Qarabağlar, Vedi, Zəngibasar, Krasnoselo rayonlarının partiya komitələrinin birinci katibləri, digər 10 rayonda isə ikinci və üçüncü katibləri dəyişdirilərək yerlərinə ermənilər təyin edildilər.

Sonralar isə Ermənistan KP MK-nın təşkilat məsələləri üzrə katibi Məmməd İskəndərov, kənd təsərrüfatı şöbəsinin müdir müavini Rəhim Allahverdiyev, MK-nın məsul təşkilatçısı Cümşüd Sultanov, kənd təsərrüfatı nazirinin müavini Mirzə Bəşirov tutduqları vəzifələrdən azad edildilər. Məsul vəzifələrdə işləmiş azərbaycanlıların Azərbaycana axını sürətləndi.

Bütün bunlarla yanaşı, Amasiya, Basarkeçər, Krasnoselo və digər rayonlarda Azərbaycan dilində çıxan qəzetlər bağlandı.

Köçürmə illərinin hər cür təzyiq və sıxıntılarına dözən, Azərbaycan teatr sənətinə görkəmli sənətkarlar bəxş edən İrəvan teatrı 1948-1949-cu illərdə "Məşədi İbad", "Leyli və Məcnun", "Eşq və intiqam", "Şah İsmayıl" kimi əsərləri tamaşaya qoymuşdu. Bütün bunlara baxmayaraq, teatr da bağlandı.

Ermənistanda ali təhsilli kadrların çoxalmasına imkan verməmək məqsədilə, ilk növbədə, X.Abovyan adına Yerevan Pedaqoji İnstitutunda Azərbaycan dilində olan fakültələri - dil-ədəbiyyat, tarix, coğrafiya, fizika-riyaziyyat fakültələri, Ermənistan Dövlət Qiyabi Pedaqoji İnstitutunun eyniadlı fakültələri bağlanaraq Azərbaycandakı müvafiq institutlara köçürüldü. Azərbaycan elminə görkəmli xadimlər bəxş etmiş İrəvan Pedaqoji Texnikumu bağlanaraq Xanlar rayonuna köçürüldü. Bir qədər əvvəl, yəni müharibə illərində Leninakanda (Gümrüdə) fəaliyyət göstərən və Zaqafqaziyada yeganə olan Süd Sənaye Texnikumunun azərbaycanlı şöbəsi bağlandı.

Ermənistan rəhbərləri xaricdən gələn erməniləri yerləşdirmək bəhanəsi adı altında Naxçıvanla Ermənistan arasındakı ərazilərdə xeyli miqdarda erməni əhalisinin yerləşdirilməsinə nail oldular. İrəvan şə-



Azərbaycan Milli Kitabxanası

həri ətrafından köçürülən azərbaycanlıların əvəzinə erməniləri məskunlaşdırdılar. Köçürülmə nəticəsində İrəvan ətrafındakı Əştərək, Qarabağlar, Qəmərli, Vedi, Zəngibasar, Oktemberyan, Eçmiədzin rayonlarının və Arpa-Sevan xətti ətrafında yerləşən rayonların azərbaycanlılar yaşayan münbit torpaqları ermənilərin əlinə keçdi. Türkiyə ilə sərhəd boyunda yerləşən Vedi, Zəngibasar, Oktemberyan rayonlarının azərbaycanlı əhalisini köçürməklə özləri üçün etibarlı sərhəd zolağını təmin etdilər. Amasiya rayonu bir tərəfdən Türkiyə, digər tərəfdən Gürcüstanın ermənilər yaşayan Boqdanovka və Axalkələk rayonları arasında yerləşdiyindən Ermənistan rəhbərliyi həmin rayonun əhalisini də köçürmək qərarına gəlmişdi. "Ermənistanın Sibiri" adlandırılan Amasiya rayonunun Qarabulaq, Qızılkənd, Şurabad və Daşkörpü kəndləri Azərbaycanın aran rayonlarına köçürülmüşdü. Lakin sonralar Amasiyanın köçürülməsi prosesi dayandırılmışdı. Çünki bir az öncə qeyd etdiymiz kimi köçürülən kəndlərdə kənardan gələn heç bir erməni məskunlaşmaq istəmirdi. Bu isə iqtisadi cəhətdən Ermənistan hökumətinə əl vermirdi. Çünki Ermənistanın heyvandarlıq məhsulları ilə təmin edilməsində Amasiya rayonunun xüsusi yeri var idi.

Əgər 1948-1953-cü illərdə Ermənistandan azərbaycanlı əhali deportasiya edilərək Azərbaycana köçürülməsəydi və bu köçürülmə ilə yanaşı, mədəni-maarif ocaqları bağlanmasaydı, rəhbər kadrlar sıxışdırılıb çıxarılmasaydı azərbaycanlı əhalinin təbii artımı nəticəsində 70-ci illərin sonunda Ermənistanda azərbaycanlıların sayı ermənilərin sayına nisbətən çoxluq təşkil edəcəkdi. Bu təhlükəni Ermənistan rəhbərləri qabaqcadan görür və qarşılıqlı tədbirlər hazırlayırdılar.

Ermənistandan azərbaycanlı əhalinin köçürülməsi ilə əlaqədar olaraq Ermənistan mətbuatı, o cümlədən "Sovet Ermənistanı" qəzeti heç bir iz buraxmamışdır. 1948-1953-cü illərin "Sovet Ermənistanı" qəzeti səhifələrindən yalnız onu müşahidə etmək olur ki, kəndlərdə əhalinin milli tərkibi tədricən dəyişir, müsəlman kəndləri erməni kəndlərinə çevrilir.

Ermənistanda antitürk, antiazərbaycan təbliğatı 60-cı illərin ortalarında yenidən var gücü ilə işə salınmışdı. 1964-cü ildə Ermənistanın rəsmi dairələri Moskvanın razılığı ilə "erməni genosidinin" 50 illiyinin qeyd edilməsi haqqında qərar qəbul etmişdilər. Bir il ərzində Ermənistanın bütün kütləvi informasiya vasitələri, nəşriyyatları, redak-





siyaları 1915-ci il "genosid"inin təbliği ilə məşğul oldular. Həmin vaxtadək gizli fəaliyyət göstərən "Daşnaksütyun" partiyası fürsətdən istifadə edərək, bir növ, açıq fəaliyyətə keçmişdi. Erməni millətçiləri 1965-ci ilin fevralında cəllad Andranik Ozanyanın anadan olmasının 100 illiyini təntənəli surətdə qeyd etdilər. Həmin dövrdə "Ermənistanı Yenidən Birləşdirmə Komitəsi" yaradılmışdı.

Bu hərəkata gizli surətdə Ermənistan KP MK-nın o zamankı birinci katibi Q.Zarobyan, ikinci katibi H.Baqdasaryan, Elmlər Akademiyasının prezidenti V.Ambarsumyan, şairlər Hovanes Şiraz, Silva Kaputikyan, akademiklər B.Ulubabyan, C.Kirakosyan və s. rəhbərlik edirdilər. Nümayiş və mitinqlərdə isə tələbələri, xaricdən gələn erməniləri qabağa verirdilər.

Komitə öz qarşısında Türkiyə "Ermənistanını", Naxçıvan və Qarabağı indiki Ermənistana birləşdirməyi məqsəd qoymuşdu.

1965-ci il aprelin 24-də Yerevanda "qırğınların" 50 illiyinə həsr edilmiş yığıncaq keçirildi və həmin yığıncaqda Ermənistan EA-nın prezidenti Viktor Ambarsumyan geniş məruzə etdi.

Tədbirin keçirilməsi zamanı "Ermənistanı Yenidən Birləşdirmə Komitəsinin" üzvləri onların nümayəndəsinə məruzə üçün söz verilməməsinə etiraz əlaməti olaraq Opera teatrı binasının şüşələrini sındırmış, şəhərdə çaxnaşma salmış, orada yaşayan azəri türklərini soyqırımla hədələmişdilər.

60-cı illərin ortalarında Ermənistanda aparılan milli ayrıseçkilik siyasəti və diskriminasiya aksiyası nəticəsində İrəvan və onun ətraf rayonlarından minlərlə ailə Azərbaycana köçməyə məcbur olmuşdu.

1961-ci ildə SSRİ hökuməti xaricdə yaşayan ermənilərin yeni dəstəsinin qəbul edilməsi haqqında qərar qəbul etmişdi. Ermənistan KP MK-nın 1961-ci il oktyabr plenumunda qərara alınmışdı ki, ermənilərin Ermənistana 1946-48-ci illər köçürülməsi zamanı əldə edilən təcrübəyə əsaslanaraq onların yerləşdirilməsinə mənzil fondu ayırmaqla, məktəblər və s. sosial obyektlər təşkil etməklə başlansın. 1962-ci ilin əvvəlindən başlayaraq Kiprdən, Misirdən, Suriyadan, İrandan, ABŞ-dan, Türkiyədən, Uruqvaydan, Argentinadan ermənilər Ermənistana axışdılar. 1962-1965-ci illərdə Ermənistana 7 min erməni gəlmişdi. Onlar, əsasən, sənaye şəhərlərində və Oktemberyan, Eçmiədzin, Artaşat və Vedi rayonlarında yerləşdirilmişdilər.

Azərbaycan Milli Kitabxanası

Ümumiyyətlə, 1962-1973-cü illərdə xaricdən Ermənistana 26,1 min erməni gəlmişdi.

1946-1948-ci illərdə olduğu kimi, 60-cı illərdə xaricdən ermənilərin Ermənistana gətirilməsi oradan azərbaycanlıların kütləvi surətdə deportasiya edilməsi ilə nəticələnmiş, on minlərlə azərbaycanlı əhalinin Azərbaycana və başqa yerlərə köçməsinə səbəb olmuşdu.

1968-ci ildə erməni tarixçiləri saxtakarlıqla Erebuni (guya qədim İrəvan) şəhərinin guya 2750 il öncə salındığını sübuta yetirməyə cəhd göstərdilər, təntənəli yubileylər keçirdilər. Ermənilər əski erməni əlifbası ilə şəhərin salınma tarixini yazmış və onu şüşə qabın içərisində torpağa basdırmışlar. Lakin həmin şüşə qabın II Yekaterina zamanında Rusiyada istehsal olunduğu sübut edildikdən sonra ifşa olundular. Erməni tarixçilərinin İrəvan şəhərinin əski azərbaycanlı şəhəri olması faktını danmaq cəhdləri bir daha puça çıxdı.

1979-cu ildə keçirilən Ümumittifaq siyahıyaalınmasının nəticələrinə görə Ermənistanda azərbaycanlılar 160.841 nəfər, yaxud Ermənistan əhalisinin (3.037.259) 5,3 faizini təşkil edirdilər. Müqayisə olunan müddətdə ermənilər 743,6 min nəfərdən 2,725000 nəfərə çatmışdı. Onların artımı 280 faiz, yaxud 3,7 dəfə olmuşdur. Eyni müddət ərzində kürdlər 15,3 min nəfərdən 50822 nəfərə çatmış, 301 faiz, yaxud 3,3 dəfə artmışdı. Bu rəqəmlər azərbaycanlıların Ermənistanda nə dərəcədə diskriminasiya və repressiyaya məruz qaldıqlarına əyani nümunədir.

Təəccüblü orasıdır ki, 1972-ci ildə Ermənistan Respublikası "Xalqlar Dostluğu" ordeni ilə təltif edilmişdi.

1965-ci ildə Ermənistan rəhbərləri Göyçə (Sevan) gölünün suyunun azalmasını bəhanə edərək Arpa çayının kanal vasitəsilə Sevana axıdılması üçün SSRİ hökumətinin qərarını ala bildilər. Uzunluğu 48,5 kilometr olan bu tunel-kanalın çəkilməsi ilə Arpa çayından suvarılan Naxçıvan MSSR-in torpaqları suya həsrət qaldı. 1960-1970-ci illərdə Ağstafa-İcevan, İcevan-Razdan, Sevan-Şorca, Şorca-Zod (qızıl mədəninə) çəkilən elektrikləşdirilmiş dəmiryol xətləri Ermənistanın iqtisadiyyatının dirçəlməsinə xeyli təkan verdi. Çünki Ermənistanın nəhəng kimya sənayesi müəssisələri və toxuculuq kombinatları bütövlükdə Azərbaycandan gətirilən xammal əsasında işləyirdi.

Zod qızıl mədənindən çıxarılan qızılın yuyulması zamanı əmələ





gələn zəhərli maddələr Araz çayına axıdılır. Gorus və Sisyanın sənaye müəssisələrinin tullantıları Həkəri çayı vasitəsilə, Qacaran və Qafanın mis-molibden emalı kombinatlarının zəhərli tullantıları Oxçu çayı vasitəsilə Araz çayına, Allahverdi-Şamlıq mədənlərinin tullantıları isə Debet çayı vasitəsilə Kür çayına axıdılaraq Azərbaycan təbiətinə, canlı aləminə, ekoloji vəziyyətinə öldürücü zərbələr vurulur.

Ermənistan iqtisadiyyatının bütövlükdə Azərbaycandan qidalanmasına baxmayaraq, erməni ziyalıları, mədəniyyət və incəsənət xadimləri mütəmadi olaraq antitürk, antiazərbaycan təbliğatını gücləndirir, erməni və Azərbaycan xalqları arasında ədavət toxumu səpirdilər.

İrəvanda 1915-ci ildə "soyqırımına" məruz qalanların xatirəsinə abidənin qoyulması, Oktemberyan rayonunda Sərdarabad döyüşçülərinin xatirəsinə memorial kompleksin açılması, uşaqdan böyüyə kimi hamının bu abidələri "ziyarət etməsi", "erməni qırğınlarına" həsr edilmiş saxta kinofilmlərin nümayiş etdirilməsi erməni xalqında Azərbaycan xalqına qarşı düşmənçilik hisslərinin alovlanmasına səbəb olurdu. Xüsusən erməni yazıçılarından S.Zoryanın, G.Eminin, S.Xanzadyanın, S.Ayvazyanın tarixi səpkidə yazılan roman və povestləri, publisistik əsərləri erməni xalqında türk dünyasına, müsəlman dünyasına qarşı düşmənçilik hissləri təlqin edirdi.

İrəvan televiziyası və radiosu Qarabağın, Naxçıvanın erməni torpaqları olması haqqında mütəmadi verilişlər təşkil edir, bir növ, erməniləri Azərbaycana qarşı hücuma hazırlayırdılar.

1965-ci ildən etibarən hər il aprelin 24-ü rəsmi olaraq "soyqırım" günü kimi qeyd edilir. Həmin günlər Ermənistanda yaşayan azərbaycanlılar üçün qorxulu gün hesab edilirdi. Şəhərin küçə-bazarlarında ələ keçən azərbaycanlıları döyür, təhqir edirdilər.

1983-cü il aprelin 24-də ermənilər "soyqırım" gününü bəhanə edərək Masis rayonunun mərkəzində (Uluxanlı) azərbaycanlılar yaşayan evlərə basqınlar etmiş, qəsəbədəki qəbiristanlıqda qəbir daşlarını qırıb dağıtmışdılar. Müdafiəsiz əhali Türkiyə sərhədinə sığınmağa məcbur olmuşdu. Yalnız hərbçilər işə qarışdıqdan sonra azğınlıqlara son qoyulmuşdu. Bu cür hadisələr Ermənistanda azərbaycanlıların yaşadıqları 22 rayonda ayrı-ayrı vaxtlarda, müxtəlif cür baş verirdi.

Son yetmiş ildə Ermənistanda yaşayan azərbaycanlılara qarşı elan edilməmiş açıq "səlib yürüşü" respublikanın ən yüksək dairələrində



Azərbaycan Milli Kitabxanası

hazırlanır, gizli qərarlar və xüsusi göstərişlər vasitəsilə həyata keçirilirdi. 80-ci illərin ortalarında Ermənistanda yaşayan azərbaycanlıların problemlərini həll etmək üçün məsələnin kəskin şəkildə Ermənistan rəhbərləri qarşısında qoyulması vaxtı çatmışdı.

Həmin dövrdə Ermənistanda iki yüz əlli minə yaxın azərbaycanlı yaşadığı halda, Ermənistan KP MK aparatında onları bir nəfər inspektor təmsil edirdi. Ermənistan SSR Nazirlər Sovetinin aparatında və Respublika Ali Sovet sədrinin ictimai əsaslarla müavinindən başqa ("Sovet Ermənistanı" qəzetinin redaktoru ənənəvi olaraq ictimai əsaslarla müavin seçilirdi) bir nəfər də olsun azərbaycanlı məsul şəxs işləmirdi. Komsomolun Mərkəzi Komitəsində isə 1981-ci ildən etibarən bir nəfər azərbaycanlı təlimatçı işləyirdi. Əhalinin əksəriyyətini azərbaycanlılar təşkil edən rayonlarda (Krasnoselo, Vardenis-Basarkeçər, Masis-Zəngibasar, Amasiya), əsas nomenklatur vəzifələrdə ermənilər işləyirdilər. Amasiya rayonu əhalisinin 86 faizini azərbaycanlılar təşkil etdiyi halda, nomenklatur vəzifələrin 90 faizini ermənilər tutmuşdular. Əvvəllər Ermənistanın rayonlarında Rayon Partiya Komitəsinin birinci katibi vəzifəsində işləmiş azərbaycanlıların heç birinə Ermənistanda təqaüdə çıxmaq müyəssər olmamışdı. Onlar təqiblərə və terrora məruz qaldıqlarından ya respublikanı tərk edərək Azərbaycana köçməyə məcbur olmuş, ya da müəmmalı şəkildə həyatla vidalaşmışdılar. Əvvəllər Amasiya rayon partiya komitəsinin birinci katibi, sonralar isə "Sovet Ermənistanı" qəzetinin redaktoru və Ali Sovet sədrinin ictimai əsaslarla müavini olan Məhərrəm Bayramovun taleyi 1981-ci ildə məhz belə olmuş, sui-qəsd nəticəsində həyatdan getmişdi.

Ermənistanda azəri türklərinə qarşı aparılan milli ayrıseçkilik siyasətinə, onların müxtəlif bəhanələrlə sıxışdırılmasına nəhayət ki, Sov. İKP MK reaksiya verməyə məcbur olmuşdu.

"Ermənistan partiya təşkilatında Sov. İKP MK-nın 1983-cü il iyun plenumu qərarlarının yerinə yetirilməsi haqqında" Sov. İKP MK-nın 17 oktyabr 1984-cü il tarixli qərarında deyilirdi ki, son vaxtlar Ermənistanda millətçilik əhvali-ruhiyyəsini qızışdıran əsərlər yazılır, tarixi həqiqətlər təhrif edilir, azlıqda qalan millətlərin dilinin və mədəniyyətinin inkişafına imkan yaradılmır, partiya, sovet və təsərrüfat strukturlarında onların nümayəndələri təmsil olunmurlar və s.





## § 4. AZƏRBAYCANLILARIN QƏRBİ AZƏRBAYCANDAN - İNDİKİ ERMƏNİSTANDAN SON DEPORTASİYASI

Ermənipərəst Mixail Qorbaçovun 1985-ci ildə Sovet İttifaqı Kommunist Partiyasının Baş katibi seçilməsindən sonra Dağlıq Qarabağ ermənilərinin öz müqəddəratını təyin etməsi pərdəsi altında Azərbaycana qarşı anneksiya planı işlənib hazırlandı. Bu planın həyata keçirilməsinə maneçilik törədə biləcək yeganə şəxs - Heydər Əliyev 1987-ci ilin oktyabrında Sov. İKP MK-nın Siyasi Bürosundan uzaqlaşdırıldı. Elə həmin il oktyabrın axırında İrəvanda DQMV-ni Ermənistana birləşdirmək tələbi ilə mitinqlər keçirildi. Noyabrın 18-də Qorbaçovun inandığı A.Aqanbekyan Parisdə "Humanite" qəzetinə verdiyi müsahibəsində DQMV-nin Ermənistana birləşdirilməsinin iqtisadi cəhətdən daha sərfəli olmasını və bu məsələ üzərində xüsusi komissiyanın işlədiyini bəyan etdi.

1988-ci il fevralın 20-də DQMV Xalq Deputatları Sovetinin yalnız erməni deputatlarının iştirakı ilə keçirilən növbədənkənar sessiyası vilayəti Azərbaycanın tərkibindən çıxarıb Ermənistanın inzibati ərazi bölgüsünə daxil edilməsi haqqında qərar qəbul etdi. Azərbaycan SSR Ali Soveti DQMV XDS-nin Konstitusiyaya zidd qərarını rədd etdikdən sonra Ermənistanın millətçi rəhbərləri "Daşnaksütyun" partiyasının "türksüz Ermənistan" proqramını həyata keçirməyə başladılar.

1988-ci il fevralın 19-dan etibarən İrəvanda yenidən kütləvi mitinqlər başladı. Mitinq iştirakçıları "Ermənistanı türklərdən təmizləməli!", "Ermənistan yalnız ermənilər üçündür!" kimi şüarlar irəli sürdülər. Mitinqlərin üçüncü günü İrəvanda dağıdılmamış yeganə məscid binası (XX əsrin əvvəllərində şəhərdə 8 məscid mövcud olmuşdur) və azərbaycanlı məktəbi, C.Cabbarlı adına İrəvan Dram Teatrının ləvazimatı yandırıldı. İrəvanda bu hadisələrə qarşı etirazını bildirən azərbaycanlıların evlərinə od vururdular. İrəvanda bütün bunlar törədilən zaman Sumqayıt faciəsi hələ hazırlanırdı. "Sumqayıt qırğınları" proqramının icraçılarından ən fəalının 1959-cu ildə anadan olmuş Eduard Robertoviç Qriqoryan adında erməninin olması (öldürülən 26 erməndən 6 nəfəri onun payına düşür), hadisədən on gün əvvəl Sumqayıtın bütün əmanət kassalarından ermənilərin öz əmanətlə-



Azərbaycan Milli Kitabxanası

rini kütləvi şəkildə götürmələri, qırğınların videolentə alınması üçün erməni operatorlarının əvvəlcədən hadisələrin planlı şəkildə törədiləcəyi yerlərdə özlərinə xəlvəti çəkiliş mövqeyi seçmələri, iki gündən sonra həmin lentlərin montaj edilib bütün dünyanı dolaşdırılması, "Sumqayıt qurbanları"nın xatirəsini "əbədiləşdirmək" üçün əvvəlcədən hazırlanmış abidənin dərhal Xankəndində (Stepanakert) qoyulması və bu kimi faktlar sübut edir ki, bütün bunlar erməniləri, eləcə də dünya ictimaiyyətini Azərbaycan xalqına qarşı ayağa qaldırmaq, onun "vəhşi" obrazını yaratmaq məqsədini güdmüşdür. Sumqayıt qırğınlarının fəal təşkilatçılarından erməni Ohanyanın, Samoylov və Pavlovskinin adları isə uzun müddət mətbuatdan gizli saxlanmışdır.

Sonralar L.Ter-Petrosyan öz müsahibələrinin birində demişdi ki, Sumqayıt hadisəsindən sonra Azərbaycan xalqı şok vəziyyətinə düşmüşdü. Əgər ölkə rəhbərliyi bu məqamdan istifadə edib DQMV-nin Ermənistana birləşdirilməsi haqqında qərar çıxarsa idi, Azərbaycan buna etiraz edə bilməyəcəkdi.

Bu sözlər aydın sübut edir ki, Sumqayıt faciəsi ermənilər üçün öz separatçılıq aksiyalarını həyata keçirməkdən ötrü lazım olmuşdur.

Lakin mərkəzin, onun Azərbaycan və Ermənistana göndərilmiş emissarlarının ikiüzlü mövqeləri (Y.Liqaçov Azərbaycanda, A.Yakovlev Ermənistanda) erməni millətçilərinin öz bədnam niyyətlərini həyata keçirmək ümidlərini artırırdı.

Erməni millətçiləri üçün Ermənistanda ən münbit rayonlarda yaşayan 250 mindən artıq azərbaycanlını respublikadan zorla çıxarmaq Qarabağ məsələsini həll etmək qədər vacib idi.

1988-ci ildə isə respublika rəhbərliyi azərbaycanlıların təhlükəsizliyinin qorunmasına təminat verməməklə onlar arasında vahimə və qorxu yaradaraq Ermənistandan deportasiya edilməsinə başladılar.

Ayrı-ayrı rayon rəhbərləri azərbaycanlılara qarşı iqtisadi təzyiq üsullarından istifadə edərək kəndlərə çörək, ərzaq və gündəlik tələbat mallarının verilməsini məhdudlaşdırırdılar. Ərzaq üçün şəhərlərə və rayon mərkəzlərinə getməyə məcbur olan azərbaycanlılar təhqir edilir, döyülür və qarət edilirdilər. İş o yerə çatır ki, mart ayında Gürcüstanın Baqdanovka və Axalkələk rayonlarında yaşayan ermənilər Amasiya rayonunun kəndlərinə dəfələrlə silahlı basqınlar edirlər.

Mərkəz azərbaycanlıların kompakt yaşadıqları rayonlarda daxili





xidmət qoşunlarını, bölmələrini yerləşdirməyə məcbur olur. Hadisələrin sonrakı inkişafı göstərdi ki, bu bölmələrə yalnız münaqişələri müşahidə etmək səlahiyyəti verilibmiş.

Hadisələrin bu cür inkişafının gözlənilməz, fəlakətli nəticələrə gətirib çıxaracağı hiss edilirdi. Buna görə də 1988-ci il martın 25-də "Qarabağ" komitəsinin fəaliyyəti Ermənistan SSR Konstitusiyasına və mövcud qanunvericiliyə zidd olduğuna görə, respublikanın Ali Soveti həmin komitəni qeyri-qanuni hesab edərək fəaliyyətinin dayandırılması haqqında qərar çıxardı. Azərbaycan SSR Ali Soveti də öz növbəsində "Krunk" təşkilatının fəaliyyətinin dayandırılması və onun təşkilatçılarının cinayət məsuliyyətinə cəlb edilməsi haqqında qərar qəbul edir. Lakin hər iki qərar sonralar kağız üzərində qalır.

Ermənistan SSR Ali Sovetinin, Nazirlər Sovetinin və KP MK-nın orqanı olan "Kommunist" qəzeti 13 dekabr 1988-ci il nömrəsində "Fəlakət anı, məsuliyyət anı" məqaləsində həmin dövrü belə səciyyələndirirdi: "Meydana siyasi avantüristlər çıxmışlar. Onlar öz məqsədlərinə çatmaq üçün heç nəyin qarşısında dayanmırlar. Bu məqsədlər yaxşı məlumdur: onlar acgözlüklə hakimiyyətə can atırlar, xalqı milli faciə ilə nəticələnə biləcək son həddə sürükləyirlər".

1988-ci il iyunun 10-da "Azərinform" etiraf etməyə məcbur olmuşdu ki, Ermənistandan respublikaya 3 min qaçqın gəlmişdir. Onları o zaman qaçqın yox, "daimi yaşayış yerlərini müvəqqəti tərk edənlər" adlandırırdılar.

1988-ci il iyunun 15-də Ermənistan SSR Ali Sovetinin növbədənkənar sessiyası DQMV-nin Ermənistana birləşdirilməsi haqqında qərar qəbul edərək Azərbaycan SSR Ali Sovetinə müraciət etdi ki, buna razılıq versin. Azərbaycan SSR Ali Soveti bu qanunsuz tələbi rədd etdikdən sonra Ermənistandakı azərbaycanlıların vəziyyəti daha da ağırlaşdı.

İyunun 17-20-də Yerevanda Teatr meydanında azğınlaşmış dəstələr avtobuslarla yaxınlıqdakı azərbaycanlılar yaşayan Masis rayonunun mərkəzinə və Zəngilər, Zəhmət, Dəmirçi, Dostluq, Nizami, Sarvanlar kəndlərinə basqınlar etdilər. Müdafiəsiz on mindən çox azərbaycanlı Sovet-Türkiyə sərhədinə toplaşmış, orda gecələməyə məcbur olmuşdular. Həmin günlər 20-dən çox azərbaycanlı yaralanmışdı. Rayon mərkəzi Masis qəsəbəsindən 3 mindən çox azərbaycanlı evlə-



Azərbaycan Milli Kitabxanası

rindən çıxarıldı. Bütün bu iğtişaşlar zamanı SSRİ Daxili İşlər Nazirliyinin rayonda olan qüvvələri yalnız müşahidəçi rolunu oynayırdılar.

1988-ci il iyulun 18-də SSRİ Ali Soveti Rəyasət Heyətinin iclasında DQMV haqqında məsələni müzakirə edərək respublikalar arasında sərhədlərin dəyişdirilməsi yolverilməz hesab edildikdən sonra erməni millətçiləri azərbaycanlıların Ermənistan ərazisindən çıxarılması üçün hər yerdə mitinqlər təşkil etməyə başladılar.

Ermənistan EA-nın müxbir üzvü "Qarabağ" hərəkatının liderlərindən biri Rafael Kazaryan 1988-ci il noyabrın 4-də Yerevanda keçirilən mitinqdə demişdir: "Dəstələrin köməyi ilə emiqrasiyanı təmin etmək lazımdır. Bizə bütün onilliklər ərzində ilk dəfə Ermənistanı təmizləmək imkanı verilmişdir. Mən bunu bu on ayda mübarizəmizin ən böyük nailiyyəti hesab edirəm. ("Армения двадцать месяцев борьбы", Сборник вступлений. Ереван. 1989, səh. 15; Bax: "Vətən səsi" qəzeti, 17, 1991-ci il. A.Yunusovun "1988-1989-cu illərdə Ermənistandakı qırğınlar" məqaləsi). Yerevanda rusca çıxan "Kommunist" qəzeti 13 dekabr tarixli nömrəsində "Fəlakət anı, məsuliyyət anı" məqaləsində etiraf etməyə məcbur olmuşdu: "Komitənin ("Qarabağ") yerli özəklərinin təşəbbüsü ilə rayon və kəndlərdə mitinqlər təşkil edilərək azərbaycanlılardan öz evlərini tərk etmələri tələbi irəli sürülürdü. Ən həyəcanlandırıcı hal odur ki, "Qarabağ" komitəsinin hazırladığı siyasi münaqişələrə hətta uşaqları da cəlb edirdilər. Təsəvvür edin ki, Amasiya rayonunun mərkəzində Rayon Xalq Nəzarəti Komitəsi sədrinin oğlunun rəhbərliyi ilə 30 məktəbli nümayiş keçirir və azərbaycanlıların işdən qovulmasını tələb edirlər". Amasiyanın beynəlmiləl məktəbinin erməni şagirdlərinin tələbi ilə dərhal məktəbin azərbaycanlı bölməsi bağlanmışdı. Bir həftə ərzində 1988-ci il dekabrın 1-dək rəhbər vəzifələrdə işləyən azərbaycanlıların əksəriyyəti işdən azad edilmişlər.

Şagirdlərin milli münaqişəyə cəlb edilməsinə gəldikdə isə qeyd etmək lazımdır ki, hər bir erməni ailəsində uşağa yeniyetmə dövründən təlqin edilirdi ki, türklər onların qatı düşmənləridir və buna görə də fürsət düşən kimi onlardan qisas almaq lazımdır.

1988-ci il noyabrın ortalarında Azərbaycana 80 mindən artıq qaçqın pənah gətirmişdi. Noyabrın 17-də Bakıda "Azadlıq" meydanında keçirilən mitinq zamanı Ermənistanda yaşayan azərbaycanlıların





kompakt yaşadıqları ərazidə onlara muxtariyyət verilməsi tələbi ilə qətnamə qəbul edilmişdi. Ermənistan televiziyası həmin gün mitinqdən reportajlar göstərərək qətnamənin tələblərini dəfələrlə efirdə səsləndirmişdi.

Bu tələblərdən narahat olan Ermənistan rəhbərliyi Ali Sovetin noyabrın 22-də Opera teatrının binasında keçirilən sessiyasının gedişini mitinq iştirakçılarının hücumundan sonra dayandıraraq onların tələbi ilə deputatları, rayon rəhbərliyini yerlərdə "qayda-qanunu bərpa etməyə" göndərdilər. Əslində isə onlara tapşırıq verilmişdi ki, bir həftə ərzində, yəni noyabrın 28-dək Ermənistanı azərbaycanlılardan təmizləmək aksiyasını həyata keçirsinlər.

Bu haqda yuxarıda qeyd edilən "Fəlakət anı, məsuliyyət anı" məqaləsində yazılır: "Qarabağ" komitəsi avantüristlərinin çağırışına millətçilik azarına tutulmuş bir sıra partiya-sovet işçiləri də qoşulmuşdur. Ayrı-ayrı rayonlarda millətlərarası qırğına sürükləyən coşmuş ehtirasları cilovlamaq, vətəndaşları müdafiə etmək, təxribatçıları ifşa etmək əvəzinə, onlar adamların (yəni azərbaycanlıların - müəlliflər) kütləvi surətdə çıxarılmasına fitva verdilər. Bu cür "missiya" ilə bəzi "xadimlər" Kirovakanda, Stepanavanda, Artaşatda evləri bir-bir gəzirdilər". Əlbəttə, azərbaycanlılar yaşayan bütün rayonların vəziyyəti belə idi. Deportasiya aksiyasını müəyyən olunmuş müddətdə başa çatdırmaq üçün Kalinin, Spitak, Quqarg, Noyemberyan, Krasnoselo, Vardenis, Yeğeqnazor, Əzizbəyov, Ararat, Masis, Sisyan və Meqri rayonlarının rəhbərləri xüsusilə canfəşanlıq göstərirdilər.

Ermənistanı 1988-ci ildə tərk etmiş və Xanlar rayonuna pənah gətirmiş milliyyətcə rus olan L.N.Tolstyak Azərbaycan Qaçqınlar Cəmiyyətinə yazdığı öz izahatında göstərmişdi ki, noyabrın 27-də Ermənistan SSR Nazirlər Soveti sədrinin birinci müavini (daha sonralar Ermənistan KP MK-nın birinci katibi seçilmiş) V.Movsesyan Vardenis rayonunun Zod kəndinə gəlib əhalinin kəndi tərk etməsi üçün üç gün vaxt verdiyini dedi və əlavə etdi ki, bu müddətdə kəndi tərk etməsələr onların təhlükəsizliyinə təminat verilməyəcək. Deportasiyanı sürətləndirmək üçün elektrik xəttini kəsdilər, ərzaq verilməsini dayandırdılar, dağ yolları ilə rayonu tərk edən azərbaycanlıların köçünü tez-tez atəşə tutdular.

Bu cür izahatlar yüzlərcədir.



Azərbaycan Milli Kitabxanası

Yenə də yuxarıda adı çəkilən "Fəlakət anı, məsuliyyət anı" məqaləsinə müraciət edək: "Noyabrın 26-da "Qarabağ hərəkatı fəallarının təhrikçi çıxışlarından qızışmış 500 nəfər Kirovakan sakini Şaumyan kəndinə doğru hərəkət etdi. Vuruşma iki gün davam etdi, silahlı atışma oldu. Ölənlər oldu. Kuybışev kəndində də qırğınlar törədildi, orada da tələfat var. Hərəkatın fəallarının köməyi ilə yaradılmış "özünümüdafiə dəstələri" yollarda qoyduqları postlarda azğınlıqlar törədirdilər. Azərbaycanlı kəndlərinə ərzaq köməyi göstərən ermənilər döyülürdülər".

Ermənistan mətbuatı Şaumyan (əvvəlki adı Vartanlı) qırğınları haqqında yalnız "atışma olmuşdur, tələfat var" sözlərini qeyd etməklə kifayətlənmişdir. Şaumyan (Vartanlı) kəndi Kirovakan şəhərinə bitişik olmasına baxmayaraq, inzibati-ərazi bölgüsünə görə, Quqark rayonuna daxil olmuşdur. Şaumyan (Vartanlı) faciəsi öz ssenarisinə görə 1918-1920-ci illərdə Gümrü-Qarakilsə bölgələrindəki silahsız azərbaycanlılar yaşayan kəndlərə erməni quldurlarının hücumları zamanı törədilən vəhşiliklərin təkrarı idi.

Təəssüf ki, dünya ictimaiyyəti nə 1918-1920-ci, nə 1988-1989-cu illərdə Ermənistandakı qırğınlar haqqında xəbər tutmamışdır. Ermənilər bir əsrdə Vartanlı kəndində iki dəfə azərbaycanlılara qarşı soyqırım törətmişlər. Onlar "adımı sənə qoyaram, səni də yana-yana" prinsipi ilə Azərbaycan xalqını vəhşi kimi qələmə verməklə ictimai rəy yaratmağa çalışmışlar. Vartanlı qırğınlarının üstündən sükutla keçib, onu ört-basdır etməklə yanaşı, özlərinin törətdikləri Sumqayıt qırğınlarına siyasi qiymət verilməsini tələb etmək məhz ermənilərə məxsus üsuldur.

İndi isə şahidlərin verdiyi ifadələr və Ermənistan Respublikası Prokurorluğunun göndərdiyi cavablar arasında Vartanlı qırğınlarının bəzi səhnələri ilə tanış olaq. Əsrin əvvəllərində tamamilə azərbaycanlılar yaşayan Vartanlı kəndində 1988-ci ilin sonunda ermənilər çoxluq təşkil edirdilər. Ermənilər noyabrın 25-dən 26-na keçən gecə silahlı hücum edirlər. Həmin gün güclü qar yağmasına baxmayaraq, azərbaycanlılar kəndi tərk edib meşəyə çəkilməyə məcbur olmuşdular. Qatillər kənddə rastlarına çıxan Mehralı İsgəndərovu ağaca bağlayır, gözləri qarşısında arvadı Xanım İsgəndərovanın boynuna kəndir keçirib hər cür təhqir edərək kəndin içində gəzdirirlər.





Onların 14 yaşlı oğlu Alim hadisədən xəbər tutaraq ov tüfəngini götürüb kəndə enir və ata-anasını xilas etmək üçün atəş açmağa məcbur olur. Gülləlləri dolu kimi Alimin üzərinə yağdırırlar. Yaralı Alimi ata-anasının gözləri qarşısında yanan tonqalın içinə atırlar. Bu dəhşəti görməmək üçün anası Xanım özünü çaya atır ki, boğulsun. Onu çaydan çıxarıb işgəncə ilə öldürürlər. Vəhşicəsinə döyülüb hər cür təhqirlərə məruz qalan Mehralı İsgəndərov gözlərini əbədi yumur. Ermənistan Respublikası Prokurorluğunun bu cinayət işi ilə bağlı cavabında deyilir: "İsgəndərov Mehralı Həsən oğlu 1938-ci ildə anadan olmuş, Vartanlı kənd sakinidir. 1988-ci il millətlərarası toqquşma nəticəsində öldürülmüş, Vartanlı kənd qəbiristanlığında basdırılmışdır. Onun meyiti 1989-cu ilin sonunda qohumları tərəfindən çıxarılaraq Azərbaycanda yenidən dəfn edilmişdir. SSRİ Prokurorluğu cinayət işi qaldırmışdır. Cinayətkar tapılmamışdır".

İsgəndərovların üçünün də haqqında verilən cavabın sonunda deyilir: "Cinayətkarlar tapılmamışdır". Görəsən, bütün kənd camaatının gözü qarşısında baş verən faciənin iştirakçılarını doğrudanmı SSRİ Prokurorluğunun işçiləri aşkara çıxara bilməmişdilər?

1941-1945-ci illər müharibəsində bir qolunu itirmiş 69 yaşlı Qərib Bayramovun evi kəndin yuxarı hissəsində olduğundan İsgəndərovların faciəsindən gec xəbər tutur. Çayın kənarına enib meyitləri gördükdən sonra evə qayıdıb üstlərini örtmək üçün bir şey gətirmək istəyir. Bu dəm arxadan onu balta ilə vurub yanan tonqalın içinə atırlar. Ermənistan Respublikası Prokurorluğunun cavabında isə deyilir: "Baryamov Qərib İsmayıl oğlu 1919-cu ildə anadan olmuş, Şaumyan kəndinin keçmiş sakini, 1988-ci ildə Şaumyan kəndinin erməni əhalisi tərəfindən öldürülmüş, meyit yandırılmışdır".

Öz qonşusunun başına arxadan endirdiyi zərbədən qanına qəltan edilən Hüseynova Leyli haqqında göndərilən cavabda deyilir: "Hüseynova Leyli Həsən qızı 1925-ci ildə anadan olmuş, Vartanlı kənd sakini, 1988-ci ilin noyabrında millətlərarası toqquşma nəticəsində öldürülmüş və Vartanlı kənd qəbiristanlığında basdırılmışdır. 1989-cu ilin axırlarında onun meyiti qohumları tərəfindən Azərbaycana aparılıb yenidən dəfn edilmişdir. SSRİ Prokurorluğu cinayət işi qaldırmış, cinayətkarlar tapılmamışdır".

Sumqayıt faciəsi zamanı yüzlərlə azərbaycanlı ailəsinin öz həyat-

Azərbaycan Milli Kitabxanası

larını təhlükə qarşısında qoyaraq erməni qonşularını qəzəblənmiş kütlənin təhlükəsindən xilas etmələri haqqında mətbuatda çox yazılıb. Lakin Vartanlı erməniləri bu cür insani hisslərdən uzaq idilər. Onlar azğın millətçilərin önündə getmiş, azərbaycanlıların sığındığı evləri nişan verirmişlər. Azğınlaşmış dəstəyə Şaumyan kənd sovetinin sədri J.Arakelyan bələdçilik etmişdir.

Ümumiyyətlə, Vartanlı kəndində 14 nəfər azərbaycanlı qətlə yetirilmişdir. Quqark faciəsi Ermənistan rəhbərliyi tərəfindən ört-basdır edildi. Sonralar, yəni 1989-cu ildə Ermənistan KP MK-nın bürosu Quqark Rayon Partiya Komitəsinin birinci katibi L.Baqdasaryanı və RİK-in sədri S.Qazaryanı işdən azad etməklə kifayətləndi. Lakin Vartanlı (Şaumyan) qırğınlarının əsas təşkilatçıları və icraçıları cinayət məsuliyyətindən kənarda qaldılar.

Qonşu Spitak (keçmiş Hamamlı) rayonunun rəhbərliyi azərbaycanlılara qarşı törətdikləri cinayətlərə görə Quqark rayonunun rəhbərlərindən heç də geri qalmamışdılar. Noyabrın 28-də Spitak Rayon İK-nin sədri V.Hacayan, DİŞ-in rəisi Sərkisyan, DTK rayon şöbəsinin sədr müavini Mehrabyan rayonun azərbaycanlı yaşayan Saral və Qursal kəndlərinə gəlib bildirmişdilər ki, onların təhlükəsizliyinə təminat vermirlər. Əgər iki saat ərzində kəndi tərk etməsələr, silahlı dəstələr kəndə hücum edəcəklər. Camaat onların təklifini rədd edib Kirovakandan göndərilən hərbçilərin basqınlarını mərdliklə dəf etdilər. Lakin Spitak və Quqark rayon rəhbərləri yenə gəlib təkidlə tələb edirlər ki, kənd camaatı tezliklə çıxmalıdılar. Onlar özləri ilə 34 avtobus, 40 yükünü özüboşaldan maşın gətirmişdilər. Onların göstərişi ilə bir dəstə adam ev sahiblərinin gözü qarşısında ev əşyalarını həyətə çıxarıb od vururdular.

Onlar camaatı silah gücünə avtobuslara doldurub rayon ərazisindən kənara, qonşu Quqark rayonuna doğru apardılar. Orada Mrqahovit (Həmzəçimən) kəndi yaxınlığında axşamdan xeyli keçmiş silahlı dəstələr gözləyirdilər. Spitak rayonunun rəhbərləri işi elə qurmuşdular ki, qanlı hadisə qonşu rayonun ərazisində törədilsin, beləliklə, onlar məsuliyyətdən kənarda qalsınlar. Gecənin qaranlığında yolun kənarında pusquda durmuş quldurlar avtobusları atəşə tutur, 3 nəfər həlak olur, 7 nəfər ağır yaralanır. Bu cinayətlə bağlı Ermənistan Respublikası Prokurorluğunun verdiyi cavabdan:





**1.** Balacayev Şahin Səyyad oğlu 1977-ci ildə anadan olmuş, Saral məktəbinin 4-cü sinif şagirdi. Mrqahovit kəndinin yaxınlığında Spitakdan gələn PAZ-672 markalı 39-52 ADN nömrəli avtobus naməlum şəxslər tərəfindən atəşə tutulmuşdur, güllə başından dəymiş, yerindəcə keçinmişdir. 01.12.1998.

**2.** Balacayev Teymur Məsim oğlu 1959-cu ildə anadan olmuş, Kirovakan dəzgahqayırma zavodunun fəhləsi, PAZ-696 markalı 57-94 ADN nömrəli avtobusla (Spitakdan gələn kolonna) Mrqahovit kəndi yaxınlığında meşədə naməlum şəxslər tərəfindən daşa basılmış, başından zərbə alaraq yerindəcə keçinmişdir. 01.12.1988.

**3.** Balacayeva Sürəyya Hüseyn qızı 1954-cü ildə anadan olmuş, yuxarıda qeyd edilmiş hadisə zamanı bədən xəsarəti almış və 02.12.1988-ci ildə xəstəxanada keçinmişdir".

Ermənistan Respublikası Prokurorluğunun verdiyi həmin məlumatın əlavəsində isə Balacayevlərin hər üçünün güllə yarasından öldürüldüyü qeyd edilmişdir. Sürəyyanın həyatını xilas etmək mümkün idi. Lakin onu Kirovakan xəstəxanasında tibb bacıları döşəkağı ilə boğub öldürmüşdülər.

Sürəyyanın üstündə olan 6 min manat nağd pulunu və 3 min manat dəyərində olan zinət şeylərini xəstəxanada həkimlər oğurlamışdılar. Rayon rəhbərləri hər üç meyiti Azərbaycana gətirməyə qoymamış, Quqark rayonunun Vartanlı kəndində hərbçilərin köməyi ilə dəfn olunmuşlar. Qeyd etdiyimiz kimi, Ermənistanda Azərbaycan türklərinə qarşı edilən cinayətlər əsasən, yollarda, köç zamanı törədildiyindən cinayət işi qaldırılmamış, məlum cinayətkarlar isə ələ verilməmişdir. Çünki Ermənistanda türk (azərbaycanlı) öldürən həmişə milli qəhrəman hesab edilmişdir. Bu səbəbdən də Ermənistan Respublikası Prokurorluğu cinayətləri açmağa deyil, mümkün olan qədər ört-basdır etməyə səy göstərmişdir. Onlar yalnız təkzib edilməsi mümkün olmayan cinayətləri sənədləşdirmişlər.

1988-ci ilin noyabr-dekabr aylarında Ermənistan ərazisində milli münasibətlərin kəskinləşməsi üzündən bir sıra rayonlarda qarət, yanğın və ictimai qayda-qanuna zidd olan digər hallarda müşayiət olunan kütləvi iğtişaşlar baş vermişdir... Bu hərəkətlər nəticəsində 21 nəfər öldürülmüş (20 azərbaycanlı və bir erməni), 4 nəfər sonradan ölümlə nəticələnən ağır bədən xəsarəti almışdır. Qətl hadisəsi üzrə 8 ci-



Azərbaycan Milli Kitabxanası

nayət işi və zərərçəkənlərin ölümü ilə nəticələnmiş ağır bədən xəsarəti üzrə dörd işin istintaqı başa çatdırılaraq məhkəməyə göndərilmişdir. Məhz hüquq-mühafizə orqanlarının nəzarətsizliyi, onların erməni millətçilərinin separatçı hərəkətlərinə vaxtında qanuni qiymət verməmələrinin nəticəsində 200 mindən artıq azəri türkü əsrlər boyu yaşadıqları əzəli torpaqlarından bir həftə ərzində vəhşicəsinə qovuldular.

Keçmiş İttifaq orqanları da azəri türklərinin Ermənistandan deportasiyasına seyrçi münasibət göstərdi. Demək olar ki, bütün azərbaycanlılar Ermənistandan qovulduqdan sonra, yəni 1988-ci il dekabrın 6-da Sov. İKP MK və SSRİ Nazirlər Soveti "Vətəndaşların daimi yaşayış yerlərini məcburi tərk etməsində Azərbaycan SSR və Ermənistan SSR-in yerli orqanlarının ayrı-ayrı vəzifəli şəxslərinin yolverilməz hərəkətləri haqqında" qərar qəbul etmişdi.

SSRİ Nazirlər Soveti sədrinin o zamankı müavini B.Y.Şerbinanın rəhbərliyi ilə hər üç Zaqafqaziya respublikasının Nazirlər Sovetlərinin sədrləri və İttifaqın müvafiq nazirliklərinin rəhbər işçiləri də daxil olmaqla xüsusi komissiya yaradılmışdı. Bu komissiya qaçqınların təhlükəsiz köçürülməsi və yerləşdirilməsi məsələləri ilə məşğul olmalı idi. Əslində isə, Ermənistandan azərbaycanlılar faktiki olaraq təmizləndikdən və orada baş verən zəlzələdən sonra bu komissiya da öz işini başa vurdu. Zəlzələnin vurduğu ziyanları aradan qaldırmaq, iqtisadiyyatı bərpa etmək üçün Ermənistana xeyli miqdarda işçi qüvvəsi lazım idi. Məhz bu məqsədlə də 1989-cu il yanvarın 4-də Ermənistanın rəhbərliyinin "xahişi" ilə Azərbaycan rəhbərliyi siyasi kütlük nümunəsi göstərərək hər iki respublikanın KP MK-larının, Ali Soveti Rəyasət Heyətlərinin və Nazirlər Sovetlərinin adından qaçqınlara daimi yaşayış yerlərinə qayıtmaları üçün müraciət etdi.

Azərbaycandan Ermənistana köçən erməniləri isə kütləvi surətdə Azərbaycana geri qaytarmağa başladılar. Dekabrın 16-da SİTA məlumat verirdi: "Azərbaycan SSR-in partiya, sovet və digər orqanlarının səyi ilə əvvəllər Azərbaycanı tərk etmiş erməni millətindən olan şəxslər geri qayıtmağa başlamışlar.

Dekabrın 11-dən 15-dək Ermənistandan daimi yaşayış yerlərinə 2300 nəfərdən artıq adam qayıtmışdır, o cümlədən Bakıya 1100 nəfər, Şamaxıya 315 nəfər, Zaqatalaya 110, Şamxora 54 nəfər. Qayıdan kimi onlar öz əmək kollektivlərində işə başlayırlar".





Ermənistan rəhbərliyi özünü "sığorta" edərək azəri tükrlərinin Ermənistana qayıtmasına təminat verilməsi illüziyası yaratmaq məqsədilə 15 dekabr 1988-ci ildə Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin 6 dekabp tarixli yuxarıda adı çəkilən qərarının yerinə yetirilməsinin gedişini müzakirə edərək 13 nəfər rəhbər işçini Sov. İKP sıralarından kənar etmiş (daha dəqiq desək, bir vəzifədən başqa vəzifəyə dəyişdirmişdi), 68 nəfərə partiya tənbehi vermişdi. Büro həmçinin Quqark rayon PK-nın birinci katibi L.Bağdasaryanı və RİK-in sədri S.Qazaryanı işdən azad etməklə kifayətlənmiş, Stepanavan və İcevan PK-nin birinci katibləri Y.Cşmartyan və C.Ananyana isə ciddi töhmət vermiş, adları çəkilən rayonlardan əlavə Yeğeqnadzor, Ararat, Masis, Amasiya, Noyemberyan rayonlarında vətəndaşların hüquqlarının pozulmasına, şantaj və kütləvi iğtişaşlara yol verildiyini qeyd etmişdi. Ermənistan Respublikası Prokurorluğu isə Sevan, Kalinino və Abovyan rayon prokurorlarını işdən azad etmişdi. Ermənistanda zəlzələ baş verməsəydi, şübhəsiz ki, heç bu cür başdansovdu cəza tədbirlərinə də əl atılmayacaqdı. Çünki Ermənistanda heyvandarlıq və tərəvəz məhsullarının əksər hissəsini azərbaycanlılar istehsal edirdilər. Mənzillərini dəyişdirmək yolu ilə Azərbaycandan gələn ermənilər isə, əsasən, şəhər mühitində yaşadıqlarından qaçqın kimi Ermənistanda qeydə alınır, maddi yardım alaraq dərhal Rusiyanın şəhərlərinə üz tutur, orada qaçqın kimi yenidən qeydə alınaraq bir daha maddi yardım alır və digər güzəştlərdən istifadə edirdilər. Azərbaycanlılar isə Ermənistana ermənilərin maddi rifah vəziyyətini yaxşılaşdırmaq üçün onlara "qara fəhlə" kimi lazım idilər. Azərbaycan rəhbərliyi isə bu məsələyə özünün ənənəvi beynəlmiləlçilik prinsiplərindən yanaşırdı.

Ermənistanda baş verən dəhşətli zəlzələdən sonra bütün inciklikləri, Azərbaycan xalqına edilən zülm və haqsızlıqları bir kənara qoyaraq zəlzələ zonasına istər maddi-texniki, istərsə də işçi qüvvəsilə kömək göstərib uçqunlar altında inildəyən ermənilərin xilasına birinci yetişən azərbaycanlı oldu. Daha fikirləşmədi ki, xilas etdiyi erməni özünə gələn kimi əlinə silah götürüb, yenə də Azərbaycan xalqının qəsdinə duracaqdır. Mayasına, iliyinədək millətçilik azarına tutulan ermənilər isə "Qarabağ" komitəsi başda olmaqla Azərbaycanın humanist köməyindən imtina etməyə çağırdılar. Leninakan və Spitakda minlərlə erməninin uçqunlar altında qalıb inildəməsini, kömək



Azərbaycan Milli Kitabxanası

ummasına əhəmiyyət verməyərək zəlzələ zonasına gəlmiş M.Qorbaçovdan Qarabağ problemini onların xeyrinə həll etməsini tələb etdilər. Azərbaycanın ona pənah gətirmiş 250 minə yaxın soydaşının dərd-sərini kənara qoyub karvan-karvan Ermənistana göndərdiyi hər cür ləvazimat, pal-paltar, dava-dərman dolu yük maşınları İcevandan geri qaytarıldı.

Noyabrın 11-də Respublika Hərbi Komissarlığının və Mülki Müdafiə Qərargahının səfərbər etdiyi və içində 78 nəfər müxtəlif peşə sahibi olan (69 sərnişin, 9 ekipaj) "İL-76" təyyarəsi zəlzələ zonasında Leninakan (Gümrü) yaxınlığında qəzaya uğradıldı. Lakin həmin qəzanın səbəblərini araşdırmaq üçün nə komissiya yaradıldı, nə də ekspertlər tələb edildi. Ermənilər isə qəzadan möcüzə nəticəsində sağ qalmış Fəxrəddin Balayevi hər yerdə axtarmışdılar ki, yeganə şahid kimi aradan götürsünlər. Lakin hərbçi həkimlər onu qospitalda qadınlar yatan otaqda arakəsmənin arxasında gizlətmişdilər. Ermənistan rəhbərləri isə təyyarə qəzasında həlak olanların ailələrinə və Azərbaycan xalqına başsağlığı verməyi belə özlərinə rəva bilmədilər.

Bütün bunlara baxmayaraq, yenə də respublikanın hər yerində iməciliklər keçirilir, zəlzələdən zərər çəkənlərə kömək məqsədilə 400412 nömrəli hesaba on milyonlarla manat vəsait toplanır, Ermənistana göndərilirdi. Sənaye-Tikinti Nazirliyinin Qazax rayonundakı xüsusi tikinti-quraşdırma tresti bütün işçi qüvvəsi və texnikası ilə birlikdə Ermənistana zəlzələnin nəticələrini aradan qaldırmağa və yeni tikinti işləri aparmaq üçün göndərilmişdi. Zəlzələ ermənilərin tamamilə silahlanması üçün fürsət vermişdi. Yardım və tikinti materialları adı altında keçmiş SSRİ-nin hər yerindən və bəzi xarici ölkələrdən ən müasir silahlar daşındı. Beləliklə, 1988-ci ilə qədər Ermənistanda azərbaycanlıların yaşadıqları ərazi respublika ərazisinin (29,8 min kv.km) 25 faizini, yaxud təqribən 7,5 min kv. km təşkil edirdi. Ermənistan rəhbərliyi azərbaycanlıların Ermənistan ərazisindən təmizlənməsi aksiyasını başa çatdırdıqdan sonra onların yaşadıqları kəndlərin adlarını dəyişdirməyə başladılar. Ermənistan Respublikası Ali Sovetinin 9 aprel 1991-ci il tarixli fərmanı ilə 87 azəri yaşayış məskəninin adları dəyişdirilmişdir. Bu addım Ermənistanda 1935-1988-ci illər ərzində aparılan addəyişmə əməliyyatının davamıdır. Təkcə 1935-ci ildən 1988-ci ilin avqustuna qədər olan müddət ərzində Respublika Ali Sovetinin müxtəlif fərmanları ilə Ermənistandakı 994 yaşayış məntəqəsindən 517 azərbaycanlı yaşayış məntəqəsinin adları dəyişdirilmişdir. Bu siyahıya 1988-1989-cu illərdə Ermənistanda boşaldılmış 260-a yaxın sırf və qarışıq azərbaycanlıların yaşayış məntəqələrinin adlarını əlavə etdikdə erməni mənşəli yaşayış məntəqələrinin payına cüzi bir hissə qalır. Ümumiyyətlə, son 200 ildə indiki Ermənistan ərazisində iki mindən artıq azərbaycanlılar yaşayan məskənlər müxtəlif yollarla - rəsmi köçürmələrlə, silah gücünə qovmaqla, soyqırım törətməklə, kəndləri yandırıb xaraba qoymaqla siyahıdan silinmişdir.

Azərbaycan Milli Kitabxanası



/TÜRK DÜNYASI və "BÖYÜK ERMƏNİSTAN" xülyası/

# V FƏSİL

# ERMƏNİSTAN-AZƏRBAYCAN MÜNAQİŞƏSİ YENİ MƏRHƏLƏDƏ

## *§ 1. DAĞLIQ QARABAĞDA ERMƏNİ SEPARATİZMİNİN GÜCLƏNMƏSİ*

Məlum olduğu kimi, erməni siyasətçilərinin və onların "uzaqgörən" dövlət xadimlərinin "Böyük Ermənistan" planlarının növbəti həlqəsi Qarabağ torpaqları ilə bağlıdır. İki əsrə yaxın bir dövr ərzində aparılan siyasətin finalı ermənilləri Dağlıq Qarabağ ərazisində də azərbaycanlıların öz doğma torpaqlarından qovulub çıxarılması əməllərinə başlaması üçün yeni imkanlar açdı.

1978-ci ildə Qarabağa köçüb gəlmələrinin 150 illiyini qeyd edən ermənilər, 10 il sonra bədnam niyyətlərini aşkarlayaraq, guya bu torpaqların qədim sakinləri olmaları barədə qondarma dəlil və sübutları ilə bütün dünyaya car çəkməyə başladılar.

Ermənilər istər Ermənistanda, istərsə də Dağlıq Qarabağda olsun, hər addımlarını belə planlı şəkildə atmağa çalışmış, ümumi məqsədlərinə çatmaq üçün hər şeydən və hər yoldan istifadə etməyə cəhd göstərmişlər.

Ermənistanın keçmiş rəhbərliyi millətçi ünsürlərin fəaliyyətinə hər cür şərait yaradırdı. Azərbaycan xalqına qarşı düşmənçilik mövqeyindən yazılmış "Ocaq" kitabı nəşr edildikdən sonra Zori Balayan açıq-aşkar meydan oxumağa başladı. Kommunist qiyafəsinə bürünmüş daşnak tör-töküntüləri S.Xanzadyan, S.Kaputikyan, V.Hambartsumyan və başqaları öz həqiqi simalarını göstərdilər. Ermənistanın kütləvi informasiya vasitələri və dövri mətbuatı bütünlüklə millətçi ünsürlərin sərəncamına verilmişdi. Bütün bunlardan məqsəd Ermənistanın bağlı qapıları arxasında hazırlanan və gələcəkdə "Qarabağ problemi" adı altında ortaya atılmaq üçün erməni xalqının hisslərini qıcıqlandıraraq onu psixoloji cəhətdən "Böyük Ermənistan" proqramını həyata keçir-





mək üçün səfərbər etməkdən ibarət idi.

Erməni Ümummilli Hərəkatının o zamankı fəal üzvlərindən Liliya Qriqoryan 1989-cu ilin yanvarında Münxendə çıxan "Strana i mir" jurnalındakı məqaləsində göstərir ki, "Qarabağ" hərəkatının başında Ermənistanın o zamankı rəhbəri K.Dəmirçyan və onun əlaltıları dururdular. Məhz onların rəhbərliyi ilə DQMV-də və Ermənistanda çıxışlar təşkil edilirdi. Ermənistan DTK-nın xüsusi adamları hərəkata nəzarət edirdilər. İzin itirilməsi və pərdələnməsində ziyalıların nüfuzlu fiqurlarından (Silva Kaputikyan, Sos Sarkisyan, Henrix İgityan və s.) istifadə edilirdi. Qorbaçovsayağı "yenidənqurmanın iqtisadi islahatlarının atası" sayılan A.Aqanbekyan 1987-ci ilin payızında Parisdə etdiyi çıxışında "əsaslandırmışdı" ki, DQMV-nin Ermənistana birləşdirilməsi iqtisadi cəhətdən daha səmərəlidir. Əlavə olaraq qeyd etmişdi ki, mənim təklifimlə artıq bu məsələ üzərində xüsusi komissiya işləyir. Ölkə rəhbərinin "sağ əlinin" ağzından çıxan bu sözlər təminat verirdi ki, DQMV-nin erməniləri ayağa qalxıb öz arzularını bildirsələr və Vilayət XDS-nin sessiyası Ermənistana birləşmək haqqında qərar çıxarsa, məsələ yenidənqurmanın eksperimentləri çərçivəsində həll olunacaq. Çünki Moskvadakı erməni lobbisi ölkə rəhbərliyinin məsələni onların xeyrinə həll edəcəyinə əmin idi.

İlk cəhd kimi, 1988-ci ilin oktyabrında guya İrəvan şəhərinin ekoloji cəhətdən çirklənməsinə qarşı təşkil edilmiş mitinqlər zamanı DQMV-nin Ermənistana birləşdirilməsi haqqında çağırışlar edildi və kütləvi imzalar toplandı.

1988-ci il dekabrın 5-də Z.Balayan İrəvan şəhəri xüsusi rayonun hərbi komendantının siyasi işlər üzrə müavini, polkovnik M.Surkovla televiziya müsahibəsində demişdi ki, biz Dağlıq Qarabağ məsələsini ortaya atmaq üçün düz iyirmi il idi fürsət axtarırdıq. Ancaq belə fürsəti bizə yenidənqurma bəxş etdi. Belə çıxır ki, erməni millətçiləri bütün dövrlərdə Dağlıq Qarabağın sosial-iqtisadi inkişaf səviyyəsini nəzərə almadan bu məsələni ortaya atmağa həmişə cəhd göstəriblər. Lakin inzibati-amirlik dövründə məsələni üzə çıxara bilməyiblər.

1988-ci ilin əvvəlinədək gizli fəaliyyətdə olan "Qarabağ" komitəsi İrəvanda, onun şöbəsi sayılan "Krunk" komitəsi isə Xankəndində açıq-aşkar fəaliyyət göstərməyə başladı. Onların təzyiq və təhriki ilə 1988-ci il fevralın 20-də DQMV - Xalq Deputatları Sovetinin növbə-



Azərbaycan Milli Kitabxanası

dənkənar sessiyası vilayətin Azərbaycanın tərkibindən çıxarılıb Ermənistanın inzibati-ərazi bölgüsünə daxil edilməsi haqqında qərar qəbul etdi.[1]

Bu qərarın qəbul edilməsi ilə də Ermənistanda yaşayan azərbaycanlıların faciəsi başlandı. İki yol var idi: ya onlar ermənilərin çağırışına qoşulub Qarabağın Ermənistana birləşdirilməsinə tərəfdar çıxmalı, ya da öz ata-baba yurdlarını məcburi tərk etməliydilər. Ermənistanın kütləvi informasiya vasitələri orada yaşayan azərbaycanlılardan bircə nəfər də olsun tapıb üzə çıxara bilmədi ki, Qarabağın Ermənistana birləşdirilməsinə tərəfdar olsun.

1988-ci il fevralın 24-də DQMV-nin Əsgəran rayonunda iki azərbaycanlı gəncin odlu silahla öldürülməsi hadisələrin inkişafını daha da sürətləndirirdi. Bu zaman Qafan rayonundan təqribən dörd min qaçqının Bakıya və Sumqayıta gəlməsi ilə Ermənistandan Azərbaycana kütləvi şəkildə qaçqın axını başladı.

Bir qədər sonra DQMV-nin ərazisindən, xüsusən da Xankənddən azərbaycanlıların kütləvi şəkildə işdən qovulması prosesi başlandı. Onların evləri yandırılıb talan edildi. Xankəndinin (Stepanakert) özündən 18 min azərbaycanlı qaçqın düşdü. Erməni kəndlərinin əhatəsində olan bir neçə azərbaycanlı kəndinin sakinləri basqınlar nəticəsində öz doğma yurdlarını tərk etməyə məcbur oldular. Yerli əhali öz ərazisində qaçqın oldu.

Azərbaycanın keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində vəziyyəti normal hala salmaq tədbirlərini həyata keçirmək üçün konkret tədbirlər hazırlanarkən ən əsas amillərdən biri kimi burada yaşayan azərbaycanlıların dəqiq sayı nəzərə alınmalı idi.

1989-cu ilin yanvarında keçirilmiş Ümumittifaq siyahıyaalınmasının nəticələrini düzgün və obyektiv saymaq olmaz. 1979-cu ildə DQMV-də yaşayan 162181 nəfər əhalinin 123076 nəfəri erməni (76 faiz), 37264 nəfəri (23 faiz) azərbaycanlı olmuşdur. 1989-cu ildə isə vilayətin 189029 nəfər sakininin 145450 nəfəri (77 faiz) erməni, 40632 nəfəri (21 faiz) isə azərbaycanlı olduğu göstərilir.

Bu məlumatların doğruluğuna və obyektivliyinə şübhə oyadan bir sıra amillər vardır.

Əvvəla, statistik məlumata görə o vaxt vilayətdə yaşayan ermənilərin sayı on il ərzində 22374 nəfər, azərbaycanlıların sayı 3368 nə-





fər artmışdır. Və məlum olmur ki, hansı səbəbə görə Azərbaycanın muxtar vilayətində yaşayan ukraynalıların, belarusların və gürcülərin sayı müvafiq şəkildə, üç, iki yarım və dörd dəfə artdığı halda, azərbaycanlıların artım faizi onlardan xeyli aşağı düşmüşdür. Bu əsla belə ola bilməzdi.

Necə inanmaq olar ki, ötən 10 il ərzində vilayətdə erməni əhalisinin artımı təxminən 15,4 faiz, azərbaycanlıların artımı isə təxminən 8,2 faiz olub?!

1989-cu ilin yanvarında Dağlıq Qarabağın əhalisi siyahıya alınarkən burada yaşayan ermənilərlə əlaqədar şişirdilmiş rəqəmlər əsas götürülmüşdür. Yəni rəsmən vilayətdə qeydiyyatda qalan, lakin çoxdan Ermənistana, yaxud keçmiş SSRİ-nin başqa şəhərlərində daimi yaşayan və işləyən ermənilər də (15-20 faiz) vilayətin sakinləri kimi qələmə verilmişdir.

Digər tərəfdən, son bir neçə ildə Ermənistandan və Azərbaycanın müxtəlif şəhər və regionlarından gələn ermənilər də Dağlıq Qarabağın daimi sakini kimi siyahıya alınmışdılar (təxminən 15-20 min nəfər).

Bütün bunların əvəzində isə vilayətin daimi sakinləri olan azərbaycanlılar siyahıya alınarkən - məlum hadisələrlə əlaqədar Xankəndindən qovulmuş azərbaycanlılar (təxminən 15 min nəfər), vilayətin ayrı-ayrı rayonlarından öz doğma ev-eşiklərini atıb, Şuşaya və respublikanın müxtəlif şəhər və rayonlarına pənah aparmış azərbaycanlılar bilərəkdən nəzərdən qaçırılıb. Bir sözlə bu siyahıyaalınma zamanı vilayətdə yaşayan ermənilərin sayı xeyli artırılmış, azərbaycanlıların sayı isə xeyli azaldılmışdır...



Azərbaycan Milli Kitabxanası

## § 2. DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ ERMƏNİSTANIN AZƏRBAYCANA QARŞI ƏRAZİ İDDİALARININ TƏRKİB HİSSƏSİDİR

Məlum olduğu kimi, ermənilər Qafqaza sonradan gəlmə xalqdırlar. Qeyd etdiymiz kimi, XVIII əsrin axırları və XIX əsrin əvvəllərində baş vermiş Rusiya-İran və Rusiya-Türkiyə müharibələri nəticəsində ermənilər planlı şəkildə Rusiyanın himayədarlığı altında Türkiyə və İran ərazilərinə, kütləvi şəkildə tarixi Azərbaycan torpaqlarına - İrəvan xanlığına, Göyçə və Zəngəzur mahallarına, Qarabağa köçürülmüşlər.

Sonralar Rusiyanın hakim dairələrini və rus, eləcə də gürcü soyadları ilə maskalanmış erməni mənşəli generalların köməyi və vasitəçiliyi sayəsində ermənilər tarixi Azərbaycan torpaqlarında özlərini aborigen əhali kimi aparmış və Azərbaycan türklərini öz dədə-baba torpaqlarından didərgin salmağa nail olmuşlar. Bütün bunları sübut edən yüzlərcə tarixi və hüquqi sənəd və materiallar mövcuddur.

Erməni repatriantlar Ermənistan Respublikasına gəldikdən sonra həmin proseslər daha da güclənmiş və nəticədə Azərbaycan türkləri doğma torpaqlarından əvvəlcə sıxışdırılmış, sonra qovulmuş, bütün bunların ardınca isə ermənilərin Azərbaycan Respublikasına qarşı yeni-yeni ərazi iddiaları başlanmışdır.

Ermənistanda azərbaycanlılara qarşı repressiya siyasəti, azərbaycanlıların deportasiyası erməni millətçilərini daha da şirikləndirmiş və bugünkü vəziyyət yaranmışdır.

Xatırladaq ki, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yaradılan zaman onun ərazisi ölkənin sərhədləri daxilində 114 min kv. km. olmuşdur. Hələ o vaxt Qafqaz Azərbaycanı tərkibində muxtar respublika və muxtar vilayət yaradılmamışdı.

Zəngəzur torpaqları da Sovet Ermənistanına pay verilməmişdi.

1920-ci ilin dekabr ayında Zəngəzur, 1922-ci ilin həmin ayında Göyçə və Dilican əraziləri, 1923-ci ildə Naxçıvan torpağının bir hissəsi, 1983-1987-ci illərdə isə Qazax rayonu ərazisinin bir hissəsi "qardaş" Ermənistan Sovet Respublikasına "bağışlanmışdır".

1920-ci ildə cəmi 11 min kv. km. ərazisi olan Ermənistan Azərbaycan torpaqlarının hesabına 1988-ci ildə artıq 30 min kv. km.-lik ərazisi olan respublikaya çevrildi.





İndi erməni daşnaklarının iştahası daha da artmışdır. Bütün bunlar az imiş kimi onlar Azərbaycandan mümkün qədər yeni torpaqlar qəsb etməyə çalışırlar.

Bu gün çoxları "iyirmi ilə yaxın davam edən Qarabağ münaqişəsi", "qondarma Dağlıq Qarabağ problemi" kimi ifadələri tez-tez işlədirlər. Əslində, belə deyil. Qarabağ münaqişəsinin 200 ildən artıq bir tarixi vardır. Daha doğrusu, bu münaqişənin çıxış nöqtəsi ermənilərin Qafqaza köçürülməsi planlarından baş alır.

Zaman-zaman bu münaqişə erməni din xadimləri, erməni generalları və zadəganları, ermənipərəst siyasi xadimlər, ən nəhayət, erməni lobbisi tərəfindən himayə və müdafiə edilmiş, nəticədə bugünkü yüksək zirvəsinə gəlib çatmışdır.

Əslində, bu iddianın heç bir obyektiv zəmini yoxdur. Çünki, bu məsələdə hər şey qondarma, hər şey saxta, hər şey subyektiv fakt və amillər üzərində qurulmuşdur.

Ermənilərin Dağlıq Qarabağla bağlı ərazi iddiası, ümumiyyətlə, onların tarixi Azərbaycan torpaqlarına əvvəlcə qarış-qarış, sonra ovuc-ovuc və nəhayət, qucaq-qucaq artan ərazi iddialarının ən yüksək pilləsidir.

Bəs əsl həqiqət necədir?

Son dövr hadisələrinə keçməzdən əvvəl tarixin bəzi səhifələrinə nəzər salmaq məsələnin məğzinin daha aydın dərk edilməsi üçün faydalı olardı.

Tarixi mənbələr sübut edir ki, ermənilər Qafqaza gəlmə xalqdırlar.

Filoloji mənbələr təsdiq edir ki, erməni dilinin Qafqaz dilləri ailəsinə aidiyyəti yoxdur.

Arxeoloji və maddi mədəniyyət abidələrinin dərindən öyrənilməsi təsdiq edir ki, indiki Ermənistan ərazisində XIX əsrdən əvvəlki dövrə aid bir ədəd də olsun sırf ermənilərə məxsus tarixi abidə yoxdur.

Erməni və ermənipərəst tədqiqatçılar Qafqaza, onun yerli xalqlarına dair tarixi fakt və hadisələri saxtalaşdırmağa çalışmışlar və adətən, bu məqsədlərinə də nail ola bilmişlər.

Bunlar ümumi faktlardır. Bəs onların konkret təzahürü? Bu haqda bir qədər sonra.

Yalnız bircə tezisi - ermənilər Qafqazın aborigen xalqlarından deyil - əsas götürsək və tarixi həqiqətin də məhz bu cür olduğunu sübut edən mənbələrə əsaslansaq, istər-istəməz son illərdə, xüsusən, 1967-ci ildən



Azərbaycan Milli Kitabxanası

üzü bəri Fransanın, ABŞ-ın, Rusiyanın ermənipərəst mətbuat orqanlarının və digər informasiya vasitələrinin, habelə, Ermənistan respublikası mətbuatı, radio və televiziyasının Dağlıq Qarabağın qədim Ermənistan ərazisi olması barəsindəki uydurmalarının, cızmaqaralarının büsbütün yalan, böhtan xarakteri daşıdığını, xülya olduğunu görmək, dərk etmək çətin deyildir.

Bu haqda yüzlərlə qondarma fakt misal çəkmək olar. 1994-cü ilin aprelində Rusiyanın "Ostankino" televiziya kanalı ilə göstərilən "N.S.Xruşşov" filmində məsələyə heç dəxli olmayan bir məqamda böyük vurğu ilə bildirilirdi ki, guya vaxtilə Dağlıq Qarabağı Azərbaycana İ.V.Stalin verib. Halbuki bu məsələdə keçmiş "dahi rəhbərin" mövqeyi tamamilə əksinə olub.

Bəzi erməni müəllifləri dəridən-qabıqdan çıxırlar ki, dünya ictimaiyyətinə belə bir təsəvvürü aşılasınlar ki, guya Dağlıq Qarabağ 1921-ci ildə Ermənistanın tərkibindən çıxarılıb Azərbaycana "verilmişdir". Bu ideyanı əlində bayraq kimi tutub gəzən akademik A.D.Saxarov (arvadı Yelena Bonner-Əlixanyanın təhriki ilə) ölüncəyə qədər (xatırladaq ki, A.D.Saxarov hələ 1975-ci ildə Nyu-Yorkda nəşr etdirdiyi "Ölkə və sülh haqqında" kitabında bildirirdi ki, "ermənilər Azərbaycanda və Gürcüstanda vəhşi irqi ayrıseçkilik obyektidirlər") həmin ideyanın tərəfdarı olmuşdur.

1988-ci il martın 23-də A.D.Saxarov M.S.Qorbaçova yazdığı məktubunda qeyd edirdi ki, "Исторически вся область Нагорный Карабах (Арцах) являлось частью Восточной Армении, Автономной национальный область Нагорный Карабах было присоедининно к Азербайджанской ССР в 1923 году". Əlbəttə ki, bu faktlar ağ yalan olub, ermənilərin uydurma faktlarına əsaslanırdı. Hələ də dini, vətəndaşlığı, milliyyəti çoxları üçün qaranlıq qalan Q.Staravoytovanın deputat seçilməsi, erməni lobbisinin pulları hesabına dünya ölkələrinə həftə-səkkiz mən doqquz səyahətə çıxmasının əvəzi olaraq, iç üzü və xisləti aləmə məşhur olana qədər çeynədilər. Yəqin elə bu bəd və saxtakar əməllərinə görə də ermənipərəst Q.Staravoytova öz layiqli cəzasını aldı...

O ki qaldı başda Zori Balayan olmaqla bir qrup erməni jurnalist və alimlərinin Dağlıq Qarabağı Ermənistan torpağı kimi qələmə vermələrinə, çox təəssüflər olsun ki, vaxtında və dərin elmi əsaslarla, hətta, direktiv və ali orqanlar səviyyəsində cavabsız qaldığından bu toxumlar





manеəsiz və çox qısa bir müddətdə cücərdi, böyüdü, qol-budaq atdı və dünyaya yayıldı. Hətta, 1988-ci ildə Ermənistan EA-nın 19 akademikinin və elmlər doktorunun hazırladığı və həmin akademiyanın da nəşr etdirdiyi "Dağlıq Qarabağ" tarixi arayış" kitabına o vaxt bizim mütəxəssis alimlərimiz tərəfindən tutarlı və elmi cavab verilmədiyi üçün o, rus dilində 20 min tirajla nəşr olunub lazımi ünvanlara göndərildi və ermənipərəst xadimlərin əlində ideoloji silaha çevrildi. Lakin, Dağlıq Qarabağın tarixinə dair elmi əsaslarla erməni tarixçiləri və ermənipərəst mənbələrin iç üzünü açan təhriflərə müəyyən cavab olaraq akademik Tofiq Köçərlinin hazırladığı "Qarabağ məsələsinin tarixinə dair" araşdırmaları 1994-cü ilin ortalarında respublika mətbuatında gec də olsa işıq üzü gördü.

Diqqət verin, Azərbaycan Respublikasında 1918-ci il mayın 28-dən 1919-cu ilin mart ayına qədər neçə dəfə hökumət tərkibi dəyişib: düz dörd dəfə!

Və yaxud, 1918-ci ildə Azərbaycan Respublikasının ədliyyə naziri X.Y.Xasməmmədov nə yazmışdır: "Biz azərbaycanlılar başqa millətlərdən fərqli olaraq dərdlərimizi Avropaya çatdıra bilmirik".

Bəs, görəsən 70 il sonra yenə də Qarabağ münaqişəsinin yeni mərhələsi başlarkən X.Y.Xasməmmədovun dediklərindən nə qədər irəliyə doğru uğurlu addım atmışıq?!

Çox az... "Ermənilər isə hələ 1918-ci ildə ABŞ-da Ermənistanın müstəqilliyi uğrunda mübarizə komitəsi" yaratmışdılar.

1918-1920-ci illərdə ermənilərin Qarabağı zorla Ermənistana birləşdirmək cəhdləri ilə 1988-1992-ci illərdə ermənilərin Dağlıq Qarabağı Ermənistana birləşdirmək cəhdləri arasında çox böyük oxşarlıq vardır. Tarixi hadisələrdən, başımıza gələn düşmən hiylə və fəsadlarından vaxtında və məqsədyönlü nəticə çıxarmadığımız üçündür ki, bu gün erməni təcavüzü qarşısında aciz qalmışıq, dünya ictimaiyyəti qəti şəkildə Ermənistan tərəfini təcavüzkar kimi tanımır.

Ermənilərin Qafqaza köçüb gəlmələrini sübut edən konkret səbəb və faktlar çoxdur. Bütün bunların da nəticəsində zaman-zaman ermənilər tarixi Azərbaycan torpaqlarına, o cümlədən Dağlıq Qarabağa ərazi iddiaları irəli sürüblər.

Yeri gəlmişkən, xatırladaq ki, vaxtilə ermənilərin Qarabağa sonradan gəlmə xalq olduqlarını təsdiqləyən erməni alimləri də olmuşlar. Məsə-



Azərbaycan Milli Kitabxanası

lən, indiki Dağlıq Qarabağın ermənilər tərəfindən zəbt olunduğunu İ.A-.Orbeli, burada yaşayan yerli əhalinin müəyyən qisminin "erməniləşdirildiyini" S.T.Yeremyan qeyd etmişlər. 1916-cı ildə Petroqradda "Narodnosti Kavkaza" kitabını nəşr etdirən B.İşxanyan yazmışdır. Dağlıq Qarabağda yaşayan ermənilər qədim albanların nəslindəndir...

Bu da həqiqətdir ki, ermənilər 1978-ci ildə Mardakertdə (indiki Ağdərə) özlərinin İranın Marağa əyalətindən Qarabağa köçüb gəlmələrinin 150 illiyi şərəfinə abidə kompleksi ucaltmışdılar. 1988-ci ildə ermənilər həmin abidəni özləri dağıdaraq, yox etmişlər.

Dağlıq Qarabağın - keçmiş Albaniyanın qədim Azərbaycan torpaqları olması barəsində akademik Ziya Bünyadovun, Akademiyanın müxbir üzvü İqrar Əliyevin, tanınmış tədqiqatçılarımız Fəridə Məmmədovanın, Qiyasəddin Qeybullayevin, Mirəli Seyidovun və başqalarının əvəzsiz xidmətləri vardır.

Ermənilər tarixi Azərbaycan torpaqlarında istədikləri kimi məskunlaşdıqca bu torpaqlar üzərində nəinki öz milli dövlətlərini yaratdılar, həm də zaman-zaman digər Azərbaycan torpaqlarını qarış-qarış zəbt etmək üçün hər cür yola, hər cür hiyləyə, hər cür üsula əl atmağa başladılar. Bu mənada ermənilər Dağlıq Qarabağı Azərbaycandan qoparıb sözün əsl mənasında Ermənistan deyilən ərazisinə birləşdirmək üçün dəridən-qabıqdan çıxırlar.

Ümumiyyətlə, ermənilərin Azərbaycan torpaqlarına qarşı əsassız ərazi iddialarının bütün dövrlərdə olmasına baxmayaraq, əsasən, beş mərhələyə bölmək olar.

1. *1918-1920-ci illər*
2. *1921-1929-cu illər*
3. *1945-1969-cu illər*
4. *1983-1987-ci illər*
5. *1988-ci ildən bu günə qədər*

1920-ci ildə Zəngəzur Quberniyası, Göyçə və Dilican bütünlükdə Azərbaycan Respublikasının ərazisi idi. Həmin ilin dekabrında Zəngəzur Ermənistan SSR-ə verildi.

Azərbaycanda sovetləşmənin ilk illərində hər tərəfdən güclü sıxıntılara məruz qalmış və çox vədlərlə aldadılmış görkəmli ictimai xadim





Nəriman Nərimanov çox inandığı V.İ.Leninə (təəssüf ki, ermənilərin, onların ən tanınmış liderlərinin, eləcə də ermənipərəst mərkəzçilərin V.İ.Lenin tərəfindən hərtərəfli şəkildə himayə edildiyindən N.Nərimanov xəbərsiz idi) ürək ağrısı ilə yazırdı. "Mərkəz Gürcüstanın və Ermənistanın müstəqilliyini tanıyıb... eləcə də Azərbaycanın müstəqilliyini tanıyıb. Amma, eyni zamanda mərkəz Azərbaycanın heç bir mübahisə doğurmayan ərazilərini Ermənistana verir... Azərbaycan öz ərazilərini də, müstəqilliyini də itirir.

Vladimir İliç! Çoxmillətli əhalinin hüquqları və hissləri ilə belə zarafat etmək olmaz.

...Əziz Vladimir İliç, məgər "Müstəqil Azərbaycan" kəlməsi Sizin dilinizdən çıxmayıb?".

N.Nərimanov sonralar RK (b) PMK-ya ünvanladığı məktubunda da ürək ağrısı ilə bildirdi ki, "Mən azacıq da olsa şübhə etmirəm ki, ÜK (b) P Serqonun və Stalinin şəxsində biz türklərə inanmırlar. Və Azərbaycanın taleyini erməni daşnaklarına tapşırırlar".

Bu, həqiqətən belə idi. N.Nərimanov o zaman bu sahədə tamamilə gücsüz idi və təklənmişdi. 1922-ci ildə SSRİ yaradılarkən Göyçə və Dilican ərazisi də Ermənistana bağışlandı. İki il ərzində Azərbaycan 17 min kv. km. ərazisini itirdi. Azərbaycan SSRİ tərkibinə daxil olarkən, onun ərazisi 97 min kv. km. göstərildi.

1923-cü ildə Zaqafqaziya Mİ K-nin 18 fevral tarixli 3 saylı protokolu əsasında Naxçıvanın doqquz kəndinin Ermənistana verilməsi qərara alındı.

1929-cu ildə yenə də ZSFSR-nin qərarı ilə Qazax ərazisinin 5 min hektara yaxın torpağı və Zəngilan rayonunun Nüvədi, Toqud, Ernəzir kəndləri, 1946-cı ildə isə 4 min hektar meşə sahəsi Azərbaycan Respublikasından alınıb Ermənistan Respublikasına bağışlandı. 1969-cu ilin əvvəllərində Tovuz rayonundan 760 hektar ərazi Ermənistana verildi.

1969-cu ildə SSRİ Nazirlər Sovetinin 7 may tarixli qərarı ilə Qazax rayonunun ərazisindən müəyyən torpaqların Ermənistana verilməsi nəzərdə tutuldu. Ermənilərin bu niyyəti 1983-1987-ci illərdə həyata keçirildi.

Ermənistan tərəfi 1988-ci ildən bəri öz təcavüzkar və qəsbkar hərəkətlərinə başladıqları vaxta qədər Azərbaycan Respublikasının ərazisi 86,6 min kv. km. idi. Əgər 1978-ci ildə yarandığı vaxtda Ermənistan



Azərbaycan Milli Kitabxanası

Respublikasının ərazisi 9 min kv. km. idisə, hazırda onun ərazisi 30 min kv. km.-ə yaxındır. 20 min kv. km. ərazini ermənilər Azərbaycan Respublikasından qoparıblar.

Hazırkı dövrdə isə ermənilər qondarma Dağlıq Qarabağ respublikası ətrafında baş verən hadisələrdən çox məharətlə istifadə edib, həm keçmiş DQMV-ni, həm də Azərbaycanın statusu ləğv olunmuş vilayətinin ətrafındakı 7 rayonunun torpaqlarını işğal edərək, vəhşicəsinə Azərbaycan Respublikasının 25 faizə yaxın ərazisini talan edir, şəhər, rayon və kəndləri yandırır, dağıdırlar.

"Böyük Ermənistan" yaratmaq xülyasında olan erməni millətçiləri əsrimizin iyirminci illərindən başlayaraq, öz fəaliyyətlərini, əsasən, Azərbaycanın Dağlıq və Aran Qarabağ ərazilərinin Ermənistan deyilən qondarma dövlətə birləşdirilməsi işinə həsr etmişlər.

Əslində, son illərdə baş verən Ermənistan- Azərbaycan münaqişəsi Azərbaycan ərazisinin dörddə birinin işğalı, ermənilərin Qarabağa ərazi iddiaları, Ermənistan hökumətinin Dağlıq Qarabağı öz ərazisi elan etməsi (15 iyun 1988-ci il) və nəhayət, qanuni əsası olmayan, qondarma DQ Respublikası elan edilib, orada prezident seçkiləri keçirilməsinin tarixi kökləri qondarmalar və uydurmalar üzərində qurulsa da, bu günə qədər baş verən hadisələr keçmiş SSRİ və Sov. İKP rəhbərliyinin müdafiə etdiyi geosiyasi məqsədlərinin acı nəticələri, müasir Rusiya Federasiyasının, eləcə də bir sıra Qərb dövlətləri başçılarının - ilk növbədə, ABŞ və Fransanın ikili siyasəti, xarici ölkələrdə çox geniş təşəkkül tapmış, formalaşmış nüfuzlu və varlı erməni lobbisinin, diasporunun fəaliyyətləri ilə bilavasitə bağlıdır.

Ermənilərin Qarabağa ərazi iddiaları isə 1918-ci ildə Ermənistan daşnak respublikası yarandığı ilk gündən başlamışdır.

1920-ci ildə Tiflisdə çapdan çıxmış "Krasnaya kniqa" toplusunda oxuyuruq, "Ermənilərin inqilab xadimləri, xüsusən, "Daşnaksütun" partiyasının fəalları üzə çıxana qədər Zaqafqaziya sülh və sakitliklə nəfəs alırdı... Ermənilər, tatarlar, gürcülər əsrlərlə birlikdə yaşayırdılar. Milli zəmində heç bir qan tökülməmiş, əhali əmin-amanlıqla yaşamışdı... Daşnaklar gəldilər, gələcək Ermənistan muxtariyyəti yaratmaq məqsədilə dörd bir ətrafı erməni ərazisi kimi təbliğ etməyə başladılar. Nəticədə Zaqafqaziya ərazisinə milli düşmənçilik və nifrət toxumları səpildi".





Akademik Tofiq Köçərli çox doğru olaraq bu məsələ ilə əlaqədar belə yazır: "Azərbaycan və Ermənistan respublikaları yaranana qədər Dağlıq Qarabağda yaşayan ermənilər Yelizavetpol quberniyasının tərkibindən çıxmaq, Dağlıq Qarabağın İrəvan quberniyasına verilməsi və ya özlərinin müstəqil qurum olmaları barədə düşünmürdülər. Mənə məlum olan qədər erməni milli partiyaları və erməni siyasi xadimləri Bakıda, Tiflisdə və İrəvanda da bu barədə açıq şəkildə heç nə bəyan etməmişlər".

Yeri gəlmişkən, qeyd edək ki, 20-30-cu illərdə istər Dağlıq Qarabağ, istərsə də Azərbaycanın digər torpaqlarına ermənilərin ərazi iddialarının baş tutması bir tərəfdən, adətən, Mərkəzin (yəni Moskvanın) ermənipərəst mövqeyi ilə bağlı idisə, digər tərəfdən həmin ərazi iddiaları irəli sürülərkən Azərbaycan Respublikasının partiya və dövlət orqanlarına rəhbərlik edən birinci şəxslərin acizliyi, zəifliyi, ilə bağlı olub.

Amma 1933-1982-ci illərdə olan dövrdə ermənilərin Azərbaycan torpaqlarına qarşı ərazi iddiaları məhz o vaxt Azərbaycan rəhbərliyinin - ilk növbədə, respublikanın birinci şəxslərinin qətiyyəti, tutarlı əməlləri, cəsarətli addımları nəticəsində dəf olunmuşdur.

Məsələn, 1945-ci ilin payızında Ermənistan KP MK-nın katibi A.Aryutunov ÜİK (b) P MK-nın müzakirəsinə Dağlıq Qarabağ Vilayətinin Ermənistana verilməsi barədə təklif-layihə təqdim edir. Təklifdə xüsusi vurğu ilə bildirir ki, Dağlıq Qarabağın əhalisinin əksəriyyəti ermənilərdən ibarət olduğu üçün həmin ərazi Ermənistana verilməlidir. Bu zaman ÜİK (b) P katibliyi Azərbaycan KP MK katibi M.C.Bağırovun rəyini öyrənmək üçün ona müraciət edir. A.Aryutunovun məktub layihəsindəki dəlilləri alt-üst edən M.C.Bağırov bildirir ki, əgər ermənilərin əsas götürdükləri səbəblərə görə Yuxarı Qarabağın Ermənistana verilməsi məqbul sayılırsa, nə olar, qoy DQMV-nin Şuşa rayonu istisna olunmaqla qalan ərazisi Ermənistana verilsin. Ancaq bir şərtlə. Elə bu arqumentə-amilə əsaslanaraq, azərbaycanlıların çoxluq təşkil etdiyi və yaşadığı tarixi Zəngəzur və Göyçə mahalları, habelə vaxtilə Gürcüstana və Dağıstana verilən Azərbaycan torpaqları geri qaytarılsın.

Bu əks təklifdən sonra, ümumiyyətlə, həmin məsələ qapanır.

Burada maraqlı xatırlama yerinə düşər, 1947-ci ildə Türkiyə ilə SSRİ arasında gedən danışıqlarda ərazi məsələsi də ortaya atılmışdı. Bu zaman Türkiyənin xarici işlər naziri Nurullah Sümer sovet nümayəndəsi



Azərbaycan Milli Kitabxanası

Aleksandr Vinoqradovun həmin təklifini "dünya ərazisinin böyük bir hissəsinə sahib olan Sovet Rusiyasının doğrudanmı yenə də torpağa ehtiyacı var?" sualı ilə qarşılaşmışdı. A.Vinoqradov isə o zaman öz cavabında demişdi: "Torpağa ehtiyacı olan Rusiya deyil, Ermənistan Sosialist Respublikasıdır". Beləliklə, Sovet tərəfinin xahişini İ.Sümer ustalıqla və kəskin şəkildə rədd etmişdi. Məgər o vaxt sovet nümayəndəsi SSRİ hökumətinin adından danışmırdımı?!

Qeyd etdiyimiz kimi II Dünya müharibəsindən sonra İ.V.Stalin Türkiyə dövlətinə təzyiq göstərirdi ki, Türkiyənin şərq əyalətləri - Qars və Ərdahan alınıb Ermənistan SSR-ə verilsin.

Görün İ.V.Stalinlə "Erməni İnqilabi Federasiyasının siyasi manifesti (ABŞ-dakı Erməni Milli Komitəsi və Daşnak partiyası) fikirləri necə üst-üstə düşür. Həmin manifestdə, əsasən, bu məqsədlər güdülür:

**1.** Birləşmiş Ermənistanının yaradılması.

**2.** Birləşmiş Ermənistanın sərhədləri Severc müqaviləsi ilə müəyyən edilmiş Ermənistan respublikası üstəgəl Naxçıvan, Axalkalaki, Qarabağ əraziləri.

**3.** Dünyanın səpələnmiş ermənilərini repatriasiya etmək və bütün erməni xalqını müstəqil və vahid milli ərazidə cəmləşdirmək.

Xatırladaq ki, ASALA-nın (Ermənistanın Azadlığı uğrunda gizli Erməni Ordusu) əsas amalı Türkiyənin Şərq Vilayətlərini Türkiyədən qoparıb Ermənistana birləşdirməkdir.

İ.V.Stalindən sonra da SSRİ-nin bəzi partiya və dövlət rəhbərləri ermənipərəst mövqe tutmuş, Ermənistan Respublikasının xeyrinə yerli-yersiz güzəştlərə getmişdir.

Məgər Qərb dövlətləri başçıları arasında ilk dəfə Böyük Britaniyanın Baş naziri Con Meycor Ermənistanı təcavüzkar tərəf kimi tanımadımı?! Və məhz bu hadisədən sonra Qərbin bəzi dövlət başçıları Ermənistan-Azərbaycan münaqişəsinə, qondarma Dağlıq Qarabağ probleminə obyektiv münasibət bəsləməyə məcbur oldular.

1987-ci ilin aprelində ABŞ-dakı erməni diasporu Amerika ictimaiyyətinə və dövlətinə müraciət edərək, "1915-1923-cü illər erməni genosidinin milli xatirə günü" layihəsinin ABŞ konqresində müzakirə edilib müvafiq qərar çıxarılmasını tələb etdilər. Bu sahədə kütləvi tədbirlərə əl atıldı.

Türkiyənin qəti etirazlarından ABŞ-ın o vaxtı dövlət katibi C.Şultsun





bu məsələyə qarşı mövqeyi nəticəsində ABŞ Dövlət Departamenti konqresmenlərə məsləhət gördü ki, ermənilərin hazırladığı qondarma 132 saylı qətnamə layihəsi qəbul edilmədi.[2]

Belə olduğu halda erməni lobbisi, erməni milli-siyasi partiyaları qərara gəldilər ki, Ermənistan Sovet Respublikası Azərbaycanın Dağlıq Qarabağ və Naxçıvan torpaqlarına ərazi iddialarını yenidən gücləndirsinlər və bunun üçün bir sıra konkret tədbirlər planı hazırlamağa başladılar. Həmin tədbirlərdən bir neçəsi bunlardır: tarixi təhrif etmək, Azərbaycanı iqtisadi və informasiya blokadasına salmaq, azərbaycanlıları kütləvi şəkildə Ermənistandan, Dağlıq Qarabağdan qovub çıxarmaq, dünya ictimaiyyətinin gözündə vəhşi azərbaycanlı, "əzabkeş" erməni xalqı obrazı yaratmaq. Azərbaycan Respublikası ilə ABŞ arasındakı münasibətlərin pisləşməsi üçün hər cür yoldan və üsuldan istifadə etmək.

Bütün bunların nəticələri isə yəqin ki, hamımıza yaxşı aydındır.

Ermənilər bütün dövrlərdə Dağlıq Qarabağ amilindən sui-istifadə etməyə cəhd göstəriblər. Həmişə də bir qayda olaraq bu niyyətlərində uduzublar. Söz yox ki, erməni millətçiləri nə qədər cəhd göstərirlərsə-göstərsinlər, hansı üsullardan istifadə edirlərsə-etsinlər, kimlərin himayəsinə sığınırlarsa-sığınsınlar, bu dəfədə onların niyyətləri baş tutmayacaq. Azərbaycan xalqı istər siyasi yolla olsun, istərsə də öz qanı bahasına olsun, ya beynəlxalq ictimaiyyətin obyektiv mövqeyi hesabına, ya da milli birliyə arxalanaraq, özü öz doğma torpaqlarını düşmən təcavüzündən, tapdağından azad edəcəkdir. Azərbaycanın ürəyi olan Qarabağ, xüsusən, onun dağlıq hissəsi məkrli erməni siyasətindən azad nəfəs alacaqdır. Biz buna da inanırıq ki, sadə erməni kütlələrinin beyinlərini zəhərləyən "Böyük Ermənistan" xülyası ilə nəfəs alıb, Dağlıq Qarabağ kartını ortaya atan və minlərlə günahsız erməni və azərbaycanlı qanlarının hesabına vəzifə kürsüsünə qalxan, ucuz şöhrət qazanan, varlanan, nüfuz-vəzifə sahibi olan balayanlar, kaputikyanlar, şahnazaryanlar, xanzadyanlar, muradyanlar, ovanesyanlar, koçaryanlar, sarkisyanlar və onların havadaları gec-tez həm öz xalqları, həm də mütərəqqi dünya ictimaiyyəti tərəfindən ifşa olunacaq və layiqli cəzalarını alacaqlar.



Azərbaycan Milli Kitabxanası

## § 3. XOCALI SOYQIRIMI

**Xocalı.** Bu şəhər XX əsrin ən böyük faciəsini - vandalizmi yaşadı. Bu şəhərdə baş verən soyqırımı ermənilərin türklərə qarşı törətdiyi soyqırımın davamı və ən dəhşətlilərindən biri kimi tarixə düşdü. İndi orada baş verən vandalizm aktının sübutları, bəzi anları əks etdirən fotoları dünyanın demək olar ki, bütün ölkələrinə yayılıb.

**Xocalı haqqında qısa məlumat:** Bu şəhər əhalinin tarixən məskunlaşdığı yerdir və qədim tarixi adibələr indiyə qədər qalmaqdadır. Xocalının yaxınlığında bizim e.ə. XIV-VII əsrlərə aid edilən Xocalı-Gədəbəy mədəniyyətinin abidələri yerləşir. Burada son bürünc və ilkin dəmir dövrlərinə aid edilən dəfn abidələri - daş qutular, kurqanlar və nekroloqlar tapılmışdır. Həmçinin burada arxitektur abidələr - dairəvi qəbr (1356-1357-ci illər) və mavzoley (XIV əsr) vardır. Arxeoloji qazıntılar zamanı müxtəlif növ daş, bürünc, sümük bəzək əşyaları, gildən ev əşyaları və s. tapılmışdır. Tapılmış muncuq dənələrindən birində Assuriya şahı Adadnerarinin (bizim e.ə. 807-788-ci illər) adı yazılmışdır. Əhali əsasən üzümçülük, heyvandarlıq, arıçılıq və əkinçiliklə məşğul olmuşdur.

Ərazisi 926 kilometr, 7000 əhalisi olan Xocalı Xankəndindən 10 km cənub-şərqdə, Qarabağ dağının sisiləsində və Ağdam-Şuşa, Əsgəran-Xankəndi yollarının üstündə yerləşir. Qarabağdakı yeganə aeroport da Xocalıda idi. Ermənilərin Xocalıya əsas maraqları da Xocalının bu cür strateji mövqedə olması ilə əlaqədar olmuşdur. Onu da qeyd edək ki, Fərqanədən (Özbəkistan) qaçqın düşmüş 54 məhsəti-türkü ailəsi, həmçinin Ermənistandan və Xankəndindən qovulmuş azərbaycanlıların bəziləri şəhərdə məskunlaşmışdılar.

Necə baş verdi və ya necə planlaşdırıldı Xocalı faciəsi? Kim törətdi bu qanlı olayı?

**İzləyək...**

Bir neçə günlük tam mühasirədən sonra 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni hərbçiləri tanklardan və "Alazan" tipli raketlərdən istifadə edərək iki saat aramsız olaraq Xocalı şəhərini atəşə tutdular. Üç istiqamətdən şəhər əhalisini qırmağa başlayan





düşmən həm də Xankəndində yerləşən 366-cı moto-atıcı polkun zirehli texnikasından istifadə edərək Xocalını işğal etməyə başladı. Zirehli texnika və hərbi birləşmələr bir neçə saat ərzində (axşam saat 19-dan gecə saat 2-yə qədər şəhərdə bütün obyektlər dağıtdılar, xeyli sakin öldürüldü. "Saat 2-də şəhər müdafiəçiləri və əhali təzyiqlərə tab gətirməyərək geri çəkilmişdir. Onlar suyu adamı qılınc kimi kəsən çayı keçib Ketidağ tərəfə üz tutmuşlar. Yolda xeyli adamı don vurmuşdur. Əhali səhər saat 7-dək yol gedib ermənilərin Naxçıvanik kəndi yaxınlığındakı düzə çıxmışdır. Burada isə əsl faciə baş vermişdir. Naxçıvanik düzündə adamları erməni hərbi birləşmələri qarşılamışlar... Ermənilər silahsız adamları qanlarına qəltan etmişdir. Burada çoxlu uşaq, qoca, qadın həlak olmuşdur. Ermənilər xocalıları çox dəhşətli bir şəkildə öldürmüşlər. Onların başlarını əzmiş, gözlərini deşib çıxarmış, qulaqlarını kəsmiş, dərilərini soymuşlar...

Beləliklə, ermənilər tərəfindən dünyada misli görünməmiş Xocalı genosidi törədilmişdir".[3]

Xocalı genosidində 366-cı alayın nəzdində yaradılan "Klukin erməni cəbhəsi" rotası baş rolda oynayıb.

Bu da danılmaz faktdır ki, bu genosid "Böyük Ermənistan" xülyası ilə yaşayan ermənilər və onların iddialarını həyata keçirmək üçün gecə-gündüz planlar cızan erməni terror təşkilatları "Haydad" və "ASALA"nın köməyi ilə həyata keçirildi.

Gəlin bu vandalizm aktında iştirak edən 366-cı alayın hərbi hissələrindən birinin əks-kəşfiyyat şöbəsinin rəisi, polkovnik V.Savelyevin özünün "məxfi arayışı"nda dediyi fikirlərə diqqət yetirək: "...İnsanların, uşaq və qadınların, hamilə gəlinlərin güllə keçmiş bədənlərini unuda bilmirəm".

Bizcə bu etirafdan çox mətləblər aydındır. Tarixən belə olub. Türklərə qarşı törədilən bütün soyqırımlarda hər zaman ermənilərə ayrı-ayrı dövlətlər, əsas rolda isə Rusiya bu və ya başqa formada yardım göstəriblər. Elə bu günə qədər də Azərbaycanın itirdiyi, daha doğrusu ermənilərə pay verilən torpaqları da məhz bu "yardımlar"ın sayəsində olub. İndi dünya deyir ki, ermənilərə qarşı türklər soyqırım törədib. 1915-ci ildə filan qədər erməni öldürülüb və s. və



Azərbaycan Milli Kitabxanası

ilaxır. Əgər bu gün demokratiyadan, insan haqlarından dəm vuranlar əsrin əvvəllərində baş verənləri qabardırlarsa, o zaman əsrin sonunda dünyanın gözü qarşısında bir şəhəri yer üzündən silən, körpəsindən yaşlısına qədər az qala hamısını süngüdən keçirən, güllələyən ermənilərin əməllərinə niyə göz yumurlar?

Həqiqətənmi dünya bütün bu baş verənlərə yanlız öz maraqlarına uyğun baxır? Axı, Xocalı hadisəsi insanlığa, bəşəriyyətə qarşı olan bir olaydır. Kim Xocalıda baş verən qırğınlara rəhbərlik edib? Robert Koçaryan. Bu o Robert Koçaryandır ki, dünənə qədər Ermənistan Respublikasının prezidenti adını daşıyırdı. Bu, o terrorçudur ki, prezidentliyi dövründə demokratiyadan, insan haqlarından danışan, türkləri ermənilərə qarşı əsrin əvvəllərində soyqırım törətməkdə günahlandıran ölkələrə səfərlər etdi, necə deyərlər, o ölkələrin prezidentləri, səlahiyyətli vezifə sahibləri ilə əl tutdu, fikir mübadiləsi apardı. Belə çıxır ki, dünya bu terrorçunu görmür? Daha doğrusu qəbul edir. Bu gün də Ermənistana digər bir terrorçu başçılıq edir - Serj Sarkisyan. Bu o adamdır ki, Xocalı soyqırımının baş memarı, Ermənistanın eks-prezidenti, terrorçu Robert Koçaryanla birlikdə Rusiyanın Dağlıq Qarabağda yerləşən hərbi kontingentinin köməyi ilə bu bölgədə yaşayan azərbaycanlıların öz yurd-yuvalarından çıxarılmasında əsas rolu oynayıb. Çox təəssüflər ki, bu gün Ermənistan rəhbərliyində Dağlıq Qarabağda azərbaycanlılara qarşı soyqırım törədən Qukasyanlar, Sarkisyanlar çoxdur.

**Butun bunlar danılmaz dəlillərdir.** Gəlin Xocalıda ermənilər tərəfindən vəhşicəsinə öldürülən insanların müstəqil həkimlər tərəfindən tibbi ekspertizasının nəticələrini izləyək.

**Həsənova Gülçöhrə Yaqub qızı.** 1968-ci il təvəllüdlüdür. Döş qəfəsindən və qarnından güllə yarası almışdır. Sol əli pəncədən kəsilmişdir.

**Həsənova Fitat Əhəd qızı.** 1940-cı ildə Xocalıda doğulmuşdur. Cəsədi üzərində zorakılıq əlamətləri var, gözləri çıxarılmışdır.

**Aslanov İqbal Qulu oğlu.** 1970-ci ildə doğulmuşdur. Naxçıvanik yolunda qətlə yetirildikdən sonra cinsiyyət üzvü kəsilib yandırılmışdır.

**Kərimova Firəngül Məhəmməd qızı.** 1935-ci il təvəllüdlüdür. 1988-ci ildə Ermənistandan qovulan soydaşlarımızdandır. Bədəni tam doğranmış, gözləri çıxarılmış, qulaqları və döşləri kəsilmişdir.





**Hümmətova Məlahət Eldar qızı.** 1976-cı ildə doğulmuşdur. Bədənində çoxsaylı güllə yarası aşkarlanmışdır. Gözləri çıxarılmış, döşləri kəsilmişdir.

**3 yaşlı körpə - İmani Ağayar Salman oğlu.** 1989-cu ildə Xocalıda doğulmuşdur. Erməni qəddarlığının qurbanı olmuşdur, yandırılmışdır.

**88 yaşlı ahıl kişi - Hüseynov Allahverdi Qulu oğlu** yandırılaraq qətlə yetirilmişdir.

Qeyd etdiyimiz kimi, bu cür faktların sayı onlarladır. Bu məqamda Səriyyə Müslümqızının "Xocalıya gedən yol" kitabında əsirlik həyatını yaşayanların bir qismi ilə söhbətinden bəzi məqamları xatırlamamaq olmur.

"...Ölmüş övladını kürəyinə bağlayıb gətirən analar da oldu. Bu, Nuridə anadır, oğlu Səxavətin meyitini gətirmişdi".

"...Ermənistandan qovulan Qəndab ananın ah-nalə ilə söylədiyinə görə, məshəti türkü olan polis Əhmədin Xocalıya gələn magistral yolda "İsmayıl qurbanı" kəsirik, deyib başını bədənindən üzdülər. Bıcağın xırıltısı belə qulaqlarımdan getmir".

Əsirlikdən azad olunan şəxslərin bəzisinin Azərbaycanın hüquq-mühafizə orqanlarına verdiyi izahatlarda da eyni dərəcəli erməni vəhşilikləri qeyd edilir.

**Yenə də Səriyyə Müslümqızının kitabından:**

"...Hümbətov Əmir Səlim oğlu ifadəsində bildirir ki, gecə saat 00.04 radələrində onu Xocalıda "Armu" adlı dəstə əsir götürüb. Yaraqlılardan Sergey adlı erməni onun dişlərini sındıraraq qızılı götürüb".

"...Girovluqda olmuş Abbasov Elnur Ələmdar oğlu ifadəsində bildirib ki, əsirlik müddətində Artur və Slavik adlı çavuşlar və Feliks adlı leytenant onları dayanmadan döyüblər. Onlar Xocalı sakinləri - Novruzov Ələsgər Xanlar oğlunu və Şəliyev Elçin Vəkil oğlunu döyüb işgəncə verərək öldürmüşdülər".

Əziz oxucularımıza da aydındır ki, Xocalıda bir dəhşət yaşanıb. Elə bir dəhşət ki, onu görməmək belə insanlığın yox olması demək-



Azərbaycan Milli Kitabxanası

dir. Düzdür, bu gün biz bütün bu baş verən dəhşətləri hələ də dünyaya yetərincə tanıtmamışıq. Amma həmin hadisələr bas verən zaman dünya mətbuatı belə bu vəhşətdən dəhşətə gəlmişdi.

**İzləyək:**

**"Le Krua Eveneman" (Paris), 25 mart 1992-ci il:** ...Ermənilər Xocalıya hücum etmişlər. Bütün dünya eybəcər meyitlərin şahidi oldu. Azərbaycanlılar minlərlə ölənlər barədə xəbər verirlər.

**"Sandi Tayms" (London), 1 mart 1992-ci il:** ...Erməni əsgərləri minlərlə ailəni məhv etmişlər.

... Ermənilər atəş açır, güllələnən adamların bədənlərinə xəsarət yetirir, bədən üzvlərini kəsirdilər...

**"Faynenşil Tayms", (London), 1 mart 1992-ci il:** "Ermənilər Ağdama tərəf gedən adamları güllələmişlər. Azərbaycanlılar 1200-ə qədər cəsəd saymışlar".

**"Tayms" (London), 4 mart 1992-ci il:** ... Meyitlərin çoxu eybəcər hala salınmışdır. Körpə qızın ancaq başı qalmışdır.

**"İzvestiya", (Moskva), 4 mart 1992-ci il:** ... Videokamera qulaqları kəsilmiş uşaqları göstərdi. Bir qadının sifətinin yarısı kəsilmişdir. Kişilərin skalpları götürülmüşdür.

**"Faynenşil Tayms", 14 mart 1992-ci il:** ... General Polyakov bildirmişdir ki, 366-cı alayın 103 erməni hərbçisi Dağlıq Qarabağda qalmışdır.

**"İzvestiya", 13 mart 1992-ci il: Mayor Leonid Kravets:** Mən şəxsən təpədə yüzə yaxın meyit gördüm. Bir oğlanın başı yox idi. Hər tərəfdə xüsusi qəddarlıqla öldürülmüş qadın, uşaq, qocalar görünürdü.

**"Valer aktjiuel" (Paris), 14 mart 1992-ci il:** Bu "muxtar region-da" erməni silahlı dəstələri Yaxın Şərqdən çıxmışlarla birlikdə müasir texnikaya, o cümlədən vertolyotlara malikdirlər, ASALA-nın Suriya və Livanda hərbi düşərgələri və silah anbarları vardır. Ermənilər yüzdən artıq müsəlman kəndində qırğınlar törədərək Qarabağdakı azərbaycanlıları məhv etmişlər.

**R.Patrik, İngiltərənin "Fant men nyus" teleşirkətinin jurnalisti (faciə yerlərində olmuşdur):** Xocalıdakı vəhşiliklərə dünya ictimaiyyətinin gözündə heç nə ilə haqq qazandırmaq olmaz.[5]





**Xocalı soyqırımı xəbərini respublika mətbuatına ilk çatdıran jurnalist isə Şamil Sabiroğludu.** Şamil özü də bilmirdi ki, onun gördükləri, anlatdıqları, fotolara köçürdüyü o ağrılı anlar bu gün bütün dünyaya yayılacaq. Gəlin, gözyaşları ilə Azərbaycan mediasına Xocalı soyqırımının ilk xəbərini verən o acı anları yaşamış jurnalistimizi dinləyək.

"Fevralın 25-dən 26-a keçən gecə Xocalı od tutub yanırdı. Ermənilər öncə Məhsəti türkləri yaşayan ərazini kül etməyə başladılar. Alov ərşə qalxmışdı. Biz Ağdam istiqamətindən Şelli kəndi tərəfdən xocalıların köməyinə tələsdik. Yolda 7 nəfər döyüşçümüz minaya düşdü. Səhər tezdən günortayadək yaralıların, əl-ayağını don vurmuşları xilas etdik. Mənim üçün ən dəhşətlisi dünyanın isti-soyuğunu görməmiş körpə ölümü və ahıl insanların vəhşicəsinə qətlə yetirilməsi idi. 72 yaşlı Allahverdi Quliyev və zorlanaraq öldürülmüş 13 yaşlı qız uşağının baxışlarını hələ də unuda bilmirəm. Onların günahı nə idi? Onlar ki ermənilərə qarşı silah işlətməmişdilər. Mən qanlı savaş meydanında əl-ayağı bağlanmış qadınları gördüm. Mən Belorusiyanın Xatın kəndində olmamışam. Amma Xocalı mənim gözümdə Xatından qat-qat pis günə salınmış bir kənd idi. Kətik meşəsinin ərazisi meyitlərlə dolu idi. Tam səmimiyyətlə deyirəm, 613 nəfərin ölümü inandırıcı deyil. Xocalıda ən azı 1500 adam həlak olub. 26-sı günortadan sonra imkan tapıb Ağdama gəldim. Faciə barədə "Səhər" qəzeti redaksiyasına məlumat verdim. Faciənin böyüklüyünə inanmadılar. Bildirdilər ki, "AzərTAc"dan rəsmi məlumat gəlib və orada Xocalıda cəmi 2 nəfərin öldürüldüyü bildirilib. Mən bu xəbəri eşidəndə hönkür-hönkür ağladım. Redaksiya mənim göz yaşlarımdan sonra "AzərTAc"ın məlumatın çıxarıb, mənim verdiyim məlumatı yerləşdirdilər.

Amma nə yazıq ki, bütün bu danılmaz faktlar, şahidlərin dedikləri, sənədlər, fotolar dünya üçün yetərli olmadı. Olsaydı, Xocalı soyqırımında iştirak etmiş ermənilərin və onların köməkçilərinin hərəkətlərinə insan haqlarının kobud şəkildə pozulması kimi qiymət verilərdi. Beynəlxalq hüquqi aktlara - Cenevrə Konvensiyası, Ümumdünya İnsan Haqları Bəyannaməsi, vətəndaş və siyasi hüquq-



Azərbaycan Milli Kitabxanası

lar barədə Beynəlxalq Saziş, Fövqəladə vəziyyətlərdə və hərbi münaqişələr zamanı qadınların və uşaqların müdafiəsi Bəyannaməsinə məhəl qoyulardı. Və bu gün Xocalı soyqırımı dünya tərəfindən qəbul edilərdi.

Dağlıq Qarabağda, konkret Xocalıda baş verənlər "Böyük Ermənistan" ideyası uğrunda mübarizənin hələ davam etdiyinin sübutudur. Dünya isə hələ də proseslərə ikili standartlarla yanaşmaqda davam edir. Nəyin hesabına? Erməni lobbisinin apardığı siyasətin sayəsində.

**Biz isə bu faciələri yaşamaqda davam edirik.**
**Biz isə torpaqlarımızı itirə-itirə gəlirik.**
**Biz isə hələ də dünyadan kömək gözləyirik.**

Çünki biz qan tökməyə adət etmiş bir millət deyilik. Xocalı soyqırımı türk milləti, o cümlədən soyu-kökü eyni olan bütün türk dünyası üçün böyük bir dərs olmalıdır. Qoy bütün türk dünyası bilsin ki, "Böyük Ermənistan" ideyası Xocalı soyqırımları kimi amansız qətliamlar hesabına olsa belə gerçəkləşdirilməsi planlaşdırılıb.

Xocalı faciəsi dünyada tanınmalıdır. Bunun üçün böyük bir mübarizəyə ehtiyac var. Dayanmadan aparılmalıdır bu mübarizə. Çünki mübarizəni aparmaq üçün dünyanı inandıra biləcəyimiz faktlar var əlimizdə. Qətlə yetirilmiş yüzlərlə insanın soyulmuş beyinlərini, kəsilmiş bədən üzvlərini və s. əks etdirən fotolar, sənədlər.

Biz bunu ona görə etməliyik ki, "doğma yurdlarından didərgin düşmüş və Azərbaycanın 48 rayonuna səpələnmiş Xocalı sakinləri Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli Ermənistanın Azərbaycana qarşı təcavüzünün dəf edilməsi, ölkənin ərazi bütövlüyünün bərpa edilməsi ümidi ilə yaşayırlar".[6]

Burada Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Xocalı soyqırımının 15-ci ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciətindən bəzi hissəni diqqətə çatdırmaq yerinə düşür. Cənab Prezident bu qəddar və amansız terror hadisəsini "təkcə Azərbaycan xalqına qarşı deyil, bütövlükdə bəşəriyyətə və insanlığa qarşı törədilmiş cinayət" adlandıraraq demişdir: "Azərbaycan hökuməti erməni şovinist millətçilərinin azərbaycanlılara qarşı törətdi-





yi cinayətlər, o cümlədən Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanınması üçün məqsədyönlü və ardıcıl fəaliyyət göstərir. Biz həm də erməni millətçilərindən fərqli olaraq bu məsələdən hər hansı siyasi, maliyyə, ərazi və başqa dividendlər qazanmaq məqsədi güdmürük. Məqsədimiz tarixi ədalətin bərpasına nail olmaq, cinayətkarları ifşa etmək və onları dünya ictimaiyyətinin mühakiməsinə verməkdir. Ona görə də erməni şovinist millətçilərinin regionda həyata keçirdikləri etnik separatizmin, başqa xalqlara qarşı nifrət və terror ideologiyasının dünya üçün təhlükəsi açılıb göstərilməlidir. Bu, qəhrəman Xocalı şəhidlərinin ruhu qarşısında bizim vətəndaşlıq və insanlıq borcumuzdur".[7]

Bəli. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu fikirləri bizləri şəhidlərimizin ruhunun şad olması üçün mübarizəmizi daha da intensivləşdirməyə çağırır.

Onu da deyək ki, Azərbaycan Respublikası Milli Məclisinin 1994-cü ildə qəbul etdiyi qərarla hər il fevralın 26-sı "Xocalı soyqırımı günü" kimi qeyd edilir. Biz isə ümid edirik ki, bütöv TÜRK DÜNYASININ mübarizəsi sayəsində Dağlıq Qarabağda tökülən qanlar yerdə qalmayacaq. Xocalıda öldürülən, vəhşicəsinə qətlə yetirilən o körpə balaların qisası alınacaq. Bax, o günü biz Qələbə günü kimi qeyd edəcəyik.



Azərbaycan Milli Kitabxanası

## § 4. ERMƏNİ XİSLƏTİ VƏ RİYAKARLIĞI BU GÜN DƏ DAVAM EDİR

Beləcə düz 200 ildir ki, biz bu faciələrlə yaşayırıq. Əslində kitabın içindəki verilən fakt və sübutları şərh etmək də olardı. Amma bunu istəmədik. Qoy bu gün ermeninin müdafiəsində duran, onların vəhşiliklərini görməyən dünya həmin faktları şərhsiz-filansız oxusun. O dəlilləri bir araya gətirən böyük tarixçilərimiz, elm adamlarımız zatən kifayət qədər şərhlər vermişdir. Biz sadəcə dediyimiz kimi bu danılmaz faktları önə çəkməklə bütün dünyaya soyqırımı türklər yox, məhz ermənilərin etdiyini çatdırmaq istədik. Bu qədər danılmaz faktlar olsa da, təəssüf ki, ermənilər özlərini dünyaya məzlum, yazıq bir millət kimi təqdim edə bilirlər. Uydurma soyqırımı tanınmaq, təzminat, torpaq istəyirlər. İnsan haqlarından danışırlar. Bəs, 200 il erməni vəhşiliyinin qurbanı olmuş türk milləti nə etsin? Çox təəssüflər ki, bu gün dünya daha çox duyğusal hisslərə, bəzən də öz maraqlarına uyğun "faktlara" inanır, nəinki danılmaz tarixi faktlara. Belə olmasaydı, 1915-ci il olayları ilə bağlı, ermənilərin "soyqırım" iddiaları ilə bağlı bəzi ölkələrin parlamentləri, beynəlxalq təşkilatlar, qərarlar, bildirişlər qəbul etməzdi. Daha dəqiq, düz 21 ölkə bu və ya digər şəkildə ermənilərin əsassız "soyqırım" iddialarını tanımazdı.

Belə olmasaydı, böyük dövlətlər Ermənistanı işğalçı ölkə kimi tanıyardı. Belə olmasaydı, BMT-nin sonuncu dəfə müzakirəyə çıxardığı qətnamə dünyanın böyük ölkələri tərəfindən qəbul edilərdi.

Bax belə, əziz oxucu, deməli, türk millətinin bu mücadilədə, yəni ermənilərin haqsız iddialarına qarşı savaşda hələ çox böyük işlər görməsi lazımdır. Hər dəfə "erməni soyqırımı" hansısa Avropa parlamentində müzakirə ediləndə, beziləri düşünür ki, Türkiyə nədən bu qədər təlaş keçirir? Türkiyə reaksiya verməsin, o zaman Türkiyə də desin ki, siz də Osmanlının zamanında sahib olduğu əraziləri qaytarın. Əslində, hardasa ilk baxışdan bu fikir cəlbedici görünür. Amma dünya bizi eşidirmi? Dünya bu kitabda ön səhifələrdə şərhsiz-filansız verilmiş o sübutlara inanırmı? Təbii ki, yox. Deməli, biz başqa yollar düşünməliyik. Nə edək ki, türk millətinin başına gətirilən bu faciələrə bu gün erməniləri dəstəkləyən ölkələri inandıra bilək. Bax əsl vətənpərvərlik də, millətçilik də buradan başlayır. Türk milləti hansısa bir millətə qarşı kin-küdurət bəsləmir. Amma heç kəs bir millətə haqq verməz ki, o öz tarixi keçmişini unutsun. Deməli, biz gələcək nəsillərə tariximizi olduğu kimi çatdırmağa borcluyuq. Necə ki, 200 il müddətində türk millətinə qarşı soyqırım aparan ermənilər balası beşikdə ikən "sənin düşmənin türkdür" deyir. Necə ki, dünyanın ən kiçik nöqtəsində belə öz yalan və iftiralarını qəbul etdirir. Xatırlayırsınızsa, keçən il az qala ABŞ Konqresi Nümayəndələr Palatası "erməni soyqırımı" barədə 106-cı qətnaməni qəbul edəcəkdi. Düzdür, qətnamənin keçməməsi üçün Türkiyə tərəfi çox böyük mücadilə etdi. Amma hər an dünyanın istənilən ölkəsinin parlamentində bu tip qətnamələr keçə bilər. Biz isə Xocalı soyqırımını dünyaya tanıda bilməmişik. Ermənilər dayanmadan işləyir. Etiraf edək ki, biz hansısa situasiya yaranarsa, çalışırıq. Bəlkə də elə buna görədir ki, hələ də haqlı olduğumuzu dünyaya sübut edə bilməmişik.

Bu günlərdə Ermənistanda keçirilən prezident seçkiləri bütün dünyaya bir daha sübut etdi ki, bu ölkədə demokratiyadan əsər-əlamət belə yoxdur. Nə yazıq ki, hadisələrə ikili baxış bəzi demokratiya carçısı olan ölkələrin susqunluğu, hadisələrə göz yumması sayəsində Dağlıq Qarabağda qanlar axıdan, körpə uşaqların belə qanına qəltan edilməsində əməyi olan insanlar yenə də işğalçı Ermənistanda hakimiyyətdədirlər. Seçki zamanı Ermənistanda küçələrə çıxan, demokratiya istəyən və əvəzində döyülən, yaralanan, həbsxanalara atılan insanların fəryadına göz yuman dünyadan hansısa obyektivliyi gözləməyə dəyərmi? Və ya gerçəkdənmi bu ölkələr dünyaya xristian və müsəlman seçimi ilə baxırlar. Düşünməyə və nəticə çıxarmağa dəyər.

Bir sözlə, önəmli deyil hansı yolla, ermənilər dayanmadan çalışır. Hər gün, hər saat, hər dəqiqə, hər saniyə "Böyük Ermənistan" xülyasını gerçəkləşdirmək üçün. Və qeyd etdiyimiz kimi ayrı-ayrı ölkələrin dəstəyi, yardımları ilə neçə illərdir ki, bu ideya addım-addım irəliləyir. Torpaqlarımızı itirə-itirə gəlirik. Bir çıxış yolumuz var. Haqsız savaşa qarşı bütün türk dünyasının birləşməsi. Biz o zaman savaşlarda məğlub olmuşuq ki, həmin vaxtı ayrılmışıq, parçalanmışıq. Düzdür, son illərdə bir çox hadisələr bizi ümidləndirir. O mənada ki, bəzi hadisələr göstərir ki, biz birləşməyə doğru gedirik. Məsələn, 2007-ci ilin martında Azərbaycan və Türkiyə Diaspor Təşkilatlarının birinci Forumunun keçirilməsi böyük hadisə idi. Yaxud elə həmin ilin no-



Azərbaycan Milli Kitabxanası

yabrında yenə də Bakıda türk dövlət və cəmiyyətlərinin XII Dostluq, Qardaşlıq və Əməkdaşlıq Qurultayının keçirilməsi. Bizim üzərimizə düşən görəv o toplantılarda qəbul edilən qərarların həyata keçirilməsi, söylənilən fikirlərə önəm verilməsi və nəticə çıxarılmasıdır. Yeri gəlmişkən, həmin toplantıların sonuncusunda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bütün dünyaya və eyni zamanda türk dünyasına yönəlik, çox əhəmiyyətli mesajları oldu. Burada cənab Prezidentdən gətirdiyimiz kiçik bir sitat belə hər birmiz üçün yetərlidir: "Erməni lobbisi və Ermənistan 1915-ci il hadisələrinə görə Türkiyəni daim bütün ölkələrdə günahlandırmaq istəyir. Bütün ölkələrin parlamentlərində qondarma "soyqırımı"nı tanıtdırmaq istəyir. Bu, böyük erməni yalanıdır, böyük erməni təxribatıdır. Ermənilər həmişə türklərə, azərbaycanlılara qarşı soyqırımı siyasəti aparmışlar. Keçmiş tarixdə belə olub, yaxın tarixdə də belə olubdur və Xocalı soyqırımı bunun bariz nümunəsidir. Günahsız insanları, uşaqları, yaşlı qadınları qətlə yetirmək soyqırım deyil, bəs nədir? Ancaq əfsuslar olsun ki, dünya birliyi ya bunu görmür, ya da görmək istəmir, ermənilərin, erməni lobbisinin və dünya ermənilərinin uydurma faktları əsasında qərar qəbul edirlər. Biz buna qarşı öz siyasətimizi, öz həqiqətimizi qoymalıyıq, öz təbliğatımızı, öz gücümüzü qoymalıyıq. Əlbəttə ki, həqiqəti çatdırmaq, təbliğ etmək, bütün dünyaya yaymaq bizim işimizdir- dövlətlərin, diaspor təşkilatlarının, hər bir vətənpərvər insanın işidir".

Cənab Prezidentin söylədiyi kimi, ermənilərin bu yalanlarına qarşı öz təbliğatımızı, öz gücümüzü qoymalıyıq. Biz millətlərə, onların dilinə, mədəniyyətinə, ümumilikdə insan haqlarına önəm verən bir millətik. Türk milləti heç bir ölkənin torpaqlarına göz dikməz (baxmayaraq ki, Osmanlı imperiyasının və Azərbaycan xalqının sahib olduğu ərazilərin çoxu bu gün başqa ölkələrin tərkibindədir), başqa bir millətə və onun sahib oduğu bütün dəyərlərə önəm verən bir millətdir. Amma bu istək, bu xoş niyyət o zamana kimi olur ki, qarşı tərəf də sənin millətinə, sənin sahib olduğun dəyərlərə önəm versin. Yoxsa, qalxıb da bir millətə etdiyi vəhşilikləri həmin millətin adına çıxsın, bax onda hər şey dəyişir. Bu xoş niyyətli millət artıq öz haqlarını qorumağa məcbur olur. Necə ki, bu gün Türkiyə 1915-ci ildə baş verən olaylarla bağlı ermənilərin əsassız iddialarına qarşı mübarizə





aparır, necə ki, Azərbaycan işğal altında olan ərazilərini azad etməyə çalışır. Bax elə burada bütün türk dünyasına bir görəv düşür - bir qəlbdə döyünmək. Bir az öncə qeyd etdiyimiz kimi Türkiyə və Azərbaycanın qarşılaşdığı bu haqsızlıq, bu vəhşilik təkcə onların problemi deyil, həm də bütün türk dünyasının problemidir. Məhz bunun üçün də övladını ilk dəfə qoynuna alan türk qadını onun qulaqlarına "sən türksən. Sənin torpaqların zaman-zaman başqalarına pay edilib. Sən öz millətinin tarixi keçmişini bilmədən bu millətə xidmət edə bilməzsən" pıçıldamalıdır. Dünyaya yenicə gələn körpənin eşitdiyi ilk söz bu olmalıdır. Məhz o zaman biz qalib gələcəyik. Həm keçmişlərdə itirdiklərimizi qazanacağıq, həm də gələcəkdə itirə biləcəklərimizin qarşısını alacağıq.

Ey böyük türk dünyası, ey böyük türk milləti! Sən öz tarixinə, öz keçmişinə sahib çıxmalısan, mübarizə aparmalısan. Bu mübarizə isə auditoriyalarda özünün eşidə biləcəyin səslə danışmaqdan yox, bütün dünyanın eşidə biləcəyi bir səslə hayqıraraq öz millətinin başına gətirilən faciələri anlatmaqla, əlindəki sübutları dünyaya yaymaqla aparılmalıdır. Bax o zaman biz nəyəsə nail olacağıq. Biz buna qəti inanırıq.

Azərbaycan Milli Kitabxanası

***Qarsda və İqdırda Erməni vəhşiliyinin qurbanı olan türk övladlarının xatirəsinə qoyulmuş abidə və anım löhfəsi***














# ƏLAVƏLƏR

QƏŞƏM İSABƏYLİ

## ERMƏNİ

Cismlərin istidən genişlənib, soyuqdan sıxılması Nuh əyyamından məlumdu. Necə ki, bir kasa suyu qoyursan ayaza, səhər durub görürsən ki, donub yapışıb dibinə. Eramızın gündoğarında - Neronun fironluq dövrü də aləmin soyuq vaxtıydı. "Böyük" Ermənistan məşhur Azərbaycan gölü Urmiyanın cənubunda balaca bir guşədə süknə eləyirdi. Bu təzad sizi şəkkə salmasın. Axı biz ermənidən danışırıq. Öz torpağı olmadığından, ayağı dəyəni özününkü bilib, "yer mənim, yer mənim!" dediyindən adı erməni qalan bu cinsin həmişə torpağı balaca olub, iddiası böyük. "Bədfel, gündəbədən, oğru, gözügötürməz, bir ayağı qaçmaqda olan, əmrə baxmayan, yersiz hay-küy salan, vəfasız, riyakar, söyüşçü, ürəyi xıltlı, ağasına düşmən, bir sözlə, Allah irağ eləsin... erməni. "QABUSNAMƏ". Atalar deyib, "Ermənimin yaxşısı olmaz, olsa da bu erməni o biri erməniyə nisbətən yaxşı olar". Babalı balayanların, balabanlayanların, balalayanların boynuna. "Balalayan" dedim, yadıma mərhum Seyfəddin Dağlının bir uzaqgörənliyi düşdü. Kadr üzrə inspektor gəlir ki, ay müdir, bir yaxşı erməni uşağı var, götür işə. Rəhmətlik qayıdır ki, bizi cəncələ salma, bunlar dovşan kimi balalayır. İnspektor üz vurur, mərhum keçə bilmir. Düz altı aydan sonra kişi xəbər tutur ki, bəs bir erməni dönüb olub altı erməni. Tez inspektoru çağırır: - A balam, sənə demədim, bunlar dovşan kimi balalayır?! Bu dəqiqə ver əmrlərini, qov getsin...

Halal xoşları olmasın, ömür boyu nökərlərimiz, aşnalarımız olublar. Aş yemişik, aş yeyiblər, daş yemişik, aş (bəli, "aş") yeyiblər. Oğul-uşaqlarına da adlarımızı qoyublar ki, bizə xoş gəlsin. Dəmir-Dəmirçiyan, Xanzada-Xanzadyan, Aslan-Aslanyan. Elə bilirsiniz "yan" özlərinindi, xeyr, onu da farslardan oğurlayıblar.

Bəli, erməni Urmiyanın "altında" süknə eləyirdi. Birdən aləm qarışdı, dağlar lərzəyə gəldi, başladı yer genişlənməyə. Cənub-cənuba



Azərbaycan Milli Kitabxanası

endi, şimal şimala yeridi. Erməni gəlib çıxdı Araz çayının sol sahilinə.

***Xudam onu, səni yoxdan yaradıb,***
***Sən də çalış milçək yarat, erməni!***

Məşhur Aşıq Ələsgərin sözüdü. Görünür yanıqlıymış. Onlardan yanıqlı olmayan varsa, o da rusdu. Hərif deyil, bilir ki, erməmidən yaxşı oyuncaq tapmayacaq. Burada uşaqlığım gəlib durur gözümün qabağında. Oyuncaqlarıma acığım ki, tutardı, basıb döyərdim. Hərdən rusun da əli gicişir. Vurub ermәninin ağzının-burununun qanını qatır bir yerə. Sonra da bizi nişan verir ki, bəs türk eləyib. Ermәninin də allahı yox, tanrısı yox, durub düşür palanın üstünə. Eşşəyə gücü çatmır axı.

Ayağına daş dəymiş ki, gəlib çıxdı Qafqaza, döndü quduz canavara. Ordan qamarladı, burdan qamarladı... buddan... baldırdan... oldu torpaq. Tiflisi qapdı, Zəngəzuru çapdı, Göycəni oğurladı, Rəvan xanın şəhərini döndərib elədi Yerevan. Başladı bizi dədə-baba yurdlarımızdan didərgin salmağa. "Erməni gəldi, Allah, sən sovuşdur!" məsəli də burdan qaldı. İşdi, yaxşı bir erməni görsəniz (heç "yaxşı" sözü yerinə düşmür), bilin ki, xalis deyil, qarışığı var. Necə ki, zalım uşağı qonum-qonşudan döl tutmaqda ad çıxarıb. Zəhməti də həmişə türkün boynunda qalıb. Neyləsin, kirvədi, üz üzdən utanır, keçə bilmir. Allah rizasına onu da deyək ki, ermәninin də öz sifəti var. Nədir? ZİNALIQ! Yoxsa bu boyda QARABAĞ soyqırımını zinadan başqa kim törədə bilərdi?! Bu yerdə bir ərəb sözünə ehtiyacımız oldu: "Lənətulla əla qovmüz zalimin! "Yəni Allah zalımlara lənət eləsin!" Zalım deyəndə adamın yadına erməmidən başqa bir kəs gəlmir.

Birinci səhifədəki xəritəyə diqqətlə baxın. Polşalı Kravçukun "NERON" kitabından götürmüşük. Görün "başı bəlalı" erməni hardan hara gəlib. Heç çəyirtkə sürüsü də bu qələti eləyə bilməzdi. Amma erməni... əstəğfirulla...





## *1390-1828-ci illərdə İrəvanda hökmdar olmuş şəxslər*

1. Əmir Səid - 1390-1410-cu illər.
2. Pir Hüseyn - Əmir Səidin oğlu 1410-cu ildən.
3. Pir Yaqub - Pir Hüseynin oğlu -1420-ci il.
4. Əbdül - Pir Hüseynin oğlu - 1430-cu il.
5. Yaqub bəy - 1440-cı il.
6. Həsən bəy Qaraqoyunlu - 1460-cı illər.
7. Uzun Həsən - 1471-ci il.
8. Həsən bəy - Bayandurun nəvəsi - 1475-ci il.
9. Div Sultan Rumlu - 1515-ci il.
10. Hüseynxan Sultan - 1550-ci il.
11. Şahqulu Sultan Ustaclı - 1550-1575-ci illər.
12. Lələ Paşa - Qara Mustafa oğlu Sultan Murad - 1577-ci il.
13. Mahmudxan Toxmaq - Xudavənd şah - 1576-1683-cü illər.
14. Fərhad Paşa - Sultan Murad - 1583-cü il.
15. Məhəmməd Şərif Paşa - 1604-cü ilədək.
16. Əmirgünə Xan Qacar - 1605-1625-ci illər.
17. Təhməzqulu Xan - Əmirgünə Xanın oğlu - 1635-ci ilədək.
18. Murtuza Paşa - Sultan Murad bəy dövrü - 1636-cı il.
19. Kəlbəli Xan - Sultan Murad bəy dövrü - 1636-1639-cu illər.
20. Məmməd xan Çağata Kötük - 1639-1648-ci illər.
21. Xosrov xan - 1648-1652-ci illər.
22. Məmmədqulu xan - 1652-1656-cı illər.
23. Nəcəfqulu xan- 1656-1663-cü illər.
24. Abbasqulu xan - 1663-1666-cı illər.
25. Səfiqulu xan - 1666-1674-cü illər.
26. Sarıxan bəy - 1674-1675-ci illər.
27. Səfiqulu xan Rüstəm xan oğlu - 1675-1679-cu illər.
28. Zal xan - 1679-1688-ci illər.
29. Murtuzaqulu xan Məhəmmədrza xan oğlu - 1688-1691-ci illər.
30. Məmmədqulu xan - 1691-1694-cü illər.
31. Zöhrab xan - 1691-ci il.
32. Fərzəlixan - 1694-1700-cü illər.
33. Zöhrab xan - 1700-1705-ci il.



Azərbaycan Milli Kitabxanası

34. Mehrəli xan - 1709-1719-cu illər.
35. Allahqulu xan - 1719-1725-ci illər.
36. Rəcəb Paşa - 1725-1728-ci illər.
37. İbrahim və Mustafa paşalar - 1728-1734-cü illər.
38. Əli paşa - 1734-cü il.
39. Hacı Hüseyn paşa - 1734-cü il.
40. Məmmədqulu xan - 1735-1736-cı illər.
41. Pirməhəmməd xan - 1736-cı il.
42. Xəlil xan - 1752-1755-ci illər.
43. Həsənli xan Qacar - 1755-1762-ci illər.
44. Hüseynəli xan - 1762-1783-cü illər.
45. Qulaməli xan - 1783-1784-cü illər.
46. Məhəmməd xan - 1784-1805-ci illər.
47. Mehdiqulu xan - 1805-1806-cı illər.
48. Məhəmməd xan Marağalı - 1806-1807-ci illər.
49. Hüseyn xan Qacar - 1807-1827-ci illər.

## 1826-1828-ci İLLƏR RUSİYA - İRAN VƏ 1828-1829-cu İLLƏR RUSİYA-TÜRKİYƏ MÜHARİBƏLƏRİ NƏTİCƏSİNDƏ İRƏVAN XANLIĞININ ƏRAZİSİNDƏ DAĞIDILMIŞ KƏNDLƏRİN

## *S İ Y A H I S I*

**1. Qırxbulaq mahalında**

1.Küzəcik, 2.İynədüz, 3.Güllücə, 4.Qaracaörən, 5.Tecrəbək, 6.Bezaklı, 7. Qaraqala, 8.Qatırçay (Heydərgöl), 9.Ərzap, 10.Norinus, 11.Damcılı, 12.Kitikən (Kətiqut), 13.Quyulu, 14.Qızqala, 15.Tezxaraba, 16.Babacur, 17.Damagirməz, 18.Dəlləkli, 19.Kankan, 20.Göykilsə, 21.Yaycı, 22.Qızılqala, 23.Çobangərəkməz, 24.Azaklar, 25.Əkikənd (Muradtəpə), 26.Ərzni.

**2. Zəngibasar mahalında**

1.Həsənağa, 2.Sinnik, 3.Qaracalar, 4.Ozanlar, 5.Dərcan, 6.Qoraköy, 7.Cəfərabad.





**3. Gərnibasar mahalında**

1.Məsimli, 2.Taytan, 3.Bayraməliqışlığı, 4.Qulaqsız, 5.Zöhrablı, 6.Kürdkəndi, 7.Şəfiabad, 8.Kir-Bozavand, 9.Baş Gərni, 10.Mürzük, 11.Heyranıs-Uliya, 12.Burduq, 13.Gergəc, 14.Gilanar-Sufla, 15.Molla Əhməd, 16.Qaqavuz, 17.Şəhriyar, 18.Heyranıs-Sufla, 19.Şoğayib, 20.Kərpicli, 21.Abdallar, 22.Qurbanqala-Uliya, 23.Qurbanqala-Sufla, 24.Ərtiz, 25.Yappa, 26.Əlimərdan, 27.Əliqırağı, 28.Ellicə, 29.Buralan, 30.Sultantəpə, 31.Əzizli, 32.Əlisorki, 33.Qalakəndi, 34.Qarahacılı, 35.Xıdırlı, 36.Ədətli, 37.Taraşköy, 38.Əliqızıl, 39.Bulaqbaşı, 40.Bayraməlikəndi, 41.Purço, 42.İmamverdiqalası, 43.Tərəkəmələr.

**4. Vedibasar mahalında**

1.Reyhanlı, 2.Şirazlı, 3.Qaralar, 4.Saray, 5.Cadqıran, 6.Qarabağlar-Sufla, 7.Qarabağlar-Uliya, 8.Talasavan, 9.Şahablı, 10.Zəncirli, 11.Pünüt, 12.Şorsu, 13.Daşnov, 14.Həsənqala, 15.Cəfərli, 16.Örtük, 17.Vəlican, 18.Keşağlı, 19.Abbasabad, 20.Əli Qızıl, 21.Muradabad, 22.Əliabad, 23.Əliqırıq, 24.Günlük, 25.Baxcacıq, 26.Xamut, 27.Qızılverən, 28.Zimmi, 29.Musacıq, 30.Hand, 31.Qazançı, 32.Xosrov, 33.Haxıs.

**5. Şərur mahalında**

1.Hağıqara, 2.Qalacıq, 3.Fərhad Arxı, 4.Boşaqışlağı, 5.Daşarx-Uliya, 6.Örtülü Məzrə, 7.Şaban Məzrə, 8.Kərki-Bayat Məzrə, 9.Yovşan Məzrə, 10.Gabud-Məzrə, 11.Dəhnəkənd (Dəmirçiqışlağı).

**6. Sürməli mahalında**

1.Vəlican, 2.Talasavan, 3.Abbasabad, 4.Sərhəngabad, 5.Rəsullu, 6.Zəngan, 7.Hacı Abbas, 8.Saxsalı, 9.Atlıca, 10.Qarançılı, 11.Mərhava, 12.Çıraxlı, 13.İstinax-Çıraxlı, 14.Urumuş, 15.Ərgöv, 16,Göyumus, 17.Qurğan, 18.Qaraçay, 19.Əli Malik, 20.Zor, 21.Əlikeçən, 22.Quşçu, 23.Karvansaray, 24.Əsmə, 25.Quyuca, 26.Çıraxçı, 27.Sarı Hasar, 28.Muça.

**7. Dərəkənd-Parçenis mahalında**

1. Qaraqoyunlu, 2.Kiti, 3.Sürməli, 4.Aşıq Hüseyn, 5.Qarabulaq, 6.Qaraqala, 7.Çaldağ, 8.Qazıqoparan.



Azərbaycan Milli Kitabxanası

**8. Səədli mahalında**

1.Xəlilqışlağı, 2.Erməni kövşəni, 3.Səfilər, 4.Mirzəxan, 5.Baş Qışlağı.

**9. Talın mahalında**

1.Alyanlı, 2.Siçanlı, 2.Nadirxanlı, 4.Pirmələk, 5.Sutökülən, 6.Ağakiçik, 7.Məzarcıq, 8.Pirtikən, 9.Qaraqala, 10.Çiçəkli, 11.Püsəgən, 12.Çaltəpə, 13.Mustuqlu, 14.Qoruq, 15.Parakənd, 16.Daşqala, 17.Çoturlu, 18.Bəbirli, 19.Sadıqlı, 20.Zarınca, 21.Aşağı Dəmirçili, 22.Sabunçular, 23.Kiçik Yataq, 24.Kalaşbəy qulası, 25.Bəhlul kəndi, 26.Böyük Qızılqula, 27.Göyərçin.

**10. Sərdərabad mahalında**

1.Cəfərxan Rəncbəri, 2.Teymurxan kəndi (Dövlətabad), 3.İtröy, 4.Qatırabad (Əbdülabad), 5.Artaşat (Fətabad), 6.Rəhimabad (Molla Bədəl), 7.Keçili, 8.Xam.

**11. Körpübasar mahalında**

1.Teymurxan Kolanısı, 2.Ağdamar, 3.Qaraqışlaq, 4.İnəkli, 5.Çobanlı, 6.Arpahəvəsik, 7.Haçabağ, 8.İlançalan, 9.Anberd.

**12. Abaran mahalında**

1.Qtur, 2.Tezxaraba, 3.Şabanlı, 4.Xaçbulan, 5.Köhnə Qəzənfər, 6.Bitli, 7.Əmirli, 8.Yarbaş, 9.Məmişkəndi, 10.Qarabulaq, 11.Hamamlı, 12.Kürd Əli, 13.Cancik, 14.Cili-Göl, 15.Şahquluölən, 16.Porsuxlu, 17.Camışlı, 18.Əyribulaq, 9.Muncuqlu, 20.Pəmbək, 21.Günbəz, 22.Sibitağ.

**13. Dərəçiçək mahalında**

1.Ada, 2.Kiçik Ördəkli, 3.Allahapənah, 4.Barat, 5.Qonaqgirməz, 6.Eşşəkquduran, 7.Çobangölü,8.Keğaç, 9.Maman, 10.Aydın, 11.Şakirbaşı, 12.Misxana, 13.Sutökülən, 14.Çiçəkli, 15.Pirpalıd, 16.Zeynalağa.

**14. Göycə mahalında**

1.Buğdatəpə, 2.Hacımumuxan, 3.Allahverdibəy, 4.Üçtəpə, 5-6. adları unudulub, 7.Kərimkəndi, 8-11, adları unudulub, 12.Yuxarı Altuntaxt, 13.Aşağı Altuntaxt, 14.Dəmirçi Poğos, 15-19. adları unudulub, 20.Əyricə, 21.Atdaş, 22.Axsaxtovuz, 23.Karvansaray, 24. adı unudulub, 25.Qasımbaşı, 26.Mədinə, 27-32. adları unudulub, 33.Baş Gözəldərə, 34.Xancığazoğlu, 36-38. adları unudulub, 39.Qızılkilsə, 40-44. adları unudulub, 45.Böyükağa, 46-54. adları unudulub, 55.Ağkilsə, 56-57. adları unudulub, 58.Göyçə, 59.Sultanəli, 60.Sətənağac, 61.Karvansaray, 62.Əyricə, 63-64. adları unudulub, 65.Kərimkəndi, 66.Dəli Harutyun, 67.Qəməsar.





## *1828-ci İLDƏ YARADILMIŞ ERMƏNİ VİLAYƏTİNDƏ (İRƏVAN ƏYALƏTİ) KƏNDLƏRİN*

## *S İ Y A H I S I*

**1. Qırxbulaq mahalı**

1.Oxçarbed, 2.Məngüs, 3.Cüvriş, 4.Kamal, 5.Tutiyə, 6.Zar, 7.Cadqıran, 8.Kəmris, 9.Ağadərəsi, 10.Başkənd, 11.Şahab, 12.Ərəmus, 13.Dizək, 14.Ərinc, 15.Avan, 16.Çalmaxçı, 17.Kənəkir, 18.Kətran, 19.Pütkni, 20.Məəgüb, 21.Ellər, 22.Yelqovan.

**2. Zəngibasar mahalı**

1.Şinqovit-Bayat, 2.Çarbağ, 3.Şinqovit, 4.Noraqovit, 5.Behbudabat, 6.Uluxanlı, 7.Aşağı Necili, 8.Yuxarı Necili, 9.Hacı Elyas,10.Qalalı, 11.Ağcaqışlaq, 12.Şirabad, 13.Arbat, 14.Haçapara,15.Göykümbət, 16.Sarvanlar xaraba, 17.Şöllü Dəmirçi, 18.Qaraqışlaq, 19.Verməzyar, 20.Donuzyeyən 21.Sarvanlar Uliya, 22.Reyhanlı, 23.Həbilkəndi, 24.Seyidkəndi, 25.Sarıcalar, 26.Şöllü Mehmandar.

**3. Gərnibasar mahalı**

1.Ağhamzalı, 2.Cəbəcəli, 3.Qaratəpə, 4.Qaradağlı, 5.Xarratlı, 6.Boğamlı, 7.İmamşahlı, 8.Qaraqoyunlu, 9.Göyləsər-Uliya, 10.Toxanşahlı, 11.Şeyxzadəli, 12.Tamamlı, 13.Qarahəmzəli, 14.Çiydəmli, 15.Başnalı, 16.Uğurbəyli, 17.Çiləxanlı, 18.Böyük Dəlilər, 19.Kiçik Dəlilər, 20.Novruzlu, 21.Qəmərli, 22.Darğalı, 23.Yuva, 24.Məsimli, 25.Becazlı, 26.Axund Buzovand, 27.Artaşat, 28.Qurbanqulu, 29.Təpə-



Azərbaycan Milli Kitabxanası

başı, 30.Dvin, 31.Ayaslı, 32.Qulaməli Buzovand, 33.Doqquz, 34.Yamancalı, 35.Mehrablı, 36.Ağcaqışlaq, 37.Cənnətli, 38.Ağbaş, 39.İpəkli, 40.Göyləsər-Sufla, 41.Arpava, 42.Qaravəli, 43.Aratan, 44.Emincə, 45.Aralıq, 46.Ciftlik, 47.Sirboğan, 48.Baybrt, 49,Gilanlar, 50.Körpüqulağı, 51.Göl, 52.Köxt.

**4. Vedibasar mahalı**

1.Xorvirab, 2.Vedi-Sufla, 3.Əli-Məhəmmədqışlağı, 4.Şüyütlü, 5.Xalisa, 6.Dəvəli, 7.Daşlı, 8.Vedi-Uliya, 9.Goravan, 10.Yengicə, 11.Avşar, 12.Sədərək, 13.Əsni, 14.Kərki, 15.Qədili, 16.Qarağac, 17.Camışbasan, 18.Cığın, 19.Cırmanıs, 20.Küssüz, 21.Ərmik.

**5. Şərur mahalı**

1.Quşçu Dəmirçili, 2.Maxta, 3.Düdəngə, 4.Zeyvə, 5.Noraşen-Sufla, 6.Əksikənd, 7.Mahmudkəndi, 8.Noraşen-Uliya, 9.Loşan, 10.Daşarx, 11.Kürkçülü, 12.Kürdkəndi, 13.Şəhriyar, 14.Yengicə, 15.Çomaxtir, 16.Çərçiboğan, 17.Məhəmməd-Sabir, 18.Muğancıq-Mirzə-Müslüm, 19.Muğancıq Mehrablı, 20.Qarxın, 21.Aralıx-Kəlbəli xan, 22.Aralıx Məhəmmədli bəy, 23.Siyaqut, 24.Kosacan, 25.Parçı, 26.Ələkli, 27.Yelquz-Ağac, 28.Verməzyar, 29.Xanlıqlar, 30.Abadulla, 31.Abbas Qışlaği, 32.Tomaslı, 33.Bayxır-Sufla, 34.Sərdarabad, 35.Diyədin, 36.Ərəb-Yengicə, 37.Qara Həsənli, 38.Babəki (Abisiyab), 39.Keştas, 40.Dərvişlər, 41.Ərbatan, 42.Xələc, 43.Əlişir, 44.Muğanlı, 45.Qorçulu, 46.Ağ Əhməd, 47.Qarabürc, 48.Təzəkənd, 49.Burunlu, 50.Vayxır-Uliya.

**6. Sürməli mahalı**

1.Arkuri, 2.Rəhmətabad (Ramazankəndi), 3.Həsənabad, 4.Süleymanabad, 6.Daşburun, 7.Toxanşahlı Qacar, 8.Göyçəli, 9.Toxanşahlı Bayat, 10.Şirəçi, 11.Səfərqulu, 12.Əlican, 13.Hüseyn kəndi, 14.Mürşüd Əliqışlağı, 15.Zülfüqar, 16.Tecirli, 17.Evcilər, 18.Amarat, 19.Nəcəf Əli, 20.Qazıqışlağı, 21.Ələtli, 22.Panik, 23.Qızıl Zakir, 24.Qazançı, 25.Sarıçoban, 26.Ağaver, 27.Ağ Məhəmməd, 28.Ərəbkirli, 29.Molla Əhməd, 30.Yaycı, 31.Quzukənd, 32.Qasımcan, 33.Blur, 34.Ağ veis, 35.Əli Qəmərli, 36.Xoşxəbər, 37.Xəlifəli, 38.İydir, 39.İbrahimabad, 40.Baharlı, 41.Arxacı, 42.Mələkli, 43.Qaraqoyunlu, 44.Daşlıca, 45.Siçanlı, 46.Qızılqula, 47.Güllücə, 48.Molla Qəmər, 49.Çançavat, 50.Qulp.





**7. Dərəkənd-Parçenis mahalı**

*Parçenis dairəsində*

1.Qara Qala, 2.Pirili, 3.Turabi, 4.Qamışlı, 5.Qatırlı, 6.Yağlı, 7.Güləhməd, 8.Qızılbulaq, 9.Tovuzgöl, 10.İncə, 11.Abbas Gölü, 12.Əli Kosa, 13.Parçenis xaraba, 14.Xəmirkəsən, 15.Parçenis Qalaça, 16.Quru Ağac, 17.Dəmirsıxan, 18.Qayaxaraba, 19.Alçalı, 20.Qaracaviran, 21.Cadqıran, 22.Gəndzək, 23.Qyaqışlaq, 24.Gülabi, 25.Əkərək, 26.Suki.

**Dərəkənd dərəsində**

27.Kahin, 28.Həsəncan, 29.Xadimli, 30.Sarabdal, 31.Çiçəkli, 32.Kələkli, 33.Gülbulaq, 34.Həsənkəndi, 35.Ağdis, 36.Soyuqbulaq, 37.Candərviş, 38.Əmirocaq, 39.Qırxbulaq, 40.Qalaça, 41.Oğrunca, 42.Ağdaş, 43.Cəfərabad, 44.Qaradaş (Bayramkəndi), 45.Əliverdi xaraba, 46.Girampa-aşağı,47.Əlimalı, 48.Təkaltı, 49.Pirdəmir, 50.Tikanlı, 51.Pərnout, 52.İrabad, 53.Çıraxlı, 54.Osmankəndi.

**8. Səədli mahalı**

1.Söyüdlü, 2.Hüseynkəndi, 3.Cırıxlı, 4.Elimcan, 5.Hacı-Bayramlı, 6.Əyrisifət, 7.Xeyirbəyli, 8.Assar, 9.Şahvarid.

**9. Talın mahalı**

1.Yeni Talın, 2.Əşnək, 3.Mehribanlı, 4.İrind, 5.Qarğaqovmaz, 6.Yuxarı Ağcaqala, 7.Aşağı Ağcaqala, 8.Yaşıl,9.Başsız,10.Baxcacıq, 11.Şeyx Hacı, 12.Dədəli, 13.Aralıx, 14.Könnə Talın, 15.Gözlü, 16.Yeni Qırmızılı,17.Quldərviş, 18.Adıyaman, 19.Məsdərə, 20.Söyüdlü.

**10. Seiydli və Axsaqqallı mahalı**

1.Dian, 2.Qaracalar, 3.Avan, 4.Maxta, 5.Göyş, 6.Göytul, 7.Ucan, 8.Dizir, 9.Persi, 10.Gödəkli, 11.Nəziravan.



Azərbaycan Milli Kitabxanası

**Axsaqqallı torpaqları**

12.Yeni Qəzənfər, 13.Sarıgöl, 14.Üşü, 15.Kiçikkənd, 16.Babakişi, 17.Kirəşli, 18.Keləşkəndi, 19.Tigid, 20.Qaracaviran.

**11. Sərdarabad mahalı**

1.Şərifabad, 2.Qarxın, 2.Türkmənli, 4.Çubuxçu, 5.Markaragöy, 6.Evcilər, 7.Ağcaarx, 8.Armudlu, 9.Uzunoba, 10.İydəli, 11.Qocayaralı, 12.Canfəda, 13.Quzugüdən, 14.Qurduqulu, 15.Təpədibi, 16.Kərimarxı, 17.Sərdarabad qalası, 18.Molla Bayazid, 19.Kçili, 20.Şəhriyar, 21.Cəfərabad, 22.Kolluqarx.

**12. Körpübasar mahalı**

1.Qəmərli, 2.Xatınarx, 3.Mirzə Hüseyn, 4.Səfiabad, 5.Aralıx Kolanı, 6.Zeyvə, 7.Yasaxlı (Aşağı Aylanlı), 8.Əlibəyli, 9.Əbdurəhman, 10.Vağarşabad, 11.Girampa, 12.Muğancıq, 13.Samanqar, 14.Aytaxt, 15.Körpəli, 16.Kürəkəndli, 17.Ağacqala, 18.Qıznaüz, 19.Ağnatun, 20.Franqanots, 21.Tossuz, 22.Hacı Qara, 23.Molla Dursun, 24.Hacılar, 25.Ərəmli, 26.Ayarlı, 27.Qızıl Dəmir, 28.Üşəyən, 29.Əştərək, 30.Parpı, 31.Təkiyə, 32.Əkərək, 33.Batrınc, 34.Haxıs, 35.Pirəkən, 36.Ərgov, 37.Talış, 38.Talış Əkərək, 39.Kəlaşan, 40.Yeğvard.

**13. Abaran mahalı**

1.Moqni, 2.İohanavəng, 3.Böyük Körpü, 4.Kiçik Körpü, 5.Sağmosavəng, 6.Ağina-göy, 7.Qalaça, 8Günbəzli, 9.Bazarcıq, 10.Şirəkqala, 11.Camışlı, 12.Təkərli, 13.Bulxeyir, 14.Qarakilsə, 15.Astvatskal, 16.Quşçu, 17.Əli kiçik, 18.Çamırlı, 19.Molla Qasım, 20.Damcılı, 21.Saçlı, 22.Əmirli, 23.Gülbədi, 24.Sarı Budaq, 25.Samdərviş, 26.Güllücə, 27.Melkumkəndi, 28.Hacı Bağır, 29.Qaranlıq, 30.Damagirməz, 31.Mirək, 32.Məlikkəndi, 33.Baş Abaran, 34.Quruboğaz, 35.Qundaqsaz, 36.Cərceyis, 37.Çobangərəkməz, 38.Şərabqala, 39.Cəngi.

**14. Dərəçiçək mahalı**

1.Alparas, 2.Rövzanlar, 3.Gümüş, 4.Ərzəkn, 5.Dəllər, 6.Qabar Əli, 7.Bjni, 8.Sollak, 9.Kaxsı, 10.Ağpara, 11.Makravəng, 12.Aşağı Axta, 13.Yuxarı Axta, 14.Gərnikov, 15.Rəndəməl, 16.Zəncirli, 17.Fərrux,





18.Babakişi, 19.Dəli Paşa, 20.Sərincan, 21.Tayçarıx, 22.Qorçulu, 23.Çopur Əli, 24.Dədəqışlaq, 25.Təkəlik, 26.Üləşik, 27.Qara Qala, 28 Qoruq Güney, 29.Yaycı, 30.Tutmaşen, 31.Tsaxkunk, 32.Şahriz, 33.Çerçer, 34.Böyük Ördəkli, 35.Çubuxlu, 36.Tsaxmaberd, 37.Qomadzor.

**15. Göyçə mahalı**

1.Bığlı Hüseyn, 2.Zeynalağalı, 3.Rəhmankənd, 4.Ağqala, 5.Əyrivəng, 6.Qızılcıq (Əbulkəndi), 7.Noradüz, 8.Qışlaq, 9.Kəvər, 10.Qul Əli, 11.Kosa Məmməd, 12.Pəşəkəndi, 13.Dəli Qardaş, 14.Küzəcik, 15.Başkənd, 16.Heyranıs, 17.Atamxan, 18.Vəli Ağalı, 19.Təzəkənd, 20.Dəlikdaş, 21.Gölkəndi, 22.Aşağı Adyaman, 23.Yuxarı Adyaman, 24.Əbdül Ağalı, 25.Gözəldərə, 26. Ağqıraq, 27.Aşağı Qaranlıq, 28.Yuxarı Qaranlıq, 29.Zolağac, 30.Kolanlıqırılan, 31.Alçalı, 32.Qarasaqqalqışlağı, 33.Yarpızlı, 34.Zağalı, 35.Qızılbulaq, 36.Qırxbulaq, 37.Qanlı Allahverdi, 38.Basarkeçər, 39.Qoşabulaq, 40.Aşağı Keyti (Salman kəndi), 41.Baş Keyti, 42.Ellicə, 43.Daşkənd, 44.Daş Keyti, 45.Tatlı Qışlağı, 46.Zərzibil, 47.Zod, 48.Ağyoxuş, 49.Əyricə, 50.Böyük Məzrə, 51.Kiçik Məzrə, 52.Kəsəmən, 53.Şişqaya, 54.Cil, 55.Ardanış, 56.Adatəpə, 57.Şor Əli, 58.Ağbulaq, 59.Toxluca.

**Qeyd:** Bu siyahı 1829-1832-ci illərdə İ.Şopen tərəfindən aparılmış kameral siyahıyaalınmanın nəticələrinə əsasən tərtib edilmiş siyahılardan götürülmüşdür.

**Bax:** Шопен И.И. "Исторический памятник состояния Армянской области в эпоху присоединения к Российской империи", СПБ, 1852, сищ.543-599.



Azərbaycan Milli Kitabxanası

# *1918-ci ildə İrəvan quberniyasında dağılmış və boşaldılmış azərbaycanlılara məxsus yaşayış məntəqələrinin siyahısı*

| № | Qəzanın, milis sahəsinin və kəndin adı | Təsərrüfatların sayı | Əhalinin sayı |
|---|---|---|---|
| | *İrəvan qəzası I milis sahəsi* | | |
| 1. | Damagirməz | 70 | 387 |
| 2. | Zar | 170 | 706 |
| 3. | Kamal | 100 | 625 |
| 4. | Küzəcik | 24 | 119 |
| 5. | Məngüs | 90 | 426 |
| 6. | Oxçavert | 115 | 493 |
| 7. | Tuliyə | 40 | 208 |
| 8. | Kərpicli | 32 | 188 |
| 9. | Tatar-Koxtu | 20 | 79 |
| 10. | Əliqırx | 37 | 202 |
| | *II milis sahəsi* | | |
| 11. | Ağhamzalı | 143 | 843 |
| 12. | Cəbəcili | 63 | 355 |
| 13. | Xarratlı | 62 | 496 |
| 14. | Uluxanlı | 500 | 3173 |
| 15. | Qaradağlı | 62 | 496 |
| 16. | Sarcalar | 64 | 638 |
| 17. | Reyhanlı | 56 | 442 |
| 18. | Habilkəndi | 34 | 256 |
| | *III milis sahəsi* | | |
| 19. | Sabınçı | 35 | 202 |
| 20. | Qəmərli | 151 | 870 |
| 21. | Torpaqqala | 56 | 415 |
| 22. | Qaraqoyunlu | 67 | 432 |
| 23. | Düyün | 92 | 432 |
| 24. | Buzovand | 28 | 96 |
| 25. | Qarahamzalı | 160 | 815 |
| 26. | Alpava | 28 | 206 |
| 27. | Doqquz | 36 | 210 |
| 28. | İpəkli | 37 | 185 |
| 29. | Ağbaş | 19 | 132 |
| 30. | Novruzlu | 16 | 231 |
| 31. | Yamancalı | 107 | 763 |
| | *IV milis sahəsi* | | |
| 32. | Sədərək | 500 | 4117 |
| | Cəmi qəza üzrə | 3015 | 19005 |





| № | Qəzanın, milis sahəsinin və kəndin adı | Təsərrüfatların sayı | Əhalinin sayı |
|---|---|---|---|
| | *Sürməli qəzası I milis sahəsi* | | |
| 33. | Əligöyçək | 69 | 467 |
| 34. | Yuxarı Bəndəmurad | 13 | 107 |
| 35. | Aşağı Bəndəmurad | 12 | 232 |
| 36. | Kündə | 16 | 249 |
| 37. | Daşlıca | 17 | 171 |
| 38. | Asma | 35 | 147 |
| 39. | Qaragüney | 53 | 637 |
| 40. | Göyçək | 18 | 336 |
| 41. | Qızıl Qala | 18 | 109 |
| 42. | Qarahasar | 24 | 266 |
| 43. | Siçanlı | 18 | 109 |
| 44. | Arxacı | 193 | 2021 |
| 45. | İydir Mava | 262 | 1672 |
| 46. | Mələkli | 361 | 2100 |
| 47. | Sultanabad | 26 | 190 |
| 48. | Ağaməhəmməd | 130 | 620 |
| 49. | Ağaverdi | 42 | 206 |
| 50. | Ərəbkirli | 83 | 344 |
| 51. | Qasımcan | 80 | 363 |
| 52. | Quzukənd | 46 | 236 |
| 53. | Qazançı | 121 | 583 |
| 54. | Kiti | 165 | 751 |
| 55. | Güllük | 101 | 760 |
| 56. | Oba | 120 | 720 |
| 57. | Sarıçoban | 63 | 338 |
| 58. | Yuxarı Çarıxçı | 42 | 222 |
| 59. | Aşağı Çarıxçı | 15 | 144 |
| 60. | Yaycı | 226 | 1500 |
| 61. | Amarət | 40 | 254 |
| 62. | Xaraba Əlican | 145 | 832 |
| 63. | Hüseynkəndi | 79 | 550 |
| 64. | Zülfüqar | 82 | 515 |
| 65. | Qızıl Zakir | 49 | 299 |
| 66. | Qızıl Qışlağı | 90 | 406 |
| 67. | Mürşüdəli Qışlağı | 6 | 41 |
| 68. | Nəcəfli | 11 | 127 |
| | *II milis sahəsi* | | |
| 69. | Həsənxan | 110 | 618 |
| 70. | Göyçəli | 80 | 600 |
| 71. | Cənnətabad | 240 | 2090 |
| 72. | Dizə | 300 | 1823 |
| 73. | Qaraqoyunlu | 28 | 139 |
| 74. | Kirəcbağ | 35 | 250 |
| 75. | Oğuzlu | 20 | 123 |

Azərbaycan Milli Kitabxanası

| № | Qəzanın, milis sahəsinin və kəndin adı | Təsərrüfatların sayı | Əhalinin sayı |
|---|---|---|---|
| 76. | Səfərqulu | 28 | 197 |
| 77. | Toxanşahlı Bayat | 63 | 658 |
| 78. | Toxanşahlı Qacar | 178 | 1076 |
| 79. | Xaraba Əlican | 42 | 239 |
| 80. | Şiroçi | 70 | 575 |
| | *III milis sahəsi* | | |
| 81. | İncə | 120 | 887 |
| 82. | Sürməli | 80 | 790 |
| 83. | Pirli | 92 | 870 |
| 84. | Osmangöy | 20 | 115 |
| 85. | Söyüdlü | 50 | 219 |
| 86. | Yuxarı Qatırlı | 46 | 528 |
| 87. | Cüvənli | 25 | 226 |
| 88. | Turabi | 70 | 337 |
| 89. | Mirzəxan | 21 | 208 |
| 90. | Suki | 39 | 356 |
| 91. | Pirsax | 56 | 523 |
| 92. | Əkərək | 72 | 658 |
| 93. | Qamışlı | 35 | 630 |
| 94. | Aşağı Qatırlı | 21 | 267 |
| 95. | Çinçavad | 12 | 202 |
| 96. | Kahin | 35 | 529 |
| 97. | Ağdaş | 46 | 210 |
| 98. | Ağaboy | 27 | 251 |
| 99. | Dəmirçixan | 83 | 812 |
| 100. | Qaracaviran | 53 | 779 |
| 101. | Yağlı | 31 | 588 |
| 102. | Əlikosa | 50 | 750 |
| 103. | Siçanlı | 50 | 673 |
| 104. | Daşlıca | 47 | 420 |
| 105. | Quru Ağac | 40 | 426 |
| 106. | Muça | 100 | 879 |
| 107. | Ərkov | 93 | 843 |
| | **Cəmi qəza üzrə** | **5493** | **41347** |
| | *Eçmiədzin qəzası I milis sahəsi* | | |
| 108. | Molla Dursun | 35 | 320 |
| 109. | Hacılar | 29 | 248 |
| 110. | Girampa | 26 | 130 |
| 111. | Ayarlı | 70 | 353 |
| 112. | Ağca Qala | 72 | 420 |
| 113. | Aramlı | 30 | 162 |
| 114. | Zeyvə | 108 | 622 |
| 115. | Kolanlı | 159 | 768 |





| № | Qəzanın, milis sahəsinin və kəndin adı | Təsərrüfatların sayı | Əhalinin sayı |
|---|---|---|---|
| 116. | Qarğabazar | 129 | 688 |
| 117. | Sofiabad | 29 | 243 |
| 118. | Gözlü Qəmərli | 89 | 411 |
| 119. | Qaraqoyunlu | 74 | 472 |
| 120. | Ayranlı | 39 | 370 |
| 121. | Batrınc | 75 | 526 |
| 122. | İkinci Ayranlı | 35 | 215 |
| 123. | Tossuz | 83 | 420 |
| 124. | Çobankərə | 388 | 2417 |
| | *II milis sahəsi* | | |
| 125. | Kiçik kənd | 32 | 370 |
| 126. | Persi | 42 | 323 |
| 127. | Tokiyə | 145 | 725 |
| 128. | Parpı | 173 | 1006 |
| 129. | Haxıs | 74 | 35 |
| 130. | Zeynalbulağı | 45 | 295 |
| 131. | Gödəkli | 24 | 242 |
| 132. | Üşü | 190 | 1380 |
| 133. | Nəziravan | 68 | 553 |
| 134. | Ayğırsaq | 25 | 209 |
| 135. | Qoşabulaq | 18 | 211 |
| 136. | Göytül | 27 | 208 |
| 137. | Qaraceyran | 65 | 395 |
| 138. | Kürdəli | 27 | 135 |
| 139. | Hamamlı | 82 | 208 |
| 140. | Tülnəbi | 52 | 379 |
| 141. | Əkərək | 99 | 629 |
| 142. | Ərkov | 70 | 280 |
| | *III milis sahəsi* | | |
| 143. | Yuxarı Qarxın | 213 | 1153 |
| 144. | Aşağı Qarxın | 120 | 625 |
| 145. | Şorkənd | 62 | 408 |
| 146. | Türkmənli | 54 | 510 |
| 147. | Molla Bədəl | 52 | 335 |
| 148. | Ağcaarx | 110 | 720 |
| 149. | Kərim arxı | 353 | 1700 |
| 150. | Armudlu | 42 | 309 |
| 151. | İydəli | 143 | 880 |
| 152. | Canfəda | 218 | 1318 |
| 153. | Yuxarı Qulubəyli | 42 | 286 |
| 154. | Aşağı Quluboyli | 40 | 518 |
| 155. | Saatlı | 43 | 247 |
| 156. | Qamışlı | 24 | 247 |
| 157. | Meteqala | 19 | 364 |



Azərbaycan Milli Kitabxanası

| № | Qəzanın, milis sahəsinin və kəndin adı | Təsərrüfatların sayı | Əhalinin sayı |
|---|---|---|---|
| 158. | Qatırabad | 30 | 195 |
| 159. | Rəncbər | 66 | 226 |
| 160. | Peziki | 32 | 264 |
| 161. | Xocayar | 27 | 236 |
| | ***IV milis sahəsi*** | | |
| 162. | Pirtikan | 64 | 496 |
| 163. | Pirnələk | 82 | 261 |
| 164. | Şeyx Hacı | 38 | 410 |
| 165. | Karvansaray | 85 | 210 |
| 166. | Əşnək | 145 | 677 |
| 167. | Aralıx | 62 | 358 |
| 168. | Quldərviş | 48 | 357 |
| 169. | Talın | 59 | 430 |
| 170. | Mehriban | 140 | 533 |
| 171. | İrind | 45 | 239 |
| 172. | Yuxarı Qarğaqovmaz | 70 | 384 |
| 173. | Aşağı Qarğaqovmaz | 42 | 253 |
| 174. | Aşağı Ağcaqala | 115 | 315 |
| 175. | Sabunçu | 32 | 165 |
| 176. | Ahaqçı | 44 | 327 |
| 177. | Yuxarı Qalaqut | 18 | 50 |
| 178. | Aşağı Qalaqut | 17 | 95 |
| 179. | Qaraqala | 18 | 108 |
| 180. | Qəzbin | 21 | 100 |
| 181. | Susuz | 18 | 90 |
| 182. | Knık | 19 | 91 |
| 183. | Mustafatə | 60 | 289 |
| 184. | Bozbur (kürd) | 32 | 165 |
| 185. | Aylanlı | 100 | 300 |
| 186. | Seyranqışlağı | 15 | 83 |
| 187. | İlanqışlaq | 12 | 58 |
| 188. | Ucan | 90 | 300 |
| 189. | Bayramlı | 12 | 82 |
| 190. | Qədim Bəşir (kürd) | 32 | 165 |
| 191. | Yuxarı Ağcaqala | 100 | 308 |
| | **Cəmi qəza üzrə** | **5979** | **35784** |
| | ***Novo-Bayazid qəzası I milis sahəsi*** | | |
| 192. | Ərzəkənd | 80 | 593 |
| | ***II milis sahəsi*** | | |
| 193. | Ağzıbir | 116 | 755 |
| 194. | Bığlı | 112 | 658 |





| № | Qəzanın, milis sahəsinin və kəndin adı | Təsərrüfatların sayı | Əhalinin sayı |
|---|---|---|---|
| 195. | Ağtala | 62 | 424 |
| 196. | Əyrivəng | 96 | 706 |
| 197. | Hacı Muğan | 130 | 1034 |
| 198. | Rəhmankənd | 72 | 779 |
| | **Cəmi qəza üzrə** | **668** | **4649** |
| | **Cəmi quberniya üzrə** | **15155** | **100626** |

## *1948-1953-cü İLLƏRDƏ İNDİKİ ERMƏNİSTAN ƏRAZİSİNDƏN KÖÇÜRÜLƏN AZƏRBAYCANLILARA MƏXSUS KƏNDLƏRİN*

## SİYAHISI

**Zəngibasar rayonundan**

1. Qulucan
2. Sarıcalar
3. Reyhanlı
4. Şura kəndi
5. Habilkənd (Kalinin qəs.)
6. Seyid kəndi
7. Ağcaqışlaq
8. Rəhimabad
9. Cəfərabad (Avanqard-1946)
10. Göykümbət (Qexanist-1949)
11. Həsənli
12. Arbat
13. Şacıelyəz (İpəkli, Darakert - 1978)
14. Şöllü (Daştavan-1978)
15. Ululxanlı (Zəngibasar-1937, Masis-1950)-qismən
16. Xaraba Kolanlı (Şorkənd)
17. Dəmirçi (Şöllü)
18. Ağhamzaı (Marmaraşen-1978)
19. Cəbəcili (Crahovit-1960)



Azərbaycan Milli Kitabxanası

20. Xərrətli (Arevabyur-1978)
21. Yuxarı Çarbax
22. Çobankərə

***Qarabağlar rayonundan 1951-ci il martın 19-da ləğv edilərək ərazisi əsasən Vedi və Qəmərli rayonlarına birləşdirilib***

1. Əzizkənd-xaraba qalıb
2. Əliqırıx-xaraba qalıb
3. Əlimərdan-xaraba qalıb
4. Baxçacıq-xaraba qalıb
5. Bayburd-xaraba qalıb
6. Böyük Gilanlar-xaraba
7. Gölcığın-xaraba qalıb
8. Dəhnəz-xaraba qalıb
9. Daşnov-xaraba qalıb
10. Zimmi-xaraba qalıb
11. İmirzik-xaraba qalıb
12. İnqala-xaraba qalıb
13. Haxıs-xaraba qalıb
14. Hand-xaraba qalıb
15. Hortun-xaraba qalıb
16. Qaladibi-xaraba qalıb
17. Qaraqoyunlu-xaraba qalıb
18. Məngüs-xaraba qalıb
19. Yellicə-xaraba qalıb
20. Yeranos-xaraba qalıb
21. Şahablı-xaraba qalıb
22. Şuğayıb-xaraba qalıb
23. Çimənkənd (Aşağı Qarabağlar-Urtsadzor 1978)
24. Cəfərli-xaraba qalıb
25. Seyid Kotanlı-xaraba qalıb
26. Kotuz-xaraba qalıb
27. Kolanlı-xaraba qalıb
28. Küsüz-xaraba qalıb

***Vedi rayonundan***

1. Əlməmməd-xaraba qalıb
2. Avşar





3. Aşağı Ərmik-xaraba qalıb
4. YuxarıƏrmik-xaraba qalıb
5. Kiçik Vedi
6. Böyük Vedi (Vedi-1946)
7. Goravan (Yenikənd-1968)
8. Daşdı (Daştakar-1968)
9. Taytan (Vanaşen-1978)
10. Şıxlar (Lusarat-1968)
11. Xalisa (Norakert-1991)
12. Qaralar (Aralez-1978)
13. Yenkicə (Sisavan-1991) (Haygeşad-1950)
14. Şidli (Yexeqnavan-1991)
15. Şirazlı (Vosketap-1991)
16. Ağkilsə-xaraba qalıb

***Qəmərli rayonundan***

1. Məsimli (Haygepat-1949)
2. Cənnətli (Zovaşen-1940)
3. Axund Bozavand (Bertik-1935)
4. Doxquz (Kanaçut-1945)
5. Torpaxqala (Xnaberd-1949)
6. Göl Aysoru
7. Qəmərli (Artşat-1945)
8. Qaradağlı (Tsaxkaşen-1945)
9. Qaraqoyunlu-xaraba qalıb
10. Yamancalı (Desxut-1967)
11. Novruzlu-xaraba qalıb
12. Çiləxanlı
13. Sabıncı (Araksavan-1978)
14. İmanşahlı (Mxçyan-1978)
15. Qarahamazlı (Burastan-1978)
16. Darğalı (Anastasavan-1949, Haycezard-1957)
17. Dəllər (Dalar-1935)
18. Çatmadaş-xaraba qalıb
19. Muğamlı (Hovtaşen-1945)
20. Muxtarabad-xaraba qalıb
21. Yuxarı Ağbaş (Alovyan-1949)



Azərbaycan Milli Kitabxanası

*Əştərək rayonundan*
1. Təkiyə (Bazmaxpyur-1949)
2. Əkərək
3. Hamamlı
4. Nəziravan
5. Uşü
6. Sarımsəyək
7. Kürdalı
8. Cdqıdan (Bazmavan-1957, Nor-Gexi-1962)
9. İnəkli (Antarat-1948)

*Ellər (Kotayk-Abovyan) rayonundan*
1. Dəlləkli (Zovaşen-1948)
2. Qaraqala (Sevaberd-1948)
3. Quyulu
4. Nurnus
5. Qoxt
6. Kankan (Hatis-1978)
7. Göykilsə (Kaputan-1935)
8. Zar

*Qurduqulu (Oktemberyan) rayonundan*
1. İydəli (Pşatavan-1947)
2. Xeyirbəyli (Yervandaşad-1967)
3. Hacıbayram-1935, Baqaran-1968)
4. Şahvarid (Uşakert-1968)
5. Kərimarxı (Sovetakan-1935)
6. Quzugüdən

*Axta (Razdan) rayonundan*
1. Ağverən
2. Təkəlik (Ardavaz-1991)
3. Qorçulu
4. Qaraqala-xaraba qalıb
5. Qabaxlı
6. Paşakənd
7. Üşəlik
8. Bjni





9. Dədəqışlaq (Axundov-1939)
10. Misxana (Hankavan-1949)

*Eçmiədzin (Üçkilsə) rayonundan*
1. Aşağı Qarxın
2. Yuxarı Qarxın (Crarat-1946)
3. Qarğabazar (Haykaşen-1965)
4. Molla Dursun (Şaumyan)
5. Yuxarı Kolanlı (Qriboyedov-1978)

*Dilican rayonundan*
1. Ağkilsə
2. Murteyil
3. Polad (Xaçardzap-1991)
4. Göyərçin
5. Avanqard kolxozu
6. Salah (Hankavanik-1991)

*Kəvər (Nor-Bəyazed-Kamo) rayonundan*
1. Ağzıbir (Lcap-1945)
2. Hacı Muxan (Tsovazard-1978)
3. Ördəkli (Lcaşen-1946)
4. Güzəcik (Lancaxpyur-1950)
5. Başkənd (Qexarkunik-1946)
6. Ağqala

*Martuni (Aşağı Qaranlıq) rayonundan*
1. Karvansara
2. Mollalı
3. Mədinə
4. Qızılxaraba
5. Aşağı Alçalı (Artsvanist-1968)
6. Qaranlıq (Gexhovit-1968)

*Əzizbəyov (Vayk) rayonundan*
1. Arınc-xaraba qalıb
2. Bulaxlı-xaraba qalıb
3. Zeytə (Zadea-1991)



Azərbaycan Milli Kitabxanası

4. Zirək-xaraba qalıb
5. Tarp
6. Terp (Saravan-1960)
7. İstisu (Cermuk)
8. Herher
9. Qabaxlı
10. Məmmədrza
11. Çaykənd (Qetik-1991)
12. Cul (Hartavan-1950)
13. Köçbəy (Yeğedzor-1991)
14. Leyliqaçan
15. Qayalı-xaraba qalıb
16. Vartenik

***Keşişkənd (Mikoyan-Yeğeqnadzor) rayonundan***
1. Ağkənd (Ağncadzor-1968)
2. Almalı-xaraba qalıb
3. Ardaraz-xaraba qalıb
4. Qışlaq-xaraba qalıb
5. Qovuşuq (Yermon-1991)
6. Qurdqulaq (Boloraber-1946)
7. Heşin
8. Horbadıx
9. Çivə
10. Hors
11. Sallı
12.Yelpin
13. Qozluca

***Ağbaba (Amasiya) rayonundan***
1. Daşkörpü
2. Şurabad (Sultanabad)
3. Qızılkənd-xaraba qalıb
4. Qarabulaq (Şoğiq-1991)

***Basarkeçər (Vardenis) rayonundan***
1. Zod (Sotk-1991)-qismən
2. Yuxarı Zağalı (Axpradzor-1978)





3. Çaxırlı (Sovetakert-1978)
4. Qanlı
5. Qızılvəng
6. Kərkibaş
7. Yarpızlı

***Allahverdi (Tumankan) rayonundan***
1. Böyük Ayrım (qismən) - 1950

***Noyemberyan rayonundan***
1. Ləmbəli (Baqrataşen)

***Abaran rayonundan***
1. Kirəşli

***Spitak rayonundan***
1. Saral (qismən)

***Kirovakan (Qarakilsə) rayonundan***
1. Yuxarı Kilsə
2. Aşağı Kilsə-xaraba qalıb
3. Mollaqışlaq
4. Haydarlı

***Gorus rayonundan***
1. Şurnuxu
2. Ağbulaq
3. Qurdqulaq
4. Şahverdilər (Başaracur)
5. Şamsız

***Kalinino rayonundan***
1. Qızıldaş (Aruni-1991)
2. İlməzli

***Beriya rayonundan***
1. Aşağı Koxa



Azərbaycan Milli Kitabxanası

## 1813-1991-ci İLLƏRDƏ AZƏRBAYCAN ƏRAZİLƏRİNİN SAHƏSİ

### BUNU HAMI BİLMƏLİDİR

1813-1828-ci ilə qədər Azərbaycan ərazisi təxminən 410 min kv. km. idi. 1813-1828-ci illərdə Azərbaycan əraziləri: İran əsarəti altındakı Cənubi Azərbaycan - sahəsi təxminən 280 min kv. km.

Rusiya əsarəti altındakı Şimali Azərbaycan - sahəsi təxminən 130 min kv. km.

1918-ci ildə Rusiyanın təzyiqi ilə ermənilərə verilmiş İrəvan xanlığı - sahəsi 9 min kv. km.

Rusiya əsarəti altındakı Dərbənd xanlığı - sahəsi 7 min kv. km.

1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin ərazisinin sahəsi - təxminən 114 min kv. km.

1920-ci ildə AXC-ni işğal edən rus Sovet imperiyasının bölüşdürdüyü Azərbaycan əraziləri:

Ermənistan Sovet Sosialist Respublikasının qismən nəzarətinə verilən Zəngəzur, Göyçə, Şərur, Dərələyəz, Dilican və gürcülərin qismən nəzarətinə verilən (Gürcüstan Sovet Sosialist Respublikası) Borçalı - birlikdə sahəsi: təxminən 27,4 min kv. km.

1920-1991-ci illərdə SSRİ əsarəti altında qalmış Azərbaycan Sovet Sosialist Respublikasının ərazisi - 86,6 min kv.km.

## AZƏRBAYCANIN 1988-1994-cü İLLƏRDƏ İŞĞAL EDİLMİŞ ƏRAZİLƏRİ

Keçmiş Dağlıq Qarabağ vilayəti (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut): İşğal tarixi - 1988-1994-cü illər.

Sahəsi: 4400 kv. km.

Şərur rayonunun Kərki və Günnüt kəndləri (17 fevral 1990) - 19 kv. km.

Laçın (17 may 1992-ci il) - 1835 kv. km.

Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv. km.

Ağdam (23 iyul 1993-cü il) 1094 kv. km.





Cəbrayıl (18 avqust 1993-cü il) - 1050 kv. km.

Füzuli (23 avqust 1993-cü il) - 1386 kv. km.

Qubadlı (31 avqust 1993-cü il) - 802 kv. km.

Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv. km.

Beləliklə, Azərbaycanın deyildiyi kimi 20 faiz yox, təxminən 80 faiz ərazisi işğal altındadır.

### *Erməni təcavüzü nəticəsində 1988-1994-cü illərdə Azərbaycan Respublikasında zəbt edilmiş, dağıdılmış və yandırılmış yaşayış məntəqələri və sosial obyektlər*

| | |
|---|---|
| yaşayış məntəqələrinin sayı | 900 |
| sosial obyektlər | 4366 |
| məktəb | 690 |
| uşaq bağçası | 280 |
| məktəbdənkənar müəssisə | 35 |
| texnikum | 4 |
| ali məktəb | 1 |
| klub | 862 |
| kitabxana | 982 |
| muzey | 13 |
| kino-qurğusu | 1831 |
| teatr | 2 |
| məktəbəqədər müəssisə | 855 |
| poliklinika | 10 |
| ambulatoriya | 159 |
| tibb məntəqəsi | 397 |
| doğum evi | 10 |
| aptek | 76 |
| sanatoriya | 4 |
| turbaza | 1 |
| məscid | 10 |

Azərbaycan Milli Kitabxanası

# AZƏRBAYCANLILARIN SOYQIRIMI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN

## FƏRMANI

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır, təhrif edilmiş hadisələr özünün əsl qiymətini alır.

Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış soyqırımı da tarixin açılmamış səhifələrindən biridir.

1813-cü və 1828-ci illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoydu. Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlandı. Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. Soyqırımı Azərbaycan torpaqlarının işğalının ayrılmaz bir hissəsinə çevrildi.

İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq öz havadarlarının himayəsi altında "Erməni vilayəti" adlandırılan inzibati bölgünün yaradılmasına nail oldular. Belə süni ərazi bölgüsü ilə, əslində, azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyuldu. "Böyük Ermənistan" ideyaları təbliğ olunmağa başlandı. Bu uydurma dövlətin Azərbaycan torpaqlarında yaradılmasına "bəraət qazandırmaq məqsədilə" erməni xalqının tarixinin saxtalaşdırılmasına yönəlmiş genişmiqyaslı proqramlar reallaşdırıldı. Azərbaycanın və ümumən Qafqazın tarixinin təhrif olunması həmin proqramların mühüm tərkib hissəsini təşkil edirdi. "Böyük





Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirdilər. Ermənilərin Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indiki Ermənistan ərazisindəki azərbaycanlı kəndlərini əhatə etdi. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə yeksan edildi, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi. Bu hadisələr təşkilatçıları məsələnin mahiyyətinin açılmasına, ona düzgün hüquqi-siyasi qiymət verilməsinə maneçilik törədərək azərbaycanlıların mənfi obrazını yaratmış, özlərinin avantürist torpaq iddialarını pərdələmişlər.

I Dünya müharibəsi, Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail oldular. 1918-ci ilin mart ayından etibarən əksinqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı kommunası tərəfindən ümumən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur plan həyata keçirilməyə başlandı. Həmin günlərdə ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşına əbədi həkk olunmuşdur. Minlərlə dinc azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə məhv edilmişdir. Ermənilər evlərə od vurmuş, insanları diri-diri yandırmışlar. Milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıtmış, Bakının böyük bir hissəsini xarabalığa çevirmişlər.

Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıqla həyata keçirilmişdir. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilmiş, kəndlər yandırılmış, milli mədəniyyət abidələri dağıdılıb məhv edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirmişdir. Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədilə fövqəladə istintaq komissiyasının yaradılması haqqında qərar qəbul etdi. Komissiya mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırdı. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün



Azərbaycan Milli Kitabxanası

Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradıldı. 1919-cu və 1920-ci ilin mart ayının 31-i iki dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdir. Əslində bu, azərbaycanlılara qarşı yürüdülən soyqırım və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatmasına imkan vermədi.

Zaqafqaziyanın sovetləşməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra torpaqlarını Ermənistan SSR-in ərazisi elan etdilər. Sonrakı dövrdə bu ərazilərdəki azərbaycanlıların deportasiya edilməsi siyasətini daha da genişləndirmək məqsədilə yeni vasitələrə əl atdılar. Bunun üçün onlar SSRİ Nazirlər Soventinin 23 dekabr 1947-ci il "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" xüsusi qərarına və 1948-1953-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi surətdə deportasiyasına dövlət səviyyəsində nail oldular.

Erməni millətçiləri havadarlarının köməyi ilə 50-ci illərdən etibarən Azərbaycan xalqına qarşı kəskin mənəvi təcavüz kampaniyasına başladılar. Keçmiş sovet məkanında müntəzəm şəkildə yayılan kitab, jurnal və qəzetlərdə milli mədəniyyətimizin, klassik irsimizin, memarlıq abidələrimizin ən nəfis nümunələrinin erməni xalqına mənsub olduğunu sübut etməyə çalışırdılar. Eyni zamanda, onlar tərəfindən bütün dünyada azərbaycanlıların mənfi obrazını formalaşdırmaq cəhdləri də güclənirdi. "Yazıq, məzlum erməni xalqı"nın surətini yaradaraq əsrin əvvəlində regionda baş verən hadisələr şüurlu surətdə təhrif olunur, azərbaycanlılara qarşı soyqırım törədənlər soyqırım qurbanları kimi qələmə verilirdi.

Əsrin əvvəlində əksər əhalisi azərbaycanlı olan İrəvan şəhərindən və Ermənistan SSR-in digər bölgələrindən soydaşlarımız təqiblərə məruz qalaraq kütləvi surətdə qovulur. Azərbaycanlıların hüquqları ermənilər tərəfindən kobudcasına pozulur, ana dilində təhsil almasına əngəllər törədilir, onlara qarşı repressiyalar həyata keçirilir. Azərbaycan kəndlərinin tarixi adları dəyişdirilir, toponimika tarixində misli görünməyən qədim toponimlərin müasir adlarla əvəzolunma prosesi baş verir.





Saxtalaşdırılmış erməni tarixi gənc ermənilərin şovinist ruhunda böyüməsinə zəmin yaratmaq üçün dövlət siyasəti səviyyəsinə qaldırılır. Böyük humanist ideallara xidmət edən Azərbaycan ədəbiyyatı və mədəniyyəti ruhunda tərbiyə olunmuş yeni nəslimiz ekstremist erməni ideologiyasının təqiblərinə məruz qalır.

Azərbaycan xalqının mənəviyyatına, milli qüruruna və mənliyinə yönəlmiş böhtanlar siyasi və hərbi təcavüz üçün ideoloji zəmin yaradırdı. Xalqımıza qarşı aparılan soyqırım siyasəti özünün siyasi-hüquqi qiymətini tapmadığı üçün tarixi faktlar sovet mətbuatında ermənilər tərəfindən təhrif olunur və ictimai fikir çaşdırılırdı. Ermənilərin sovet rejimindən bəhrələnərək həyata keçirdikləri və 80-ci illərin ortalarında daha da güclənən antiazərbaycan təbliğatına Azərbaycan Respublikasının rəhbərliyi vaxtında lazımi qiymət vermədi.

1988-ci ildən ortaya atılan qondarma Dağlıq Qarabağ konfliktinin ilkin mərhələsində yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından qovulmasına da respublikada düzgün siyasi qiymət verilmədi. Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-in tərkibinə daxil edilməsi haqqında ermənilərin qeyri-konstitusion qərarını və Moskvanın əslində bu vilayəti Xüsusi İdarəetmə Komitəsi vasitəsilə Azərbaycanın tabeliyindən çıxarmasını xalqımız ciddi narazılıqla qarşıladı və mühüm siyasi aksiyalara əl atmaq məcburiyyəti qarşısında qaldı. Respublikada keçirilən mitinqlər zamanı torpaqlarımızın işğalı siyasəti qətiyyətlə pislənsə də, Azərbaycan rəhbərliyi öz passiv mövqeyindən əl çəkmədi. Məhz elə bunun nəticəsi olaraq 1990-cı ilin yanvar ayında getdikcə güclənən xalq hərəkatını boğmaq məqsədilə Bakıya qoşunlar yeridildi, yüzlərlə azərbaycanlı məhv və şikəst edildi, yaralandı, digər fiziki təzyiqlərə məruz qoyuldu.

1992-ci ilin fevralında ermənilər Xocalı şəhərinin əhalisinə misli görünməyən divan tutdu. Tariximizə Xocalı soyqırımı kimi həkk olunan bu qanlı faciə minlərlə azərbaycalının məhv edilməsi, əsir alınması, şəhərin yerlə yeksan edilməsi ilə qurtardı.



Azərbaycan Milli Kitabxanası

Millətçi-separatçı ermənilərin Dağlıq Qarabağda başladığı avantürist hərəkətin nəticəsi olaraq bu gün bir milyondan artıq soydaşımız erməni qəsbkarları tərəfindən öz doğma yurd-yuvalarından didərgin salınmış, çadırlarda yaşamağa məhkum edilmişdir. Ərazimizin 20 faizinin erməni silahlı qüvvələri tərəfindən işğalı zamanı minlərlə vətəndaşımız şəhid olmuş, xəsarət almışdır.

Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin yalnız birinə - 1918-ci il mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırım hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir.

Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırım faciələrini qeyd etmək məqsədilə qərara alıram:

**1.** 31 mart azərbaycanlıların soyqırımı günü elan edilsin.

**2.** Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə olunsun ki, azərbaycanlıların soyqırımı ilə bağlı hadisələrə həsr olunmuş xüsusi sessiyanın keçirilməsi məsələsinə baxsın.

**Heydər ƏLİYEV,**
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 26 mart 1998-ci il***





# *ERMƏNİ TERRORÇULARININ ÖLDÜRDÜKLƏRİ TÜRK DİPLOMATLARI*

| Tarih | Şehir | Görev | Adı-Soyadı |
|---|---|---|---|
| **1973** | | | |
| 27.01.1973 | Santa Barbara | Baş konsul | Mehmet BAYDAR |
| 27.01.1973 | Santa Barbara | Konsul | Bahadır DEMİR |
| **1975** | | | |
| 22.10.1975 | Vyana | Səfir | Daniş TUNALIGİL |
| 24.10.1975 | Paris | Səfir | İsmail EREZ |
| 24.10.1975 | Paris | Sürücü | Talip YENER |
| **1976** | | | |
| 16.02.1976 | Beyrut | Baş katip | Oktar CİRİT |
| **1977** | | | |
| 09.06.1977 | Vatikan | Səfir | Taha CARIM |
| **1978** | | | |
| 02.06.1978 | Madrid | Səfir xanımı | Necla KUNERALP |
| 02.06.1978 | Madrid | Em.Səfir | Beşir BALCIOĞLU |
| **1979** | | | |
| 12.10.1979 | Lahey | Səfir oğlu | Ahmet BENLER |
| 22.12.1979 | Paris | Turizm müşaviri | Yılmaz ÇOLPAN |
| **1980** | | | |
| 31.07.1980 | Afina | İdari attaşe | Galip ÖZMEN |
| | | Qızı | Neslihan ÖZMEN |
| 17.12.1980 | Sidney | Baş konsul | Şarık ARIYAK |
| | | Təhlükəsizlik attaşesi | Engin SEVER |
| **1981** | | | |
| 04.03.1981 | Paris | Çalışma attaşesi | Reşat MORALI |
| | | Din xadimi | Tecelli ARI |
| 09.06.1981 | Cenevrə | Sözləşməli katib. | M.Savaş YERGÜZ |
| 24.09.1981 | Paris | Təhlükəizlik attaşesi | Cemal ÖZEN |
| **1982** | | | |
| 28.01.1982 | Los Anceles | Baş konsul | Kemal ARIKAN |
| 04.05.1982 | Boston | Fəxri konsul | Orhan GÜNDÜZ |
| 07.06.1982 | Lissabon | İdari attaşe | Erkut AKBAY |
| | | Xanımı | Nadide AKBAY |
| 27.08.1982 | Ottava | Hərbi attaşe | Alb.Atilla ALTIKAT |
| 09.09.1982 | Burgaz | İdari attaşe | Bora SÜELKAN |
| **1983** | | | |
| 09.03.1983 | Belgrad | Səfir | Galip BALKAR |
| 14.07.1983 | Brüssel | İdari attaşe | Dursun AKSOY |
| 27.07.1983 | Lissabon | Müstəşar xanımı | Cahide MIHÇIOĞLU |
| **1984** | | | |
| 28.04.1984 | Tehran | Sözləş.kat.xanımı | Işık YÖNDER |
| 20.06.1984 | Vyana | Çalışma attaşesi | Erdoğan ÖZEN |



Azərbaycan Milli Kitabxanası

| Tarih | Şehir | Görev | Adı-Soyadı |
|---|---|---|---|
| 19.11.1984 | Vyana | Beynəlxalq məm. | Evner ERGUN |
| **1991** | | | |
| 07.10.1991 | Afina | Mətbuat attaşesi | Çetin GÖRGÜ |
| **1993** | | | |
| 11.12.1993 | Bağdad | İdari attaşe | Çağlar YÜCEL |
| **1994** | | | |
| 04.07.1994 | Afina | Müstəşar | Haluk SİPAHİOĞLU |
| **2004** | | | |
| 17.12.2004 | Mosul | Baş komissar | Nihat AKBAŞ |
| | | Komissar | Bilal URGEN |
| | | Polis məmuru | Adem ÇİÇEK |
| | | Polis məmuru | Bülent KIRANŞAL |
| | | Polis məmuru | Süleyman KARA HASANOĞLU |





# "ERMƏNİ-AZƏRBAYCAN FORUMU"NA AÇIQ MƏKTUB "AZƏRBAYCAN QURBAN, ERMƏNİSTAN İSƏ TƏCAVÜZKARDIR"

*Stiven Hauletsin Kembric Universitetinin professoru*

Ermənilər ötən əsrlər boyu Zaqafqaziyada kütləvi şəkildə yaşamamışlar. Onların bu ərazilərdə yaşaması bir əsatirdir. Ermənilərin İrəvana, Naxçıvana və Qarabağ xanlıqlarına ilk kütləvi mühacirəti 1828-ci ildə başlamışdır və onu rus çar hökuməti dəstəkləmişdir. İrandakı rus səfiri Aleksandr Qriboyedov öz memuarlarında İran ermənilərinin yuxarıda qeyd etdiyimiz ərazilərdə məskunlaşdığını təsvir etmişdir. Ermənilərin hətta Zaqafqaziyaya ilk kütləvi axınından sonra əsl müsəlman əhalisi (əsasən azərbaycanlılar) İrəvan, Qarabağ və Naxçıvanda üstünlük təşkil etmişdir.

İlk erməni mühacirlərinin Dağlıq Qarabağa köç etdiyinin xatirəsinə həsr olunmuş abidə hələ də Qarabağda durur. Erməni mühacirətinin 150-ci ildönümünə həsr olunmuş bu abidə 1978-ci ildə Leninavanda (əslində, Dağlıq Qarabağın Ağdərə rayonunda) ucaldılmışdır. Yaxın vaxtlaradək həmin abidənin üzərində həkk olunmuş yazı qalırdı. Lakin münaqişə başlanandan sonra ermənilər yazını pozub yoxa çıxarmışlar.

Dağlıq Qarabağda mövcud olan 1828-ci ildən əvvəlki bütün xristian abidələri albanlara (Qafqaz albanlarını Avropa albanları ilə qarışdırmayın) məxsusdur. Əslində, albanlar Dağlıq Qarabağın yerli əhalisi olmuşlar və onlar (albanlar - S.H.) erməni mühacirətindən çox-çox əvvəllər orta əsrlər dövründə azəri etnoslarına assimilyasiya olmuşlar. Ona görə də yalnız müasir azərilər Qafqaz albanlarının törəmələri (bu fakt dünya tarixi elmi tərəfindən qəbul edilmişdir) hesab edilə bilər.

Azərbaycan Milli Kitabxanası

1853-1855-ci illər Krım müharibəsindən sonra ermənilərin Türkiyədən ikinci mühacirəti başlayanda Zaqafqaziyada ermənilərin sayı xeyli çoxaldı. Rusiyanın erməni mühacirətini dəstəkləməsinin məqsədi isə Cənubda xristian əyaləti yaratmaq idi. Bu isə gələcəkdə İrana və Osmanlı imperiyasına Rusiyanın müdaxiləsi üçün güclü dayaq kimi xidmət etməli idi.

1915-ci ildə "erməni genosidi" adlı genosid olmamışdır. Əslində, Osmanlı hökuməti erməni əhalisinin Şərqi Anadoludan Suriyaya yenidən məskun edilməsini (hətta bu, deportasiya belə deyildir və həmin vaxtdan bəri, bu, həmin ölkədə yenidən məskunlaşma sayılır) əmr etmişdi, ona görə ki, onlar (ermənilər - S.H.) rusların Türkiyəyə hücumu ərəfəsində türklərin və kürdlərin qırğınına başlamışdılar. Ermənilər bütün 6 vilayətdə (Türkiyənin 6 vilayətində - S.H.) yerli əhalinin azlıq hissəsini təşkil edirdi. Daşnaksütyun liderlərinin hədəfi isə Anadoluda narahatçılıq, təşviş yaratmaq, Antantanın rəğbətini qazanmaq və Türkiyənin məğlubiyyətindən sonra bu ölkənin dövlətçiliyini ələ keçirmək idi. 1914-1918-ci illər erməni üsyanları nəticəsində 2,5 milyondan çox türk və kürd qətlə yetirdiyi halda yenidən məskunlaşma zamanı təxminən 600.000 erməni zərər çəkmişdir. "Genosid" xalqın, millətin məhv edilməsinin dövlət siyasətidir. 1915-ci ildə Osmanlı hökumətinin qəbul etdiyi belə bir siyasəti olmamışdır, türk və kürd mülki vətəndaşları erməni zorakılığına qarşı sadəcə olaraq öz reaksiyasını ifadə etmişlər.

Stalin heç vaxt Qarabağı Azərbaycana "mükafat verməmişdir". 1921-ci ildə Qarabağı Azərbaycanın tərkibində (keçmiş Azərbaycan SSR-in tərkibində - S.H.) "saxlamamaq" yox, "saxlamaq" qərarı verilmişdi. Əgər siz 5 iyul 1921-ci il Qafqaz bürosunun (Plenumunun - S.H.) protokoluna baxsanız (indiki günlərimizdə hər bir tarixçi Moskvadakı keçmiş Partiya Arxivi idarəsindən bu sənədi sifariş edə bilər), mütləq "saxlamaq" sözünə rast gələcəksiniz. Belə nəticəyə gəlmək olar ki, əgər siz nəyi isə harasa qoyub gedəndə, yaxud "saxlayanda", bu, açıq-aydın şəkildə onun həmin yerdə olduğunu göstərir. Ermənilər bu sözlərdən (Stalinin sözlərindən - S.H.) çox məharətlə istifadə edib özlərinin Azərbaycana ərazi iddialarına haqq qazandırmaq məqsədini güdürlər. İkinci bir tərəfdən isə 1921-ci ildə Stalinin torpaqları "bağışlamaq" üçün kifayət qədər səlahiyyəti yox idi. O, adi bir nazir (narkom) idi və onun güc səlahiyyəti çox məhdud idi. Erməni məsələsinin çağdaş vəkilləri ərazi iddialarına haqq qazandırmaq üçün özünün qəddar diktatorluğu ilə məşhur olan Stalinin adından çıxış edirlər.





Müasir Ermənistanda 400-dən çox coğrafi ad türkcədən erməni dilinə tərcümə edilərək yeni adlarla əvəz olunmuşdur.

1980-ci illərin ilk zorakılığı 1987-ci ilin sonlarında ermənilərin 4.000 azərbaycanlını Qafan, Masis və Gorusdan didərgin saldığı zaman baş verdi. Azərbaycanlı qaçqınları bu münaqişədə birinci zərərçəkənlər oldu. Onlar Sumqayıta göndərildi, yalnız 3 aydan sonra burada facia baş verdi. Bu inkaredilməz bir faktdır ki, iki etnik erməni (Qriqoryan və Oqanov) ən azı 6 ermənini öldürdüyünə görə Sumqayıtda həbs edildi. Ermənilər bu münaqişədə 1987-ci ildə azərbaycanlıların sürgün edilməsinə gətirib çıxaran həmin ilk zorakılığa görə məsuliyyət daşıyırlar.

Bu münaqişədə ilk qurbanlar azərbaycanlılar olmuşlar - Sumqayıt faciəsindən bir neçə gün əvvəl Əsgəranda iki nəfər gənci ermənilər qətlə yetirmişlər.

Münaqişənin başlanmasından bəri indiyə qədər bir dənə də olsun güllə erməni torpağına atılmamışdır. Müharibə yalnız Azərbaycan ərazisində aparılmışdır. Azərbaycan qurban, Ermənistan isə təcavüzkardır.

**"Ədəbiyyat qəzeti"**
**18 yanvar 2008-ci il.**
**Tərcümə edəni: Şahin Xəlilli.**



Azərbaycan Milli Kitabxanası

# AMERİKA ALİMİ SAMUEL A.UİMZİN "ERMƏNİSTAN - TERRORÇU "XRİSTİAN" ÖLKƏNİN GİZLİNLƏRİ" KİTABININ "DAĞLIQ QARABAĞ" BÖLMƏSİ VƏ HƏMİN KİTABIN AZƏRBAYCAN DİLİNDƏKİ NƏŞRİNƏ YAZILMIŞ SON SƏHİFƏ

## *DAĞLIQ QARABAĞ*

Qarabağın tarixi kökləri antik dövrə gedib çıxır. Bu, Azərbaycanın tarixi əyalətlərindən biridir. Bu region Azərbaycanın vacib siyasi, mədəni və mənəvi mərkəzidir (və ya bəlkə də "formalaşmışdır" deyilsə daha yaxşıdır).

1918-ci ildə Ermənistan cırtdan respublika kimi peyda olarolmaz öz qonşularına - Gürcüstan, Osmanlı İmperiyası və Azərbaycana saxta torpaq iddiaları irəli sürdü. Bədnam "Qarabağ problemi" ermənilər tərəfindən saxta iddialar əsasında yaradılmışdır.

Eramızdan qabaq dördüncü əsrdən eramızın səkkizinci əsrinə kimi Azərbaycanın indiki Dağlıq Qarabağ ərazisi Şimali Azərbaycanın ən qədim dövləti olmuş Qafqaz Albaniyasının əyalətlərindən biri idi. 1992-ci ildə ermənilər oranı vəhşicəsinə işğal edənə kimi Qarabağ heç vaxt Ermənistanın bir hissəsi olmamışdır!

Ermənilər özlərinin Bibliya patriarxı Nuhun neçənci nəvəsisə olmuş Haykın törəməsi olduqlarını iddia etməyi sevirlər. Nuhun gəmisinin Ararat dağına yan alaraq istirahət etdiyi güman olunduğu üçün, ermənilər belə bir nəticə çıxarırlar ki, şərqi Anadolu ermənilərin əsl qədim vətəni olmalıdır. Bu vəhşi iddia yalanlardan başqa heç nəyə əsaslanmır. Ortada nə elmi, nə də





arexoloji dəlil-sübut yoxdur. Tarixçi Avqustin Kərrier bu iddianı qətiyyətlə rədd edir.

Əsl həqiqət isə burasındadır ki, hətta 1800-cü illərdə bütün Qafqaz regionunda çox az erməni var idi. Xristian erməniləri... 1800-cü illərdən başlayaraq ruslar tərəfindən Qafqaza gətirilmiş və onlara torpaq verilmişdir - həmin torpaqları ruslar silah gücünə ərazidən dərbədər saldıqları müsəlmanlardan almışdı.

Rusiya 1826-cı ildən Qafqazı ilhaq etməyə başladı. Bu dövrə aid olan rus sənədlərinə əsasən, Qarabağda doxsan min adam yaşayırdı. Orada 1 böyük şəhər və 600 kənd var idi, onlardan yalnız 150-si erməni kəndi idi. On doqquzuncu əsrin sonları üçün və müsəlmanların zorla köçürülməsindən sonra ermənilər əhalinin çoxluğuna çevrildi. 1828 və 1830-cu illər arasında 130.000 ermənini rusların bura gətirərək onlara müsəlman torpaqlarını və evlərini peşkəş etməsinin səbəbi bu idi ki, müsəlmanlardan fərqli olaraq ermənilər rus xristian kilsəsini müdafiə edəcəkdi.

1907 və 1912-ci illər arasında ruslar daha 500.000-dən çox erməninin İrandan və Osmanlı İmperiyasının torpaqlarından əhalisinin əksəri azərbaycanlı müsəlman olan Qars, İrəvan və Yelizavetpol (Gəncə - Z.A.) əyalətlərinə köçməsinə yardımçı oldu. Ərazidə etnik gərginlik yaradan bu hərəkətin planı ruslar tərəfindən cızılmışdı. Onlar bu yolla regionda öz hegemonluğunu gücləndirmək istəyirdi. Başqa sözlə, Rusiya öz geosiyasi maraqlarından çıxış edərək zor gücünə ərazinin demoqrafiyasını dəyişdirirdi. Bu prosesdə azərbaycanlılar və digər müsəlmanlar qurban verilir, bu qurbanların torpaqlarına və əmlaklarına sahib çıxan ermənilər isə xoşbəxt harınlara çevrilirdi.

1890-cı ildə ermənilər siyasi təşkilat yaratdılar - Daşnaksütyun, İran və Türkiyədən gələn erməni miqrantların ərazilərini birləşdirmək məqsədinə çatmaq üçün bu təşkilat terrorizm və silahlı qiyamlardan istifadə edirdi.

28 may 1918-ci ildə müsəlman dünyasında ilk demokratik ölkə olan Azərbaycan Demokratik Respublikası yarandı. Gənc respublikanın atdığı ilk addımlardan biri öz qonşuları ilə normal münasibətlər yaratmaq cəhdi oldu. Mövcudluğunun ikinci günü



Azərbaycan Milli Kitabxanası

Azərbaycan İrəvan şəhərini Ermənistan respublikasına verdi; axı, müstəqilliyini elan etsə də, Ermənistanın siyasi mərkəzi yox idi. Yeni ölkə olan Ermənistan cəmi 400000 nəfər sakini ilə yalnız İrəvan və Eçmiədzin rayonlarından ibarət idi. Azərbaycan əməkdaşlıq və sülh istiqamətində iş aparanda Ermənistan öz cırtdan ölkəsi üçün terror yolu ilə daha çox torpaq qamarlamaq istiqamətində vurnuxurdu.

Ermənilər Gürcüstana müharibəni uduzandan sonra ikinci hücum üçün Azərbaycanı seçdilər. Bu müharibə ərzində xristian ermənilər 115 Azərbaycan kəndini xaraba qoydular, 7.000 nəfərdən çox adamı öldürdülər və 50000-dən çox müsəlmanı ev-eşiyini ataraq qaçmağa məcbur etdilər. Lakin azərbaycanlılar döyüşə atılan kimi ermənilər qaçıb getdilər.

Hətta Azərbaycandan kənara atdırılandan sonra da 1920-ci ildə erməni liderləri Qarabağ, Naxçıvan və Zəngəzurda partizan-cəza hücumları vasitəsilə ilə Azərbaycandan torpaq qamarlamaq cəhdlərini davam etdirirdilər. Məhz həmin il rus bolşevikləri Azərbaycanı işğal etdi, bir qədər sonra isə bircə atəş də açmadan Ermənistanı götürdü.

Hətta rus kommunistləri razılaşırdı ki, Qarabağ Azərbaycanın tərkib hissəsidir. Ruslar çox ağlabatan qərar qəbul etmişdi. Qarabağa gedən yeganə yol Azərbaycanın paytaxtı Bakıdan keçirdi. Qarabağdan Ermənistana heç bir yol yox idi.

1980-ci illərin axırlarında Sovet İttifaqı çatlar verəndə ermənilər müsəlman Azərbaycanının Qarabağdakı xristianlara ayrı-seçkilik etməsi iddiasını qaldırmağa başladılar. Bu, sadəcə olaraq doğru deyil. Əsl səbəb o idi ki, ermənilər öz cırtdan ölkəsini böyütmək istəyirdi.

Qarabağda yaşayan ermənilər öz Ermənistan ölkəsindən olan dostlarının fitvası ilə müsəlmanları ev-eşiklərindən bir daha qovdu və heç kim tərəfindən tanınmamış de-fakto Dağlıq Qarabağ Respublikası yaratdı. Erməni liderləri bu regionun daxilində baş vermiş qiyamın onlara qətiyyən dəxli olmadığını bəyan etdilər. Öz etnik təmizləmə hərəkətlərinə münasibətdə dünya ictimaiyyətini aldatmaq istəyən ermənilərin daha bir uydurma nağılı!





Bu zavallı ermənilərin inandığı kədərli fakt belədir ki, guya müdafiəsiz müsəlman azərbaycanlılarını ev-eşiklərindən qovmaqla onlar türklərin əleyhinə apardıqları müharibəni udduqlarına inanırlar. Bu çaşmış erməni düşüncəsinə görə müsəlman azərbaycanlılarla müsəlman türklər eynidir. Ermənilər deyir ki, "biz Allaha inanan millətik və həmişə türklərlə döyüşmüşük". Bu da o qədər həqiqət deyil, çünki ermənilər həmişə türklərlə döyüşməmişdir. 1890-cı illərdə diktatorların balaca quldur dəstəsi müsəlman torpaqlarını qamarlamaq iştahına düşənədək ermənilər müsəlman türkləri ilə beş yüz il əmin-amanlıq şəraitində yaşamışdır. Hətta ondan sonra da ermənilər heç vaxt türklərlə təkbətək döyüşməmişdir - ruslar həmişə ermənilərə kömək etmişdir.

Ermənilər iddia edirlər ki, onların Qafqazda sonuncu əsl xristian ölkəsi düşmənlərlə əhatə olunmuşdur. Onlar Gürcüstanın da xristian ölkəsi olduğunu və Ermənistanın bu qonşu xristian ölkəsi ilə də müharibəyə başladığını yada salmırlar.

Keçən illər ərzində Qarabağa olan ermənilərin yersiz iddialarını heç kəsin müdafiə etməməsinin başlıca səbəbinin onların arasında yolun olmamasından ermənilər dərs almışlar. Bu gün Ermənistanın ən yaxşı yolu erməni paytaxtı İrəvandan de-fakto Dağlıq Qarabağ respublikasına olan yoldur. Əgər Ermənistan Qarabağın yeni ölkə olmasına kömək etməmişdirsə, onda nə üçün onlara gözəl yol çəkmişdir?

Həmin təzə yol ilə Qarabağa gedərkən çoxlu atılmış və xaraba qalmış müsəlman kəndi görərsən. Bu torpaq bir-birinin ardınca müsəlman kəndlərindən "təmizlənir". Müşahidəçilərdən biri kədər içində dedi: "Təmizlənmiş kəndlərin parçalanmış divarlarına baxarkən məni ürək bulanması çuğlamışdı".

Erməni liderləri iddia edirlər ki, Qarabağın "təsdiq edilmiş" qonaqları hər yerə gedə və hər şeyin şəklini çəkə bilərlər. Həqiqət isə belədir ki, "təsdiq edilmiş" qonaqlar daim müşayiət olunur və onlara nə hərəkət azadlığı, nə də şəkil çəkmək azadlığı verilmir.

Ermənilərin total dağıdıcılığına çoxlu nümunələrdən biri Azərbaycanın Ağdam şəhəridir. On il qabaq orada çoxsaylı



Azərbaycan Milli Kitabxanası

Azərbaycan müsəlmanı yaşayırdı. İndi isə ora tamamilə dağıdılmışdır və kimsəsizdir. Yalnız talançılığın xarabalıqları qalmışdır. Bu, Qarabağdakı hər bir müsəlman azərbaycanlı şəhəri və kəndi üçün tipik mənzərədir.

I Dünya Müharibəsi başa çatdıqdan sonra Ermənistan Müttəfiqlərin Sülh Konfransından tələb edirdi ki, Osmanlı İmperiyası onlara dəyən ziyanın əvəzində təzminat ödəməlidir. Müttəfiqlər erməniləri dinlədi və onlara heç nə vermədi. Ermənilərin bugünkü nəsilləri də indi tələb edir ki, I Dünya müharibəsindəki ziyana görə Türkiyə onlara təzminat verməlidir. Ermənilər belə bir təklif irəli sürmüşdür ki, üzvləri türklərdən və ermənilərdən olan barışıq komissiyası yaradılmalıdır.

Ermənilər on doqquzuncu əsrdə rusların tətbiq etdiyi, sınaqdan çıxmış taktikanı həyata keçirməyə cəhd göstərirlər - müsəlmanları evlərindən və torpaqlarından zorla köçürmək, onlara heç nə ödəməmək, sonra isə həmin torpaqlarda xristian ermənilərini yerləşdirmək. Madam ki, Ermənistan Azərbaycan torpaqlarını ələ keçirmişdir, indi ermənilər oraları soyub-talayıb oğurlayana, daşınmalı hər şeyi daşıyana qədər, bir sözlə, ölənə kimi həmin məsələ haqqında danışıqlar aparmaq istəyir. Eyni zamanda, Türkiyə müsəlmanlarını vahiməyə sala bilməyəcəklərini anlayan ermənilər barışıq komissiyaları vasitəsi ilə onlarla da danışıqlara getmək istəyirlər.

Türk-erməni komissiyasının yaradılması Ermənistanın "heç nə vermədən nəsə qazanmaq" mənasında danışıqlar vasitəsilə yol axtarmasına daha bir nümunədir. Ermənistanın Azərbaycanın başına açdığı oyunları Türkiyənin də başına açması üçün yolu yoxdur.

1970 və 1980-ci illərdə erməni qatilləri bütün dünyanı dolaşaraq çoxlu türk diplomatını qətlə yetirdi, qətllərin bir neçəsi burada, Birləşmiş Ştatlarda baş vermişdir.

* * *

70 il ərzində Sovet İttifaqının bir parçası olmuş Ermənistan yenidən müstəqillik qazanaraq 1992-ci ildə ruslardan bir milyard dollarlıqdan artıq silah-sursat və avadanlıq peşkəş alaraq qonşu Azərbaycan üzərinə daha bir əsassız hücuma keçdi. Bu erməni xristianları silah gücünə bir milyondan çox zavallı müsəlmanı ev-eşiyindən qovaraq qonşu torpaqlarının 20 faizini işğal etdi. Keçən bu on il ərzində ermənilər Amerika hökumətinə fırıldaq gələrək 1.4 milyard dollarlıq "xarici yardım" aldı - güman ki, bütün dünyanın hər hansı ölkəsində adambaşına düşən illik gəlirdən daha çox! Hələ İsus Xrist adından bu terrorçu ölkəyə axıdılan Amerika xristian qruplarının topladığı milyonlarla dollar pul bura aid deyil.





Bu gün ermənilər öz xainliklərinin Osmanlılarla müzakirəsi üçün Türkiyə ilə "barışıq" adlandırdıqları komissiyada işləmək istəyirlər. Əsl erməni ənənəsindən xəbərdar olan türklər isə nə danışıqlara gedəcək, nə də ermənilərin bəd əməllərinə imkan verəcəkdir. Türklər belə bir faktı qəbul etməli və inanmalıdır ki, dünyada dolaşan bütün saxta nağıllar yalnız və yalnız erməni faktlarının variantıdır (heç vaxt həqiqətə əsaslanmayan) və onları müzakirə etməyə dəyməz.

"Barışıq komissiyası" haqqında əsas xəbər "Türkish Times" qəzetinin 8 avqust 2001-ci il tarixli sayında dərc edilmişdi. Komissiya üzvləri adından birgə bəyanatda onlar elan etmişdi ki, "Biz hamımız belə bir fikirlə razılaşırıq ki, genosidin olub-olmamasına münasibət haqqında bu komissiya iş aparmır. Beynəlxalq birlik və biz artıq o məsələyə müzakirə obyekti olmayan fakt kimi baxırıq və bu fakt bizim müzakirələrin əsasıdır". Bu, qeyri-adi mövqedir.

Barışıq komissiyasının nəzərə alması üçün ermənilərin təklif etdiyi gündəlik belədir: bu komissiya heç kim tərəfindən rəsmi təsdiq edilməmiş özünütəyin qrupudur:

**1.** Ermənistanın Türkiyəni 100 faiz günahkar hesab etdiyi 1915-ci il genosidinin Birləşmiş Ştatlar hökuməti tərəfindən tanınmasına nail olmaq. İlkin istinad nöqtəsi birbaşa ziddiyyətdir. Komissiya türk qəzetinə bu yaxınlarda müsahibə vermişdir ki, genosid müzakirə obyekti olmayan faktdır; yaxşı, əgər belədirsə, onda Ermənistan nə üçün Amerikanı bu məsələyə qoşmaqda davam edir? Üstəlik, ermənilər türk qəzetindəki müsahibədə



Azərbaycan Milli Kitabxanası

yenicə demişlər ki, genosid dünyanın bütün beynəlmiləl birliyi tərəfindən qəbul edilmiş faktdır. Əgər bu, həqiqi bəyanatdırsa, onda ermənilər Birləşmiş Ştatların təsdiqini nə üçün istəyir? Belə çıxır ki, son on ildə Amerikadan 1.4 milyard dollar pul yardımı dilənib alan Ermənistan Birləşmiş Ştatları beynəlxalq birliyin xalqı hesab etmir.

**2.** Türkiyədən ermənilərin köçürülməsinə görə Ermənistanın iddialarını müdafiə istiqamətində Birləşmiş Ştatların Dövlət Departamenti ilə iş aparmaq. Ümumiyyətlə, nə üçün Birləşmiş Ştatlar bu məsələyə müdaxilə etməli idi?

**3.** Türkiyənin mülki cəmiyyətinin liderlərini ermənilərin iddia etdiyi genosidin baş verməsinə inanmağa vadar etmək.

**4.** Genosidin qəbul edilməsinin türklərin marağına cavab verdiyinə Türkiyə elitasını inandırmaq.

**5.** Türkiyədə geniş xalq kütlələrini ermənilərin iddia etdiyi genosidin baş verdiyinə inandırmaq.

**6.** Türk məktəblilərini ümumi əsaslarla yoxlamadan keçirərək babalarının 1915-ci ildə iyirminci əsrin ilk genosid törətməsinə uşaqları inandırmaq.

**7.** Əgər türklər komissiyanın yuxarıda diktə etdiyi direktivlərin hər hansı birini yerinə yetirməzsə, türk hökumətinin və xalqının "müasir sivil millətlərin normalarına əsasən, davranmaq üçün hazır olmadığı" təsəvvürünü yaratmaq.

Komissiyanın türk üzvü Ozdəm Sanberk bəyan edir ki, "bu istək həqiqətin tapılması üçün deyil, gələcəyin yeni üfüqlərini açmaq və qarşılıqlı anlaşmanı inkişaf etdirmək üçündür". Komissiyanın digər türk üzvü İltər Türkmən deyir ki, "tarixi ədalətin açılması komissiyanın vəzifəsi deyil".

Lakin bu amerikalı müşahidəçinin (Hovanisyanın - Z.A.) gördüyü tamamilə fərqlidir. Hər şeydən qabaq, bu müəllif hətta başa düşmür ki, nə üçün türklər yalnız erməni gündəliyinə əsasən tərtib edilmiş bu məsələni oturub müzakirə etməyə razılıq vermişdir. "Barışıq" iki tərəfin bir məcraya gəlməsi mənasını verir. Tamamilə aydındır ki, uzunmüddətli barışıq iclasları üçün ermənilər öz tələblərini yaxşı bəyan etmişdilər. İndi isə "barışıq" üçün ermənilərin nə etməli olduğunu türklər deməli





idi. Erməni tələbləri qarşısına türklərin qoya biləcəyi təkliflər bunlardır:

**1.** Madam ki, ermənilər yer üzünün ilk xristian milləti olduğundan fəxarət keçirirlər, onda qoy onlar sülhə tərəf ilk addım atmaqla öz inancını sübut etsinlər. Onlar üçün yaxşı başlanğıc babalarının beş yüz ildən artıq əminamanlıqda yaşadıqları Osmanlı İmperiyasını otuz il ərzində silah gücünə yıxmağa çalışdığını etiraf etmələri olardı.

**2.** Ermənilər etiraf etməlidir ki, onlar Osmanlı ərazisini nəzarətə almaq istəyən ruslarla birləşməklə Osmanlılara xəyanət etmişlər. Beləliklə, əhalinin əksəriyyəti olmasa da, ermənilər müsəlman torpaqlarını müftə-müsəlləm ələ keçirmək istəyirdilər.

**3.** Ermənilər etiraf etməlidir ki, osmanlıların özünü müdafiə etməyə və əksər ermənilərin rus hərbi əməliyyatlarında iştirakına görə bütün erməniləri döyüş xətlərinin arxasından köçürməyə qanuni hüququ olmuşdur. Bu, II Dünya müharibəsi başlayanda Birləşmiş Ştatların amerikalı-yaponları qərb sahillərindən köçürməsi kimi eyni hüquqdur.

**4.** Ermənilər etiraf etməlidir ki, onlar 1915-ci il ərəfəsində və ondan sonra döyüş zonasının rus tərəfində türklərin qırılmasında iştirak etmişdir. Aydındır ki, həm ermənilər, həm də türklər öz həyatları hesabına dəhşətli itki vermişdir. Bu, heç də ermənilərin iddia etdiyi kimi birtərəfli müharibə olmamışdır.

**5.** Ermənilər etiraf etməlidir ki, Ermənistanın diktator-hökuməti 1918-ci ildə boşa çıxmış torpaq qamarlamaq cəhdi ilə öz qonşuları Gürcüstan və Azərbaycanla əsassız və xaincəsinə müharibələr aparmışdır.

**6.** Ermənilər etiraf etməlidir ki, müasir Türkiyə bütün dinlərin üzünə açıqdır və keçən yeddi əsrdə bütün xalqlara Osmanlı İmperiyasının ən gözəl ənənələri əsasında tam dini azadlıq verilmişdir; bugünkü Ermənistanda isə dünyəvi dini azadlıq yoxdur. Ermənistanda bir dənə də işlək müsəlman məscidinin olmaması (heç birinin ümumi əsaslarla işləməsinə icazə verilmir) və bugünkü Türkiyədə çoxsaylı xristian kilsələrinin fəaliyyət göstərməsi faktının müqayisəsini aparın. Aydındır ki, ermə-



Azərbaycan Milli Kitabxanası

nilər öz torpaqlarında digər dinlərə qarşı çox dözümsüzdür. Onlar hətta digər xristian inanclılarının onların torpağına gəlib İisus Xristə olan məhəbbətini bölüşməsinə belə icazə vermirlər. Ermənistanın dövlət tərəfindən bəyənilmiş bircə rəsmi kilsəsi vardır və bu, onların konstitusiyasında təsbit olunmuşdur. Bu gün Türkiyədə erməni kilsələrinin sayı Ermənistanın özündəkilərdən çoxdur.

**7.** Azsaylı xalqların hüquqlarının qorunması, onlara hörmət bəslənməsi və müdafiə olunmasının Ermənistan hökuməti tərəfindən təmin edilməsi üçün ermənilər iş aparmalıdır ki, müsəlmanlar da xristian erməniləri kimi eyni hüquqa malik olsunlar. Bu günün müasir dünyasındakı sivil dövlətlər etnik təmizləməni qəbul etmir. Ermənilərdən fərqli inancına görə müsəlmanlardan yaxa qurtarmaq təcrübəsindən Ermənistan imtina etməlidir.

**8.** Ermənilər etiraf etməlidir ki, onlar 1800-cü illərin ortalarından başlayaraq müsəlmanları təqib etmişlər və müsəlmanların təqibi və onlara qarşı terrorizm bu gün də davam edir.

**9.** Ermənilər təminat verməlidir ki, komissiya üzvlərinin heç biri nə indi, nə də gələcəkdə konfliktdə maraqlı olmayacaqdır. Nəzərə alın: komissiya üzvlərindən biri olan Van Qriqoryan "maraq konflikti" məfhumunu işlətmişdi. O, bəyan edir ki, nə türklərlə, nə də Türkiyə ilə iş birliyi yoxdur. İxtisasca hüquqşünas-vəkil olan Qriqoryan həm də təminat verəcəkmi ki, o, gələcəkdə Türkiyədən qovulduqları üçün Osmanlılardan və digərlərindən "ödənc" almaq istəyən erməni müştərilərinin maraqlarını müdafiə etməyəcək? Bir sual da soruşulmalıdır: Amerikalı hüquqşünas görəsən bu komissiyada nə edir?

**10.** Ermənilər həm hökumətlərinin, həm də dövlətlərinin belə bir etirafını almaq istiqamətində işləməlidir ki, 1890-cı illərdən başlayaraq onların yeganə kilsəsi terrorçu fəaliyyətləri müdafiə etmişdir; onlar belə terror hərəkətlərə son qoyulacağına vəd versinlər.

**11.** Ermənilər elə fəaliyyət göstərməlidir ki, Ermənistanın və erməni dövlətinin yeganə bəyənilmiş kilsəsi son otuz ildən artıq müddət ərzində ASALA, JCAG və digər terrorçu təşkilatlarının dünyanın hər yerində türk diplomatlarını və amerikalı tarixçini öldürmək cəhdlərini açıq və qapalı şəkildə müdafiə etdiyinə görə təəssüf hissi keçirdiyini bəyan etsin.

**12.** 1919-cu ildə Osmanlılardan "ödənc" almaq istəyərkən erməni hökuməti Paris Sülh Konfransında çox uzun və emosional təqdimat keçirmişdi. Sülh Konfransı kütləvi qırğınlar haqqında sistemli hay-küylər də daxil olmaqla bütün faktları dinləyəndən sonra "yox" deyərək ermənilərə "sıfır" vermişdi. Bu hadisə 1919-cu ildə həyata keçirilmişdi. İndi ermənilər həmin faktı qəbul etməli və ictimaiyyətə bəyan etməlidir ki, 1919-cu ildəki əhvalat bir daha gündəliyə çıxarılmamalıdır.

Barışıq yalnız o vaxt baş tuta bilər ki, hər iki tərəf səmimi, düzgün və ədalətli olsun.

16 oktyabr 2001-ci ildə hüquqşünas Qriqoryan Nyu-Cersidəki erməni radio saatının qonağı idi. Bu adam əvvəllər Vaşinqtonda Amerika Erməni Assambleyasının Dövlət və Qanunçuluq İşləri direktoru olmuşdu, 1992-ci ildə isə Birləşmiş Millətlər Təşkilatında Ermənistanın daimi nümayəndəliyinin sədr müavini işləyirdi. İndi isə o, Birləşmiş Ştatlarda erməni biznes şurasının sədri və Erməni Assambleyası Direktorlar Şurasının sədridir.

Hüquqşünas Qriqoryan bəyan etdi ki, Sovet İttifaqının, genosidin və bir sıra başqa səbəblərin ucbatından ermənilər və türklər ehtiyac olan müxtəlif taleyüklü məsələləri müzakirə etmək və aradakı fərqləri həll etmək üçün heç vaxt imkan tapmamışdır. O deyir ki, erməni baxışını qəbul etmək üçün onlar Birləşmiş Ştatlar hökumətinə lobbiçilik etmiş, erməni mövqeyinin türk hökumətinə və digər ölkələrə çatdırılmasını istəmişlər.

Bu adam necə həmin komissiyanın yaxşı üzvü ola bilər ki, eyni zamanda o, saxta genosidi Birləşmiş Ştatlar hökumətinin tanıması istiqamətində iş aparır? Erməni hüquqşünası bəyan etmişdir ki, Beynəlxalq Tətbiqi Ədalət Mərkəzi erməniləri və türkləri bir-birindən ayıran qanuni mətləbləri aydınlaşdırmaq işini maliyyələşdirməyə hazırlaşır. O, həmin üzdəniraq barışıq komissiyasını özünün yaşadığı Nyu-York şəhərində yerləşdirmişdir. Komissiyanın Nyu-York şəhərində yerləşməsi səbəbini o, Beynəlxalq Tətbiqi Ədalət Mərkəzinin həmin şəhərdə olma-

Azərbaycan Milli Kitabxanası

sı ilə izah edir. Ermənilərin tələbləri əsasında türklərin hər şeyi etməli olduğuna əsaslanaraq belə bir sual verilə bilər: O necə Beynəlxalq Mərkəzdir ki, Türkiyəyə heç nə vəd etməyən bir cırtdan ölkənin birtərəfli saxta mövqeyini müdafiə edir? Əgər onlar öz çirkli əllərini türk ciblərinə soxan Ermənistanı müdafiə edirsə, onda ədaləti necə müdafiə edə bilərlər? Türklərin barışığa ehtiyacı yoxdur - onların istədiyi yalnız budur ki, qonşusu özünü "sivil" ölkə kimi aparsın və öz terrorçu fəaliyyətinə son qoysun.

Ermənilər haqqında Qriqoryan deyir ki, "Birləşmiş Ştatlarla daimi əlaqələr - inanırıq ki, həmin əlaqələr daha da inkişaf edəcəkdir - və Rusiya ilə daimi əlaqələr". Bu hüquqşünasın demək istədiyi budur ki, 1918-ci ildə onların cırtdan ölkəsi yaradılandan sonra Ermənistan hər iki tərəflə oyun qurmuşdur və heç nə vermədən nəsə almaq adlı bu ikibaşlı siyasət bundan sonra da davam etdiriləcəkdir. Bu cəhdə fikir verin: Erməni hökuməti iddia edir ki, onlar özlərini türklərdən müdafiə etmək üçün rusları öz ölkələrinə dəvət etmişdir. İndi isə bu Nyu-York ermənisi iddia edir ki, onların həm Birləşmiş Ştatlar, həm də Rusiya ilə işləmək imkanı vardır. Bu, eyni zamanda, hər iki tərəfin adından öz ağzı ilə danışmaq imkanı erməni bacarığının daha bir klassik nümunəsidir.

Təəssüf hissi ilə demək lazımdır ki, daha nəsə qoparmaq üçün daha kimisə tapmaq kimi erməni taktikaları gələn nəsillər boyu da davam edəcəkdir. Görün Qriqoryan bu barədə nə deyir: "Kimisə öz ailəmiz hesab etməyimizə bizim hər hansı birimizin nə sözü ola bilər? Hər bir münasib məqamda mən özümü uşaqlarım haqqında düşünən görürəm; uzun müddət ərzində biz Vaşinqtonda lobbiçiliklə bağlı iş aparırıq. Mənim uşaqlarım böyüyəndə eyni strategiyanı işlədərək və eyni kərpic divarları döyəcləyə-döyəcləyə eyni işləri görəcəklərmi? Və ya onlar elə bir yeni cığır açacaqlar ki, müasir əlaqələri nəzərə alaraq Türkiyə tərəfindən blokadaya alınan Ermənistandakı ermənilər həmin cığırı daha münasib sayacaqlar?". Aydındır ki, Qriqoryanın mövqeyi və uşaqlarını təlim etməsinə əsasən demək olar ki, heç nə dəyişməyəcəkdir.





Yer üzünün müsəlmanları Birləşmiş Ştatların həqiqət və ədalət bahasına Ermənistanı müdafiə etdiyini anlayır. Dünya müsəlmanları başa düşür ki, Amerika Azərbaycana xarici yardımı kəsmişdir, çünki Konqresə əli çatan erməni-amerikan lobbiçiləri Azərbaycana qeyri-qanuni embarqo qoyulmasına nail olmuşdur. Axı, Ermənistana göndərilən hərbi yardımın Azərbaycan ərazisindən daşınmasından, ölkənin liman və yollarından istifadə olunmasından Azərbaycan imtina etmişdir! Birləşmiş Ştatların belə qərar çıxararaq Azərbaycana xarici yardımın kəsilməsinin bu məsələyə nə dəxli var? Əgər Meksika bizə hücum etsəydi, sonra isə hərbi ləvazimat almaq üçün Texas ştatının limanlarından istifadə etmək istəsəydi Birləşmiş Ştatlar eyni cür hərəkət etməzdimi? Hər bir ağlı başında olan adam razılaşar ki, əgər biz Meksika ilə müharibə vəziyyətinə olsaydıq və Meksika hərbi ləvazımatını bizim limanlarda qəbul edib yayacaqdısa, buna Birləşmiş Ştatlar heç vəchlə icazə verməzdi...

Hər bir xristian amerikan özündən xəbər almalıdır ki, "xristian" Ermənistanı və Qarabağı nə sayaq yerdir? Xristianlar faktlara əsaslanaraq özlərindən soruşmalıdır ki, onların milyardlarla vergi dolları Ermənistana axmaqda davam etməlidirmi? Məgər Birləşmiş Ştatlar müsəlman Azərbaycanına ayrı-seçkiliklə yanaşmaqda davam etməlidir ki, nə var-nə var "xristian" Ermənistanı 1.4 milyard dolları sərf edərək Birləşmiş Ştatların Konqres üzvlərini seçkilər vaxtı satın alaraq onlara təsir göstərməyə cəhd etsin?

Ermənilər hələ də öz işindədir, müsəlmanları torpaqlarından təmizləməkdə davam edirlər, bu, yalnız ona görə belədir ki, müsəlmanların Allaha inamı onlardan fərqlidir. Sərhəd boyunca snayperlər işlədərək azərbaycanlıları vahiməyə salan və onları köçməyə məcbur edən ermənilər irəli sürünə bilər ki, sonra bir qara qəpik də ödəmədən Azərbaycan torpaqlarını qarışbaqarış qamarlasınlar. Müsəlmanları qətlə yetirəndə, onların mal-qara sürülərinin axırına çıxanda olduğu kimi. Sivil dünyanın heç bir yerində belə davranış yoxdur və Amerika bu cür terrorçu ölkəyə sədəqə verməyi dayandırmalıdır!

Azərbaycan Milli Kitabxanası

## *ERMƏNİSTAN - TERRORÇU "XRİSTİAN" ÖLKƏNİN GİZLİNLƏRİ*

İyirminci əsr başlayandan bəri ermənilər Birləşmiş Ştatlar və dünya xristianlarından milyardlarla dollar pul qırxmaq üçün saysız-hesabsız kampaniyalar aparmışdır. Birləşmiş Ştatlarda müsəlmanların (türklərin - Z.A.) azsaylı olması burada amerikan-erməni lobbiçilərinin əl-qolunu açmışdır. Heç kəs saf-çürük etməmişdir ki, Ermənistan həqiqətən də iddia etdiyi kimi xristian ölkəsidir, ya yox. Bu kitab ermənilərin guya müstəqil və azad ölkə qurması haqqındakı iddialarını alt-üst edir. Kitabda həm də özlərini xristian hesab edən ermənilərin əsl mahiyyəti açıqlanır.

Ermənilərin fırıldaq, kələk, saxtakarlıq, təhqir, qırğınlar və terrorçuluqla dolu hərəkətlərinin uzun siyahısı bu kitabda sənədləşdirilmişdir. Bunlar elə erməni gizlinləridir ki, onlar xristian dünyasının bunu bilməsini istəmirlər, lakin onlar erməni mənbələrinə əsasən, burada faş edilir. Saxta erməni nağıllarına əsaslanaraq pul və ya digər ölkələrin əleyhinə yönəldilmiş mənasız sənədlərə səs verməzdən əvvəl hər bir xristian və ictimai xadim bu kitabı oxumalıdır. Ermənilərin iddiasının əksinə olaraq Ermənistanın əleyhinə Türkiyə heç bir "genosid" törətməmişdir. Yalnız xristian millətlərdən rəğbət və yardım qazanmaq üçün ermənilər bu saxta nağılı uydurmuşdur. Digər ölkələrə erməni hücumlarının həmin dövlətin rəsmi siyasəti olması haqqında kitab boyu birbaşa sübutlar gətirilmişdir. Son illərdə bütün dünya ölkələrində insanlara erməni hücumları edilmiş və qətllər törədilmişdir. Kitab müəllifinin sənədləşdiyi inkaredilməz həqiqət erməni mənbələrinə əsaslanır. Tamamilə aydındır ki, çoxlu xarici yardım almaq üçün əsas məqsəd kimi Ermənistan saxta "genosid sənayesi" yaratmışdır. Həqiqəti özü üçün aydınlaşdıran hər bir oxucu düşünməlidir ki, İsus Xrist adından müsəlman dünyasına qarşı edilmiş böyük səhvi düzəltmək üçün hər bir adam hansı əlavə hərəkəti etməlidir.

***Samuel A.UİMZ. Ermənistan terrorçu "xristian" ölkənin gizlinləri. Bakı, 2004, s. 362-304. Tərcümə edəni: Zeydulla Ağayev.***





# BU KİTAB NECƏ ƏRSƏYƏ GƏLDİ

Azərbaycan Milli Kitabxanası

Bu kitabın hazırlanması qərarı nədən ortaya çıxdı? Yəqin oxucularımız üçün də maraqlıdır. Professor Vaqif Arzumanlı ilə keçən il İqdıra səfər etmişdik. Bu səfər zamanı qərara gəldik ki, ermənilərin İqdırda türklərə qarşı törətdiyi vəhşiliklərin sübutları olan kəndlərə gedək, oradakı toplu məzarlıqları ziyarət edək. Getdik və bu ziyarət zamanı mən bir daha əmin oldum ki, dünyanın ən dözümlü milləti bizik. Bu qədər vəhşiliklərə şahid olasan, amma bu qədər humanist və barışçı olasan.

Və elə həmin vaxt professor Vaqif Arzumanlı ilə qərara gəldik ki, biz bu günümüzə qədər ermənilərin millətimizə qarşı törətdiyi vəhşilikləri əks etdirən sübutları, faktları kitab halına gətirək. Kitabın sonunda verilmiş ədəbiyyatın siyahısını da görən oxucumuz biləcək ki, biz bu günə qədər sözügedən olaylarla bağlı yazılan əsərlərdən istifadə etməklə bir daha millətimizin yaddaşını təzələmək istəmişik. Kitabın adının üzərində də çox düşündük. Necə bir ad seçək ki, orada bütün demək istədiklərimiz və bu kitabdakı tarixi faktlar əks oluna bilsin? Açığı, ad seçimi üzərində fikir ayrılıqlarımız da oldu. Amma oxuduğunuz kitabın üzərindəki bu ad da bütün türk dünyasının dərdlərinin bir olduğunu ortaya qoymaqla həyəcan təbili çalır. Yəni bu gün Türkiyədə, Azərbaycanda ermənilər tərəfindən törədilən soyqırım tək bizim dərdimiz, acımız deyil, o, qazağın da, özbəyin də, türkmənin də, bir sözlə, bütün türk xalqlarının acısıdır və bu soyqırım bütün türk millətinə qarşı törədilib və törədilir. Ad da məhz bunun üçün belə seçildi. Qoy bütün türk dünyası "Böyük Ermənistan" xülyasını gerçəkləşdirmək üçün müxtəlif vasitələrə əl atan, hətta körpə uşaqları belə öldürən, asan, kəsən ermənilərə qarşı bir yumruq kimi birləşsin. Və bir daha oxucularımıza demək istədik ki, "Böyük Ermənistan" xülyası ilə yaşayan ermənilərin mücadiləsi illərlə davam etmiş və etməkdədir. Ümumiyyətlə, bu olaylarla bağlı yazılmış və bu kitabda sitatlar gətirilmiş əsərləri bir daha oxuduqdan sonra anladım ki, biz hələ çox işlər görməliyik. Ən azından işğal olunmuş torpaqlarımıza - Xankəndinə, Şuşaya, Laçına, Kəlbəcərə, Ağdərəyə, Ağdama,

Qubadlıya, Zəngilana, Dərələyəzə, Göyçəyə və s. qayıtmaq üçün.

Neçə il bundan öncə anamla dekabrın son günlərində qısa bir söhbətim olmuşdu. O söhbətin üstündən neçə illər keçməsinə baxmayaraq, anamın o göz yaşları və danışarkən qısılan, titrəyən o səsini unuda bilmirəm. Əslində, həmin söhbəti oxucularımıza da çatdırmağı özümə borc bildim. Çünki torpağını, elini, oğullarını illərlə zəhmətlə qurub yaratdığı ev-eşiyini tarmar görməyin nə demək olduğunu bu iki cümlə ifadə edir.

2001-ci ilin 28 dekabrı idi. Anam çox qəmgin görsənirdi. Qardaşım dekabrda rəhmətə getdiyinə görə, ailəmiz bu ayı bizim üçün uğursuz hesab edir. Mən anamın qardaşımı xatırladığını düşünmüşdüm. Ürək-dirək verdim. Amma tam fərqli bir fikir eşitdim: "Mən oğlumu yox, doğulduğum yurdumda qoyub gəldiyim ata-babalarımın məzarına, itirilmiş torpaqlara, ləkələnmiş namuslara ağlayıram".

Anamın bu sözləri məni olduqca təsirləndirmişdi və həmin günü anamın ailəmizin və mənim kimi doğulduğu yurdunu itirən yüz minlərin hissini ifadə etməyə çalışdım öz yazımda. Bilmirəm nə dərəcədə bacarmışdım. Amma anam yazımı oxuyarkən ağlamışdı. Bu kitab hazırlananda da düşündüm ki, o yazını da olduğu kimi oxucularımıza çatdırım. Qoy hər kəs bilsin ki, mən və mənim kimi yerindən-yurdundan didərgin düşmüş insanlar hər gecə, hər səhər, hər gün ağlayırlar, o yerlərə qayıtmaq üçün. Ana, yaxud da əksinə, bala, bir-birinə qovuşmaq üçün necə həsrət çəkirsə, ağlayırsa, bax, eləcə.

Yazını təqdim etməmişdən öncə isə kitabın araya-ərsəyə gəlməsində əməyi olan hər kəsə - zəhmət çəkib bu kitaba ön söz yazan Türkiyə Böyük Millət Məclisinin keçmiş sədri, ölkənin keçmiş xarici işlər naziri Hikmət Çətinə, "Azərsun Holdinq" Şirkətlər Qrupuna, Şişli bələdiyyəsinin başqanı Mustafa Sarıgülə, İqdır bələdiyyəsinin başqanı Nurəddin Araza, kitabın elmi redaktoru, eyni zamanda dərc edilən bəzi şəkilləri bizə təmənnasız təqdim edən vətənpərvər, milli mənafeləri hər şeydən üstün tutan dəyərli ziyalımız professor Musa Qasımlıya, Elçin Ağayevə, bir sözlə, zərrə qədər də olsa bu iş üçün əmək sərf edən hər kəsə təşəkkür edirik.





# MƏNİM O YERLƏRƏ GETMƏYİM GƏLİR...

Bu ili də başa vurduq. Yenə də bölünmüş, parçalanmış şəkildə. Bir tərəfdə Zəngəzur, Göyçə, bir tərəfdə Qarabağ qan ağlayır. Düşmən tapdağı altında inləyən torpaqlarımız, babalarımızın əsir ruhu bizi çağırır, bizi haraylayır...

Hər gecə yuxularımda görürəm o yerləri - Dəlidağı, Murovdağı, Taxtabaşını...

Dəlidağın gözünün kökü saralmayıb, çiçəkləri saralıb...

Murovun dərddən qovrulmuş qapqara qayaları həsrətdən göyərib...

Taxtabaşının çəkdiyi ah başından çəni əskik eləmir...

Tanrı dərdi çəkə bilənə çəkəcəyi qədər verir. Bizə yaman qıyıb, çəkəcəyimizdən artıq dərd verib...

İlahi, daha dözə bilmirəm!

Hər gecə Xangələnə çıxıram, yanmış evlərimizə, ot-ələf basmış kəndimizə baxıram. Dağıdılmış qəbiristanlığımızda ağlaşan ruhları görürəm.

Daha bir-birimizə Xarı bülbülü nişan verə bilmirik. Çünki Şuşasız Xarı bülbül bitmir.

İndi Şuşasız qəlbimizdə dərdlərimiz çiçəkləyir. İndi çiçəkləyən dərdimizdən düzəltdiyimiz çələnglərdi gün boyu alıb-verdiyimiz, toya, yasa apardığımız...

Dözə bilmirəm! Quş olub o yerlərə getmək istəyir anam. Deyir, qocalmışam, yaxınlarda öləcəm... Möcüzə istəyir.

Dözə bilmirəm! Qarabəxtli Qarabağım, Zəngəzurum, Göyçəm heyy! Sizi görmək istəyirəm! Ürəyim parçalanır, qara qanlar axır qəlbimdən, ay ellər! Məni qurtarın bu ağrıdan, bu bəladan! Məni Qarabağa götürün, parça-parça olmuş torpaqlarıma götürün. Ac qalmaq, susuz olmaq yox, ölmək istəyirəm. Qarabağsız ölməkmi olur? Qarabağsız yaşamaqmı olur?

Məni ora aparın, elə bilin ki, dilənçiyə bir pay verirsiniz. Lap əlli yaşında kişilərimizi, biz qadınları da müharibəyə aparın!

Köməksizəm - lap o dilsiz çağalar, şikəst qocalar, Vətənsiz qərib-



Azərbaycan Milli Kitabxanası

lər misalı!

Dəli olmuşam. Torpağı düşmən tapdağı, ocağını düşmən qızdıran, sinəsi Vətəndağlı qaçqınlarım milyonu ötübsə, dəli olmayım, bəs neyləyim? Ölməyim, neyləyim? Yurdsuz-yuvasız, "öz yurdumda qərib" suyam - Sakarya misallı! Yurduma - Qarabağıma axmaq istəyirəm, şəhid qanlarını yumaq, alışan obaları söndürmək, quruyan ağacları diriltmək, saralan yarpaqları göyərtmək istəyirəm. Bala, ər, ata dağıyla köz-köz olan ürəklərə bir sərinlik olmaq istəyirəm, ola bilmirəm. Bu oda sumu dözər?

***Dərdimi suya dedim,***
***Alışdı, su da yandı...***

İndi, ilin son gecəsində sevligi vətənimin Zəngəzur, Göyçə, Qarabağ səmtində bir ağlaşma qurulub.

İndi ilin son gecəsini bizsiz keçirəcək xaraba qalmış o yurdlar.

İndi erməni əsirliyindəki Vətən övladları nə edəcək? Sərxoş ermənilərin təhqirlərinə o bayram gecəsi necə dözəcəklər? Yəqin xəyallar quracaqlar, geri dönəcəklər. Neçə illər öncə qeyd edilən bayramlar canlanacaq xəyallarında.

Yazıqlar olsun bizə! Mən də əsir düşmək istəyirəm: niyə onlar zülm çəkməlidi, mən yox?

Qışın bu oğlan çağında üz tutmaq istəyirəm Qarabağa - qoy məni öldürsünlər, assınlar, kəssinlər...

"Qoy, məni öldürsünlər bir ovuc torpaq üstə..."

Görürsünüzmü ürəyimdən axan qanı? Görürsünüzmü gözlərimdən axan yaşı? Qarabəxtli Qarabağım! Heç olmasa, sən hay ver mənim harayıma, eşidirsiz, sizə səslənirəm tikələnmiş Azərbaycanım: Şuşam, Laçınım, Kəlbəcərim, Zəngəzurum, Göyçəm, Zəngilanım, Ağdamım, Füzulim, Cəbrayılım, Qubadlım, Ağdərəm, Xankəndim - Qarabağım! Azərbaycanım!

**Xoşqədəm Baxşəliyeva,**
***"Üç nöqtə", 29 dekabr 2001-ci il***





# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


**1.** M.Sədi Koçaş. Tarixdə ermənilər və türk-erməni münasibətləri. Bakı, "Azərbaycan Ensiklopediyası", 1998 **s. 9.**

**2.** Mayevski. Rusiyanın Van və Ərzurumdakı Baş konsulu Mayevskinin xatirələri. Bakı, "Şərq-Qərb", 1994 **s. 3.**

**3.** Yenə orada..., **s. 7.**

**4.** Yenə orada..., **s. 8.**

**5.** Azərbaycanlıların soyqırımı haqqında. Azərbaycan Respublikası Prezidentinin 26 mart 1998-ci il fərmanı. - "Azərbaycan", 27 mart 1998-ci il.

**6.** "Xalq qəzeti", 28 mart 2001-ci il.

**7.** İsmayıl Vəliyev. Milli qarşıdurma və erməni problemi. - M.Sədi Koçaş. Tarixdə ermənilər və türk-erməni münasibətləri. Bakı, "Azərbaycan Ensiklopediyası", 1998.

**8.** M.Sədi Koçaş. Tarixdə ermənilər və türk-erməni münasibətləri. Bakı, "Azərbaycan Ensiklopediyası", 1998.

**9.** Məmməd Səid Ordubadi. Qanlı illər 1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi. Bakı, 1992;

İ.Məmmədov, S.Əsədov. Ermənistan azərbaycanlıları və onların acı taleyi. Bakı, "Azərbaycan", 1992;

Mir Möhsün Nəvvab. 1905-1906-cı illərdə erməni-müsəlman davası, Bakı, 1993;

Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, Gənclik, 1995.

Vaqif Arzumanlı, Vəli Həbiboğlu, Kamil Muxtarov - 1918-ci il qırğınları. Bakı, "Öyrətmən", 1995; Deportasiya Azərbaycanlıların Ermənistan ərazisindəki tarixi etnik torpaqlarından deportasiyası. Bakı, "Azərbaycan Ensiklopediyası" NPB, 1998;

Vaqif Arzumanlı, Nazim Mustafa. Tarixin qara səhifələri. Deportasiya, soyqırım. Qaçqınlıq. Bakı, "Qartal", 1998; Vəli Həbiboğlu. Azərbaycanlıların soyqırımının təşkilatçısı. Bakı, Qartal, 2001; Vaqif Arzumanlı. Tarix siyasətin-siyasət tarixin dili ilə. Bakı, Qartal, 1999; Aslan Xalilov. Геноцид против мусульманского населения Закавказья в исторических источниках. Баку, Азернешр, 2000.

Ataxan Paşayev. Açılmamış səhifələrin izi ilə. Bakı, "Azərbaycan", 2001; Гарабаглы Салех бей. Ходжалинский геноцид. Баку, 2001;

Teymur Əhmədov. Erməni xəyanəti və ya Andranik Ozanyanın qanlı əməlləri. Bakı, Şirvannəşr, 2001;




Azərbaycan Milli Kitabxanası

İsrafil Məmmədov. Tariximiz. Torpağımız. Taleyimiz. Bakı, "Adiloğlu", 2002;
Sabir Asadov, İsrafil Mamedov. Терроризм. Причина и следствие. Baku, "Азербайджан"; 2001.
Vəli Həbiboğlu. Terrorçu Andranik və "Böyük Ermənistan" xülyası. Bakı, "Gənclik", 2002;
Cəlal Əliyev, Budaq Budaqov. Türklər, azərbaycanlılar, ermənilər: Tarixi həqiqətin soyqırımı. Bakı, "Azərbaycan", 2003.
Vaqif Abışov. Azərbaycanlıların soyqırımı (1917-1918-ci illər). Bakı, "Nurlan", 2007.
**10.** Сергей Глиника. Описание переселения армян Азербайджанских в пределы России. Москва, Типография Лазаревых, 1831.
И.Г.Чавравадзе. Армянские ученные и вонющие камни. Тифлис, 1902.
В.Л.Величко. Кавказь. Русское дело и междуплеменные вопросы. С.Петербург, 1904;
Бондо Арвеладзе. "Армянские" или грузинские церкви в Грузии. Тбилиси, 1998.Жорж де Малевил. Армянская трагедия 1915 года. Баку, Элм, 1990.
Ильгар Мамедов. Тофик Мусаев. Армяно-азербайджанских конфликт. История, право, посредничество. Тула. 2006.

### *I Fəsil*

**1.** Vəli Həbiboğlu. Terrorçu Andranik və... **s.23.**
**2.** N.N.Şavrov. Новая угроза русскому делу в Закавказье. Баку, Элм, 1990, **c.96.**
**3.** İsrafil Məmmədov. Tariximiz. Torpağımız. Taleyimiz. Bakı... Adiloğlu, 2002, **s.268.**
**4.** Yenə orada... **s.270.**
**5.** В.Гурко-Крйажин. Erməni məsələsi. Bakı, 1990, **s. 11.**
**6.** İsrafil Məmmədov... **s. 282.**
**7.** M.Sədi Koçaş. Tarixdə ermənilər və türk-erməni münasibətləri. Bakı, "Azərbaycan Ensiklopediyası", NPB, 1998, **s.79.**
**8.** Жорж де Малевил. Армянская трагедия 1915 года. Баку, Элм, 1990, **c.79.**
**9.** А.Лалаян. Контрреволюционный "Дашнаксутюн" и империалистическая война 1914-1918 гг. - История Азербайджана по документам и публикациям. Баку, Элм, 1990, **c.83.**
**10.** В.Л.Величко. Кавказь. Русское дело и междуплеменные вопросы. Баку, Элм, 1990, **c.107.**





**11.** И.Г.Чавчавадзе. Erməni alimləri və fəryad edən daşlar. Bakı, "Azərbaycan", 1995, **s.4.**
**12.** Nizami Məmmədov. Erməni təcavüzü və tarixi haqda qətllər. Bakı, "Şuşa", 2000, **s.42.**
**13.** Rusiyanın Van və Ərzurumdakı Baş konsulu Mayevskinin xatirələri. Bakı, "Şərq-Qərb", 1994 **s.**
**14.** Qafar Çaxmaqlı. "Erməni məsələsi" necə meydana çıxdı? - "Elturan" ("Milli məsələləri") 1993, № 1-2, **s.50.**
**15.** İ.Məmmədov, S.Əsədov. Ermənistan azərbaycanlıları və onların acı taleyi. Bakı, "Azərbaycan", 1992, **s.130.**
**16.** Шавров Н.И. Новая угроза русскому делу в Закавказье, Баку, Элм, 1990.
**17.** Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989, **s.283.**
**18.** Ениколопов И.К., Грибоедов и Восток. Ереван, 1954, **c.129.**
**19.** Yenə orada..., **s.263.**
**20.** AKAK. VII t., **s.563.**
**21.** Глиника Н.С. Описания переселения армян азербайджанских в пределы России. Москва, 1831, **c.107.**
**22.** AKAK, VII **s.568.**
**23.** Yenə orada... **s.586.**
**24.** Глиника Н.С. Описания переселения армян... **c.11.**
**25.** Yenə orada.
**26.** Шопен И., **c.642.**
**27.** Zeynal Vəfa. Bu adi fərman deyil əsl vətəndaş fəryadıdır. "Azərbaycan", 24 Yanvar, 1998-ci il.
**28.** Vaqif Arzumanlı, Nazim Mustafa. Tarixin qara səhifələri. Bakı, Qartal, 1998, **s.33.**
**29.** Kırzoğlu F.Surmeli Tuzluca Ayrımları. Türk dili dergisi, 1964, I ç. **s.826.**
**30.** Kemal Beydilli. 1828-1829. Osmanlı-Rus savaşında Doğu Anadoludan Rusiyaya köçürülen Ermeniler... Ankara, 1986, **s. 384-385.**
**31.** AKAK, VII, c.**sənəd 818.**
**32.** Yenə orada... **sənəd 820.**
**33.** Yenə orada... **sənəd 821.**
**34.** Kemal Beydilli. Göstərilən əsəri... **s. 386.**
**35.** Yenə orada... **sənəd 387.**
**36.** Yenə orada... **sənəd 442.**
**37.** AKAK, VII cild, **sənəd 830.**
**38.** Hovanesyan. Armenia on the Road to İndependence. Los Angeles, 1976, **s.9.**
**39.** Собрание актов... I c. **s.59.**



Azərbaycan Milli Kitabxanası

**40.** Езов. Г.А. Göstərilən əsəri. **s.39.**
**41.** Шопен И. Göstərilən əsəri... **s.636-642.**
**42.** Обозрение Российских владений за Кавказом... СПБ, 1836, II hissə, **s.302-304.**
**43.** Балаян Z.Oçaq. Erevan, 1984, **s.273.**
**44.** Обозрение Российских владений за Кавказом... IV c. **s.270.**
**45.** Материалы для изучения экономического быта государственных крестьян Закавказского края. Tiflis, 1895. II vıp. **s.4.**
**46.** Шопен И. Göstərilən əsəri... **s.642.**
**47.** Шавров Н. Göstərilən əsəri... **s.63.**
**47a.** Musa Qasımlı. Heydər Əliyev - İstiqlala gedən yol (1969-1987-ci illər). Bakı. 2006. **s.364.**
**48.** Yenə orada... **s.64.**

### *II Fəsil*

**1.** AMEA Milli Münasibətlər İnstitutunun direktoru, Filologiya elmləri doktoru, professor Vaqif Arzumanlının çıxışı. - Tariximizin faciəli səhifələri. Soyqırım. Bakı, Azərbaycan Respublikası Milli Məclisinin nəşri, 2000, **s.42.**
**2.** Mir Möhsün Nəvvab. 1905-1906-cı illərdə erməni-müsəlman davası. Bakı, "Azərbaycan", 1993, **s.14.**
**3.** Yenə orada..., **s.4.**
**4.** Yenə orada... **s. 20.**
**5.** Vaqif Arzumanlı. Tarix siyasətin - siyasət tarixin dili ilə. Bakı, "Qartal", 1999, **s.274.**
**6.** Məmməd Səid Ordubadi. Qanlı illər. Bakı, 1991, **s.9.**
**7.** Величко В.А. Кавказ. Русское дело и междуплеменные вопросы. СПб., 1904, **c.96.**
**8.** Армянский геноцид. Миф и реальность. Баку. 1992. s. 204. Hüseyn Baykara. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, 1992, **s. 119-120.**
**9.** Шавров Н.Н. Göstərilən əsəri... **s.64.**
**10.** Дашнаки. Баку, 1990, **s.8.**
**11.** Величко В.Л. göstərilən əsəri... **s.137.**
**12.** Azərbaycan respublikası Tarix arxivi. F. 25. **s2, inv.208.**
**13.** Дашнаки. Баку, 1990, **s.11.**
**14.** Cahangir Zeynaloğlu. Müxtəsər Azərbaycan tarixi. Bakı, 1992. **s.106.**
**15.** Ordubadi M.S. Qanlı illər. Bakı, 1991. **s.7.**
**16.** Yenə orada... **s.119.**





**17.** Заварян С. Экономические условия Карабаха и голод 1906-1907 гг. СПб, 1907, **c.61.**
**18.** Ordubadi M.S. göstərilən əsəri, **s.105-106.**
**19.** Yenə orada... **s.113.**
**20.** Yenə orada... **s.115.**
**21.** Yenə orada... **s.140.**

### *III Fəsil*

**1.** Bu fəslin yazılmasında V.Arzumanlı və N.Mustafanın 1998-ci ildə nəşr olunmuş "Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq" kitabından istifadə olunmuşdur.
**1a.** Готлиб В.В. Тайная дипломатия во время первой мировой войны. М. 1960, **c.56.**
**2.** Süleyman Koçabaş. Tarih və Türk-Rus Mücadilesi. İstanbul. 1989, **s.376.**
**3.** Гурко-Кряжин. Erməni məsələsi... **s.12.**
**4.** Süleyman Koçabaş... Göstərilən əsəri... **s.383.**
**5.** Арутюнян А.Кавказский фронт. 1914-1917 гг. Ереван, 1971, **s. 346.**
**6.** Шахдин И. Дашнакцутюн на службе белогвардейшины и английского командования на Кавказе. Б. 1990, **c.6.**
**7.** Арутюнян А. Göstərilən əsəri... **c.359.**
**8.** Качазуни Ов. Дашнакцутюн больше нечего делать? Б. 1990, **c.14.**
**9.** Готлиб в.в. Göstərilən əsəri... **s.98.**
**10.** Арутюнян А. Göstərilən əsəri... **s.52.**
**11.** Вах: "Революционный Восток", 1936, „ **23.**
**12.** Арутюнян А. ... göstərilən əsəri ... **s.53.**
**13.** Ов. Качазуни. Göstərilən əsəri... **s.10.**
**14.** Арутюнян А. göstərilən əsəri... **s.56.**
**15.** Yenə orada... **s.315.**
**16.** Yenə orada... **s.287.**
**17.** История Азербайджана по документам и публикациям. Баку, 1990, **s.95.**
**18.** Арутюнян А. göstərilən əsəri... **s.297.**
**19.** Yenə orada... **s.298.**
**20.** Yenə orada... **s.304-305.**
**21.** "Армянский геноцид". Миф и реальность. Баку, 1992, **c.229.**
**22.** Zeynalabdin Makas. "Tarix", № 19, 1991.
**23.** Süleyman Koçabaş. Göstərilən əsəri... **s.392.**



Azərbaycan Milli Kitabxanası

**24.** Жорж. де Малевия. Армянская трагедия 1915 г. Баку, 1990, **с.35.**
**25.** Арутюнян А., Göstərilən əsəri... **s.316.**
**26.** Yenə orada... **s.313.**
**27.** Yenə orada...
**28.** Шаумян С. Seçilmiş əsərləri. Bakı, 1978, **s.16.**
**29.** Арутюнян А. Göstərilən əsəri. **s.319.**
**30.** Cəmil Həsənov. Azərbaycan Beynəlxalq Münasibətlər Sistemində. Bakı, 1993, **s.204.**
**31.** Kırcıoğlu F. Kars tarihi. İstanbul, 1953, **s.554.**
**32.** Məmməd Sadiq Aran. Qardaşlıq köməyi. "Ədəb. və inc.", 2 oktyabr, 1990-cı il.
**33.** Bəxtiyar Nəcəfov. Düşmənin üzü (rus dilində). Bakı, 1993, **s.355.**
**34.** "Həyat", 12 may 1992-ci il.
**35.** Məmməd Sadıq Aran. Göstərilən məqalə.
**36.** Yavuz Aslan. "Millət" qəzeti, 23 may 1992-ci il.
**37.** Fahrettin Erdoğan. Türk ellerində hatıralarım. İstanbul, 1954, **s.126.**
**38.** Yenə orada... **s.133.**
**39.** Киракосян Дж. Младотурки перед судом истории. Ереван, 1986, **с.224.**
**40.** История Армянского народа. Ереван, 1980, **с.268.**
**41.** Ermənilər haqqında... Ankara
**42.** Документы и материалы... Тифлис, 1919, **с.16.**
**43.** Yenə orada... **s.24.**
**44.** Погосян А. Карсская область в составе России, 1983, **с.192.**
**45.** Документы и материалы... **с.45.**
**46.** История Азербайджана... Баку, 1990, **s.167.**
**47.** Документы и материалы... **с.384.**
**48.** Gokdamir Ahmet. Cenubi Garl, Kafkaz Hukumeti. Ankara. 1989, **s.15.**
**49.** Документы внешней политики СССР... **с.200.**
**50.** ARDA. F. 970, **s.1, iş.1, v.29.**
**51.** Kırzıoğlu Fahrettin... Göstərilən əsəri, ... **s.85.**
**52.** Yenə orada... **s.87.**
**53.** Yenə orada... **s.45.**
**54.** Yenə orada... **s.46.**
**55.** Cəmil Həsənov. Göstərilən əsəri... **s.71.**
**56.** Yenə orada... **s.72.**
**57.** Fahrettin Erdoğan. Göstərilən əsəri... **s.155.**
**58.** Kazım Karabekirin Kaleminden... Ərzurum. 1990, **s.371.**





**59.** Кирокосян Дж. Göstərilən əsəri... **s.239.**
**60.** Yenə orada...
**61.** "Армянский геноцид"... **с.203.**
**62.** Дяконов И. История армянского народа. Ереван, 1968, **с.237.**
**63.** Шавров Н. Новая угроза русскому делу... **с.61.**
**64.** Грибоедов А.С. Изв.произв. Москва, II Т. 1977, **æ.399-444.**
**65.** Ишханян Б. Народы Кавказа. Петроград, 1916, **с/.18.**
**66.** Орбели И. Изб. Сочин. Ереван, 1963, **с.358.**
**67.** Абегян М. Ист. Арм. Литературы. Ереван, 1975, **с. 11.**
**68.** Müxtəsər Azərbaycan tarixi. Bakı, 1992, s. 110.
**69.** История. Азербайджана по дакументам... **с.187.**
**70.** Qafqaz Azərbaycan Respublikası. Paris, 1919, **s.21.**
**71.** "Azərbaycan", № II, 1993.
**72.** Rəsulzadə M.Ə. Azərbaycan Xalq Cümhuriyyəti, 1990, s.37.
**73.** Əhməd Təbrizli. DQ tarixi və ona dair sənədlər, Strasburq, 1989.
**74.** "Azərbaycan", 31 mart 1919-cu il.
**75.** "Vətən səsi", 26 mart 1993-cü il.
**76.** İsmayıl Musayev. Göstərilən əsəri... **s.59.**
**77.** "Zaman", 25-28 aprel 1998-ci il.
**78.** Nasir Yucer. "Zaman", 28 aprel 1998-ci il.
**79.** H.Sadıqov, S.Mirzəyev, E.Məmmədov. AXC Gəncə dövrü. Gəncə, 1998, **s.52.**
**80.** "Zaman", 16 may 1998-ci il.
**81.** Yenə orada...
**82.** Yenə orada...
**83.** Yenə orada...
**84.** "525-ci qəzet", 3 noyabr 1998-ci il.

### *IV Fəsil*

1. Deportasiya. Göstərilən əsər... **s.125.**
2. AKAK, 1866, **s.801.**
3. AKAK. 1867-1869.
4. Военная Энциклопедия. СПб. 1912, **s.587.**
5. AKAK, III c, **s.435.**
6. Yenə orada... **s.437.**
7. Yenə orada... **s.917.**
8. Yenə orada... **s.1447.**
9. Yenə orada. IV **s.681.**
10. Шопен И. Göstərilən əsəri... **s.446.**
11. AKAK, VII c, **s.443.**



Azərbaycan Milli Kitabxanası

12. Yenə orada, **s.440.**
**13.** Собрание актов... I c. **s.54.**
**14.** AKAK. VII c. **s.512.**
**15.** Yenə orada... **s.438.**
**16.** Собрание актов... I h. 1833, **s.179.**
**17.** Шопен И. Göstərilən əsəri... **s.510.**
**18.** Yenə orada... **s.542.**
**19.** ARDA F.28, s.I., **iş 210, v. 125.**
**20.** "Odlu Yurt", 1930, № **17 (5).**
**21.** Yenə orada. 1930, № **18 (6), s.244.**
**22.** Yenə orada... **s.229.**
**23.** Yenə orada... **s.230.**
**24.** Yenə orada... **s.231.**
**25.** Yenə orada
**26.** "Kutlu od", 1936, № **I, s.2.9.**

### *V Fəsil*

**1.** "Советский Карабах" qəzeti, 21 fevral 1988-ci il.
**2.** Vaqif Arzumanlı. Tarix siyasətin - siyasət tarixin dili ilə. Bakı, "Qartal", 1999, **s.91.**
**3.** Cavid Turan. Qarabağ müharibəsi. 1988-1993-cü illər. Gəncə, 1994, **s.64.**
**4.** Həbib Quliyev. Xocalı soyqırımı. - "Ulu Zəngəzur", 26 fevral 2007-ci il.
**5.** Джафар Садиг. Ходжалинская трагедия. Сроку давности не подлежит. Tula. 2067; "Ulu Zəngəzur", 26 fevral 2007-ci il.
**6.** Yenə orada...
**7.** "Azərbaycan", 24 fevral 2007-ci il.
**8.** "Ədəbiyyat qəzeti", 23 noyabr 2007-ci il.
**9.** "Azərbaycan", 10 mart 2007-ci il.
**10.** Türk dünyasının birliyinin və qarşılıqlı əlaqələrinin möhkəmlənməsi üçün böyük imkanlar var. - "Ədəbiyyat qəzeti", 23 noyabr 2007-ci il.
**11.** "Türküstan", 9-15 sentyabr 2007-ci il.
**12.** "24 saat", 29 avqust 2007-ci il.
**13.** "Azadlıq", 31 may 2007-ci il.
**14.** "Gündəlik Azərbaycan", 11 may 2007-ci il.
**15.** "Azadlıq", 24-25 iyun 2007-ci il.





# KİTABIN İÇİNDƏKİLƏR

Ön söz: Hikmət Çətin ........ 3
Müəlliflərdən ........ 5

I Fəsil.
Türkiyə və ermənilər ........ 7

§1. XIX əsrdə Türkiyədə erməni məsələsi ........ 7
§2. XIX əsrin axırlarında yaradılmış erməni təşkilatları və onların Türkiyə və Azərbaycanla bağlı təcavüzkar planları ........ 13
§3. Ermənilərin İrandan Azərbaycana köçürülməsi ........ 20
§4. Ermənilərin Türkiyədən Azərbaycana köçürülməsi ........ 26

II Fəsil.
XX əsrin əvvəllərində Azərbaycanda ermənilərin törətdikləri vəhşiliklər ........ 36

§1. Azərbaycanlılara qarşı aparılan soyqırım tarixindən ........ 36
§2. Azərbaycanlılara qarşı 1905-ci il soyqırımı ........ 42

III Fəsil.
1914-1920-ci illərdə ermənilərin Türkiyədə və Azərbaycanda Ermənistan dövləti yaratmaq cəhdləri və onların həmin dövrdə törətdikləri qırğınlar ........ 55

§1. 1917-1920-ci illərdə ermənilərin Türkiyədə törətdikləri qırğınlar (Qars, Van, Bitlis, İğdır) ........ 55
§2. 1918-ci ildə Azərbaycanda törədilmiş qırğınlar (Bakı, Şamaxı, Quba, Gəncə) ........ 75

Azərbaycan Milli Kitabxanası

§3. Qafqaz İslam ordusunun Azərbaycana gəlişi ....................88

IV Fəsil.
Azərbaycanlıların öz tarixi-etnik torpaqlarından deportasiyası ....................99

§1. Azərbaycan türklərinin Qərbi Azərbaycandan deportasiyasının ilk mərhələsi ....................99
§2. XX əsrin otuzuncu illərində Ermənistanda azərbaycanlıların repressiyası ....................106
§3. 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistandan köçürülməsi ....................111
§4. Azərbaycanlıların Qərbi Azərbaycandan - indiki Ermənistandan son deportasiyası ....................122

V Fəsil.
Ermənistan-Azərbaycan münaqişəsi yeni mərhələdə ....................135

§1. Dağlıq Qarabağda erməni separatizminin güclənməsi ....................135
§2. Dağlıq Qarabağ münaqişəsi Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının tərkib hissəsidir ....................139
§3. Xocalı soyqırımı ....................150
§4. Erməni xisləti və riyakarlığı bu gün də davam edir ....................158

Əlavələr ....................163
Xoşqədəm Baxşəliyeva. Bu kitab necə ərsəyə gəldi ....................211
İstifadə olunmuş ədəbiyyat ....................215





# "BÖYÜK ERMƏNİSTAN" İDEYASININ AYAQ İZLƏRİ...

## *26 fevral 1992 Xocalı soyqırımından fraqmentlər*





Azərbaycan Milli Kitabxanası























Azərbaycan Milli Kitabxanası













Azərbaycan Milli Kitabxanası

























Azərbaycan Kitabxanası



















*Arzumanlı Vaqif Minad oğlu,*
*Baxşəliyeva Xoşqədəm Hidayət qızı*

# Türk dünyası və "Böyük Ermənistan" xülyası

**Məsul redaktor:** Şahin Əliyev
**Şəkillər:** Məzahir Süleymanov, Şamil Sabiroğlu
**Korrektor:** Yasəmən Abbasova
**Operator:** Kəmalə Allahverdiyeva
**Dizayn:** Namiq Musayev

Azərbaycan Milli Kitabxanası

Azərbaycan Milli Kitabxanası

Yığılmağa verilmişdir: 03.03.2008
Çapa İmzalanmışdır: 24.04.2008
Ofset çap üsulu. Kağız formatı: 60x90 $^{1}/_{16}$
Tiraj: 3000
Sifariş: 51

CBS POLYGRAPHIC PRODUCTION
Tel/Fax: 447 78 04, Tel.: 447 78 08

mətbəəsində çap olunmuşdur

Т3(5)
А 92





Filologiya elmləri doktoru, professor Vaqif Minad oğlu Arzumanlı Qubada anadan olub. Bakı Dövlət Universitetinin filologiya fakültəsini, EA Nizami adına Ədəbiyyat İnstitutunu, daha sonra M.Qorki adına Dünya Ədəbiyyatı İnstitutu və Litva EA Litva dili və Ədəbiyyatı İnstitutunun aspiranturasını bitirib. Müxtəlif vəzifələrdə çalışıb. 2002-ci ildən isə Azərbaycan MEA Nizami adına Ədəbiyyat İnstitutu «Xarici ölkələr ədəbiyyatı və ədəbi əlaqələr» şöbəsinin müdiri vəzifəsində çalışır. Azərbaycan Yazıçılar Birliyinin və Jurnalistlər Birliyinin üzvüdür.

Vaqif Arzumanlı bir çox kitabların və monoqrafiyaların müəllifidir.

O, Litva Belorus Respublikaları Ali Sovetlərinin Fəxri fərmanlarına, «Qızıl Qələm» mükafatına və s. layiq görülüb.

**Xoşqədəm Hidayət qızı Baxşəliyeva** Ağdərə rayonunda anadan olub. Ali təhsilini əvvəlcə Naxçıvan Dövlət Universiteti və Azərbaycan Dövlət Pedaqoji Unversitetində (tarix fakültəsi), sonra isə Bakı Dövlət Universitetində (hüquq fakültəsi) alıb.

Xoşqədəm Baxşəliyeva 1996-cı illərdən mətbuatda çalışır. Müxtəlif qəzetlərdə işləyib. 1998-ci ildən isə **«Üç nöqtə»** qəzetinin təsisçisi və baş redaktoru kimi fəaliyyət göstərir. O, mətbuat sahəsindəki xidmətlərinə görə müxtəlif mükafatlara layiq görülüb.

2005-ci il də isə mətbuatın inkişafındakı xidmətlərinə görə Azərbaycan **Prezidenti İlham Əliyev** tərəfindən **«Tərəqqi»** medalı ilə təltif edilib.

Azərbaycan Milli Kitabxanası